AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## IX KİTAB

BAKI – 2020

**Layihə rəhbəri:** akademik **Muxtar KAZIMOĞLU-İMANOV**

**Tərtib edən:** f.ü.f.d., dosent **Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**

**Mətnləri transliterasiya edənlər:** fil.ü.f.d., dos. **Mətanət MAŞALLAHQIZI (ABBASOVA),**
fil.ü.f.d. **Qiymət MƏHƏRRƏMLİ,**
**Səbuhi BƏDƏLOV**

**Redaktoru:** **Ramiz KƏRƏM (ƏLƏKBƏROV)**

**Güney Azərbaycan folkloru, IX kitab,** Bakı, Elm və təhsil, 2020, -352 səh.

Kitaba Güney Azərbaycanın müxtəlif bölgələrindən toplanmış folklor örnəkləri daxil edilmişdir.

folklor.az

G 4603000000 Qrifli nəşr
N-098-2020

© Folklor İnstitutu, 2020

# TƏRTİBÇİDƏN

Güney folkloru ədəbiyyatımızın ayrılmaz tərkib hissəsi olmaqla bütöv Azərbaycan mədəniyyətinin zənginliyini ifadə etməkdədir. Sadəcə, bu folklor nümunələri müxtəlif sosial-siyasi, kulturoloji, mənəvi-ideoloji şəraitdə fərqli ideya-estetik xüsusiyyətləri ilə formalaşmış və təbliğ olunmuşdur. Güney folkloru araşdırmaları eyni bir xalqın folklor irsinin müxtəlif məkanlarda yaranması, yayılması, öyrənilməsi baxımından tədqiqatçı-alimlər, ayrıca toplama işi təşəbbüskarları qarşısında xüsusi bir məsuliyyət qoymaqdadır. Bu məsuliyyət tələb edir ki, mürəkkəb ideoloji problemlər şəraitində folklor materiallarının toplanılmasına diqqətlə yanaşılsın, onların ədəbi-ictimai təmayüllərlə "zənginləşdirilməsi"nə yol verilməsin, doğru-düzgün şəkildə yazıya alınıb mühafizə edilsin. Güney folkloru ilə bağlı toplama materiallarının araşdırılmasında daha çox təsadüf etdiyimiz problemlərdən biri məhz bu mətnlərin toplayıcılar tərəfindən müəyyən sosial-siyasi tendensiyalarla bağlı olaraq süni şəkildə yüklənilməsi və xalq yaradıcılığı obrazları, motivlərinin kanonlaşmış vahid sistemdən uzaqlaşdırılmasıdır. "Güney Azərbaycan folkloru" seriyasından təqdim etdiyimiz növbəti – IX cildimizi hazırlayarkən, təəssüf ki, əldə olunan toplama materiallarında toplayıcılar tərəfindən "yenidən baxılan" folklor mətnlərinə rast gəldik və imkan daxilində öz təbiiliyi ilə seçilən mətnlərə üstünlük verməyə çalışdıq.

Kitaba ilk olaraq çoxsaylı uşaq folkloru nümunələri daxil edilmişdir. Qeyd edək ki, Güneydə uşaq folkloruna aid nümunələrdən, xüsusilə nəğmə-düzgü, acıtma, zarafatyana sözlər, sanamalar daha zəngin məzmun motivi və heca şəkilləri ilə seçilməkdədir. Apardığımız müşahidələr göstərir ki, əksər uşaq nəğmələri digər folklor mətnlərinə nisbətən Güney mühitində daha çox mühafizə olunmuş və yayılmışdır. Xalq məişətinin ayrılmaz tərkib hissəsi olan bu mətnlərdən "A teşti",

“Kəsibdi”, “Üşüdüm, ha üşüdüm”, “A həpsənə, həpsənə” və s. adlı düzgülər Təbriz, Urmiya, Zəncan ərazi folklorundan müxtəlif variantlarda toplanılmışdır. Uşaq nəğmələrindən oyun iştirakçılarının adları, ümumiyyətlə, şəxs adları üzərində qurulan “Fatma”, “Həlimə”, “Zübeydə”, “Nərgiz”, Mərziyyə” və s. acıtmalar bölgə materiallarında daha çox müşahidə olunur. Quruluşca dörd və yeddi hecadan ibarət olan bu mətnlər 3, 4 misralıq ölçüdə xüsusilə geniş yayılmışdır. Uşaq mətnlərinin zəngin çeşidi Güneydə Məhəmməd İşraqinin hazırladığı “Azərbaycan ağız ədəbiyyatı” (Təbriz, 1968) kitabında təqdim olunmuşdur.

Əvvəlki cildlərimizdə olduğu kimi atalar sözlərinə IX cilddə də ayrıca yer vermişik. Məlumdur ki, atalar sözləri və məsəllər xalq məişətinə, həyatına bağlı olaraq el dilinin əsasında formalaşıb qəlibləşmiş, konkret məna və məzmun xüsusiyyətində sabitləşmişdir. “El sözü”, “qanadlı söz”, “sav”, “məsəl”, “zərbül-məsəl” və s. adlandırılan bu qapalı modellər ümumiləşdirilmiş fikir, hadisə və xarakterlərin tipikliyi əsasında yaranmışdır. Qeyd edək ki, güneyli qardaşlarımız öz ata-baba adət-ənənələri, düşüncə və fikirlərinin qorunub saxlanılmasında atalar sözlərinə önəm vermiş, bu ifadələrin toplanılıb təbliğ olunması işinə xüsusi diqqət ayırmışdılar. Görkəmli folklorşünas-alim, xalq ədəbiyyatının yorulmaz toplayıcısı və tədqiqatçısı Məmmədəli Fərzanə vaxtilə yazırdı: “Deyimlər, ümumiyyətlə, bir ifadə aydınlığı və sözün məna çalarlığını artırası söz biçimi olduğu halda, atalar sözü bir hökmü və bir təcrübədən yaranan inancı bildirən söz birliyidir. Atalar sözü uzun-uzadı sınaqlardan və idrakla hamar olan baxışın və düşüncənin hasili olan, bir hökm, ya bir baxışı və sınağı aydınlaşdırıb, ümumiləşdirən bir çox olaylardan ibrət almağı, bir sıra əxlaqi-məişət öyrətməgi, bir çox rəsm – rüsum və inanışları ölçüb biçər, halbuki, deyim dildə olmayan kəlmələrin yerini qapsayır və dilə çanlılıq verir”.

Təsadüfi deyildir ki, atalar sözlərinin ümumtürk mədəni dəyərləri kontekstində öyrənilməsi işi bütün dövrlərdə aktuallıq kəsb etməklə toplanılmış, müxtəlif cüng və təzkirələr də daxil olmaqla qorunub saxlanılmışdır. "Kitabi-DədəQorqud" ("Əski pambıq bez olmaz, qarı düşmən dost olmaz", "Çıxan can geri dönməz", "Ana haqqı – Tanrı haqqı", "Əzəldən yazılmasa, qul başına qəza gəlməz", "Aydan arı, gündən görklü", "Könlün yuca tutan ərdə dövlət olmaz" və s.) dastanlarında yer alan atalar sözləri oğuz türklərinin bütövlükdə məişətini əhatə etməklə, onların ilkin inam və düşüncələrinin, qohumluq, düşmənçilik münasibətlərinin motivində yaranmışdır. İlk türk ensiklopediyası sayılan Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərində ("Kuş kanatın, er atın" – "Quş qanadı, ər atıyla"; "Aç nə yeməs, tok nə teməs" – "Ac nə yeməz, tox nə deməz"; "Uma kelsə kut kəlir" – "Qonaq uğur gətirir"; "Oğlak yiliksiz, oğlan biligsiz" – "Oğlaqda ilik, uşaqda bilik olmaz"; "Beş ernğek tüz erməs"– "Beş barmağın beşi də bir olmaz"; "Etli tırnağaklə edhirməs"– "Ət dırnaqdan ayrılmaz"), eləcə də Yusif Xas Hacibin 1069-cu ildə qələmə aldığı türk şeir gələnəyi üzərində didaktik məzmunda yazılmış "Qutadğu bilig"də də ("Xoşbəxtlik haqqında elm") atalar sözlərinə geniş yer verilmişdir. ("Negü tir eşitgil közü tok kişi" – "Gözü tox adam nə deyər, eşit"; "Bu göz toklukı ol bu baylık başı" – "Göz toxluğu zənginliyin başıdır" və s.).

Azərbaycanda hələ XIX əsrdən başlayaraq rus mətbuatında, xüsusilə SMOMPK məcmuəsində müxtəlif folklor janrları ilə yanaşı, atalar sözləri və məsəllər haqqında məlumatlara geniş yer verilmişdir. SMOMPK-da sözü gedən nümunələrin çap olunmasında "Mühəmməd ibn Əli Qulinin 1333 hicri tarixində Cənubi Azərbaycanda topladığı və hərəsinin altında farsca şərhi yazılmış türk atalar sözlərindən ibarət "Vətən dili türki məsəllər" və yaxud"Əmsalüləcəm" adlı kitabında, Axundzadə Mirzə Əli ibn Hacı Molla Mustafa Əlbadkubey-

nin "Kitabi təcridüllüğat"ının (farsca-türkcə lüğət) yuxarı haşiyəsində türkcə198 atalar sözü qeydə alınmış lüğətdən bəhs olunur[1]. Professor Zinyət Əlizadə Azərbaycan atalar sözlərinin toplanılması və nəşri məsələlərindən danışarkən Cənubda bu nümunələrin öyrənilməsi məsələsinə də aydınlıq gətirmişdir. Doktor Səlamullah Cavidin "Numinahayi folkloru Azərbaycan" kitabına istinad edərək müəllifin bir çox araşdırmaçıların adlarını çəkdiyini qeyd edir: "Əlnəqi Vaiz (1954), Dexnar Qani (1954-cü) illərdə və Hacı Məhəmməd Rəhim Nüsrətül-mülk Makui kiçik cüzvələr çapına müvəffəq olmuşlar. Bunlardan əlavə, Molla Əli Molla Mustafa oğlu Badukubeyn 120 il bundan əvvəl öz yazdığı farsi-türki nisabında 400 atalar sözü gətirmişdir. Məhəmməd Bağır Xalxali 75 il bundan əvvəl dediyi "Sələbiyyə" kitabında müxtəlif atalar sözünü şeirlə demişdir. 1954-cü ildə isə Ağayi Əli Əsgər Müctəhidi 2500-ə qədər atalar sözünü toplayıb "Emsal və həkm dər zəbani Azərbaycani" adı ilə müntəşir etmişdir. Son zamanlarda ağayi-Fərzanə böyük bir zəhmət ilə 8 minə yaxın atalar sözünü toplamışdır"[2].

Qeyd edək ki, Güneydə atalar sözlərinin toplanıb çap etdirilməsi ilə bağlı görülən işlər, nəşr olunan kitablar və müəlliflər haqqında "Güney Azərbaycan folkloru" seriyasına aid kitablarımızın V cildində məlumat verdiyimizdən bu haqda geniş məlumat vermirik. Təqdim edilən cilddə isə atalar sözləri Vəhid Gərüslinin toplaması əsasında hazırlanmışdır. Bu toplamaya az sayda başqa mənbələrdən götürülən atalar sözləri də daxil edilsə də, mətnlərin əksəriyyəti Vəhid Gərüsliyə aiddir. Vəhid Gərüsli 1978-ci ildə Güneyin Miyana şəhərində anadan olmuş, ilk təhsilini Miyana və Təbrizdə almış, daha sonra Tehranın Şərif universitetini bitirərək təhsilini Kana-

---

[1]Zinyət Əlizadə. Azərbaycan atalar sözlərinin həyatı (Atalar sözlərinin yaranması, təkamülü və dil xüsusiyyətləri). Bakı, Yazıçı, 1985, səh.12.
[2] Yenə orada, səh.27.

dada davam etdirmişdir. Uzun müddət xaricdə yaşayıb təhsil alan Vəhid Gərüslinin təqdim etdiyi atalar sözləri ata və anasına ithaf edilməklə çap olunmuşdur.

Kitabda ayrıca olaraq Güney folklor mühitindən toplanan xalq mahnılarına da yer verilmişdir. "Apardı sellər Saranı!", "Yaralı durna", "Samovara od salmışam", "Evləri var...", "Ulduz, aman!" və s. xalq mahnıları bu silsilədə seçilməkdədir. Qeydə alınan mahnıların bir çoxu yaranması tarixiliyi və çoxvariantlılığı ilə Güney folklorunda geniş yayılmaqdadır. Əli Rza Sərrafi tərəfindən ilk dəfə öyrənilən "Mindim atın ağına" adlı xalq mahnısı Qacarlar dövründə yaranmışdır. Əli Rza Sərrafinin verdiyi məlumata görə, mahnının mətni qardaşı Məhmud Sərrafi tərəfindən atasının bibisi Lətifə xanımın dilindən qeydə alınmış və musiqi ritmi də daxil olmaqla qorunub saxlanılmışdır. Məlumatlara əsasən, Lətifə xanım 1854-cü ildə Təbrizdə anadan olmuş, sonralar Urmiyaya köçərək ömrünün sonuna qədər orada yaşamışdır. Mahnının yaranması tarixinə də aydınlıq gətirən Əli Rza Sərrafi yazır: "Tehran şəhəri Qacarlar tərəfindən paytaxt olduqdan etibarən bir çox azərbaycanlı ailələri Tehrana köçürmüşdülər. Bu mahnı isə o zamanlarda sevgilisini Tehranda itirən, yar üzünə həsrət qalan bir aşiqin dilindən söylənilmiş və vaxtilə Azərbaycanda dillər əzbəri olmuşdur". Bundan başqa kitabda xüsusi olaraq Təbriz mühacirlərinin dilində zaman-zaman "nisgilə çevrilən" məşhur "Qaragilə" mahnısı bir çox variantlarda təqdim olunmuşdur. Bu mahnı Təbrizdə yaranmış, xalq tərəfindən sevilə-sevilə oxunmuş və bayağı formaları da daxil olmaqla çoxsaylı variantlarda yayılmışdır. "Qaragilə" mahnısının musiqi və sözlərinin yaranması haqqında araşdırma aparan Məhəmməd Əlipur M. həm yazılı, həm də sözlü qaynaqlara istinadən qeyd edir ki, 1908-ci ildə Həsən Əzarinin topladığı "Türki təsniflər" kitabında verilən "Uca dağlar başında narış qaşlaram, Qərəgilə" başlıqlı mətn daha əski mətnlər sı-

rasındadır ki, bu gün mahnının bu söz-tərkibdə oxunmasına təsadüf olunmur. Daha sonra Pərviz Pərvizinin 1911-ci ildə Təbrizlə Tehran radiosunda oxunan mahnılardan topladığı kitabında “Qaragilə”nin mətninin M.Natiqi adlı şairə məxsus olduğu qeyd edilir.[3] Variantların yayılması çoxluğu belə bir fikiri söyləməyə əsas verir ki, “Təbrizin küçələri dolanbadolan, Qaragilə” başlıqlı mətn orijinal, daha çox ilkin yaranma versiyasına uyğundur. Maraqlıdır ki, “Qaragilə” xalq mahnısının bayağılaşmış variantları arasında aşağıdakı mətnə bu gün toplama mətnlərində daha çox rast rast gəlirik:

Əksivi ver mənə midal eyləyim, Qaragilə,
midal eyləyim,
Əvvəlki sevgimə cəvab eyləyim, Qaragilə,
cəvab eyləyim.
Məni atıb getsən, bəs mən neyləyim, Qaragilə,
bəs mən neyləyim?
Əlin ver mənə,
Çəm-xəm eləmə.
Namərdin qızı,
Rəhm elə mənə.

Xalq mahnısının dillər əzbəri olmasını, eləcə də folklor araşdırmalarında maraqla qarşılanmasını nəzərə alaraq “Qaragilə” mahnı mətninin fərqli variantlarını kitabda təqdim etmişik.

Kitaba daxil edilən geniş həcmli janrlardan biri də nağıllardır ki, bu mətnlər müxtəlif mənbə və bölgələrdən seçilməklə ayrı-ayrı mövzu, motivlər üzərində verilmişdir. Belə ki, buraya heyvanlar haqqında, sehrli və müxtəlif məişət mövzusunda Təbriz, Xoy, Maku, Xorasan, Ərdəbil və s. ərazilərdən toplanılan nağıl mətnləri daxil edilmişdir. Qeyd edək ki, son dövrlərdə Güney ziyalıları, eləcə də həvəskar toplayıcıların bizə təqdim etdikləri xalq nağıllarının içərisində pəri qızları,

---

[3]Məhəmməd Əlipur M. Təbrizin “Qaragilə”si. Azərbaycan El bilimi, 1393, 63-cü sayı, səh.24-40.

üç qardaş, divlə bağlı nağıllara daha çox rast gəlirik. Araşdırmalar əsasında müəyyən olunmuşdur ki, bu mətnlər Xorasan ərazisində yayılan folklor mətnləri ilə mövzu, motiv, süjet müəyyənliyi baxımından yaxınlıq təşkil etməkdədir. Bəzi nağıl mətnlərinin natamamlığı, oxşar süjet xətti, obrazları üzərində müqayisə apararkən bu folklor mətnlərinin vaxtilə Sultan Tulunun təqdimatında hazırladığı "Xorasandan masallar və xalq hekayələri" kitabındakı[4] mətnlərin tam variantlarına uyğun gəldiyini müşahidə etdik. Bu faktı nəzərə alaraq qeyd edilən kitabdan "Quyruqsuz tülkü", "Keçəl Həsən", "Oğlan və div", "Sultanın üç oğlu", "Qoca kişi və üç qızı", "Pəri qız" və s. nağıl mətnlərini yeni cildə daxil etmişik. Eyni zamanda Güney bölgəsi rəvayətləri üzrə 1968-ci ildə çap olunan nağıllar kitabından daha üç mətn "Fatma xanım", "Əli bəyin cevizləri", "Həcərin gəlin getməsi" qeydə alınmışdır.[5] Bu nağıl mətnləri isə Hüseyn Məmmədxani Güneyli tərəfindən toplanılmışdır. Yeri gəlmişkən qeyd edək ki, Hüseyn Məhəmmədxani Güneyli Güney mədəniyyət ocağının üzvlərindən olmaqla bu bölgə ilə bağlı toplama və araşdırmaların fəallarından sayılır. Eyni zamanda təqdim edilən digər nağıl mətnləri "Bir dağarcıq folklor" (Fatme Mustafapur, Təbriz, 1970), "Çap olunmamış nağıllar" (Toplayan: Bəhruz İmani, Əkbər Rəhimzadə, Təbriz, 2013), "Atalar sözünün kökü və mənşəyi" (Azərbaycan folkloru xəzinəsindən, Bəhruz İmani, 1969), "Atalar sözlərinin kökləri" (Behruz Həqqi) və s. folklor müntəxəbatları, eləcə də bölgə dialektləri – dillə bağlı araşdırmalarda aparılan müxtəlif folklor mətnlərindən alınaraq kitaba daxil edilmişdir. Qeyd etdiyimiz son iki mənbə – atalar sözlərinin kökləri, mənşəyi haqqındakı kitablardan əldə olunan

[4]Sultan Tulu. Horasandan masallar ve halk hikayeleri. Ankara, Ürün yayınları, 2005
[5] Folklor toplama qılavuzu. Hüseyn Məhəmmədxani (Güneyli), Əsgər Olyayi Kəlyan (Yaşıl).Tehran, 2006

mətnlər xalq arasında geniş yayılmış motiv və mövzuda nağıllardır ki, onların ideyası ata-babaların hikmətli deyimlərinə bağlıdır. İkinci bir tərəfdən nəzərə almaq lazımdır ki, Güneydə folklor üzrə tərtib edilən kitabların bir çoxunda janrlararası əlaqə və oxşarlığa bir çox hallarda diqqət yetirilməmiş, bəzi mətnlərin janrı düzgün müəyyənləşdirilməmişdir.

Güney folkloru janrları sırasında yer alan lətifə mətnləri də xalq məişəti, həyatında geniş yayılmış duzlu-məzəli hadisələrdən qaynaqlanaraq yaranmış, zaman-zaman el-obanın dilində dolaşaraq sabitləşmiş mətnlərə çevrilmişdir. Güney ərazisi lətifələrinin toplanılması və nəşrində daha çox Molla Nəsrəddinlə bağlı lətifələrə rast gəlirik ki, bu lətifələrin də əksəriyyəti konkret motivləri ilə ümumiyyətlə, Yaxın Şərqdə geniş işləklik qazanmışdır. İkinci qrup lətifə mətnləri lokal yönlü, məhdud bölgə daxilində yayılan mətnlərdir ki, bu lətifələr də ayrıca məntəqə və bölgə folklorunun öyrənilməsi əsasında toplanılmışdır. Yeri gəlmişkən qeyd edək ki, Güneydə bir çox siyasi xarakterli lətifələr, gülməcələr əsasən ümumi ortamda – qəhvəxana, çayxanalarda yaranmış, bu mətnlərin əksəriyyəti toplanılaraq yazıya alınmamışdır. Kitabda verilən lətifələr əsasən Bəy Hadinin toplaması, Kazim Abbasinin "Gülüş qaynaqları", eləcə də ayrı-ayrı folklor müntəxbatlarından seçilmişdir.

Məlumdur ki, bu gün Güneydə müstəqil toplama işlərinin təşkili, tədqiqatların yerindəcə aparılması geniş imkanlar baxımından bir sıra çətinliklərlə müşayiət olunur. Əldə edilən folklor müntəxabatları, çox az sayda ayrı-ayrı güneyli soydaşlarımızdan alınan məlumatlar, eləcə də folklor yönlü dərnəklərin toplama işləri, dərgilərdən əldə etdiyimiz məlumatlar ümmansız okeanı xatırladan zəngin bir irsdən sadəcə ovuc-ovuc aldığımız suya bənzəyir. Digər tərəfdən, bir çox folklor nümunələri toplanılarkən söyləyicilər haqqında məlumatlar verilməmiş və ən əsası mətnlərin söylənildiyi dialekt və şivə xüsusiyyətləri nəzərə alınmamışdır. Belə bir şəraitdə folklor

mətnlərinin yerində toplanılması və yerli şivədə qeydə alınmasında Türkiyədə aparılan dil üzrə tədqiqatlar mühüm rol oynamaqdadır. Bu baxımdan kitabda ayrıca olaraq Güney Azərbaycanla bağlı aparılan dil üzrə tədqiqatlarda yer verilən folklor mətnlərindən də istifadə olunmuşdur.

İlk olaraq əldə edilən materiallar tədqiqatçı-alim Talib Doğanın doktorluq işi üzərində apardığı araşdırmasından (Kırıkkale Üniversitesi, Sosyal Bilimlər Enstitüsü, Türk dili ve Edebiyyat Anabilim Dalı. Urmiya ağızları, 2010) alimin şəxsi razılığı əsasında götürülmüşdür. Azərbaycanın ən qədim ərazisi, eyni zamanda hal-hazırda İranın Qərbi Azərbaycan ostanına aid edilən Urmiya tarixi, mədəniyyət və incəsənəti daxil olmaqla qədim adət-ənənə, xüsusilə folklor irsinin zənginliyi baxımından bölgədə seçilməkdədir. Ümumilikdə, dok.Talib Doğanın araşdırmasında 76 mətn söyləyicilər haqqında məlumatlarla birgə yazıya alınmışdır. Ayrıca olaraq mətnlər Urmiyanın Balov, İmamzadə, Göytəpə, Baranduz, Əlibəyli, Mərəngəli, Balanuş, Kəhriz, Quşçu, Qarabağ və s. kəndlərindən toplanılmışdır. Hazırladığımız kitaba da bu mənbədən daha çox Urmiya kəndlərindən toplanan, xalq mərasimləri haqqında söyləyicilərin öz dilindən yazıya alınan materialları daxil etmişik. Bundan başqa "Keçinin nağılı", "Tülkü və Hacınənə", "Hacı Səyyad qızı" nağıl mətnləri də toplanılan materiallardan əldə edilmişdir.

Toplama materiallarında müraciət etdiyimiz növbəti zəngin mənbə hörmətli Gülcan Gülmezin (Karini) Güney folklor mühiti ilə bağlı iki araşdırmasıdır. Burada alimin 2008-ci ildə apardığı "Güney Azərbaycan Ərdəbil bölgəsindəki türk xalq məsəlləri" (Ege Üniverstesi, Sosiyal Bilmlər Enstitüsü, Türk Dünyası Araşdırmaları Anabilim Dalı. Ankara, 2008) və "İran – Xalxal yörəsi türklərinin əfsanələri üzərinə bir araşdırma" (Ege Üniverstesi, Sosial Bilmlər Enstitüsü, Türk Halk Bilimi Anabilim Dalı, İzmir, 2012) adlı tədqiqatları nəzərdə tutulur.

İlk araşdırmada alim nağıl, məsəllərin nəzəri baxımdan xüsusiyyətləri, mətnlərin əfsanə və dastanlarla oxşarlıqları, janr müəyyənliklərinə aydınlıq gətirmiş, ayrıca olaraq Güneyin coğrafiyası, tarixi haqqında geniş məlumat vermiş, bölgə materiallarının araşdırılması istiqamətində aparılan tədqiqatların nəticələrinə toxunmuş, xüsusi olaraq Ərdəbilin Xalxal ərazisindən böyük zəhmət hesabına topladığı məsəllərin məzmun və motivini araşdırmışdır. Yeri gəlmişkən qeyd edək ki, Ərdəbil nağıllarının bir çoxu ("Mərdlə namərdin nağılı", "İki qardaşın nağılı", "Səlim Cəfayxuruş", "Mirvarid təsbeh", "Dərzi qızı" və s.) əvvəlki cildlərimizdə verilmişdir.

Ümumiyyətlə, Güney folkloru ilə bağlı apardığımız araşdırmalar göstərir ki, Güneydə əfsanə və rəvayətlərin xüsusi olaraq toplanılması və öyrənilməsinə maraq göstərilməmişdir. Ayrıca, bəzi nağıl mətnləri, aşıq rəvayətləri əfsanələr kimi təqdim edilmişdir. (Nasir Əhmədi. "Deyir.... nağıllar... əfsanələr"; Həmid Sahir. "Aşiq dev. Azərbaycan əfsanələri". 1957; Mir Hidayət Hesari. "Seyr dər folklor Azərbaycan bər əsas munuqrafi-e məntəq-e Yekanat". Tehran, Taban, 1969 və s.).

Xalxal bölgə mateiallarından əfsanə mətnlərini toplayıb araşdıran tədqiqatçı ikinci araşdırmasında da bölgənin tarixi, coğrafiyası, Türkiyə və İranda bu istiqamətdə aparılan elmi təhlillərin nəticələrini bir arada götürərək toplanan əfsanə mətnlərinin mövzu baxımından qruplaşdırılmasını aparmışdır. Araşdırmada xüsusi olaraq yaradılış, qiyamət, müxtəlif mifoloji obrazlar, tarixi-dini şəxsiyyətlər, quş, heyvan, ölüm, yuxu və s. ilə bağlı ayrı-ayrı əfsanə mətnləri haqqında geniş məlumat verilmişdir. Tədqiqatçı Gülcan Gülməzin (Karini) bu araşdırması ilk dəfə olaraq konkret bölgə üzrə əfsanə mətnlərinin bir arada toplanılıb sistemləşdirilməsi və tədqiqi, folklor nümunələrinin yerində – söyləyicilər haqqında məlumatlar, eləcə də mətnlərin dil və şivə xüsusiyyətləri əsasında qeydə alınması baxımından bizim üçün qiymətli mənbədir. "Allah

dünyanı nə vaxt yaradıb?”, “Seyid Əhməd”, “Tısbağa necə yarandı?”, “Qatır niyə doğmur?”, “Cinlər haqqında” və s. əfsanələr orijinal mətn olaraq bu mənbədən alınmışdır.

Xalxal bölgə materiallarını öyrənən digər bir zəngin mənbə öz orijinal folklor mətnləri ilə seçilən Cihangir Karininin “Ərdəbil eli ağızları” (Qazi Üniverstesi, Sosiyal Bilmlər Enstitüsü, Türk Dünyası Araşdırmaları Anabilim Dalı. Ankara, 2009) tədqiqatıdır. Bu araşdırma bölgənin dil-dialekt, şivə xüsusiyyətlərinin tədqiqi istiqamətində aparılmış, dil faktları toplanılan mətn və söyləyicilərlə canlı şəkildə aparılan reportajlarla zənginləşdirilmişdir. Qeyd olunan mətnlərin əksəriyyəti xalq arasında geniş yayılan “İbrahim”, “Qoca kişi”, “Çobanın qızı”, “Padşahnan vəzirinin nağılı”, “İki qardaş”, “Şah Abbas” və s. nağılları əhatə etməkdədir. Hörmətli Cihangir bəylə söhbətlərimizdə tədqiqatçı bu mətnlərin bölgədən hansı çətinliklərlə əldə olunduğunu, eləcə də dil xüsusiyyətlərindəki orijinallığa toxunmadan yazıya alındığını bildirmişdir. Mətn orijinallığını nəzərə alaraq hazırladığımız kitabda Cihangir Karininin adı çəkilən tədqiqatından da “Çırtdan”, “Padşahın oğluyla arvadı” və s. mətnləri qeydə almışıq.

Təqdim etdiyimiz cilddə ilk dəfə olaraq Həmədan bölgəsi mətnlərinə də yer verilmişdir. Bu mətnlərin bir qismi orijinal formada Gülcehan Pehlivan tərəfindən Həmədan bölgəsi Bahar ağızlarından toplanılmışdır (Ege Universitesi, Sosyal Bilimlər Enstitüsü, Türk Dili ve Edebiyyatı Anabilim Dalı, Türk Dili Bilim dalı. Hemedan bölgesi Bahar ağzı. Yüksək lisans tezi. İzmir, 2011). Araşdırmada Güney Azərbaycanın tarixi torpaqlarından olan Həmədan əyalətinin 8 kilometrliyində yerləşən Bahar ərazisindən toplanan xalq inancları və mifoloji mətnlər geniş şəkildə tədqiqata cəlb edilmişdir. Qeyd edək ki, Həmədan əyalətinin ümumilikdə 2302-yə yaxın yaşayış məntəqəsi qeydə alınıb ki, mövcud kəndlərdən 560-a yaxın kənd

türk kəndləridir, eləcə də ostan əhalisinin 60 faizdən çoxu Azərbaycan türkcəsində danışmaqdadır.

Kitaba müxtəlif folklor janrlarında mətnlərlə yanaşı, aşıq rəvayətlərindən də bir neçə nümunə daxil etmişik. Aşıq Qəşəmlə bağlı rəvayətlər aşığın oğlu Məzahir Cəfəri və Hüseyn Məhəmmədxani Güneyli tərəfindən hazırlanan "Aşıq Qəşəm Cəfərinin yaşayış və yaradıcılığı" kitabından əldə olunmuşdur. Qeyd edək ki, Aşıq Qəşəm Cəfəri 1863-cü ildə Güneyin Kündür kəndində anadan olmuş, uşaq yaşlarından Quzey Azərbaycanda, 32 yaşından sonra isə Kündürdə yaşamışdır. Milli hökümət dağıldıqdan sonra şah rejiminə qarşı çıxıb, uzun müddət təqib olunan aşıq həmişə xalq tərəfindən sevilmişdir. Qeyd olunan kitabda Aşıq Qəşəmin həyatı, yaradıcılığı, dostlarının, onu tanıyan insanların aşıq haqqında xatirələri, aşığa həsr olunan şeirlər, eyni zamanda aşığın müxtəlif yerlərə – Gəncə, Urmu, Məşhədə səfərləri üzərində qurulan dastanlar, çap olunmamış şeirləri və s. haqqında geniş məlumat verilmişdir. Kitabda diqqət çəkən ikinci mühüm məqam aşıq haqqında el arasında dolaşan rəvayətlərdir. Oğlu və yaxın dostlarının dilindən söylənən bu rəvayətlərdən kitaba "Görək mən kim, sən kimsən?!", "Aşıq Qəşəm ilə ərbabın hekayəsi", "Bə mən o çalğıçıyam?" daxil olmaqla üç mətn əlavə edilmişdir.

"Güney Azərbaycan folkloru" seriyasından təqdim etdiyimiz IX cilddə də zəngin irsimizdən müxtəlif folklor janrlarının bir arada verilməsinə çalışdıq və bu mətnlərin toplanılmasında bizə köməklik göstərən dəyərli ziyalılarımız, başda Gülcan Gülmez (Karini) və Cihangir Karini olmaqla hər birinə öz dərin minnətdarlığımızı bildiririk.

***Mətanət* MAŞALLAHQIZI (ABBASOVA)**<br>
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***

# UŞAQ FOLKLORU

## NAZLAMALAR

Əli ağaxandı, xandı,
Bağçada quş qovandı.
Həzrətə yalvarandı,
Həzrətlər yarın olsun,
Beş töylə atın olsun,
Minin gedin qışlağa,
Qışlaqda toyun olsun.
Qızlar gəlsin toyına,
Qurban olım poyına (boyuna).
Səd tümən verək qəndə,
Payliyək Sərbəndə.

* * *

Əmisi,
Saqqalı reyhan zəmisi.
Dayısı,
Dağların ayısı.
Bibisi,
Çölməyin dibisi.
Qardaşı,
Ürəyimin başı.

* * *

Süd dibi, qaymağ dibi,
Qurbanın olsun bibi.

Süd yala, qaymağ yala,
Qurbanın olsun xala.

Bir dənəsən, bir dənə,
Qurbanın olsun nənə.

* * *

Şandılı şaqan,
Arada yatan.
Dədəsi gözəl,
Nənəsi gözəl,
Əmisi xortdan.

* * *

Şanqılı şadaxlarından,
Qərə qabaxlarından.
İndi dayısı gələr,
Öpər dodaqlarından.

## LAYLALAR

Ah çəkərəm ahınca,
Allah yada salınca.
Barsız, bəhrəsiz oldum,
Laylay çaldım dalınca.

Balam uzaqdan gəlib,
Haq verib haqdan gəlib,
Doqquz ayın yorğunu,
Düşüb ayaqdan gəlib.

Balam yatti otaqda,
Gülüşü var dodaqda,
Bir ömür üzün gülsün,
Qal bu dildə, damaqda.

Bir quş dağın başında,
Qonub qaldı daşında.
Sənə can qurban edim,
Pişkeş oldu başım da.

Bizə qara tel gəlsin,
Əllərində gül gəlsin,
Qeyli-qalı aparan
Bircə şirin dil gəlsin.

Can bala, canım bala,
Qadanı alım, bala.
Bir gün səni görməsəm,
Gəlməz qərarım, bala.

Dan ulduzu çıxanda,
Gecə bağrım çıxanda,
Nasaz balam yatmadı,
Göz yaşlarım axanda.

Dağda axan qar olsa,
Ağaclarda bar olsa,
Mən balama var ollam,
Balam mənə var olsa.

Evimizə xala gəlib,
Qızıldan qala gəlib.
Mənim varım, dövlətim,
Bir gözəl bala gəlib.

Günəş dağdan aşanda,
Gecə yaxınlaşanda,
Balama laylay çaldım,
Sular pıçıldaşanda.

Gözümdə dolanandı,
Ürəyimdə qalandı,
Dünyanın səbri dərin,
Sənə laylay çalandı.

Gəl yenə otaqda yat,
Quzu tək yataqda yat.
Ürəyimin sevgisi,
Gəl yenə qucaqda yat.

Gəl qolumun üsdə yat,
Çox olubsan xəstə yat.
Fındıq kimi qırıldın,
Bəsti, boyu bəstə yat.

Qara telli qız gəlib,
Hər əsası düz gəlib.
Gələcəyin qadını,
Ağzında min söz gəlib.

Qoçaq balam bir dənə,
Gəlib girdi meydana,
Balam kimi mərd oğul,
İftixardı İrana.

Quşum gələr dəryada,
Yetişib, çəkər fəryada.
Mənim balam biləndi
Sirrin açmaz həryada.

Laylay göylün quşuna,
Baxaram duruşuna,
Göylüm sazı dilləndi,
Gəldi balam xoşuna.

Laylay qizlar xanına,
Təbrizin heyranına.
Gülüşü canım aldı,
Canım qurban canına.

Laylay uca balama,
Dişi qoca[6] balama.
Düşmənlər qatışammaz,
Mənim şu uca balama.

Laylay gözəl quzuma,
İşıqlı ulduzuma.
Huri-pəri çatammaz,
Mənim gözəl qızıma.

Laylay çaldım doyunca,
Uzun gecə boyunca,
Çəkdim dərin intizar,
Baş yastığa qoyunca.

Laylay çaldım oyana,
Göz önündə dayana.
O yana gedən olsa,
Deyin gəlsin bu yana.

Laylay çaldım min yaşa,
Min yaşa, min-min yaşa,
Ömrüm ola mən görüm,
Adaxlınla qoşa.

Laylay dedim, ağlama,
Ürəyimi dağlama.
Zaman özgə zamandı,
Heç kəsə bel bağlama.

Laylay bağlar bağına,
Laylay Mişov dağına.
Dünyanın gözəlləri
Çatammaz dırnağına.

Laylay beçə balama,
Ağzı qönçə balama.
Quşlar yuxusun versin
Mənim sərçə balama.

[6] Qoca – iri, böyük

Laylay çallam adına,
Şirin ağzın dadına.
Gör nə məni aldadıb,
Sözünə, hər zadına.

Laylay uca boyuna,
Ellər gəlsin toyuna.
Qadan-balan gəleydi,
Quzulara, qoyuna.

Laylay çaldım yatınca,
Baş yastıqa batınca,
Ulduzları sayaram,
Sən yuxunu tapınca.

Laylay gözü yumana,
Məni salıb gümana.
Tərpənirəm diksinir,
Haray salır amana.

Laylay qoçaq balama,
Bir fal açaq balama.
Gələcəyin şənliyi,
Çatar haçan balama.

Laylay çaldım ulduza,
Əlləri mərmər qıza.
Şaxta vurub dondurub,
Bənzəyir bir sal buza.

Laylay aşığın canına,
Dağların heyranına.
Qadan-balan gəleydi,
Yurdumun düşmanına.

Laylay, dağlar qar alıb,
Dağlar qar altda qalıb.
Anan rənginə qurban,
Nədən rəngin saralıb.

Laylay, balam mərd olub,
Ürəgimə dən dolub.
Salıb eşqin oduna,
Bağrıma kəman dolub.

Laylay çaldım, gündə yat,
Ulduzu görüncə yat.
Qolum, qıçım yoruldu,
Ay dodağı incə, yat.

Səhər məndən tez durub,
Yaxasına gül vurub,
Şirin-şirin danışır,
Ürəgimi uydurub.

Sona bülbül uçanda,
Gül üstündən qaçanda.
Ürəyim işıqlanır,
Balam gözün açanda.

# MÜXTƏLİF UŞAQ ŞEİRLƏRİ

## QURBAĞALAR

Qurbağa dedi:
– Qurbağa qardaş, hardan gəlirsən?
– Dəyirmandan.
– Hanı bə unun?
– Aldılar.
– Sən də alaydın da!
– Vurdular.
– Sən də vuraydın da!
– Olar iki idi,
Mən bir idim,
Onlar vurdular,
Mən kiridim.
Getdim doxtura,
Dava qoydu.[7]
Vurdum doxturu,
Qarnı cırıldı.
Getdim evimə,
Evim yıxıldı,
Qaldım altında
Yaxam qutuldu.

* * *

– Qurbağa qardaş,
Hardan gəlirsən?
– Çaydan, çəməndən.
– Hanı zillərin?
– Aldılar.
– Niyə verirdin?

---

[7]Dava qoydu – dərman

– Onlar ikidi,
Mən bir idim.
Onlar vurdular,
Mən kiridim.

## PIS-PIS XALA

– Pıs-pıs xala, haradan?
Geyinmisən xaradan?
– Getmişdim bağ-bağçaya,
Nar gətirim xonçaya.
– Hanı alma, hanı nar?
– Əlimdən tutub aldılar.

## FATMA

Fatma,
Qaşları çatma,
Yol üstə yatma,
Çobana daş atma.
Çoban yazıqdı,
Beyni qazıqdı.

## MƏRZİYYƏ

Mərziyyə,
Donum verim dərziyə.
Cuma axşamı gəl bizə,
Götürüm qaçım Təbrizə.

* * *

– Adın nə qoyub?
– Səlman.

– Nə pişiribdi?
– Qayğanaq.
– Mənə saxlayıb?
– Bəli.
– Hansı tiyanın altında?
– Qara tiyanın altında.
(Bir az yol gedərlər).
Qərə pişik aparıb.
Tutarlar və vurarlar, sonra deyərlər:
– Pişik yeməyib, sən yemisən.
– Oğru pişik özünsən....

* * *

Yağış yağır yağa-yağa,
Oxu deyir bizim bağa.
Gəlin gedək oynamağa.
Oynamağın vaxtı deyil,
Qızılgülün təxti deyil,
Ox, mıx, çıx.

* * *

– Fərş toxuram.
– Fərşi neynirsən?
– Evə salıram.
– Evi neynirsən?
– Arvad alıram.
– Kimin qızın?
– Təbriz qızın.
– Təbriz qızı ölübdü,
Daş kələmə dönübdü.
Gəlin gedək ağlayaq,
Başına qara bağlayaq.

* * *

Haqışda mənim olsun,
İpək tumanım olsun.
Geyim gedim Məkkəyə,
Məkkədə toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

* * *

– Göydə nə var?
– Göy mıncığı.
– Yerdə nə var?
– Yer mıncığı.
– Anan nə doğub?
– Bir oğlan.

* * *

Əlimi pıçaq kəsibdi,
Dəstə pıçaq kəsibdi.
Yağ gətirin, yağlayaq,
Dəsmal gətirin, bağlayaq.
Dəsmal babam cibində,
Babam Məkkə yolunda.
Məkkə yolu sərbəsər,
İçində meymun gəzər.
Meymunun balaları,
Məni gördü ağladı,
Tumanına qığladı.
Qurbağa pölük-pölük,
At məni, tut məni,
Nar kimi oynat məni.

* * *

Danqad dınqılı, dur çay qoy,

Otağı süpür, nahar qoy.
Mənim adım Həlmədi,
Amirkadan gəlmədi.
Yeddi tüfəng atdılar,
Heç biri mənə dəymədi.

* * *

– Davar harda?
– Ala dağda.
– Nə yeyər?
– Xurma yeyər.
– Nə qığlar?
– Düymə qığlar.
– Düyməsi nədən?
– Qızıldan.
– Qızılı nədən?
– Gümüşdən.
– ... nədən?
– Almasdan.
– Hansı qızın toyudu?
(Filan) qızın toyudu.
Hamı:
– Danqa-dınqılı, danqa-dınqılı.

* * *

Həpsənə, ay həpsənə,
Həpsənə bir quş idi,
Bağçaya qonmuş idi.
Bəy oğlu görmüş idi,
Bəy oğlunnan bezaram,
Kətan köynəh yazaram.
Kətan köynəh mil-mili,
Gəl oxu bizim dili,

Bizim dil Urmu dili.
Urmudan gələn atlar,
Ağzında yüyən çatlar.
Qanat verdim uşmağa,
Həqq qapısın aşmağa.
Həqq qapısı kilitdi,
Kilidi sərvan yolunda.
Sərvan yolu mil bəzər,
İçində ahu gəzər.
Ahunun balaları
Məni gördü ağladı,
Ətəyimə qığladı.
Ətəyim bölük-bölük,
Qurbağa dəlik-dəlik.
Həsən bəyin nəyi var?
Göyə çıxan atı var.
Bir batman sirnisi var,
Bir batman alması var.

* * *

Razı ha, balam razı,
Tikib donunu dərzi.
Abbasi verim xərclə,
Toyunu təzədən başla.

* * *

Qarğa gur,
Qarğa istəyirsən, quş?
Əl-əlpənə,
Sən çalginən çəpənə,
Əldən çıxdı kəpənə.
Şah şu şaha bacı,
Başçı dedi çəkənə.

* * *

Nərgizə bax, Nərgizə,
Qurd gəlib boynun üzə,
Götürə qaça Təbrizə.
Təbrizin ağacları,
Bar gətirib ucları.
Ağa dayımın quşları
Tökülüb qabaq dişləri.

* * *

– Əmi oğlu?
– Bəli.
– Bizim toyuq sizdəmi?
– Bəli.
– Kış elə, gəlsin.
– Gəlmir.
– Vur, qıçı sınsın.
– Sınmır.
– Sal təndirə.
– Yanmır.

* * *

Turşulu aş içmərəm,
Darvazadan keçmərəm.
Darvaza mənim olsun,
Qırmızı donum olsun.
Geyinim gedim Təbrizə,
Təbrizdə toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.
Havalan, ha havalan,
Havalandım uçmağa,
Haqq qapısın açmağa.

Qanadım süzüldü,
El yaylağa düzüldü.
El yaylaqdan gəlincə,
Buğdaları dərincə,
Qoca başı əkdilər,
Yandırqadan asdılar.
... ............................[8]
İçində qurd-quş yağı.
Qurd-quş yağı dərmandı,
Canım sənə qurbandı.
Yoldaşlar hamı getdi,
Oyunlar burda bitti.
Bağdan baxdım, işıqdı,
Çəngə dolu qaşıqdı.
Qız süpürər, toz eylər,
Oğlan qıza göz eylər.
Oğlan qızın xətrinə
Boynunda yüz altını.
Yüz altın bir quş imiş,
Dəryaya qonmuş imiş.
Şahın oğlu görmüşdü,
Oxnan onu vurmuşdi.
Ox məndən hezar-bezar,
Kətən köynəklər yazar.
Kətən köynək mil-mili,
Gəl oxu bizim dili,
Bizim dil Urmu dili.
Urmudan gələn atlar,
Arpanı yiyər qatlar.
Şahım Şirvan içində,
Qılıncı qan içində.

[8] Bu cümlə mətndə oxunmadığı üçün nöqtələrlə verməyi məqsədəuyğun saydıq.

Məndən kiçik qardaşlar.
Oynar meydan içində.

* * *

Hadi idi, Hudu idi,
Bir də mən.
Getdik şikarə,
Bir dənə şikar vurdux,
Dedim:
– Hadı, bıçağın var?
Dedi:
– Yox.
Dedim:
– Böyrüvə vurdum ox.
Dedim:
– Hudu, bıçağın var?
Dedi:
– Yox.
Dedim:
– Böyrüvə vurdum ox.
Əlimi saldım cibimə,
Gördüm bir bıçaq var.
Sapı var, tiyəsi yox.
Sap ilə başın kəsdim.
Üç-dörd dalaşandan sonra
Dedim, bunu harda yuyum?
Gördüm üç arx var,
İkisi quru, birinin də suyu yox.
Suyu yoxda.
Şikarın başın yudum.
Dedim, bunu harda bişirək?
Getdim, gördüm üç dənə xaraba var.
İkisi uçuq, birinin də damı yox.

Damı yoxda gördüm üç nəfər adam,
İkisi ölüb, birinin də canı yox.
Dedim:
– Ey canı yox qardaş, bardağın var?
Dedi:
– Üç bardağım var.
İkisi sınığdır, birinin də dibi yox.
Dibi yoxda şikarı bişirdim,
Sümügü bişdi, əti yox.
Şikarı yeyəndən sonra hamımız
Yağlı əlimizi yağlı başmağa,
Yavan əlimizi yavan başmağa çəkdik.
Yağlı başmağlar yavan başmağları
Qabaqlarına qatdı, qovdu.
Savalana çıxdım, görmədim,
Girdağa çıxdım, görmədim,
Yaxında bir dənə iynə vardı,
Sancdım yerə, çıxdım üstünə.
Gördüm ki, cütçünün yanında gediblər.
Dedim:
– Ey cütçü qardaş,
Başmaqların qabağını saxla.
Cütçü qardaş başmaqların qabağını saxladı.
Gördüm cütçü qardaşın gözü
başmaqlarımdadı.
Dedi:
– Başmaqları mənə sat.
Dedim:
– Neçəyə?
Dedi:
– Bir darıya, bir darının yarısına.
Bu darını, darı parasını xarala,
Çuvala atdım, tutmadı.

Yaxamda bir birə tapdım,
Başını üzdüm,
Doldurdum dərisinə.
Uzaqda bir yekə zəmi gördüm,
Biçinçiləri çağırdım,
Getdik biçdik.
Vurduq xirmənə,
Hamısı çatdı mənə.
Göydən üç alma düşdü.
Biri nağıl diyənin, biri də özümün,
Qabığı ilə dənəsi nağılı eşidənin.

* * *

A vəlli, vəlli, vəlli,
Naxır gəlir dörd əlli.
Nənəm sağar, gətirər,
Pişik başın batırar.
Pişik kimin pişiyi?
Xan Əlinin pişiyi.
Xan evinin nəyi var?
Çala-çuxur çayı var.
Dağa çıxan atı var,
Göy mıncıqlı iti var.
Qoyunlarda südü var,
Altı patman[9] əti var.
Xan qızı kilim toxur,
İçində bülbül oxur.
Ondan böyük qardaşı
Allah kəlamın oxur.
Axund məni oxutdu,
Qara saçımı toxutdu.

[9]Patman – batman. Ölçü vahidi.

Qara saçımın şeyvəsi,
Qızıldandır düyməsi.
Qızılları itirdim,
Var-yoxumu bitirdim.

* * *

Bibili qoç hay, bibili qoç,
Birin gətir, bir cüt qoç,
Biri ceyran, biri boz.
Mindim bozun boynuna,
Sürdüm Xalxal yoluna.
Xalxal yolu daşlıdı,
Usta orda qalandı,
Ustam qoca, yaşlıdı.
Usta məni oxutdu,
Tirmə, buta toxutdu.

* * *

– Atım, niyə kişnərsən?
– Arpa üçün kişnərəm.
– Arpanı hardan tapaq?
– Xan qızı xandan tapaq.
– Xan qızın hardan tapaq?
– Uca qayadan tapaq.
Qayada kəhlik oxur,
Xan qızı xalı toxur.
Onun orta gülündə
Bir sarı bülbül toxur.
Mənim bala qardaşım,
Sənin ara qardaşın.
Qoca usta yanında
Qaranın dərsin oxur.

* * *

Kətan köynək geyinər,
Urmu dili deyinər.
Gəlin qaya düzünə,
Kəsək atın uzuna (üstünə).
O kimdi kəsək atan?
Kəsəki atmasınlar,
Qayada yatmasınlar.
Qayada bir quş var,
Boynunda yüz naxış var.
Qayada qonmuş idi,
Şah oğlu görmüş idi,
Ox ilə vurmuş idi.
Ox məndən həzər-bezər,
Kətan köynəklər yazar.
Kətanlar mili-mili,
Gəl oxu bizim dili.
Bizim dil Urmu dili.
Urmudan gələn atlar,
Arpanı yeyər, çatlar.
Arpanın göyün yedim,
Şahıma Şirvan dedim.
Şahım Şirvan içində,
Məndən bala[10] qardaşlar,
Oynur meydan içində.

* * *

Əlimi bıçaq kəsibdi,
Dəstə bıçaq kəsibdi.
Yağ gətirin yağlıyaq,
Dəsmal verin bağlıyaq.

---

[10]Bala – balaca, kiçik

Dəsmal qalıb babamda,
Babam Məkkə yolunda.
Məkkə yolu buzludu,
Dövrəsi yarpuzludu.
O yarpuzdan dərəydim,
Gərdanıma sərəydim.
Ağa dayımın toyunda,
Duraydım, oynuyaydım.
Oynamağın vaxtı deyil,
Qızılgülün taxtı deyil.
Qızılgülü dərələr,
Məxmər üstə sərələr.
Qızlar onu əkərlər,
Misqal[11] ilə çəkərlər.

* * *

Qavalı çala-çala getdim bağa,
Bağdakı qızlarnan
oynamağa.
Əl atdım boyük qızın
məməsinə,
Bala qız getdi, dedi
nənəsinə.
Nənəsi bir daş atdı
qabırğama.
Qabırğamı tuta-tuta
getdim xana.
Xan dedi:
– Ay qaşı qara,
Nə düşmüsən bu çöllərə,
Verəm səni igidlərə,

[11]Misqal – ölçü vahidi

Bağlatdırram söyüdlərə.
Əmr eylədi:
Uzun-uzun uzatdılar.
Hökm gəldi,
Qabırğamı sağaltdılar.
Xan dedi:
– İtimə sümük verin.
da hürməsin.
Atıma arpa verin,
kişnəməsin.
Üstünə çadır salın
gün düşməsin.
Altına həsir salın,
şeh keçməsin.

* * *

Havalandım uçmağa,
Haqq qapısın açmağa.
Qanadlarım üzüldü,
El-obaya düzüldü.
Heyvanın ağacları,
Bar gətirməz başları.
Vurdum başı üzüldü,
El-obaya düzüldü.
El yaylağa gəlincə,
Buğdaları dərincə.
Arazdan yenincə
Qoca başı kəsdilər,
Qındırqadan asdılar.
Qındırqa qılıc yağı,
İçində qurd-quş yağı.
Canım sənə qurbandı,
Can nədi, yoldaş nədi,

Yoldaş candan incədi.
Bacadan baxdım işıq idi,
Çəngəsi dolu aşıq idi.
Bir kişi mənim dostum idi,
Getdi bazara, gəlmədi,
Yaylığımı vermədi.
Yaylığımın ucu qara,
Göndərdim Peyğəmbərə.
Peyğəmbərdən gəlincə
Vurdum, sandıq açıldı.
Ləl-mərcan seçildi.
Mərcanlar mili-mili,
Gəl oxu bizim dili.
Bizim dil Urmu dili,
Urmudan gələn atlar,
Arpa tapmaz, gül otlar.
Atlı gələr, qız istər,
Qız deyər, bağrım çatlar.

* * *

A teşti, teşti, teşti,
Vurdu, Gilanı keçdi.
İki xoruz savaşdı,
Biri qana bulaşdı.
Qan axdı, çaya düşdü,
Çaydan bildirçin uçdu.
Bildirçin bəlli, bəlli,
Gəl oxu bizim dili.
Bizim dil Urmu dili.
Urmu burdan uzaqdı,
Dərya ondan qabaqdı.
Urmudan atlı gələr,
Atlılar çatlı gələr.

Atlar yeyər arpanı,
Yeməsə, çıxar canı.
Can dedi, canan gəldi,
Yadıma şaman gəldi.
Şaman atalar sözü,
Atam atalar sözü.

* * *

Mindim faytona,
Atlar yıxıldı.
Mindim daşqaya,
Təkəri sındı.
Mindim eşşəyə,
Sağ qıçı sındı.
Mindim qatıra,
Sol qıçı sındı.
Mindim maşına,
Benzin qurtuldu.
Getdim nahara,
Yemək qurtuldu.
Getdim evimizə,
Divar yıxıldı,
Qaldım altında.
Yaxam qurtuldu.

* * *

– Qamçını gətir!
– Nə eyləyirsən?
– Fərş kəsirəm!
– Nə eyləyirsən?
– Gəlin gəlir!
– O kimdi?
– Əmim qızı Xədicə!
– Xədicə! Bitli cücə!

* * *

Qacələ!
Çıxdı divarın başına.
Əyildi su içməyə,
Düşdü mirabın başına.
Mirab dedi, vay başım,
Qazanda qaynar aşım.
Aşımı içən olaydı,
Başıma s..... olaydı.

* * *

Zəri, Zubeydə
İkisi bir boyda.
Zəri savaşdı,
Zubeydə qaşdı.
Göyə ip atdı,
Divardan aşdı.
Başmağı düşdü,
Zığa bələşdi.
Bir sillə vurdu,
Gözü bərəşdi.
Ayağı dəydi,
Bardağı aşdı.
Şorba calandı,
Zubeydə yandı.
Eşşək, anqırma,
Zəri oyandı.

* * *

Sınıq qol, ay sınıq qol,
Suya gedər sınıq qol,
Sudan gələr sınıq qol.
Ev işin çox görəndə,

Sallam qalar[12] sınıq qol.
İp atmağa gedəndə,
Ot dərməyə gedəndə,
Su çəkməyə gedəndə,
Sallam, qalar sınıq qol.
İsti çörək görəndə,
Yağlı fətir görəndə,
Üzlü qatıq görəndə,
Dümdüz durar sınıq qol,
Dümdüz durar sınıq qol.

* * *

Bubbi, darağın məndə,
Salmışam qalıb çəməndə.
O gün niyyət axşamı,
Sən göy çayda çiməndə.
Çay başına bir atlı,
Ehmal-ehmal yenəndə.
Bid-bid edib ağladın,
Yapraq başa bağladın.
Şabalud üstə uçdun,
Eldən didərgin düşdün.
Eldən deyil irəli,
Yazda bubi gələrli.
Atlılar, ayaq salın,
Bubbi ağac dələrli.

* * *

Bir, iki, bizimki,
Üç, dört, qapını ört.
Beş, altı, samavar altı.

---

[12]Sallam qalar – sallanıb qalar

Yeddi, səkkiz, firəngiz,
Doqquz, on,
Qırmızı don.
On bir, on iki,
Ərməni börki.

* * *

Baş barmaq,
Başala barmaq.
Uzun Hacı,
Vur turacı.
Xırdaca bacı,
Bu vurdu,
Bu tutdu.
Bu bişirdi,
Bu yedi,
Vay bebeyə qalmadı.

* * *

Lulu, lulu hudadı,
Dört bir yanı səbzədi.
Buraya bir quş qondu,
Bu tutdu, qol bağladı,
Bu kəsdi, bel bağladı.
Bu bişirib yağladı,
Bu yedi dayaqladı.
Bu gəldi gördü, yoxdu,
Dəsmal alıb ağladı.
Dedi, mənimki hanı?
Qapqara pişik apardı,
Tumanı düşük apardı.

* * *

Əl-ələ, düymə dələ,
Gəlin gedək babamgilə.
Babam mənə başmaq ala,
Bir tayı mənə,
Bir tayı sənə.
Hacıya, bacıya çis.
***
Balaca qızım, dur, çay qoy,
Evimizi süpür, nəhar qoy.
Mənim adım Həlmədi,
Marağadan gəlmədi.
Marağa alma bağı,
Marağa heyva bağı,
Marağa alça bağı.
Marağada babam var,
Topsaqqallı ağam var.

* * *

– Neyləyək?
– Saqqız alıb çeynəyək,
Acanlara verməyək.
Acan mənim dayımdı,
Arvadı zəndayımdı.
Oğlu mənim adaxlım,
Qızı mənim tayımdı.

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

**A**

Ac qudurğan olur, lüt oynağan.
Ac əsnər, tox gəyirər.
Acın imanı olmaz, acından köpük qusur.
Adam başına gəldiyini bilməz.
Adam pisə pis deyər, yaxşıya yaxşı.
Adam bir çörəknən acdır, bir çörəknən tox.
Adamı sözündən tanıyarlar, heyvanı buynuzundan.
Adamı qəbirə qoyanda əvvəl qonşusunnan soruşarlar.
Adamın adı pisliyə çıxınca, canı çıxsa, yaxşıdır.
Adamın axır günü xoş olsun.
Adamın başına nə gəlsə, dilindəndir.
Adamın dinməzindən qorx.
Adamın gərək bir şirin dili ola, bir çuval pulu ola.
Adamın eşşəkcə qulağı olsun, mərciməkcə...
Ağ ayran köplər dibində, qara kişmiş ciblər dibində.
Ağ donlu ağ donludur.
Ağa Mövsün qəlyanı olub.
Ağası quldur olanın nökəri qudurğan olur.
Ağıl ağıldan üstündür.
Ağıl bazarda satılmaz.
Ağıl başın böyüklüyündə deyil.
Ağzu aşa çatdı, başu daşa çatdı.
Ağlamaq arvadın yaxasundadir.
Axırda ip gəlir, doxanaqdan keçər.
Allah istiyəni qurd yeməz.
Allah buğdanın arasında xətt qoyub.
Allah təxtəni təxtəyə yamar.
Allah qarğa deyil ki, göz ova.
Allah verəndə deməz kimin oğluyam.
Allah verib eynəyə, dişi yoxdu çeynəyə.

Allah dərdi çəkənə verər.
Allaha da özünü plov yeyən tanıdır.
Allahın az səbri yüz ildir.
Arvad malı baş qaxıncıdır.
Arvad üzlü kişidən, kişi üzlü arvaddan əlhəzər.
Arvadı əri saxlar, pendiri dəri.
Arvadı bəd olanın saqqalı tez ağarar.
Arvadın axır hiyləsi ağlamaqdır.
Arvadın biri əla, ikisi bəla.
Arvadın isməti – ərin izzəti.
Arvadın axrın hərbəsi ağlamaqdır.
Arvadsız ev – susuz dəyirman.
Arux axsax gətirir, çubuq dava.
Aş daşanda çömçənin biri yüz tümən olar.
Aşın duruluğu dəmin yoxluğundandı.
Ata olmaq asandır, atalıq öyrənmək çətin.
Atalar nə əkiblər, oğullar onu biçiblər.
Atası ölən yetim qalmaz, anası ölən yetim olar.
Atnan qatur əlləşir, arada eşşəy ölür.
Atı atın yanına bağlasan, ya huyun götürər, ya xasiyyətin.
Atun almamış axurun bağlır.
Atını satan qaturun ala bilməz.
Atın satıb, məytər ğəbində deyil.
Az olsun, yaxşı olsun.
Az ver çox yalvar, çox ver az yalvar.
Aza qane ol, çoxu Allahdan istə.
Azın qədrini bilməyən çoxun da qədrini bilməz.

**B**

Bağ kəsmək eşşəkdən qalıb.
Bağ salan barın yeyər.
Bağa bağban lazımdır, qoyuna çoban.
Bağa bax, barını gör.

Bağa çanağından çıxdı, çanağını bəyənmədi.
Bağa yol gedə bilməz, evini dalında gəzdirər.
Bağban bir gül üçün min xara xidmətkar olar.
Bağda ərik tükəndi, "salamməlik" tükəndi.
Baxma deyənə, bax dediyinə.
Baxmaqla qarın doymaz.
Balacanın dərdi də balacadır.
Baldız elə baldızdır, bacısı sağ olsun.
Baldız – çuvalduz, hərdən gələr sancar, gedər.
Balduz hər altunun əqrəbi kimidir.
Balığı ya öldür, ya sudan çıxart.
Balıq suda ikən bazarlıq olmaz.
Balıq sudan çıxdı – öldü.
Balıq tora düşəndən sonra ağlı başına gələr.
Balıq tutan islanmaqdan qorxmaz.
Balıq tutan suyu bulanıq istər.
Başı baş edən – ayaq, ayağı ayaq edən – dayaq.
Başı başına, başmağı da ayağına.
Başmağından xeyir görən, patavasından çəkər.
Başmaqçının başmağı olmaz.
Başmaqçının başmağı yırtıq olar.
Bazar içində it qulağı kəsməzlər.
Bazar çörəyi çox olsun, bazarda olsun.
Bazar şeytan yuvasıdır.
Bazara gedər – yağış yağar, dəyirmana gedər – qırğın olar.
Bazarda bez ucuz olanda adam özünü öldürməz.
Bel gətdiyin aparır.
Bir ağzında ot gəlib, bir ağzında su.
Bir bitdən sarı yorğanı yandırmaq olmaz.
Bir belə yayılıbsan, hanı quyruğun?
Bir dəlidən yeddi məhəlləyə zərər dəyər.
Bir dəmirdən nal da olar, nizə də.
Bir əli imanında, bir əli tumanında.

Bir əlimdə canım, bir əlimdə cananım.
Bir əlin nəyi var? İki əlin səsi var!
Bir əlində od, bir əlində su.
Bir gəmi bəzənər, bir gəlin bəzənməz.
Bir gəmidə iki pişgah olmaz.
Bir gəmini iki rəis batırar.
Bir göz iki gözün gördüyünü görə bilməz.
Bir gülnən bahar olmaz.
Bir kənddə iki darğa olmaz.
Bir kişinin payını iki kişi yesə, ikisi də ac qalar.
Bir "yemərəm-yemərəm" deyəndən qorxun, bir "gedərəm-gedərəm" deyəndən.
Biri toxluqdan ölür, biri aclıqdan.
Böyük bağırsaq bala bağırsağı yeyir.
Bu çağacan qonşu qızı idim, indi oldum – ev qızı, ev gəlini.
Bugünkü uşaq – sabahkı qoçaq.
Bugünkünü ye, sabaha ya qismət.
Bugünün sabahı da var.
Bülbül viranədən ötməz, bayquş viranədən getməz.

**C**

Can gedincə, mal getsin.
Can mənim canım, çıxsın sənin canın.
Can sağlığı – dünya varlığı.
Can sənin, cəhənnəm Tanrının.
Can candan ayrıdır.
Canı canın yolunda deyən çox olur, qoyan az.
Canım qurban, yaxşı qonaq, gəl ocağa bir də qonaq.
Canın boğazındadırsa, öskür, çıxsın.
Cavanlıqda zəhmət çəkən, qocaldıqda möhnət çəkməz.
Cavanlıqda pul qazan, qocalıqda qur qazan.
Cavanlıqda həlimlik, qocalıqda salimlik.
Cöngə öküz olunca, yiyəsi donuza dönər.

Cümə günü – bazar, onu da yağış pozar.
Cümə şənbədən uzundur.
Cütə gedən öküz gözündən tanınar.

**Ç**

Çalışanı ac, tənbəli tox görən yoxdur.
Çalışqan atın boynu muncuqlu olar.
Çalışqan dəvə zınqırovlu olar.
Çalışmayan ac qalar.
Çanax (tas) başa girəndə, bil ki, hamam vaxtıdır.
Çanağında bal olsun, arısı gələr Bağdaddan.
Çənə yorulmasaydı, adam hey yeyərdi.
Çənə yumruqdan qorxar.
Çərçi qızı muncuqlu olar.
Çərçi kisəsindəkini sayar.
Çıxmamış canda ümid var.
Çox arpa atı çattadar.
Çox aşıqlar yarı yolda qalıblar.

**D**

Dağ nə qədər uca olsa, el üstündən yol salar.
Dağ səfasız olmaz, gözəl vəfasız.
Dağ suları dağdan gələr.
Dağ üstə maral gəzər.
Dağ üstündə tısbağa gomuşdan böyük görünər.
Dağ yeriməsə, abdal yeriyər.
Dağ yıxılmasa, dərə dolmaz.

Dağa yağsa, çöl abadan,
Çölə də yağsa, çöl abadan.

Dağdakı gəlib bağdakını qovur.
Dağından yel keçir.
Dam uçdu, kalafası qaldı.

Damar-damar, daşı dələr.
Damazlığını yeyən tamarzı qalar.
Damara baxarlar, qan alarlar.
Damda verər azanı, yerdə sayar qazanı.
Daş atan bəlli, baş atan bəlli.
Daş atana çörək at.
Daş bir yerdə qalanda göyərər.
Davanı qılınc aralar.
Davanı qılınc kəsər, sevdanı pul.
Davanı iki dəfə salmaq nahaqdır.
Dədə çarığı, bala orağı gizlər.
Dədənə ehsan verib, əli çapıxları qapına dadandırma.
Dədəsindən nə gül dərdim ki, balasından gülab çəkim?
Dədəsini görməyən şahlıq iddiası eylər.
Dəlidən ağıl ummaq olmaz.

Dəlini apardılar toya.
Dedi: – Bura bizim evdən yaxşıdır!

Dəlilər dünyanı əkdilər, ağıllı indi cüt qoşur!
Dəliyə ağıl, qaraya sabun kar eyləməz.
Dəliyə gündə bayramdır.
Dəliyə halva-külçə neyləsin?
Dəliyə sorğu olmaz.
Dəliyə yüz öyrət, öz bildiyini eylər.
Dəmirçi nə bilir qızıl nədir?
Dəmirçi yanından keçən qığılcım yeyər.
Dəmirçidə bıçaq tapılmaz.
Dəmir nəmdən, insan qəmdən çürüyər.
Dəmiri döyən dəmirçi olar.
Dəmiri isti-isti döyərlər.
Dəmiri kürədən dəmir çıxardar.
Dəmirsiniz, missiniz, hamınız bir cinssiniz.
Dərdi olan danışar.

Dərdi olan dərman axtarar.

Dərdimi dağa desəm dağ əriyər,
Şam yanar, şölə çəkər, piltə yanar, yağ əriyər.

Dərdimiz hardan əyan olsun bizim dərdsizlərə.
Dərgahın qapısı açıq olanda köpəyin yuxusu gələr.
Dəryaz işlər, qol öyünər.
Dəryaya daş atmaqla suyu bulanmaz.
Dəryaya bir daş at, ya bir qaya sal.
Dəvənin qanadı olsa, uçulmamış dam qalmaz.
Dəvənin quyruğu yerə dəyməz.
Dəvənin də oynamağına az qalıb.
Dəvənin dizini bağla, sonra Allaha tapşır.
Dəyirmanda dəni olmayana un verməzlər.
Dəyirmanda dənin yox, şahad üstə başını niyə yarırsan?
Dəyirmanda doğulan siçan göy gurultusundan qorxmaz.
Dəyirmandan gələnin əlinə baxarlar.
Dinc adamsan, qanlı qapısında nə qayırırsan?
Dinc ayağa heç nə dəyməz.
Dili uzundur, ağlı gödək.
Dili xoş olanın havadarı çox olar.
Dinsizin ağzını imansız yumar.
Dinsizin malını imansız yeyər.
Divar binadan qaim olar.
Divarı nəm yıxar, insanı qəm.
Divarın dalısı da qürbətdir.
Divarın iki üzün yıxmazlar.
Doğruya zaval yoxdur, çəksələr min divana.
Doğruluq dost qalasıdır.
Doğruluq insanı heç vaxt utandırmaz.
Doğruluqla dost qapısın dolan gəz, öz evindir.
Dul arvad ağ kəlağayıdır, toxunma, ləkə düşər.
Dul arvad evdə oturmaz.

Dul arvad yetim saxlar, naxırçıya minnət qoyar.
Duzdan ləziz, sudan əziz bir şey yoxdur.
Duzunu gimrik eyləyən çörəyini də fətir eylər.

**E**

El atan daşı qalxızmaq olmaz.
El atanı ər atar, el tutanı ər tutar.
El bərəkallahı qarın cırar.
El bir olsa, dağ oynadar yerindən, söz bir olsa, zərbi kərən sındırar.
El el ilə keçinmiş, qardaş qardaş ilə keçinməmiş.
El elin aynası, batmanı, tarazısı.
El elin itgisini bayatı oxuya-oxuya axtarar.
El gözüylə dünya görünməz.
El gözündən düşən boy atmaz.
El gücü güclü olar.
El igidləri ilə tanınar.
El ilə Allahu-əkbər.
El ilə bir ağla, el ilə bir gül.
El qabağı – yel qabağı.
El qalxdı, sən də qalx.
Elə bilirsən qara gözünə aşiq olub?
Elə qazana belə çuğundur gərək.
Elə qazanın belə də aşı olar.
Elə yerdə ev salmışam ki, yıxılanda "vay" deyəm.
Elə yerdə otur ki, altına su çıxmasın.
Elin bir yol, şüvəndə bir yol.
Elm ağlın çırağıdır.
Elm adama zinətdir.
Elm bir xəzinədir, nə qədər sərf edərsən, o qədər artar.
Elminə əməl etməyən alim, əlində çıraq gəzdirən kora bənzər.
Elmli adam cürətli olar.
Elmli qazıya şahid lazım deyil.

Elmsiz adam meyvəsiz ağac kimidir.
Elmsiz adam – ruhsuz cəsəd.
Eşidən görənə xəbər verir.
Eşik qar, içəri dar.
Eşqin tərs-avandı olmaz.
Eşitdiyini unut, gördüyünü demə.
Eşitmək istəmədiyini özgəsinə eşitdirmə.
Eşşək anqıranda itin başı ağrıyar.
Eşşək at yerini verməz, ciyər ət yerini.
Eşşək bozdur, dəyirmana getməz.
Eşşək böyük, palanı kiçik.
Eşşək qaçıb, palanı qalıb.
Eşşək işlər, yabı yeyər.
Eşşək üsdən düşən olmuşdu, heç bunun kimisi olmamışdı.
Eşşək üstə qəmə bağlayana gülərlər.
Eşşəkdən nə qanacaq umursan?!
Eşşəkqulaq, qabanbaş, heç görmüsən yeriyə daş?!
Eşşəyi palan saxlar, ordunu yalan saxlar.
Eşşəyin ölməyi, köpəklərin toyudur.
Eşşəyin başı atın axuruna çatmaz.
Eşiyə çıxıram Tanrı vurur, evə gəlirəm qarı vurur.
Ev süpürərəm, yer salaram, kimin qızından dala qalaram?
Ev təzə, divar təzə, ələyim, səni hardan asım?
Ev tikən balta çöldə qalar.
Ev şamdan işıqlanar, baş bilikdən.
Evdə bişməyib, qonşudan gəlməyib.
Evində dəlik, belində yara, yar sirrini ellərdə ara.

Evində tapmaz bir çürük darı,
Bardaş qurub oturar hamıdan yuxarı.

Evində yatır, yuxuda Həzrəti Suleymanı görür.
Evlənən evdar olar.

Evlənən göz-qulaqda olar.
Evlənənlə ev tikənin köməkçisi çox olar.

**F**

Fərsiz oğuldan bir qara daş əfzəldir.

Fərsiz övlad altıncı barmaq kimidir,
Kəsərsən ağrıdar, saxlarsan, eybəcər göstərər.

Fikri nəysə, zikri də odur.
Filin gücü xortumundadır, dəvənin gücüdizində.

**G**

Gecə gəl, vecə gəl.
Gecə gəldi, gecə getdi, necə gəldi, necə getdi.
Gəzən qızın qazancı ənlik-kirşana gedər.
Gəzəyən qızdan gəlin olmaz.
Görmədiyin yükün altına girmə.
Görməmiş görsə, ağıldan çıxar.
Görməmişin oğlu oldu, vurdu gözün çıxartdı.
Görməyə gözü var, eşitməyə qulağı.
Göycə muncuq kimdədir, mənim gözüm ondadır.
Göyçək arvadlı ilə yorğa atlıyla yoldaş olma.
Göyə tüpürmə, üzünə tökülər.
Göydən gələn yerə qəbuldur.
Göydən yağmasa, yerdə bitməz.
Gözəl arvad şıltaq olar.
Gözəl eyibsiz olmaz.
Gözəl göz üçün, ağıllı könül üçün.
Gözəl gözəl deyil, könül sevən gözəldir.
Gözəl kamallı gərək.
Gözdə olmayan, könüldə də olmaz.
Gül oldu, palan oldu, hamısı yalan oldu.
Gül olmayan yerdə böyürtkən özünü gül sanar.

Gül solanda bülbül ağlar.
Gül tikansız, dərə ilansız, səfa cəfasız olmaz.
Gündə bir söz eşitməsəm, qulaqlarım tutular.
Gündə qazan, gündə ye.
Gündoğan səlamətdir, günbatan məlamət.
Günortadan sonra dükan açan nə qazanar?
Günü günə satmazlar.
Günü günüdən günü əsirgər.
Günü ilə gün yoxdur.
Güvəclə qazanın nə aşnalığı?!
Güvəci ya sındır, ya dağdan yuvarlat.
Güzgü əyri olsa, əksi əyri göstərər.
Güzgüyə baxan öz camalın görər.

**H**

Haqq-hesaba dağlar da baş əyər.
Haqq-hesabı düz elə, hər yerdə yerin olsun.
Haqq kömək eyləsə, qurd çoban olar.
Haqq söz axar, suları saxlar.
Haqqa ləkə düşməz.
Haqla batilin arası dörd barmaqdır.
Haqlı haqdan keçməz.
Hamı çox yaşamaq istər, amma qocalıq istəməz.
Hamı ilə xoş görüşmək ədavəti yox eylər.
Hamı istər cənnətə getsin, amma günahları qoymaz.
Heç kəsin çörəyi heç kəsin qarnında qalmaz.
Heç kəsin xoruzu sabaha kimi banlamayıb.
Heç kəsin şamı səhərəcən yanmayıb.
Heç kim adama müftə quş tutmaz.
Hesab bilməyənlə durub-oturma.
Hesab bilmirsən, yoxsa yanın çubuq görməyib?
Hesab var dinar-dinar, bəxşiş var xalvar-xalvar.

Hesabda doğru ol, hesabdar olma,
Hesab bilməyənlə durub oturma.

Hesabı təmiz olanın üzü ağ olar.
Həm ziyarət, həm ticarət.
Həmyaşlıqda ölən şəhiddir.
Həna çox oldu, həm başa qoyarlar, həm qaşa qoyarlar.
Hər çiçəyin bir ətri var.
Hər cəfanın bir səfası var.
Hər dərədə bir at öldürüb, baytar olub.
Hər divarın qulağı var.
Hər enişin bir yoxuşu, hər yoxuşun bir enişi var.
Hər evin bir adəti var.
Hər eybi üzə vurmazlar.
Hər gecənin bir gündüzü var.
Hər gedişin bir gəlişi var.
Hər gördüyünü dost sanıb, sirrini açma.
Hər gülün bir qoxusu, bir ətri var.
Hər gün nə tapsan, odur.
Hər kimin ki, bağı var, keyf çəkməyə çağı var.
Hər kişi gücünə görə yük tutar.
Hər kişinin nəbzinə görə şərbət verərlər.
Hər könülün bir yazı, bir qışı var.
Hər külək dağı yerindən tərpədə bilməz.
Hər meyvə öz ağacında.
Hər meyvə öz vaxtında yetişər.

Hər yetəni eylədilər kəndxuda,
Girami, Şüvalan getdi bada.

Hər şey bitər, kosanın saqqalı bitməz.
Hər şey öz vaxtında.
Hər şey ustasının əlindədir.
Hər şeyə barmaqarası baxmazlar.

Hər şeyin öz yeri var.
Hər şeyin sonu vardır.
Hər şeyin xiridarı gərəkdir.
Hərəmzadə barışdır, hərəmzadə qarışdır.
Həyasıza salam ver, keç.
Həyasızda insaf olmaz, insafsızda həya.

## İ

İçimiz özümüzü yandırır, eşiqimiz özgəni.
İgid canlı, kabab qanlı.
İgid səsinə güc verməz.
İgid ürəyi haça olar.
İgidə hünərinə görə ad verərlər.
İgidi yaxşı saxlar yaxşı arvad, yaxşı at.
İgidim igid olsun, kol dibi evim olsun.
İgidin axmağı qılıncını dayısında sınar.
İgidin başı qalda gərək!

İki atlı ağam vay!
Birini xan bağışlayacaqdı, birini də lobya satıb alacaqdı.

İki baş bir qazanda qaynamaz.
İki baş – dörd ayaq.
İki başlı heyvandan yox, ikidilli insandan qorx.
İki evi bir eləmişik, düyünü batman yarım.
İki eşit, bir danış.
İki eşşəyin arpasını bölə bilmir.
İki qapıda gəzən köpək ac qalar.
İki qarışqa bir filə dodur.
İki qılınc bir qilafi girməz.
İki verməsən, bir ala bilməzsən.
İl xırmansız olmaz.
İlan öz qonşusunu sancmaz.
İlan torpağı mürur ilə yeyər.

İlan yeddi qardaş olar.
İlan yerisin, balası da dalınca.
İldə başa gəlməyən, dildə başa gələr.
İlxıçının qazancı havayı minməkdir.
İndi itər, yengədə bitər.
İndi ki, nisyədir, astarını gülü-xəndan elə.
İndiyəcən yeddi kəfən çürüdüb.
İnsan olmayan insan qədrini bilməz.
İnsan məxluqatın əşrəfidir.
İnsanlar danışmaqdan qalanda, daşlar danışmağa başlar.
İş içində iş var.
İş işi açar.
İş kələfin ucunu tutmaqdadır.
İş yiyəsi işdə gərək!
İş yuxu görəndə deyil, yuxu yozandadır.
İşi əndazədə gör.
İşi hacətlə görərlər, höcətlə görməzlər.
İşi işə bənd elə, görən desin, ha belə!
İşin düşdü arvada, ölən gününü sal yada.
İşləyən olsun, iş tapılar.
İşləyəndə tək abbas[13], yemək vaxtı beş abbas.
İşləyənlə işləməyəni bir ayağa yazmazlar.
İt balası it olur.
İt bilir xurcunda nə var, çoban da bilir itə nə verəcək.
İt bir olar, yoxsa bir sürü?!
İt bir parça çörəyə də qane olar.
İt də öz yediyini qusar.
İt qorxduğu yerə hürər.
İt quduranda yiyəsini də qapar.
İt itin quyruğunu basmaz.
İt kimi nə yeyər, nə yedirdər.

[13]Abbas – pul vahidi

İt kütdən qaçmaz.
İt öz sahibinin qapısında şah olur.
İtdən çox çarıq yığan olmaz, yenə ayaqları yalındır.
İtdən utanmasan, sahibindən utan.
İti dalıma almışam qurd qorxusundan.
İti qaçan atı məhmizləməyin mənası yoxdur.
İti qışqırtmasan, hürməz.
İti quyruğundan bağlasan, durmaz.
İti qurddan seçəndə gəl!
İtin dirisi nədir ki, ölüsü nə ola?
İtin duası qəbul olsa, göydən ət yağar.
İtin qabağından qalanı alsan, yeməz.
İtin qohumu it olar.
İtin quyruğunu qəlibə salsan, düzəlməz.
İtin qulağını kəsdikcə zalım olar.
İtnən boyun olmaq.

İydə varsa, cəhrə də də var,
Onu əyirən qarı da da var.

İylənmiş suyu içməzlər.
İynə aləmi bəzər, özü lüt gəzər.
İynə batırana çuvalduz batırarlar.
İynə verərsən, sap da istər.
İynə hara, sap da ora.
İynəni axtaran dəvəni itirər.
İynəni özünə batırar, çuvalduzu yoldaşına.
İynənin işini çuvalduz görməz.

**K**

Kar özünə sərf eləyəni eşidər.
Kar üçün iki dəfə azan verilməz.
Kasıblıq eyib deyil, oğurluq eyibdir.
Kasıbın halını kasıbdan sor.

Kasıbın gözü tox olar.
Kasıbın günü – itin günü.
Kasıbın pulu cəhənnəmdə olar.
Kasıbın sacı axırda qızar.
Kasıbın sözü, yorğunun gözü.
Keçəl halva yeyər, puluna minnət.
Keçəl çarə bilsə, öz başına eylər.
Keçəl Həsən, Həsən keçəl, nə fərqi?
Keçələ baxma, bəxtinə bax.
Keçələ kosa qənim olsun.
Keçəli gün çıxmamış gör.
Keçəli gün Zülfəli çağırarlar.
Keçən gün ömürdəndir.
Keçənə güzəşt deyiblər.
Keçinin başı gicişəndə buynuzunu çobanın çomağına sürtər.
Keçinin şeytanla qohumluğu var.
Kəbinim halal, canım azad.
Kəklik başını soxar kola, quyruğundan xəbəri olmaz.
Kəklik qaqqıldamasa, qaraquş onu tapmaz.

Kəkliyin dimdiyi qan, dili qan,
Ağa dinsə söz olmaz, nökərin dindiyi qan.

Kənd aşırı it hürməz.
Kənd girovun naxırdan tutarlar.
Kənd kalafasından bilinər.
Kənd kovxasız olmaz.
Kəsənin üzün tikən ağardar.
Kəsik baş bitməz, bitsə də, yiyəsinə xeyir verməz.
Kəsilən başın zülfü üçün ağlamazlar.
Kiminin başında tac, kimi ac-yalavac.
Kiminin əvvəli, kiminin axırı.
Kiminin sacı olar, kiminin ələyi.
Kimsə kimsənin qismətini yeməz.

Kişinin alnı açıq gərək.
Kişinin başına gələn ağzından çıxandır.
Kişinin cibi iki olsa, arvad almaq fikrinə düşər.
Kişinin dilinə qarqış gəlməz.
Kişinin hörməti öz əlindədir.
Kişinin malı göz qabağında.
Kişinin özünə baxma, sözünə bax.
Kişinin sözü ilə işi bir olar.
Kor gözdən əski asır.
Kor kimdir? – Nabələd!
Kor kora kor deməsə, bağrı çatlar.
Kor koru tapar, su çuxuru.
Korun ağacı özündən qabaq gedər.
Köhnə qurd yolunu azmaz.
Köç qayıdanda axsaq keçi qabağa düşər.

Korun istədiyi bir göz,
İki göz olsa, nə söz?!

Köç köçər, it hürər,
İkisi də mənzilə birgə yetər.

Köməyi igidə sözlə, zəifə əllə et.
Kömürçünün evinə girən üzüqara çıxar.
Kömürçünün qaralmaqdan nə arı?
Köndələn çəpərə söykənmək olmaz.
Könül gözdən su içər.
Könül qocalmaz.
Könül sevən ağanın nə ağı, nə qarası?!
Körpüdən keçəndə yan-yana deyiblər.
Kötək aradakına çox dəyər.
Kötək yeyənin kisəsindən gedər.
Küpü sındıran da bir, suyu gətirən də bir.
Küpün günahı nədir ki, içinə çaxır tökülür?!

Kürd kürdü dəyirmanda axtarar.
Küsənə pay düşməz.
Küsənin payını yeyərlər.

**L**

Laçın balasın verməz, bəlkə zorla alalar.
Lalam, karam – dinmərəm.
Lat-lüt –İmam Rza!
Lotunun da Allahı var.
Lotunun dilini lotu bilər.
Lotunun pulu qurtaranda soğan-çörək də səlamətdir.

**M**

Mal başa bəladır.
Mal dediyin can yanğısıdır.
Mal gedər bir yerə, güman gedər min yerə.
Mal qatlaşar, yiyəsi qatlaşmaz.
Malı malla ölçərlər, canı canla.
Malı satandan al.
Malım getdi, pulum getdi, qonağım razı getmədi.
Malım zay olunca, qoy canım zay olsun.

Malımız budur, yarısı sudur,
Alsan da budur, almasan da budur.

Meydan bizim, söz sizin.
Meydana girən kişi nər gərək.
Meşəyə girən ayıdan qorxmaz.
Mədinə ilə Məsmə düşübdür bəhsə-bəhsə.
Məkkə evin içidir.
Mən gedirdim, məni yamaq saxladı.

Mən gəldim gəlin görməyə,
Gəlin getdi təzək yığmağa.

Mən gəlmişəm qənddana qənd qoymağa,
Gəlməmişəm ürəyimə qan qoymağa.
“Mən kimdən?”demə, “məndən kim!” de.
Məni sayanın quluyam, saymayanın ağası.
Məni yeyirsə, qoy aslan yesin, pişik yeməsin.
Məni yeməyən qurda köpək demərəm.
Mərd əli kasad olmaz.
Mərd igid tək qalmaqdan qorxmaz.
Mərd igidə arxa dur.
Mərd igidlər süfrə açar, ad alar.
Mərdə şirin ol, namərdə acı.
Mıxı çıxarıb qaçanı döyə bilmir, mıxdakını döyür.
Mıxı mismar edən var.
Molla acgöz olar.
Molla kişidir – saqqalı uzun, ağlı qısa.
Molla Nəsrəddin o qədər ölü oldu ki, bir qazan halvanı yeyə bilmədi?!
Molla sadağa verməz.
Molla tuluq zurnasına bənzər, qarnı dolduqca səsi çıxmaz.
Mollanın cibi dərin olar.
Mollanın nə pisi, nə yaxşısı; molla elə molladır.
Mollanın ovcu həmişə gicişər.
Motala dadanan köpək bir də gələr.
Murdar əsgiyə od düşməz.
Mus-mus” deyincə, birdəfəlik “Mustafa” de.
Müftəxor sahibi səliqəli olar.
Mülayim adam salamat olar.
Mülk alan qırx gün ac olar, mülk satan qırx gün tox.
Mülk aldın abad al, bağ aldın bərbad.
Müsəlmanın sonrakı ağlı.

**N**

Nacins ağac düyünlü olar.
Nağıl dili yüyrək olar.

Nahaq qan batmaz.
Nahaq iş ayaq tutmaz.
Nadan əlindən su içmə, ab-həyat olsa da.
Nadanı kötək düzəldər, qozbeli qəbir.
Nadanın düşməni özüdür.
Nadiri taxtda görüb, Süleymanı qundaqda.
Naxırçı qızından xanım olmaz.
Naxırçının faydası havayı eşşəyə minməkdir.
Nakəsə borclu olma.
Namərdə möhtac olma.
Namərdə tuş olanın ciyəri qana dönər.
Namərdin adı olmaz.
Namərdin gözü dar olar.
Namərdin plovundan mərdin qaşıq aşı.[14]
Naşı bilməz xara nədir, bez nədir?!
Naşı ovçu dağı adlayar, ov vura bilməz.
Nə dəvəni görmüşəm, nə də ləpirini.
Nə dəlini işlət, nə də dəli üçün işlə.
Nə dərin suya gir, nə Xıdır Nəbini çağır.
Nə sərvətə bel bağla, nə fələyə güvən gəz.

## O

Oğlan süfrə açmağı atadan öyrənər.
Oğlana balacalıqda qız verən çox olar.
Oğlandır – oxdur, hər evdə yoxdur.
Oğlanı kamal ilə, qızı camal ilə.
Oğlanın oğlan oyunu var, qızın qız oyunu.
Oğru oğrunu tez tanıyar.
Oğru it özün bildirir.
Oğrunu oğru ilə tutarlar.
Od yanmasa, tüstü çıxmaz. (Od olan yerdən tüstü çıxar)

---

[14]Qaşıq aşı – aş növü

## Ö

Öküz gərək cüt ola!
Öküz olacaq dana bu gündən bilinər.
Öküz öldürüb, adını üstümdən götürə bilmirəm.
Öküz ölməyincə inəyə qiymət olmaz.
Öküzü buynuzundan, adamı sözündən ...
Ölkə abad ikən dəyirman xaraba idi.
Ölkə sahibsiz olmaz.
Ölü gör necə ölüdür, Əzrail də halına ağlayır.
Ölü cəhənnəmə, təki mollaya pul olsun.
Ölüdən şeytan da əl çəkib.
Ölünün dalınca danışmazlar.
Ölünün dalınca salavat çəkir.
Ölünün vəsiyyəti özü ilə gedər.
Ölüyə də yiyə lazımdır, diriyə də.
Ömrünə qəbalə alıb.
Ömür bir iynədir, sapı çox qısa.
Örkən nə qədər uzun olsa, yenə də doğanaqdan keçəcək.
Örəpə qoyunun nə əti olar, nə yunu.
Övlad könül meyvəsidir.
Övlad pəncərədən düşən işıqdır.
Öz evimin nökəriyəm, özgə evinin ağası.
Öz evində öz başını bağlaya bilmir, özgə evində gəlin aşı bağlayır.
Öz quru çörəyim özgənin plovundan yaxşıdır.
Özgə malına dəymə, özünkünü bərk saxla.
Özgənin malı-mülkü, bizim də Qənbərimiz.
Özgə uşağından oğul olmaz.
Özü kəsir, özü tikir.
Özü üçün yatır, özgələrə yuxu görür.
Özü yeməz, özgəyə də verməz.
Özü yəhər qaşında, gözü ocaq başında.
Özü yıxılan özü də qalxar.

Öz-özünü bəyənən ağam vay!
“Özün bil”ə qal olmaz.
Özün bişirdin, özün də dad.
Özünü alim istəyən cahildən uzaq olar.
Özünü atan da birdir, özünü dartan da.
Özünü atan dizinə döyər.
Özünü başqasına nərdivan eləmə.
Özünü başqasından gözləmə, öz ocağının pişiyindən özlə.

**P**

Padşahın da rəiyyətə işi düşər.
Padşahın söhbətinin əvvəli dirilik, axırı ölüm.
Pay bölənin yüzdə biri cənnətə gedər.
Pay dolu gələr, dolu gedər.
Pay payı döyər, çıxardar.
Pay paylayan payından olar.
Peşiman şeytandır.
Peşkəşin axırı dərvişə çatar.
Pələngə ət yeməyi, keçiyə ot yeməyi öyrətməzlər.
Pəzəvəngin axırı dərviş olar.
Pişik miyoldamasın, toyuq qaqqıldamasın.
Pişik yerə öyrənər, it adama.
Pişiyi çox sıxışdırma, pələngə dönər.
Pişiyin dərdi iti öldürər.
Pişiyin könlü samanlıqda idi, tazı da qovdu, samanlığa saldı.
Pişiyin yatan yeri isti kürsü dibindədir.
Pişiyin yüyürməyi samanlığa qədərdir.
Pinəçinin mayası iynə ilə sapıdır.

**Q**

Qalxdığın yerə bir də oturma, hər söhbətə atılma.
Qamış bizim yerdə bitir, zurnanı özgə çalır.
Qan yol verməz.
Qana qan deyiblər.

Qara eşşəyin boynuna yüyən vurmaqla, ya dalına yəhər oymaqla qatır olmaz.
Qara gün qaralıb qalmaz.
Qara günün ağ günü də var.
Qara səni basınca, sən qaranı bas.
Qardaşa baxarlar, bacısını alarlar.
Qardaşın kiçiyi olunca, donuzun böyüyü ol.
Qardaşlar savaşdı, əbləhlər inandı.
Qarı düşmən dost olmaz, yedirtsən yağı, balı!
Qarın tox olanda, çox şey yada düşər.
Qaşıqla yığdığını çömçə ilə dağıtdı.
Qaşınmayan yerdən qan çıxardır.
Qaşınmayan yeri qaşıma, qan çıxar.

Qaşıyıram qanım çıxır,
Qaşımıram, canım çıxır.

Qaynayan qazan qapaq saxlamaz.
Qazanc qudurub mayanı yeyib.
Qazanı özündən, qazananı özündən.
Qazanına görə qaynat aşını.
Qazanmaq çətin, xərcləmək asan.
Qələbə birlikdədir.
Qələbə sevinc gətirər.
Qələm qılıncdan itidir.
Qəm dağı yerindən qopardar.
Qəm insanı əridər.
Qız alan göz ilə baxmasın, qulağı ilə eşitsin.
Qız alanın ya bir çuval qızılı, ya bir çuval yalanı gərək.
Qız anadan olanda gözünü açar, deyər: “Bu bizim ev eyil”.
Qismət olan qaşığa çıxar.
Qismətdən artıq yemək olmaz.

Qohum gəlməyə-gəlməyə yad olar,
Yad gələ-gələ qohum olar.

Qonaq bərəkət gətirər.
Qonaq bir gün olar.
Qonaq, dur, altını süpürüm.

Qonşun pisdir, köç qurtar,
Dişin ağrıyır, çək qurtar.

Qorxaq kölgəsindən ürkər.

Qorxaq gündə yüz yol ölər,
İgid ömründə bir yol.

Qorxu olmayan yerdə nizam-intizam olmaz
Qorxursan pişikdən, niyə çıxırsan deşikdən?
Qozbeli qəbir düzəldər.

**R**

Rişxənd etmə qonşuna, gələr bir gün başına.
Rişxəndlik ağlın zəifliyindən doğar.
Ruzi (yemək) olsun, ocaqda olsun.
Ruzi həllacbazarda gəzir.

**S**

Sabah-sabaha salma.
Sabun qara palazı ağartmaz.
Sabun ilə üz yuyan, bir gün göyçək olar.
Saf armud sapdan düşməz.
Sağ gözün sol gözə etibarı yoxdur.
Sağ əlin sol ələ ehtiyacı var.
Sağlıq soltanlıqdır.
Sağ yeri qarnı altındadır, onu da örkən kəsib.
Saxla gönü, gələr günü.
Saxsıya verə-verə çıxar misin bahası.
Sakit başın ağrısı olmaz.
Saqqalını uşaq-muşaq əlinə vermə.

Saqqız çeynəməklə qarın doymaz.
Saqqız çeynədikcə çürüyər.
Sayanın quluyam, saymayanın ağası.
Sayılan gün tez keçər.
Saymadığın deşikdən tülkü çıxar.
Saymaz it adam qapar.

Saman qala-qala qızıla dönər,
Qızıl qala-qala samana dönər.

Samanın tüstüsü göz çıxardar.
Sanılı pul durumsuz olar.
Sarı yağla yağlayır, sarımsaqla dağlayır.
Sarsaq yaşamaq ömrə yamaqdır.
Sarsaqlar olmasaydı, yaltaqlar acından ölərdi.
Seçə-seçə düşdü seçməliyə.
Sel yüz gündə ovanı, dərd bir gündə ovar.
Sevəni sevənə ver.
Sevəni sevilən incidər.
Sevənin gözündə pərdə olar.
Sevgi adamı selə verər.
Sevgi od deyil, amma oddan yamandır.
Sevgilimə çataydım, rahat-rahat yataydım.
Sevdanı sevda ilə yuyarlar.
Seyid cəddinə arxalanar.
Səbir eylə işinə, xeyir gələr başına.
Səbir eyləyən fərəc tapar.
Səbir eyləyən çox yaşar.
Səbir eylərəm, səbir daşı, çatladı ürəyimin başı.
Səbirin axırı xeyir olar.
Sədaqət qəhrəmanın zinətidir.

Sən dalını daşa ver,
O qədər daş yığan olar ki.

Sən deyən qarpızdır, fal-fal yeyərlər.
Sən deyən olsun, ancaq bazar pozulmasın!
Sən deyən olsun, qal yatsın.
Sən get özünə dost qazan, düşmən ocaq başında.
Sən öldün – borcdan qurtardın.
Sən razı, mən razı, nə qələt eləyir qazı?!
Sən yediyini bilmirsən, mən doğradığımı bilirəm.
Sən yerindən tərpənincə, dağ-daş dilə gələr.
Sənə hər kim daş atsa, sən ona çörək at.
Sənə, mənə nə şəriət?!
Sənət ayrı, vərdiş ayrı.
Sənət qolda qızıl bilərzikdir.
Sənət insanın xəzinəsidir.
Sənətin pisi olmaz.
Sənətkarın oğurluğun tutmaq olmaz.
Sərçənin cib-cibindən toyuğun qaqqıldaması yaxşıdır.
Sərçənin nəğməsi yox, cib-cibi çox!
Sərçəyə cib-cib öyrətməzlər.
Sərxoş biri iki görər.
Sərxoş sərxoşu meyxanada görər.
Sərxoşdan dəli də qorxar.
Sərxoşu it də tutmaz.
Sərt olma, mərd ol.
Səs ver, sirr vermə.
Siçandan olan torba kəsər.
Siçanı öldürmək pişiyə oyundur.

Siçanın anbara girməsinə yanmıram,
Başqasına yol göstərməsi məni yandırır.

Sirkə tünd olanda, öz küpünü partladar.
Sizin evdə yeyək, bizim evdə oynayaq.
Sizin qazanınız var, biz vuraq öz güvəcimizi sındıraq?!
Siyasət nənə-bacı bilməz.

Soğan yeməmisən, için niyə göynəyir?!
Soğan göyərdi, dedi: – Mən də bir güləm!
Söz çox olan yerdə yalan da çox olar.
Söz danış, söz olsun.
Söz qılıncdan kəskindir.
Söz quşdur, buraxarsan, uçar gedər.
Söz sözü gətirər.
Söz üçün – usta, iş üçün – xəstə.
Söz vermə, verdin, yerinə yetir.
Sözün cavabı söz olar.
Sözün yalanı olmaz, yanlışı olar.
Sözün yaxşısı baldan şirin olar.
Sözünü bilməyəni bayıra atarlar.
Söyləyənə baxma, söyləyəninə bax.
Su hər şeyi pak eylər, üz qarasından qeyri.
Su çəkən də mən oldum, bərə gəzdirən də?
Suda batan ilana da sarılar.
Suda boğulan saman çöpündən yapışar.
Sudan ayrılan balığın oddan qorxusu olmaz.
Sudan xeyir olsa, qurbağa əjdahaya dönər.
Südlü aş dadlı olar, bir gün sizdə, bir gün bizdə.
Südlü inək ol, vur dolu sərnici, dağıt.
Südlünü sürüdən ayırmazlar.
Südün dadını qısır əmən dana bilər.
Sürməni gözə çəkərlər.
Sürü qoyun bizdə, satdıq yağ sizdə.
Sürü qotursuz olmaz.

## Ş

Şam başından yanar.
Şam dibinə işıq salmaz.
Şam yanar, şölə çəkər...
Şayiə hər yanı gəzər.

Şeytan karxanası boş qalmaz.
Şeytan olmasa, qurd qoyunla gəzər.
Şeytanla ortaq olan buğda əkər, saman biçər.
Şeytanın dostluğu dar günlərə qədərdir.
Şər həmişə xeyrin dalınca gəzər.

Şərab, kabab – hay, hay!
Hesab, kitab – vay, vay!

Şərabın kədəri nəşəsindən artıqdır.
Şəri-şeytandan, məkri-zənandan, quru böhtandan, bəylər qəzəbindən özünü qoru.

## T

Taxt mənimdir, özüm bilərəm,
Altında yataram, üstündə yataram, özüm bilərəm.

Taxt yaratmaq olar, bəxt yaratmaq olmaz.
Taleyi yar olanın yar sarar yarasını.

Tamah yüzdür – doxsan doqquzu mollada, biri camaatda,
Ona da molla deyər, şərikəm!

Tamarzıdan al, dadanana ver.
Tas ki, girdi başa, bil ki, hamam vaxtdır.
Tatos kovxa, Matos kovxa, on beş evə otuz kovxa!
Taylı tayını tapmasa, günü ah-vayla keçər.
Tayını bil, tuşunu tanı.
Taza gəldi bazardan, köhnə düşdü nəzərdən.
Tez parıldayan tez də sönər.
Tez-tez getmə, dodaq büzərlər.
Tez tündləşən, tez də yumşalar.
Təqdir ilə yazılan, tədbir ilə pozulmaz.
Tək əl ilə düyün düyünlənməz.
Tək əldən səs çıxmaz.

Tək gəzən dananı qurd yeyər.
Tək qoyundan sürü olmaz.
Tək daşdan divar olmaz.
Tək duran tək nəsilə qalar.
Tələsənə mənzil alınmaz.
Tələsənin kündəsi küt gedər.
Tələsik işə şeytan qarışar.
Təkrar biliyin anasıdır.
Təmiz hava girməyən evə həkim girər.
Tənbəldən cəmiyyətə xeyir olmaz.
Tənbəki çox olanda Həsən də tənbəki çəkir, Hüseyn də tənbəki çəkir.
Tənbəl arvadın qızı zirəng olar.
Tərlan sar yerin verməz.
Tərləməmiş pul qazanmaz olmaz.
Təpik atma, qısır qalarsan.
Təpik döyüşündə oynar, təpik altında ölər.
Təpəri var, hünəri yox.

Tox elə bilər ki, heç acmaz,
Ac elə bilər ki, heç doymaz.

Torpağın qarası üz ağardar.
Torpağın sirrini əli torpaqda olandan sor.
Toy bəzəyi xonçadır.
Toy borcu ilə ev almaq olmaz.
Toy gününü qoyub, vay gününü oynayır.
Toya getməsən, eyb etməz, yasa getmək vacibdir.
Toyuq anasından süd görməyib.
Toyuq banlamasının düşər-düşməzi var.

Toyuq bir yumurtlasa, xəbəri yüz evə çatar,
Camış doğsa, səsi çıxmaz.

Toyuq bir içər, bir göyə baxar.

Toyq həm yumurta doğar, həm zil salır.
Toyuq qaz yerişi yerisə, öz yerişini də itirər.
Toyuq ki yumurta üstə oturdu, ona bıçaq yoxdur.
Tumansıza tuman verməzlər, abrı gedər.
Tutdu qatıq, tutmadı ayran!
Tutdu göv ,tutmadı kələm başı!

Tülküyə dedilər, şahidin kimdi?
Dedi, quyruğum.

**U**

Ucuz alan aldanar.
Ucuz aldın, quyruğunu düyünlə.
Ucuz satan tez satar.

Ucuzdur, var illəti,
Bahadır, var hikməti.

Uçuq ev xarabasından məlum olar.
Ulağa gücü çatmır, acığını palanına tökür.
Ulaya-ulaya it öz başına qal gətirər.
Uma-uma döndüm muma.
Umac – burdan ye, ordan – acı.

Uşaqla yola çıxma,
Eşşəyi yıxılsa ağlar, eşşəkdən yıxılsan gülər.

Uşaq yeməyini bilməz.
Uşağın hökmü şah hökmündən yaxşıdır.
Utancağın eşşəyini qurd yeyər.
Utanırsan, üzünə rübənd sal.
Uyuşar – qatıq yeyərik, uyuşmaz – süd içərik.
Uzun adamın ağlı topuğunda olar.
Uzun kösöv əl yandırmaz.
Uzun saqqal axmaq olar.

## Ü

Üz götürüb gedəni zəncir ilə saxlamaq olmaz.
Üz döndü, göz döndü.
Üz ürəyin güzgüsüdür.
Üzə gülür, ayaqdan çəkir.
Üzdə gülür, dalda hürür.
Ürək qulaq deyil ki, barmaqla qurdalayasan.

Ürək ki var – şüşədir,
Sındırarsan, kim yamar?!

Ürək öz dostunu tanıyar.

## V

Vaxtında atılan tüfəngin səsi vaxtsız atılan topun səsindən üstündür.
Vaxtını itirən bəxtini itirər.
Var adama oyun öyrədər.
Varlının əlini bıçaq kəsəndə, yoxsul köynəyini parçalar.
Varlının iti harın olar.
Varlının könlü oluncaya qədər kasıbın canı çıxar.
Varlının malı, kasıbın övladı.
Varlının torpağından çay keçər, kasıbınkından yol.
Vay o gündən ki, çörəkçi çəkmə tikə, çəkməçi çörək yapa.
Vay o sürünün halına ki, canavardan çobanın təyin edələr.
Vay ondadır ki, varlı evinə yoxsul girə.
Ver abbasını, ye halvasını.
Verilən aşı yeyərlər.
Verim əli hamı əldən ucadır.
Verirlər al, döyürlər qaç.
Vermə nisyə, girməz kisəyə.
Vermədi Məbud, neyləsin Mahmud?!
Vətən elin evidir.
Vətən viranə də olsa, cənnətdir.

Vəsiyyət yüngüllükdür.
Vəsmə bol olanda qaşa da çəkərlər, gözə də.
Vura bilməyən daşın böyüyündən yapışar.
Vuran elin dirəyidir.

## Y

Ya cin, ya şeytan.
Ya hə, ya yox.
Ya lələ şələni basar, ya şələ lələni.
Ya üz, ya düz.
Yağışdan qaçan doluya düşər.
Yağışdan qalanı yağmur apardı.
Yağışda düşmənin qoyunu, dostun atı satılsın.
Yağışın yağması, evin damması, gəlinin doğması.
Yaxını qoyub uzaqdan danışma.

Yaxşı adam yavan çörəyə dözər,
Yaman adamı yağlı çörək də üzər.

Yaxşı atadan pis oğul?!
Yaxşı ad dövlətdir.
Yaxşı adamın yaxşılığı dəyər dar gündə.
Yaxşı dostları qılıncla da ayırmaq olmaz.
Yaxşı getməyincə qədri bilinməz.
Yaxşı qəssab ətin yaxşısını axıra saxlar.
Yaxşı iş heykəl kimidir, hər yerdən görünər.

Yaxşı ki var, yavan çörəyə dözər,
Yamanı yağlı xörək də üzər.

Yaxşı məsləhət hər şeydən yaxşıdır.
Yaxşı oğul neylər ata malını?
Yaxşı ovçunun toruna ov öz ayağı ilə gələr.
Yaxşı söylə, yaxşı eşit.
Yaxşı yalan, lap yalan, fili uddu bir ilan.

Yaxşı yoldaş yaman gündə tanınar.
Yaxşı yoldaş gec tapılar.
Yaxşıya qoşulan çuvalına un doldurar.
Yaxşılıq edən, yaxşılıq görər.
Yaxşılıq elə ki, başına gəlsin.
Yaxşılıq elə, minnət qoyma.
Yaxşılıq qəribdir – tanınmaz.
Yaxşılıq qapı açar, məhəbbət bu qapıdan içəri girər.
Yaxşılıq və doğruluq, hər ikisi birdir.
Yaxşılıq ikitərəfli olar.
Yaxşılıq itməz.
Yaxşılıq istəyən qabaqca behin verər.
Yalançı çox and içər.
Yalançı özünün düşmənidir.
Yalanın axırı yoxdur.
Yalanın da əndazəsi var.
Yaman arvadın evi cəhənnəmdir.
Yaman arvad deyingən olar.
Yaman arvad çox danışar, danışmasa, savaşar.
Yaman baş yiyəsinə donuz güddürər.
Yaman oğul – yaman gəlin.
Yamanlığa yaxşılıq mərd kişinin işidir.
Yandırdığın yovşan, ovladığın dovşan.
Yar dərdini yar çəkər.
Yar qadasın yar alar.
Yaş ağac tez əyilər.
Yaş kəssən, baş kəssən, quru yaşar.
Yaşa-yaşa – gör tamaşa.
Yaşı yetmiş, işi bitmiş.
Yayda kölgədə yatan qışda qar üstə yatar.
Yayda kölgə xoş, qışda çuval boş.
Yayda işləyən, qışda dişlər.
Yayda yanan qışda dilənçilik eylər.

Yaz getdi, qış gəldi, vay titrəmək dərdi.
Yaz kasıbın yorğan-döşəyidir.
Yaz yağışı tez keçər.
Yaz yağışından bəlli, qız qardaşından.
Yazda ayransız olma, qışda yorğansız.
Yazda başı bişənin qışda aşı bişər.
Yazda buza yerikləyən, qışda göbələyə yeriklər.
Yazda işləməyənin qışı sərt gələr.
Yazda oynayar, gülər, qışda acından ölər.
Yazda yatan, qışda üşüyər.
Yeddi molla, bir əmmamə!
Yeddi fərsiz oğuldan bir fərli qız yaxşıdır.
Yeyin gedən yol kəsməz.
Yeyilənim yeyilir, qonağım küsülü gedir!
Yer yiyəsiz olanda, donuz təpəyə çıxar.
Yer oturan kişi ilə şərəflənər.
Yerdə yatan yumurta, göydə uçan quş olar.

Yerdən göyə küp düzsələr, bir-birinə bənd etsələr,
Altdan birini çəksələr, gəl onda gupbultuya bax.

Yetimin ağzı aşa çatanda, başı daşa dəyər.
Yetimin hamamda anası çox olar.
Yetmiş iki dərədən su gətirər.
Yəhər ata yük olmaz.
Yəhər atın belində həmişə qalmaz.
Yıxılan yıxıldığı yerdən qalxar.
Yıxılan yıxılana yoldaş olar.
Yıxılana xəncər qaldırmaq namərdlikdir.
Yıxılanın dostu olmaz.
Yıxılmasa, dikəlməz.
Yola çıxan yolda qalmaz.
Yolda yoldaş, evdə qardaş.
Yoldan qal, yoldaşdan qalma.

Yoldan irəli – yoldaş, evdən irəli – qardaş.
Yoldan keçənə yumaq sarıtdırır.
Yorğan-döşək sözü yorğan-döşəkdə qalar.
Yorğanına bax (görə), ayağını uzat.
Yorğun eşşəyə "hoşa" xoş gələr.
Yorğunluğu o dünyada alacaqsan.
Yorulmuş ata qamçı vurarsan, şıllaq atar.
Yuxuda balıq görən, yastığının altını yoxlar.
Yuxuda gözəl görmək yaxşıdır, oyanmaq olmasaydı.
Yuxuya etibar yoxdur.
Yuxusu ağır adamdır.
Yuxusunda da görsə, xeyrə calamaz.
Yüz namərd bir mərdi əvəz etməz.

**Z**

Zahid buraxıb məscidi, meyxanəyə gəlməz.
Zahirdən batinə yol var.
Zahiri gözəllik müvəqqətidir.
Zahiri gözəl, batini çirkin.
Zaman bir nəhrdir axar, durmaz.
Zaman ilə hesablaşmaq gərək.
Zaman pul deyil, onu qaytarmaq olmaz.
Zaman səbirlidir.
Zəlzələni görən yanğına razı olar.
Zərgər dükanının tozu da qızıl olar.
Zərər oddan yamandır.
Zərərdən qorxan dükan açmaz.
Zərərdən qorxan xeyir görməz.
Zərərin bir başı var.
Zərərin yarısından qayıtmaq da xeyirdir.
Zəri də var, zoru da.
Zərlə gözəllik almaq olmaz.
Zindan olub altda qalmaqdansa, çəkic ol, üstdə ol.
Zindana səbr eyləyən, axır taxta çıxar.

## QARĞIŞLAR

Ac öləsən, gic öləsən.
Açıq qapın örtülsün.
Adın silinsin.
Adın adların içində batsın.
Adın qara daşlara yazılsın.
Ağ günün qərə daş kimi olsun.
Ağ xonçan qərə boyansın.
Ağzın zəhər dadsın.
Ağzın yumulsun.
Allah başın olan yerdə ayağına daş salmasın.
Allah işığını söndürsün.
Allah sənə oğul-uşaqdan çəkdirsin.
Allah sənə qotur versin, dırnağ verməsin.
Allah səni dilbilməzə rast eləsin.
Allah səni səndən əskiklərə güldürsün.
Allah səni çox görsün.
Allah ürəyini üzsün.
Allahın bəlasına gələsən.
Allahdan istəmişəm, sağ gözün tökülsün.
Anan-bacın ağlar qalsın.
Anan vayına otursun.
Aşın asılı qalsın.
Bacandan tüstü çıxmasın.
Balan bəlaya düşsün.
Balanın vayın alasan.
Başın daşlı olasan.
Başına bəla gəlsin.
Başına daş düşsün.
Başına qərə ləçəy bağlıyasan.
Başına kül ələnsin.
Başına od ələnsin.

Boğazına boğma[15] çıxsın.
Bolluq görmüyəsən.
Boynun altında qalsın.
Can verəndə su verənin olmasın.
Canın oda qalansın.
Canına qurd daraşsın.
Çanağın öz başında sınsın.
Cavanlıq görmüyəsən.
Çırağın sönsün.
Çox işləyəsən, az yeyəsən.
Çörək atlı olsun, sən piyada.
Çörəyin para olsun, günün qəra.
Çörəgin dizinin üstündə olsun.
Çörəgin soyuq olsun, suyunsa isti.
Dalınca bir qara daş.
Dəli olub çöllərə düşəsən.
Dərdli ürəgindən su içəsən.
Dilin ağzında qurusun.
Dilini əqrəb çalsın.
Dilinə yara çıxsın.
Dörd divar arasında uluya-uluya qalasan.
Duz kimi əriyəsən.
Evin başına uçsun.
Evində bayquş banlasın.
Evin xaraba qalsın.
Fələkdən ağ gün istiyəsən, qara gün göndərsin.
Fələk evini dağıtsın.
Fələyin oyununa gələsən.
Fələk dağıtsın yurdunu.
Gen dünyada yerin dar olsun.
Gen günün olmasın.

---

[15]Boğma – yara, şiş

Getdigin yollar bağlı olsun.
Gedib qayıtmıyasan.
Gəlinə möhtac olasan.
Gəlin umuduna qalasan.
Görüm başına mən ağırlıqda daş düşsün.
Görüm dilin ağzında şişsin.
Görüm dilin ağzında kömürə dönsün.
Görüm səni isdi ocağ üzünə həsrət qalasan.
Göz dağı çəkilsin ömrünə.
Gözün çıxsın düşsün ayağının altına.
Gözünə it dirsəyi çıxsın.
Gözünə tikan batsın.
Gözünün yaşı yamanlığ olsun.
Gözünün yaşı qurumasın.
Hara getsən, boş qayıdasan.
Hamıya borclu qalasan.
Heç qapı açmayasan.
Heç ümidin qalmasın.
Heç üzünə qapı açılmasın.
İmansız öləsən.
İstədigin ürəgində qalsın.
Kəfənin yarımçıq qalsın.
Kürəyinə qara yara çıxardasan.
Qada görəsən.
Qana boyanasan.
Qadam ürəyinə gəlsin.
Qapun açılmasun.
Qazancın evinə girməsin.
Qır qazanına düşəsən.
Qızınnan yarimiyəsən.
Qolun qırılsın.
Qolun qoynunda qalsın.
Mərdimazar başının üstündən əskik olmasın.

Meyidin ortalıxda qalsın.
Min dərdə tuş gələsən.
Dünyanı bu dünyada görəsən.
Ocağın sönsün.
Ocağın qaralsın.
Od düşsün evinə.
Odda yanasan.
Oğul çiynində getmiyəsən.
Oğul üzünə həsrət qalasan.
Oğulsuz öləsən.
Oxlanasan.
Öləndə su tapılmasın.
Öləsən.
Ömrün uzun, günün qara olsun.
Övlad deyəndə dodağın yeddi yerdən parçalansın.
Paltarın buxçalansın.
Paltarın təzə qalsın.
Payın palçığa düşsün.
Pis günə düşəsən.
Rahatlıq tappıyasan.
Razı gedib, narazı qayıdasan.
Sağ əlin sol kürəyindən, sol əlin sağ kürəyindən çıxsın.
Sel aparsın səni.
Səni görüm bir yerdə oturub, min yerdən iy alasan.
Səni görüm dilin çürüsün.
Səni görüm dərdə düşəsən.
Səni görüm canından çəkəsən.
Səni görüm çubuğunun başından itlər yapışsın.
Səni görüm öləndə üstünə molla tapılmasın.
Səni görüm ilan çalsın.
Səni görüm ilan kimi çöllərdə mələr qalasan.
Səni görüm işıq görməyəsən.

Səni görüm yeddi il bir üzün üstə yatasan, yeddi il də o biri üzün üstə yatasan.
Sol gözünün ümüdünə qalasan.
Su istəyəsən, verənin olmasın.
Susuzluqdan öləsən.
Tabutunun altına girən olmasın.
Taleyin heş gülməsin.
Tərs gələsən.
Toy çörəgin xeyrətə[16] paylansin.
Umudun olmasın.
Uşaxlarınnan çəkəsən.
Ürəyin yansın.
Ürəyin közlənsin.
Üzünə qara yara çıxsın.
Üzün gülməsin.
Üzüləsən.
Yarımçılıq yolda qalasan.
Yarsız qalasan səni.
Yığdığın yasında işlənsin.
Yoluna qəra ilan çıxsın.
Yükün dağdan ağır olsun.
Yükün duz yükü olsun.
Zəlil qalasan.

[16]Xeyrət – yas, hüzr

## DEYİMLƏR

Ağrumamış başıva sakkız yapışdırma.
Ağız deyəni qulaq eşitmir.
Ağzını qoyub Allah yoluna.
Ağzını xeyirliyə aç!
Ağzının qaytanı yoxdur.
Araları qıl vurmaz.
Arının yuvasına çöp uzatmaq.
Atdan enib eşşəyə minmax.
Başmağını cütlədilər.
Başı böyüksüz qalıb.
Başı dumanlıdır.
Başı özünün deyil.
Başım qarnıva.
Başım vay demiyib.
Başmağımı geyə bilərsən, yerişimi yeriyə bilməzsən.
Başına p..... qoyublar.
Başıva xarə yaxıb.
Başın keçəl, gözün kor, bəs sənin haran yaxşıdır?
Bazarın gözün çıxardıb.
Belə sözlərnən məmov.
Bir əli bağda, bir əli dağda.
Bir dənə düz bağırsaq qarnında tapılmaz.
Bu xarədən toz qalmaz.
Bu işdə sümük sındırıb.
Bu səkkəli[17] dəyirmanda ağartmışam.
Bu sözlərnən Fatuya tuman olmaz.
Boğaza çatı salmaq.
Canını cibində gəzdirir.
Cəfər Təyyar namaz qılır.

---

[17]Səkkəl – saqqal

Çalmamış oynayanlardandur.
Çanax öz başında sındı.
Çaya getsə, canı soğrular.
Çaya çatmamış tumanın çıxardır.
Çənənə çox yol vermə.
Çərxini çəmbər eləməx.
Çilli çovuşdur.
Çömçə tutan sənə tərəfdir.
Dam olmadın, eşik ol barı.
Dəlidən doğru xəbər.
Dəlidir, başını vursun divara!
Dilimin bəlasından sana.
Dili ilanı yuvasından çıxardar.
Dörd gözlə ağlur.
Elə bil daşdan talaşa qopub.
Elə bil buz üstünnən dana keçir.
Elə bilir, yuxa arasında halvadır.
Elə bir daşdır ki, götürən də peşmandır, götürməyən də.
Elə keçəl deyil ki, qartmağı yerə tökülə.
Elə söz de ki, kalı tökülsün, dəymişi qalsın.
Elə söz deyir ki, bişmiş toyuğun gülməyi gəlir.
Elə yol gedir, su qarnında tərpənmir.
Eşit, inanma!
Eşşək gəlib, eşşək getdi.
Ev xoruzudur. (Ev pəhləvanıdır).
Evə girən evin dibin gözlər.
Əli kirişlidi.
Əli işdə, gözü dərvişdə.
Ərinqənlüxdən[18] ərməniyə "dayı" deyir.
Ətəyin belinə vurdu.
Əyağı qarnındadır.
Gecə-gündüzüm bir olub.

[18] Ərinqənlüxdən – tənbəllikdən

Gecəni gündüzə qatmışam.
Göydən zənbil ilə düşməz.
Gözdən düşüb.
Hamını ley vurdu, mənim kimi tükü dağılan olmadı.
Hamıya aftafa-ləyən, bizə sarımsaqdöyən.
Hər şeyə dodaq büzmə.
Xurcununa qoyublar.
İki əli yaxasındadır.
İki qıçı var idi, iki qıçı da satın alıb qaçdı.
İlan kimi qıvrılır.
İlan yeyib, əjdaha olub.
İlan yeyib, əfi olub.
İmamzadənin qəndili əyildi.
İt evimdə sümük axtarır.
İt kimi quyruq bulayır.
İt kimi yeddi canı var.
İt kökündəyəm, kəllə-paça ütürəm.
İtimizin qurd dayusudur.
İtimiz də var, kütümüz də var.
İtin boynuna ciyər asma.
İtin dilini bilir.
İtin dilini bilir, cəhənnəmin yolunu.
İtdən olar it köpək oğlu.
İşim şuluqdur.
İynə üstündə oturan kimi oturub.
Kar könlündəkini anlar.
Keçəl suya getməz.
Kor-kor, gör-gör!
Kor kora deyər: "Çırt, bu yandakı gözünə".
Kölgəsindən qorxur.
Kölgəsini qılınclayır.
Körpü qaldı çayın o tayında.
Kürkünə birə düşüb.

Küp yanında küpçələr.
Qaşıq-qaşıq yığır, çömçə ilə paylayır.
Qaşıqla verir, çömçə ilə başıma vurur.
Mənim ayağım biləni sənin başın bilməz.
Molla, azar olmasın?!
Nə salam, nə kalam.
Nə sən dedin, nə mən eşitdim.
Nə sən gəl, nə ilin axır çərşənbəsi.
Nə iyi var, nə səsi.
Ölü eşşəyin ... çəkənlərdəndir.
Ot üstə su tökmax.
Oğrunun yadına daş salma.
Oxumamış molladı.
Onun dişin sayıblar.
Onun gözü əyyardır.
Onun puluğu yağlıdır.
Onun yumurtasın dişimə vurmuşam.
Oruc görmüşəm, oruc tutmağın görməmişəm.
Oturan yerli də hürür.
Ölü kimi yatır.
Ölüdən pay umur.
Ölüb, ağlayanı yoxdur.
Ölüb, ölümdən qayıdıb.
Örkən üstə darı sərib.
Öz çörəqi öz süfrəsində yeməx.
Öz daş-tərəzisi ilə çəkir.
Öz duzunuzla yeyin!
Öz əlimdi, öz yaxam.
Öz səsi özünə xoş gəlir.
Öz yağı, öz başına.
Özün vurur atır simə.
Papağını məscidə atsalar, gedib götürməz.
Papağının zağarası gedib.

Pay verdi, dalınca gəldi.
Pirimizə daş atmayın.
Pişik öldürür, adam qorxudur.
Sandıq tulasıdır.
Sarı yağdan tük çəkir.
Sən öl, mən Ağcaqabulda sənin üçün dəvə kəsim.
Sərçəni bülbül adına satır.
Sən get aşıq-aşıq oynamağa.
Sudan qaymaq yığır.
Şah çiçək çıxardıb.
Şalbanın bir ucu sənin çiynindədir.
Şeytan ilə darı əkmişik.
Şeytana papış tikər.
Taxmamış takkuldadır.
Tarlasında darısı yox, damında qarı.
Tarixi-Nadiri əzbər bilir.
Teşti damdan düşüb.
Təbil döysən, eşitməz.
Tənbəllikdən müsəlman olub.
Tikan (iynə) üstəyəm.
Toy tulasıdır, arada gəzir.
Toyuq deyil ki, qıçın bağlıyım.
Tövləyə buraxmırlar ki, quşqun oğrayar.
Tumanbağısı boşdur.
Tutivarı[19] əzbərləyəndir.
Tutu, çiyələyi birdən dəyib.
Unumu ələdim, ələyimi asdım.
Unumuz ələnib, ələqimiz as olub.
Ürəqinin bəndi qırıldı.
Ürəqində qənd əzilmax.
Üz əttəndi.

[19] Tutivarı – tutuquşu kimi

Üzündə şeytan tükü var.
Üzüvüzün nurundan bulaqlar da qurudu.
Yeddi göydə bir ulduzu yoxdur.
Yeddi məhəllədən qovulmuş it kimidir.
Yeddi məhəlləyə çörək verir.
Yıxılanın qanlısıdır.

## SAYALAR

Açdım, yazılar gördüm,
Nə çox arzular gördüm.
Çoban dağdan gələndə,
Bollu quzular gördüm.

Altı bulaq içərəm,
Üstü zəmi piçərəm.
Qoluna gün düşəndə,
Bil, canımnan keçərəm.

Arandan gələr sürü,
Yayda çıxar dağlara.
Yeyər, yeyər, gərnəşər,
Ayağı ilə yer eşər.
Gəzər dağlar döşünü,
Buynuz vurar, döyüşər.

Bax, çıxıb dağa ceyran,
Çiynində darğa ceyran.
Xoş gəldin, səfa gətdin,
Bizim bu yaza ceyran.

Gətir yorğun-arına
Bir kasa ayran, ceyran.
Qalanın ver sayaya,
Salım sayalar, ceyran,

Qışdan qalan qovurma,
Qonşulara sovurma.
Gəlin, əti yandırıb
Quyulara doldurma.

Ver sayaçının payın,
Üstündən yetir çayın.
Bayram günü bağışla,
Qışdan qalan un tayın.

Bu gəlin oğlan doğsun,
Yüz əlli, doxsan doğsun.
Adların Əli qoysun.
Əli sənə yardımdı,
Sayaçıya yardımdı.

Bala-bala çəpişlər,
Yovşanın başın dişlər.
Gedər yaylağı gəzər,
Gələr aranda qışlar.

Bu gəlin Urmuludur,
Pinti, boğaz quludur.
Təkəm onnan küsübdür,
Dili tikan koludur.

Bu, gözəl şeytan təkə,
Qaşları şeytan təkə.
Gözləri mərcan təkə,
Boğazı zınqırovlu,
Tühləri xolı-xolı,
Başı ipəh kakilli,
Bəzəhli, xallı, bıllı,
Əyrəti qıllı təkə,
Uzun saqqalı təkə.

Bu qaya daşlı qaya,
Çınqıllı, daşlı qaya.
Hər donundan su axır,
Çeşməsi yaşlı qaya.

Bu qaya almalıdı,
Alması qalmalıdı.
Yazda yediyim burda
Süd idi, qaymağıdı.

Bu təkə, axta təkə,
Boynunda noxta təkə.
Gün olur gah satılar,
Gah çıxar taxta təkə.

Bu təkə, arıq təkə,
Dabanı cırıq təkə.
Təkəmə bir pay gətir,
Tüklərini say, gətir.

Bu təkə, nəzər təkə,
Qapıları gəzər təkə.
Gəzəyən arvadların,
Qabına...... təkə.

Bu təkə, axta təkə,
Boynundan nuxta təkə.
Yayda qul tək satılır,
Qorxur satıla təkə.

Bu oğlumun deyəsi,
Bu qızımın deyəsi.
Sarı suyu qalanda,
Boz köpəyə tökəsi.

Saya sayamın başı,
Saya bilməyən naşı.
Saya bilmək yaxşıdı,
Qərib yerin yoldaşı.
Sayılmaz çayın daşı,
Bilinməz saya yaşı.
Yeni iliniz bol olsun,
Təndir aşı doyması.
Toy olsun burda, gələk,
Toy düyüsünü yeyək.
Saya, sayanı deyək,
Gətir kişmişi, yeyək.
Bu təkə, yarış təkə,
Qonşulardan küsmüşdün,
Bayramdı, barış, təkə.

Bu təkəm oyun eylər,
Qurd ilə oyun eylər,
Yığar Gilan düyüsün,
Çəpişin toyun eylər.

Bu təkəm, gözəl təkəm,
Təkəmin nazın çəkəm.
Bu təkəm də olmasa,
Dünyada təkəm, təkəm.

Bu təkəm, arıx təkəm,
Dabanı yarıx təkəm,
Tükləri çadır, cecim,
Dərisi çadır təkəm.

Bu təkənin bəndi var,
Min bir cürə fəndi var.
Hər qapıda oynasa,
Bir nəlbəki qəndi var.

Bu təkəm yeyər, yatar,
Oynayar, şıllağ atar.
Gəzəyən arvadlara,
Söz qoşar qatar-qatar.

Canım alabaş qoyun,
Gözü qələmqaş qoyun.
Qaranlıq gecələrdə
Çobana yoldaş qoyun.

Canım, a qəmər qoyun,
Quzusu əmər qoyun.
Yeyən sənin sayəndə,
Bağlayıb kəmər, qoyun.

Canım, a şəkil qoyun,
Belində kəkil qoyun.
Qaranlıq gecələrdə
Arxaca çəkil, qoyun.

Canım qoyunun ağı,
Gedib dolanar dağı.
Otlar qara qıyağı,
İçər sərin bulağı.
Acı olar dırnağı,
Şirin olar qaymağı.
Qarılar tutar yağı,
Olar payız dayağı.
Gəlin eşər qoylağı,
Qızlara cehiz olar,
Çobana çarıq bağı,
Uşağa bələk bağı.

Canım, a şirin qoyun.
Qoza o telin qoyun,
Südlə doldur əmcəgin,
Sevindir elin, qoyun.

Canım, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver barış, qoyun.

Canım, a kürdü qoyun,
Otladı yurdu qoyun.
Ay qaranlıq gecədə
Ayağın yerə tapdar,
Görəndə qurdu qoyun.

Canım, a saçax qoyun,
Bərədə qaçax qoyun.
Mənə əyri baxanın
Gözünə bıçax, qoyun.

Canım, a gəlin qoyun,
Qazana telin qoyun.
Yeyən sənin ovcundan,
Gətirib gəlin, qoyun.

Canım başlı boz köpək,
Qoyuna yeri deyəsi,
Əli xınalı qızlar,
Qoyunlar yolun gözlər.
Xırda-xırda gəlinlər,
Əllərində çanaqlar,
Bərənin yolun gözlər,
Sağam, sağam deyələr.
Çoraqlarda bozalar,
Könlü gəlsə, saz alar.

Çoban, gözlə qoyunu,
Yolda birdən sozalar[20].
Sağa yatar yüz alar,
Sola yatar yüz alar.
Əli çanaqlı qızlar,
Qoyun yolunu gözlər.
Ağ biləkli gəlinlər
Sağam, sağam desinlər,
Bal-qaymaq yesinlər.

Dağdan enən sürüdü,
Dağı duman bürüdü.
Gəlin, südü az qaynat,
Qazanda süt çürüdü.

Əyri evdən ev olmaz,
Gəl burda daldalanaq.
Deyək, sayanı çalaq,
Gəlindən bir pay alaq.
Verməsə bayramlıq,
Ərin gözündən salaq.

Fərli keçi hərlənir,
Dul arvadı qarlanır,
Çanqır-çanqır çalırı,
Pay qonşudan alırı.
Gəlin, uşaq yığışır,
Hay-buduruq[21] salırı.
Fərli keçi fərlidir,
Pisi qınanmalıdır.
Payımızı tez gətir,
Dam muğdalar şərildir.

Gəlinin dodağı bal,
Durub qabağında lal.
Görək tez ol, pay gətir,
Sayaçını yola sal.

Gəlin qolbağın versin,
Qoyunun yağın versin.
Boş qaytarsa təkəmi,
Əri talağın versin.

Gəlin, gəlin, qız gəlin,
Əli-ayağı düz gəlin,
İnciləri düz, gəlin.
Yeddi oğlan istərəm,
Bircə dənə qız, gəlin.
Gəlinin dodağı bal,
Durub qabağımda lal.
Gəlin, tez ol, pay gətir,
Sayaçını yola sal.
Qardaşından qalanı,
Adaşından qalanı,
Nənə-bacıdan qalanı,
Yar-yoldaşdan qalanı,
Doldur məcməyiləri,
Doyur saya çalanı.
Qara verin, ağ verin,
Qab dolusu yağ verin.
Gözəl olsun halınız,
Açsın qara malınız.
Səfa olsun yurdunuz,
Ulamasın qurdunuz.

Gəzdim dağı, dağlığı,
Yoxdur onun bağlığı.

---

[20]Sozalar – saralar, xəstələnər
[21] Hay-buduruq – səs-küy

Mal-dövlət gedər, qalmaz.
Qalar bir can sağlığı.
Sizin canız sağ olsun,
Payız buğda, yağ olsun.
Hamınız elliyincə
Damağınız çağ olsun.
Yağ verənin doğduğu
Oğlanlar oğlan olsun.
Pay vermiyənin qızı,
O da qotur qız olsun.
Qoturuna qotur düşsün,
Ona dərman tapmasın.
Qısa-mısa gələnin
Qısnacağı dar olsun.
Basa-basa gələnin
Basmacağı bərk olsun.

Kərəsindən, ağından,
Ellərin xoş çağından,
Saya sayanı deyək,
Gətir kişmişi, yeyək.

Qoyun gəli yol olsun,
Yolun sağı sol olsun.
Yaxşı otar sürünü,
Yağı, südü bol olsun.

Qoyun var, kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər dağları otlar,
Gələr obanı gəzər.

Qoyun dolsun həyətə,
Altına qab qoyulsun.
Yağından pay verənin
İkicə oğlu olsun.

Mal naxıra qatmasın,
Muradına çatmasın.
Payımı kəsən arvad,
Kişisiylə yatmasın.

Mənim təkəm dəlidir,
Ədasi gülməlidir.
Təkəmə bal gətirən
Necə də səlqəlidir.

Nənəm, a xallı keçi,
Məməsi ballı keçi.
Qayaların başında
Tutubdu yallı keçi.

Nənəm, a dəli qoyun,
Südü məzəli qoyun.
Gəlinlər cüzeminnən
Toxuyar xəli, qoyun.

Nənəm, qoyun tez doğsun,
Ay doğsun, ulduz doğsun.
Pay verən bir cüt oğlan,
Pay vermiyən qız doğsun.

Nənəm, a ala qoyun,
Yolun düz, ala qoyun.
Yeyən sənin sayəndə
Gedib qız ala, qoyun.

Nənəm, a göycə qoyun,
Gedirsən evicə, qoyun.

Yeyən sənin sayəvə
Dolanar bəkcə, qoyun.

Nənəm, a qaşqa qoyun,
Minibsən eşqə qoyun.
Yeyən sənin sayəndə
Çıxıbdı köşkə, qoyun.

Nənəm, qoyun qarası,
Qırxlığı polad parası.
Yaz günü dələməsi,
Ayazda kərənəməsi.

Nənəm, a nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Peyniri dilim-dilim,
Qatığı üzlü, qoyun.

Nənəm, a şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez yetir,
Ağlaşır uşaq, qoyun.

Nənəm, boz-ala qoyun,
Tükü toz ala, qoyun.
Yeyən sənin sayəndə
Olmaz yad ala, qoyun.

Nənəm, a xallı qoyun,
Məməsi ballı qoyun.
Sürü dağdan enəndə,
Gedərük yallı, qoyun.

Nənəm, a sarı qoyun,
Ayaqlar qarı qoyun.
Qabı bol eyləsin,
Nəslini Tarı qoyun.

Nənəm, a qatar keçi,
Qayada yatar keçi.
Qış soyuğu gələndə,
Balasın atar keçi.

Nənəm, a ballı keçi,
Əmcəgi ballı keçi.
Uca qaya başında
Tutubdu yallı keçi.

Nənəm, qoyunun ağı,
Dolandı, gəldi dağı.
Yemligini yeyibdir,
İçər sərin bulağı.

Nənəm, qoyunun ağı,
Nehrə dolusu yağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı.

Nənəm, a qızıl qoyun,
Yollara düzül, qoyun.
Kəsilməsin damazlıq,
Əmr eylə yüz il, qoyun.

Sürünün tozu gəldi,
Yayıldı, düzü gəldi.
Çobanın qucağında,
Bir əmlik quzu gəldi.

Salaməleyk, say bəylər,
Bir-birinnən yey bəylər!
Sayaçı Məmməd gəldi,
Xəyri-bərəkət gəldi.

Sayaçıya pay verin,
Çörəh verin,
Çay verin.
Bu təkəmə tay verin.

Salam deyir, say bəylər,
Bir-birindən yey bəylər.
Saya gəldi, görünüz,
Salam verdi, alınız.
Bir qoyunla bir keçi,
Ağlı qara, boz keçi.
Sayaçıya veriniz.
Saya, saya, sayalar,
Dağ döşündə qayalar.
Bu saya yaxşı saya,
Həm çeşməyə, həm çaya,
Həm Ülkərə, həm Aya,
Həm yoxsula, həm baya.
Bu saya kimdən qalıb,
Atam Adəmdən qalıb.
Atam Adəm gələndə,
Musa çoban olanda,
İsa çoban olanda.
Hatəmlərin hatəmi,
Dağda çoban olanda.
Qızıl buğda bitəndə,
Dünya binyad tapanda.
Saya sayalar sayıb,
Gün turasın atanda.

Saya, saya, sayalar,
Dağ döşündə qayalar.
Qayalar, ay qayalar,
Laçın orda yuvalar.
Ana baladan olmaz,
Yoxsa zorla alarlar.

Saya sayanı deyək,
Gətir kişmişi, yeyək.
Saya gəldi, görünüz,
Salam verdi, alınız.
Saya yaxşı sayadı,
Yatanları oyadır.

Saya sayanı deyək,
Gətir kişmişi, yeyək.
Bizə hamısı birdi,
Sizə hansını deyək?

Bahar günü seyrandı,
Hamı ona heyrandı.
Çöldə gəzən gözəllər,
Qara gözlü ceyrandı.

Saya, saya, sayalar,
Saya gəlməz, qayalar.
Saya yaxşı sayadı,
Yeri-yurdu qayadı.
Onun gözəl sözləri
Yatanları oyadır.

Saya, saya sayalar,
Çəm olubdır qayalar.
Göydəki göy buludlar,
Yorğanıdır çobanın.

Yastı-yastı təpələr
Yastığıdı çobanın.
Yumru-yumru qayalar
Yumruğudu çobanın.
Əlindəki dəyənək
Qalxanıdır çobanın.
Yanındakı boz köpək
Yoldaşıdı çobanın.
Ağzı qara canavar
Düşmənidir çobanın.

Saya, saya, sayalar,
Dərələr, ay qayalar.
Dağları, dərələri,
Daşları, bərələri,
Oturun, qoyun sağın,
Bol olsun kərələri.

Saya, saya, sayalar,
Dolu düşüb qayalar.
Sürünü qaytar gətir,
Sel basar, ay aparar.
Saya, saya, sayadan,
Qoyun gəlir qayadan.
Sayaçıya süd verin,
Damazlığı mayadan.

Saya, saya, sayadı,
Onun yeri qayadı.
Qoyun baxar dağlara,
Seltək axar bağlara.

Saya, saya, sayadan,
Təkəm gəlir havadan.
Təkəmə arxalıq ver,
Xanım, evin avadan.

Saya gedir, görürsüz,
Onu yola salırsız.
Payız artsın elbəel,
Sağ-salamat qalasız.

Sizin canız sağ olsun,
Payız buğda, yağ olsun.
Hamınız elligincə,
Damağınız çağ olsun.

Sürüdə var ağ qoyun,
Qalın sizi sağ, qoyun.
Quyruğizi bəsləyin,
Qabaqda qışlaq qoyun.

Sürünün gözü qoyun,
Dolan gəl düzü, qoyun.
İldə cüt əkiz gətir,
Sevindir bizi, qoyun.

Süründə var az qoyun,
Kef-damağı saz qoyun.
Çoban qurddan çəkinsə,
Çıxammaz çölə qoyun.

Saya, saya, sayalar,
Dağ döşündə qayalar.
Qayadan endi qoyun,
Dolaşdı bəndi qoyun.
Süd-qaymağı çox elə,
Sevindir kəndi, qoyun.

Saya-saya, sayalar,
Keçi ötən qayalar.
Yerin dağ olsun, çoban,
Kefin çağ olsun, çoban.
Sürünü yaxşı saxla,
Üzün ağ olsun, çoban.

Saya gəldi, görürsüz,
Salam verdi, alırsız.
Pay verə qoyun, getsin,
Sağ-salamat qalırsız.

Telinə gül bağlar təkəm,
Buynuzların yağlar təkəm.
Qırnas olan arvadların,
Çölməyinə qığlar təkəm.

Təkə, ay axta təkə,
Boynunda nuxta təkə.
Təkə getdi xanlığa,
Üz qoydu yamanlığa.
Kişi evidir bura,
Can deyəsən hər çora.
Ocağının tüstüsü,
Cığırı bura-bura.
Bardaşını qursana,
Fətir yeyib dursana.
Töksən torbacığa,
Səfərdən qalan şora.
Təkəm əcindən oldu,
Atdılar samanlığa.
Təkəm getdi Mərəndə
Tamaşadı gələndə.

Təkəm oynar, toz eylər,
Bayramı peşvaz eylər.
Toplayar qış zumarın,
Qışı əlvan yaz eylər.

Təkəmin xanlığı var,
Xanlığı, qanlığı var.
Bu gələn xan yanında
Beş onluq donluğu var.

Təkəmin ünü gəlsin,
Bir döşək yunu gəlsin.
Pay vermiyən gəlinin,
Üstünə günü gəlsin.

Təkəm niyə xar yesin,
Alma yesin, nar yesin.
Təkəmin payın yeyən
Görüm zəhrimar yesin.
Təkəm min oyun eylər,
Quzunu qoyun eylər.
Yığar Gilan düyüsün,
Qızların toyun edər.

Təkəm, təkəm, üç qoyun,
Bizim dağı keç, qoyun.
Bir sürü sal oylağa,
Birin elə beş, qoyun.
Yoldaşım saya çalaq,
Xoş günü burda qalaq.

Təkəm təkəmə naz edər,
Ellərə avaz edər.

Yığar el-obanı,
Bayramı pişvaz edər.

Təkəm-təkəm ağlama,
Qol-qıçıvı bağlama.
Bayrama day nə qaldı,
Nə qaldı, nə qalmadı,
Bir əllicə gün qaldı.
Əlli günü say, otur,
Qarmaqla, güzü götür.
Əlli günün gecəsi,
Sağmal subay gecəsi.
Sayan yağış yağması,
Sarmaşıq ot bitəsi.
Qarşımızda laləzar,
Nədən çəkər nalə, zar.
Bu gələn tazə yazı,
Dahi çəkmə nalə, zarı.
Oldu qına etmə ar,
Gələn əlin qısma dar.
Ver sayaçının payın,
Oğlun olsun sənə yar.

Qoyun nədən hasildi?
Kimyadan, topraqdan.
Bizlərə də gətirin,
Şişliyindən, yağından,
Bir bala qab sağından.
Təkəmi tez sal yola,
Özünə bir pay gətir.
Payın vaxtında gətir,
Yubanacaq, çay gətir.

Toğlu kəssən, at olar,
Çobana fürsənd olar.
Sürüdən ayrı düşən
Yüz qurda qismət olar.
Yaxşı adam çox yaşar,
Vay pisə ki öləndə.
Kül təkənin başına,
Qız anası olanda.

Yeyib dağlar gülünü,
Südlə dolub yelini.
Onu sağan gəlinin,
Xınalayın əlini.
Xırıldayan köpəkdi,
İstədiyim ürəkdi.
Bayram günü sevindir,
Pay verdiyin köynəkdi.

## BAYATILAR

Acı-qıcı yaprağı,
Astanalar torpağı.
Kim balamı istəməsə,
Gözünə bibər yaprağı.

Açıq qoy pəncərəni,
Gözüm görsün gələni.
Necə qəbrə qoyalar,
Yar dərdindən öləni?

Aftafanı doldurdum,
Gül dibinə qoydurdum.
Alma kimi yar sevdim,
Heyva kimi soldurdum.

Aftaha qum-qum eylər,
Yar məni qəmgin eylər.
Top qara birçəkli oğlan
Sərtipə qulluq eylər.

Aftafanın qırnası,
Yoxdu yarın vəfası.
Qırmızıdan don tikdim,
Qırmızıdan yaxası.

Aftafanın lüləsi,
Yoxdu yarın vəfası.
Yara bir köynək tikdim,
Qızılgüldən yaxası.

Ağ at, yalın çürüsün,
Xətti-xalın çürüsün.
Apardın gətirmədin,
Görüm nalın çürüsün.

Ağ biləklər, gül əllər,
Dərdim demə, güləllər.
Möhtac olan kimsəyə
Hey deyərlər, güləllər.

Ağır dağlar əndərim,
Üzün bəri döndərim.
Haçan bir “hə” deyərsən?
Elçiləri göndərim.

Ağlaram ağlar kimi,
Dərdim var, dağlar kimi.
Xəzəl olub tökülləm,
Yerlərə bağlar kimi.

Ağlayallar, güləllər,
Göz yaşını siləllər.
Keçən günün qədrini
Gələn gündə biləllər.

Ah, fələkin bəxti kəm,
Falı da kəm, bəxti kəm.
Fələkə neynəmişdim,
Fələk baxdı mənə kəm?

Al təsbehin zikr elə,
Hər nemətə şükr elə.
Yük ağır, mənzil irağ,
Gəl bu yola fikr elə.

Al almanın dördünü,
Sev gözəlin mərdini.
Alsan da bir gözəl al,
Çəkmə çirkin dərdini.

Ala gözdə qara var,
Cigərimdə yara var.
Nə mən öldüm qutardım,
Nə dərdimə çara var.

Alma atdım narlığa,
Güvənmə bu varlığa.
Gözəllik sənnən gedər,
Ərin düşər darlığa.

Alma atdım, nar gəldi,
Köynək biçdim, dar gəldi.
Qapıya kölgə düşdü,
Belə bildim, yar gəldi.

Alma budaqda qaldı,
Dərmədim, bağda qaldı.
Oğlan yaman yeridi,
Qız köçü dağda qaldı.

Almanı atan bilər,
Şaftalı satan bilər.
Gözəl yarın qədrini
Bir cavan oğlan bilər.

Armud ağacı haça,
Əlim dolaşdı saça.
Bir mərd oğlan isdərəm,
Məni götürə qaça.

Apardı bəyat məni,
Bir zülfü səyat məni.
Aparırsan sən apar,
Aparmasın yad məni.

Apardı xasa məni,
Sel gəldi basa məni.
Getməgi gerçəg oldu,
Batırdı yasa məni.

Aparıb xəyal məni,
Bir yadına sal məni.
Bas bağrına saz kimi,
Həzin-həzin çal məni.

Araz, Araz, xan Araz,
Min göldən qalxan Araz.
Sevdiyim gəmidədir,
Gəl eyləmə qan, Araz.

Araz başdan bulanmaz,
Keçər daşdan, bulanmaz.
İki həsrət qovuşsa,
Suyu yaşdan bulanmaz.

Araz qırağındayam,
Xatın barmağındayam.
Qardaşa toy eylirəm,
Həna pərgarındayam.

Arazı buz bağladı,
Yanı yarpız bağladı.
Babam evə gəlmədi,
Ürəyim köz bağladı.

Arxalığım dardarı,
Gəl başımın sərdarı.
Evimizə gəlmirsən,
Küçəmizə gəl barı.

Arxalığın cüt yaxa,
Yaxana yar gül taxa.
Baş qoyum dizin üsdə,
Can verim baxa-baxa.

Armud ağacı əli,
Üstündən ipək xəli.
Altında namaz qılaq,
Ya Məhəmməd, ya Əli.

Ataram, hay ataram,
Bağlı qapı açaram.
Yarı vəfasız görsəm,
Baş götürüb qaçaram.

Atın qaşqa qabaqdır,
Yugrək sarı qabaqdır.
Dilin qurusun, xoruz,
Niyə dedin sabaxdır?

Atın qoşuna gəlsin,
Xalı xoşuna gəlsin.
Hərkəs məni qınarsa,
Onun başına gəlsin.

Atlı gələr, atlanar,
Tez yığmasan, ot yanar.
Tayalar qurulmamış,
Nişanlılar atlanar.

Aşığam, dilim ağlar,
Sızıldar, simim ağlar.
Sən öldün, mən ağladım,
Mən ölsəm, kimim ağlar?

Aşıq, gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

Aşıq bağ arasında,
Duman dağ arasında,
Şəm kimi alovlandım,
Yandım yağ arasında.

Aşığın qanı qara,
Dərdi çox, qanı qara.
Tutun qoyun qəfəsə,
Göndərin canı yara.

Aşiqəm, mən də dada.
Ləbindən mən də dadam.
Yetişirsən özün yetiş,
Yetişməz bəndə dada.

Ay çıxdı yanı-yanı,
Durmur barmağım qanı.
Yastıq-döşəkdən soruş,
Hanı döşək sultanı.

Ay aydındı, ayrılmaz,
Sürmə gözə yayılmaz.
Nişanlısı o qızdan
Öpməyinən ayrılmaz.

Ay çıxdı qadir Allah,
Taqsırım nədir, Allah?
Ya mənim sevgilimi,
Ya mənə səbir, Allah.

Ay batdı, qaş qaraldı,
Didəmdə yaş qaraldı.
Dərdimi deyə-deyə,
Dağ yandı, daş qaraldı.

Ay çıxdı, ayaz oldu,
Su endi, dayaz oldu.
Gənc ömrüm ümüd gözlə,
Saçlarım bayaz oldu.

Ay çıxdı, bədir oldu,
Yar bizdən gedər oldu.
Bahar buludu kimi
Əqlim dərbədər oldu.

Ay çıxdı bədir, Allah
Can dosta nəzir, Allah.
Ya canım cana yetir,
Ya cana səbir, Allah.

Ay çıxdı, dalda durdu,
Gör nə xəyalda durdu.
Al yanağın üsdündə,
Zülflərin dalda durdu.

Ay çıxdı tərsəsinə,
Oyandım yar səsinə.
Yarım ceyran olubdu,
Düşmüşəm ənsəsinə.

Ayrıldım özlərinnən,
O şirin sözlərinnən.
Bilsəydim ayrılıq var,
Öpərdim gözlərinnən.

Ay deyiləm, ulduzam,
Gəlin deyiləm, qızam.
Oğlan, keş, gəl içəri,
Evdə təkəm, yalqızam.

Bağa girməsəm, olmaz,
Gülün dərməsəm, olmaz.
Yarın bacısın gördüm,
Özün görməsəm, olmaz.

Bağında üzüm qaldı,
Dərmədim, gözüm qaldı.
İki əmi qızının
Birində gözüm qaldı.

Baxçaları bəzərəm,
Ayrılığa dözərəm.
Yardan xəbər gəlməsə,
Təkcə, yalquz gəzərəm.

Bağlarında çağala,
Dövrəsin yarpaq ala.
Tanrı bir iş işləyə,
Sevgi, sevgisin ala.

Balaca cib pıçağı,
Oldum ellər qaçağı.
Bir səhər gəl, bir axşam,
Bir də günorta çağı.

Başmaqların yağlaram,
Üstünə gül bağlaram.
Gecələr beyvax[22] gəlsən,
Dəsmal allam, ağlaram.

Başım üsdə,
Əlin qoy başım üsdə.
Canım uğruna qurban,
İtirsəm başım üsdə.

Başında sarı sancağ,
Yar misgin, mən utancağ.
Xeyrin, barın görmədim,
Oduna yandım ancağ.

Başında çit hasarı,
Köksün cənnət basarı.
Bilseydim ayrılıq var,
Qurmazdım bu bazarı.

Bayatının axırı,
Xumar gözlər baxırı.
Qəm çəkmə, dəli göylüm,
Yar sənindir axırı.

Bazara pərdə gəldi,
Dolandı, bir də gəldi.
Qürbət yerdə çox qaldım,
Ürəyim dərdə gəldi.

Biçarə dalda sına,
Namərd nə, daldası nə?
Ər gərək qarşı dura,
Durasan daldasına.

Biçarəyəm biçarə,
Biçarəyə nə çarə?
Qapım haqdan bağlanıb,
Kimə gedim açara?

Bir ah çəkdim ürəhdən,
Min dam düşdü dirəhdən.
Yarsız yaram sağalmaz,
Təbib gəlsə Firəngdən.

Bir donum var çin-çini,
Mən neynirəm elçini.
Əlimdən uçurtmuşam,
Təbrizli göyərçini.

Bir gül gördüm yaxında,
Göz qamaşar baxana.
Sənin camalın bəzər,
Gün yerindən cıxana.

Bir quş gəlir Yəməndən,
Dən götürür çəməndən.
Bu bir Tanrı işidir,
Nə səndəndir, nə məndən.

Bir kəs gəldi pənahsız,
Qərib yarsız, diyarsız.
Ay ellər, qınamayın,
Mən ah çəksəm, yanarsız.

---

[22]Beyvax – vaxtsız, gec

Bir qız sevdim çox yaman,
Başımnan getməz duman.
Görənə atəş olar,
Yandıqca deyər, anam.

Bir yarım var Bağdaddı,
Sözü şəkərdən daddı.
Gözləri əsir edər,
Min piyada, min atdı.

Bu bağı bağ eylərəm,
Dövrə çardaq eylərəm.
Mən biləm yarım gəlir,
Yolun çıraq eylərəm.

Bu cığır çeşmə yolu,
Gedənlər gəlir, dolu.
Sənək, qulpun qırılsın,
Qırıldı yarın qolu.

Bu dağda maral gəzər,
Tellərin darar, gəzər.
Mən yara neyləmişəm,
Yar məndən kənar gəzər.

Bu dağlar daşdan olmaz,
Hər üzük qaşdan olmaz.
Araz, çox da öyünmə,
Qardaş, qardaşdan olmaz.

Bu dağda quzu gördüm,
Tükü qırmızı gördüm.
Açdım cənnət qapısın,
Sevdiyim qızı gördüm.

Bu dağın qarı mənəm,
Gün vursa ərimənəm.
Yüz il torpaqda qalsam,
Cavanam, çürümərəm.

Bu dağda dolu hanı?
Bərənin solu hanı?
Deyirlər yaylaqdadır,
Yaylağın yolu hanı?

Bu dağın yüz hasarı,
Dolan gəl bizə sarı.
Qurbətdə qalan canım,
Çəkərsən yüz azarı.

Bu dağlar kömürdəndi,
Geçən gün ömürdəndi.
Fələgin bir quşu var,
Dimdigi dəmirdəndi.

Bu dərənin gümanı,
Oğlan, qaytar dəvəni.
Get babava deginən,
Versin bizə nəvəni.

Bu gəlişdə bar gəlir,
Göydən yerə qar gəlir.
Namərdə arxa durmaq
Mərd igidə ar gəlir.

Burdan Təbrizə kimi,
Qar yağıb dizə kimi.
Bir dözmüsən, bir də döz,
Gələn payıza kimi.

Bu gülü tutammıram,
Yalquzam, yatammıram.
Əlaqəm çoxdu sənə,
Neyləyim, atammıram.

Bu məşqə hardan gəlir,
Suyu bulaqdan gəlir.
Başına lala sancıb,
Uca yaylaqdan gəlir.

Bu sular başdan gələr,
Tökülüb daşdan gələr.
Yarı gözəl olan,
Durar obaşdan, gələr.

Bu yoldan iki qatı,
Faytunçu sürər atı.
Qoru göz bəbəyi tək,
Dost verən amanatı.

Bu yoldan ötənə bax,
Köynəyi kətana bax.
Qurbətdə gözün açma,
Açanda vətənə bax.

Bu yol yaylaq yoludur,
Qız-gəlinlə doludur.
Bulaqdan gələn qızın,
Cınqırası doludur.

Burdan uzaq Xoy, Səlmas,
Alma göndərsəm, almaz.
Deynən, almanı alsın,
Bu dünya belə qalmaz.

Bulaqbaşı zəyərək,
Zəyərəgə su gərək.
Sənin kimi oğlana
Mənim kimi qız gərək.

Bülbüllər uçdu bağa,
Qondu budağ-budağa.
Sinən bir dağ ayrıcı,
Kölgə salıb budağa.

Bostan əkdim xiyarsız,
Yar sevdim ixtiyarsız.
Payız bitdi, qış bitdi,
Bağ oldu heyva, narsız.

Bostanım, tağım yoxdur,
Güləm, yarpağım yoxdur.
Düşmüşəm qurbət elə,
Yanar çırağım yoxdur.

Cığalanın incəsi,
Gəl göylümün qönçəsi.
Bir büyün gəlib, bir sabah,
Bir də bayram gecəsi.

Çay gələr, axar gedər,
Yar ona baxar, gedər.
Yaxşılıq yaxşı qalar,
Yamanlıq çıxar gedər.

Çərşənbə çay içində,
Ox atdım yay içində.
Tanrı muradın versin,
Bu gələn ay içində.

Çəkin, halay düzülsün,
Xumar gözlər süzülsün.
Kim halaya girməsə,
Əli yardan üzülsün.

Çıxdım aya baxmağa,
Qapıya gül taxmağa.
Bizdən xına göndərin,
Yar əlinə yaxmağa.

Çıxdım, kuzə yendirəm,
Süzə-süzə yendirəm.
Necəsən bir ah çəkəm,
Dağı, düzə yendirəm.

Çıxma dama, görərlər,
Qızılgülü dərərlər.
Burada çoxdu şeytan,
Səni məndən edərlər.

Çırağın his üzündən,
Yağ damar, his üzündən.
Baş götürüb qaçaram,
Namərdin pis üzündən.

Çörlü-çöplü üzərlik,
Başı börklü üzərlik.
Müşkülü asan eylə,
Göstər hökmü, üzərlik.

Dağa tələsən yellər,
Səbrimi kəsən yellər.
Açıl qoynuma dolsun,
Vətəndən əsən yellər.

Dağda payız olanda,
Sarı sünbül solanda,
Yara elçi göndərin,
On beş yaşa dolanda.

Dağdan endim piyada,
Dərdim vardır ziyadə.
Biz həlvətdə görüşdük,
Aləmə düşdü sada.

Dağın başında qala,
Heyranam üzdə xala.
Qaş-gözünən danışma,
Öldüm, a ceyran bala.

Dağlar başı al-əlvan,
Halım olubdur yaman.
Ağzında dilin yansın,
Ay bizi ayrı salan.

Dağlar dumansız olmaz,
Sövgü yamansız olmaz.
Mən qurbanam sövgüyə,
Oxu kamansız olmaz.

Dağlara dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrimi yol üstə qaz,
Yar gələr, yolu düşər.

Dağlarda lalam qaldı,
Beşikdə balam qaldı.
Düşmən vurdu, mən öldüm,
Bir ağlar balam qaldı.

Dağlarda yaz olaydı,
Yolları toz olaydı.
Mənə yaylıq yollayan,
Güllülü qız olaydı.

Dağların başı topraq,
Çadır quraq, oturaq.
Birin sən de, birin mən,
Bəlkə qəmdən qurtulaq.

Dağların qarı mənəm,
Gün vursa, ərimənəm.
Qəbrimi quzeydə qaz,
Cavanam, çürümənəm.

Dağ üstə qar ağlamaz,
Ağacda bar bağlamaz.
Yolunda canım getdi,
Vəfasız yar ağlamaz.

Danqa-dınqılı toy gəlir,
Əsəd evindən pay gəlir.
Əsəd yeyir, qudurur,
Kərkini güjdü vurur.

Dama çıxma, iz olu,
Kot şalvarın toz olu.
Əyil, dəsmalın götür,
Mən götürsəm, söz olu.

Damdan dama gəlmişəm,
Gül dərməyə gəlmişəm.
İtirmişəm sövgümü,
Axtarmağa gəlmişəm.

Damımız dalı bulaq,
Kuzə gətir, dolduraq.
Mən yara neynəmişəm,
Yar məndən düşdü qıraq.

Dərbət başın kəsərəm,
Nanə kimi əsərəm.
Desələr yarın gəlir,
Qoşa qurban kəsərəm.

Dəryada gəmim qaldı,
Əkmədim, zəmim qaldı.
Arzun gözündə qalsın,
Necə ki mənim qaldı.

Dəryalar atdı məni,
Laqqalar uddu məni.
Bir pakın, bir napakın
Naləsi uddu məni.

Dəryalara baxaram,
Qəm içində axaram.
Nazlı sövgüm dalıyca,
Həsrət ilə baxaram.

Dəsmalın haşiyəli,
Dərdindən öldüm, dəli.
Sövgüm məni istəsə,
Əksin mənə göndəri.

Dəsmalın haşiyəli,
Dərdindən oldum dəli.
Ya dərdindən ölərəm,
Ya mənə rəhmin gəli.

Dəsmalın yasəməni,
Çıxatma yaddan məni.
And verirəm Xalıqa,
Bir yolluq atma məni.

Dəsmalın kəripdişi,
Müşküldü sevgi işi.
Gəl aparım dişçiyə,
Qoydurum qızıl dişi.

Dilimdə sözüm yana,
Kababda közüm yana.
Bərədən yarmı keçdi,
Nə baxır gözüm yana.

Dilimin altı yara,
Üstü qan, altı yara.
Dilim, səni kəsərəm,
Nə dedin küsdü yara?

Durma qapı dalında,
Gözüm qaldı halında.
Gedim deyim anama,
Gəlim qalım yanında.

Durum gedim suva mən,
Sudan alım dua mən.
Kaş ki, qaranquş olam,
Sizdə tikəm yuva mən.

Fələyin dad əlinnən,
Olmadım şad əlinnən.
Yaman yerdə yıxıldım,
Tutmadı yad əlimnən.

Endilər çaya bular,
Bəndlilər, aya, bular.
Mənim bu süt könlümə,
Vurdular maya bular.

Evləri bura deyil,
Köçüb, yurdunda deyil.
Mənim gözəl sövgülüm,
Gedibdi, burda deyil.

Evləri Dərə kəndi,
Gümüşdən sinə bəndi.
Çıxaram, yar görünməz,
Yıxaram belə kəndi.

Evləri arx boyunda,
İpək yaylıq qoynunda.
Mənlə sənin günahın,
Qalsın nənən boynunda.

Əl qavalı almışam,
Əldən-ələ salmışam.
Görəncə saralmışam,
Yarımdan ayrılmışam.

Əlində bayda gəlin,
Durubdur çayda gəlin.
Tanrı mətləbin versin,
Açılan ayda, gəlin.

Əlində su ləyəni,
Su töküm, yu ləyəni.
Mənim xoşuma gələr,
İgidin güləyəni.

Əlində su qaşığı,
Su töküm, yu qaşığı.
Gedibdi, gələ özü,
Emmizin yaraşığı.

Əlində gül oynadır,
Cibində pul oynadır.
Köpək oğlu, it oğlu,
Qız qoyub, dul oynadır.

Əlində su ləyəni,
Su töküm, yu ləyəni.
Gedibdi, gələcəkdi,
Əmmizin güləyəni.

Əmim oğlu olaydı,
Başıma şal salaydı.
Saçım hörüb tökəydim,
Bəlkə məni alaydı.

Ərəb qapdı fəsimi,
Su kəsdi nəfəsimi.
Gedin deyin anama,
Tutsun mənim yasımı.

Ərdəbil üstü çiçək,
Çin gətir, onu biçək.
Qardaş bir qız sevibdir,
Bəstəboy, qarabirçək.

Ərik daşdandı, durma,
Yolu Qaşdandı, durma.
Demişdin payız gəlləm,
Toylar başlandı, durma.

Əzən-əzən, ay gəlin,
Bağda gəzən, ay gəlin.
Gəlirlər aparmağa,
Özün bəzən, ay gəlin.

Əzizim, kimi gözlər,
Tar çalan simi gözlər.
Sağ gözüm sənə qurban,
Sol gözüm kimi gözlər?

Əzizinəm, gülərlər,
Dağda gülə gülərlər.
Dünyaca əqlin olsa,
Yoxsul olsan, güləllər.

Əzizinəm, gül əllər,
Dağda gülə gülərlər.
İgidin yoxsulunu
Dindirərlər, güləllər.

Əzizim, sərin eylər,
Meh gələr, sərin eylər,
İki dostun arasın
Bir namərd sərin eylər.

Əzizim, nəlbəkilər,
Billurdi nəlbəkilər.
Qalanın aç qapısın,
Gəldi səfərdəkilər.

Əzizim, il gecələr,
Qədrimi bil, gecələr.
Mən burda qan ağlaram,
Sən orda gül gecələr.

Əzizim, min aya dəyər,
Qaşların minaya dəyər.
Bir gün yarımnan olsam,
O gün min aya dəyər.

Əzizim, ağlayan olmaz,
Sinəsin bağlayan olmaz.
Qürbət yerdə ölənin
Yarasın bağlayan olmaz.
Əzizim, ağlayan olmaz,
Sinəsin bağlayan olmaz.
Qürbət yerdə ölənin
Qəbrini qazan olmaz.

Əzizim, kasa dolmaz,
Mərd əli kasad olmaz.
Min namərd çörəyini
Doğrasan, kasa dolmaz.

Əzizim, gedər, qalmaz,
Yaxşı, pis gedər, qalmaz.
Yaxşı dosta can qurban,
Vəfasız gedər, qalmaz.

Əzizinəm, gülə naz,
Bülbül eylər gülə naz.
Bu dünya fani dünya,
Ağlayan çox, gülən az.

Əzizinəm, gülə naz,
Bülbül eylər gülə naz.
Bu dünya vəfasızdı,
Yalnız qalar gülə naz.

Əzizim, bullar imiş,
İçməli sular imiş.
Əzrayılın adı pisdi,
Can alan bular imiş.

Əzizim, şöyxuma gəl,
Bel götür, şöyxuma gəl.
Gündüzlər görəmmirəm,
Gecələr yuxuma gəl.

Əzizim, günü gözəl,
Kölgənin günü gözəl.
Ətəginən tutaram,
Qiyamət günü, gözəl.

Əzizim, Mərəndə gəl,
Dost barın dərəndə gəl.
Bir gəldin, xəstə gördün,
Bir də can verəndə gəl.

Əzizim, Mərəndə gəl,
Gülləri dərəndə gəl.
Bir gəldin, naxoş gördün,
Bir də mən öləndə gəl.

Əzizim, baş əymənəm,
Ağacı yaş əymənəm.
Uzanıb ölsəm də mən,
Namərdə baş əymənəm.

Əzizim, qala yeri,
Yurd üstə qala yeri.
Qiyamət o gün qopar,
Yar gedə, qala yeri.

Əzizim, yar diyarı,
Yar yurdu, yar diyarı.
Alçaq ol, uca dağlar,
Görsənsin yar diyarı.

Əzizim, natarazı,
Nə daşı, nə tarazı.
Kişini yazıq eylər,
Arvadın natarazı.

Əzizim Qarabağı,
Gecənin qarabağı.
Bir cüt tərlanım itib,
Boynunda qara bağı.

Əzizim, dəryada qaldı,
Ox atdım, dəryada qaldı.
Ölməyinə yanmıram,
Qorxuram yar yada qaldı.

Əzizim, yanar oda,
Pərvanə yanar oda,
Dərdimi dağa desəm,
Od tutub yanar o da.

Əzizim, gül alanda,
Gül bitmiş, gül alanda.
Yarım yadıma düşər,
Əlimə gül alanda.

Əzizim, xar ləkəsi,
Gül üstə xar ləkəsi.
Aydan duru şey olmaz,
Onun da var ləkəsi.

Əzizim, necə yaram,
Sənə mən necə yaram.
El bilir, aləm bilir,
Mən sənə necə yaram.

Əzizinəm, ağlaram,
Dərdimə dərd bağlaram.
Qürbət bir cənnət olsa,
"Vətən" deyib ağlaram.

Əzizim, güldən allam,
Güləni güldən allam.
Gülldükdə bülbül ölsə,
Qanımı güldən allam.

Əzizim, gülə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Mən bir gedərgi qonaq,
Bir şirin dilə bəndəm.

Əzizim, sizə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Çox da zindanda qalsam,
Qurtulsam, sizə gəlləm.

Əzizim, üzdən oldum,
Söhbətdən, sözdən oldum.
Vəfasız yardan ötrü
Ağladım, gözdən oldum.

Əzizim, yazda gülüm,
Solaydım yazda, gülüm.
Burda gülmək olmasın,
Gedim bəs harda gülüm?

Əzizim, mərdə sarı,
Su gələr mərdə sarı.
Bağlasalar qol-qıçım,
Sürünnəm mərdə sarı.

Əzizim, kaman ayrı,
Qaş ayrı, kaman ayrı.
Sevişdik, ayrı düşdük,
Gəzək bir zaman ayrı.

Əzizim, mərd atası,
Doldur ver mərdə tası.
İgid özü mərd olmaz,
Olmasa mərd atası.

Əzizim, gül ayrısı,
Bülbüllər gül ayrısı.
Bir sahat ayrılmayan,
Olubdur il ayrısı.

Əzizim, alma bağı,
Alma bağı, nar bağı.
Məni səndən edəni,
Görüm geşsin çırağı.

Əzizim ay qabağı,
Bulud oynar ay qabağı.
Gülməz yetimin üzü,
Açılmaz qaş-qabağı.

Əzizim, ha səni,
Könlüm istər ha səni.
Xəstə göyül[23] nar istər,
Mənim könlüm ha səni.

Əzizim, meh dumanı,
Dağlarda meh dumanı.
Hamının yarı gəldi,
Gəlmədi Mehdim, hanı?

Əzizim, aldı məni,
Kəməndə saldı məni.
Saçların şahmar ilan,
Dolandı, çaldı məni.

Əzizim, mərdə məni,
Salma sən dərdə məni.
Ağa olmam namərdə,
Kəs qurban mərdə məni.

Əzizim, yara məni,
Öldürür yara məni.
Bir vəfalı dost yoxdu,
Yetirə yara məni.

Əzizim, gülüstandı,
Aç oxu, gülüstandı.
Bülbülün göz yaşından
Bağçada gül islandı.

Əzizim, yaza na qaldı,
Qış çıxdı, yaza na qaldı.
İnsanda təqsir nədi,
İnsaf yazana qaldı.

---
[23]Göyül – könül

Əzizim, üzüm qaldı,
Dərmədim, üzüm qaldı.
Yarımı yola saldım,
Dalınca gözüm qaldı.

Əzizim, yar bağında,
Gül biçdim yar bağında,
Deyir, kaş bir gül olaydım,
Çıxaydım yar bağında.

Əzizim, alma qara,
Geyməyə alma qara.
Gizlində bir yar sevdim,
Saldılar qalmaqala.

Əzizim, adı nənə,
Çağırıram adı, nənə.
Görüm səsimə səs vermədin,
Tutaram yadı nənə.

Əzizim, dağ ağzında,
Qoyun otlar dağ ağzında.
Bir gözəl kəklik gördüm,
Bir qara zağ ağzında.

Əzizim, meşələrdə,
Mey qaldı şüşələrdə.
Sən yatdın, yuxun aldın
Mən qaldım küçələrdə.

Əzizim, qızıl alma,
Rəflərə düzül alma.
Çirkin al, saleh olsun,
Bədəsil gözəl alma.

Əzizim, qaş əymərəm,
Ağacı yaş əymərəm.
Uzanıb cavan ölsəm,
Namərdə baş əymərəm.

Əzizim, zulfü qara,
Qaş qara, zulfü qara.
Balamı məndən alan,
Tez gəlsin zulfüqara.

Əzizim, "Məşhəd" olsun,
Sürmə çək, qaşa dolsun.
Səni məndən eləyən,
Nə gülsün, nə şad olsun.

Əzizim, yar bağında,
Gül bitər yar bağında.
Kaş ki, bir gül olaydım,
Çıxardım yar bağında.

Əziziyəm, göy yurda,
Çəmən yurda, göy yurda.
Yara qurban kəsərəm,
Binəsin qursa burda.

Əzizim, xara bağlar,
Qalıbdır xara bağlar.
Mən ölsəm, yar ağlasın,
Özgələr xarab ağlar.

Əziziyəm, oxşama,
Həzin ağla, oxşama.
Qəribin dərdi artar,
Gün dönəndə axşama.

Əzizim, başı bağlar,
Yaxın-yanaşı bağlar.
Düşmən vuran yaranı,
Gəlib bir naşı bağlar.

Əzizim, bala dərdi,
Gül dərdi, lala dərdi.
Quzeydə qan ağladı,
Güneydə lala dərdi.

Gecə uzun, ay batmaz,
Dərdi olan heç yatmaz.
Tarı səni saxlasın,
Bir də səni yaratmaz.

Gecələr yatammıram,
Eşqinə çatammıram.
Əlaqəm çoxdu sənə,
Neyləyim, atammıram.

Gecələr uymamışam,
Baş yerə qomamışam.
Quran gətir, əl çalım,
Mən yardan doymamışam.

Gedən, getmə, dayan, dur,
Aləm sənə əyandır.
Gəlişivə can qurban,
Gedişin nə yamandır.

Gedən getmə, işim var,
Zərgərdə gümüşüm var.
Ağzı bağlı otaqda,
Dili bağlı quşum var.

Gedin deyin o qıza,
Köynəyi qanovuza.
Yaz demişdim olmadı,
Toyun qaldı payıza.

Gedirdim, gölə düşdüm,
Soyundum, gölə düşdüm.
Dost-düşman xəbər olsun,
O, deyən günə düşdüm.

Get bazardan əncir al,
Saatıma zəncir al.
Uzaq yoldan gəlirsən,
Gir qoynuma, dincin al.

Getdim dədəm evinə,
Qəmli göylüm sevinə.
Yapışdılar əlimnən,
Atdılar qəm evinə.

Gəl yola yoldaş olaq,
Yığın-yığın daş olaq.
Sevişdik, ayrı düşdük,
Gəl bacı-qardaş olaq.

Gəlin, dağdan enəsən,
Divar tək yellənəsən.
Qurban olum o günə,
Qardaş üçün gələsən.

Gərdənbəndim halalı,
Suya düşsə bulanı.
İgidin biqeyrəti
Daldalarda dolanı.

Göydə ulduz əllidir,
Əllisi də bəllidir.
Aşnabaz oğlanları
Qaş-gözündən bəllidir.

Göydə ulduz sayılmaz,
Çiy yumurta soyulmaz.
Göyül göyülü tutsa,
Bir-birindən ayrılmaz.

Göydəki sarı ulduz,
Xoş gəldin, xırda baldız.
Get bacıva deginən,
Qoymasın məni yalqız.

Göynən gedən ağ quşlar,
Ay Savalanda qışlar.
Yarımı məndən alıb,
Övladı qırılmışlar.

Göylərdən lərzə gəldi,
Əlində nizə gəldi.
Eşitdim yar evlənib,
Canıma lərzə gəldi.

Göylüm qara qazandı,
Dilim ərzə yazandı.
Gəlin, çərxi döndərin,
Fələk pərgar pozandı.

Gözün kəsmə gözümnən,
Hikmətimnən, sözümnən.
Bir baxışda bayıldım,
Əqlim getdi özümnən.

Gözəlim, asda yeri,
Baş barmaq üsdə yeri.
Dabanın basma yerə,
Bas sinəm üsdə, yeri.

Gözlərim axdı sana,
Axdıqca baxdı sana.
Mən səni qiblə bildim,
Tapdım beş vaxtı sana.

Gül əkdim ələk-ələk,
Gölə dadandı lələk.
Taza bir yar sevmişəm,
Ayırdı çərxi-fələk.

Gülüm, gülü neylərəm,
Gülə xidmət eylərəm.
Versələr öz gülümü,
Özgə gülü neylərəm.

Gül budağın gül əyər,
Yel əsdikcə, tel əyər.
Oğul ölmək göz töksə,
Qardaş ölmək bel əyər.

Gün çəkilib batanda,
Gündüzə şər qatanda.
Ovçu əlin qırılsın,
Marala ox atanda.

Harda qaldı ulular?
Eyvazlar, Koroğlular.
Həmzələr hakim oldu,
Qul oldu Koroğlular.

Həyətdə kilim yandı,
İçində gülüm yandı.
“Anam-anam” deməkdən,
Ağzımda dilim yandı.

Həyətləri gülxana,
Bülbül qonub növdana.
Bir dənə yar sevmişəm,
O da gedib Şirvana.

Həyətləri reyhanı,
Suvarmağa bel hanı?
Savaşdıq, ayrı düşdük,
Danışmağa yer hanı?

Hozu var, atammıram,
Yalquzam, yatammıram.
Yorğanım buz kimidi,
Ayrıldım, yatammıram.

Xanağa xandı, xandı,
Baxçada quş qovandı.
Misri qılınc belində,
Həzrətə pəhləvandı.

Xəstəyəm, loğmanım yox,
Dərdliyəm, dərmanım yox.
Xəzan vurub bağımı,
Bağımda bağbanım yox.

Xiyaban yağış yeri,
Ağ üzündə diş yeri.
Mən səni çox sevirəm,
Çərşovunu aç, yeri.

Xiyavanı sökdülər,
Tərkinə qum tökdülər.
Yarım beylə deyildi,
Başına külü tökdülər.

Xiyavan iskəndəri,
Nə kəsibsən bəndəri.
Yar yarı çox istəsə,
Ətirli dəsmal göndəri.

İçmədim, badə qaldı,
Heyif yar yada qaldı.
Əsmədi səhər yeli,
Gəmim dəryada qaldı.

İrəfə düzdüm kasa,
Kim endirə, kim asa?
Sən orda şadlıq eylə,
Mən burda batım yasa.

İstəkanım zir qələm,
Dövlət qoymur mən gələm.
Əl götür, dua eylə,
Bəlkə qurtulam gələm.

Karvan yola düzülür,
Xumar gözlər süzülür.
Necə mən ağlamayım,
Əlim səndən üzülür.

Keşzabun dizə kimi,
Burdan Təbrizə kimi.
Boşan gəl, alım səni,
Toy eyləyim qız kimi.

Kefliyəm, ovla məni,
Ovla, buxovla məni.
Gecələr al qoynuna,
Gündüz buxovla məni.

Kəklik daşa dağıldı,
Səkdi, daşa dağıldı.
Məni gözün oxladı,
Qanım daşa dağıldı.

Kəklik gördüm boz ola,
Qaşı qara göz ola.
İgid ona demişəm,
Sevdiyini tez ala.

Kəkliyəm, fərəm sənsiz,
Düşübdür pərən sənsiz.
Yad eldə, yad ölkədə,
İnan, gülmərəm sənsiz.

Qara at bağlı qalsın,
Tüfəngi zağlı qalsın.
Səni vuran ovçunun,
Qapısı bağlı qalsın.

Qapı döyən kim ola,
Aç, gəlsin hər kim ola.
Göydən gələn bu dərdə,
Bəlkə bir həkim ola.

Qara şəvə saç gəlin,
Dur, qapını aç, gəlin.
Atan səni verməyir,
Kəhərə min qaç, gəlin.

Qarabağda bağ olmaz,
Qara üzüm ağ olmaz.
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz.

Qalanın iskəndəri,
Nə kəsibsən bəndəri.
Yarım məni istəsə,
Əksin mənə göndəri.

Qaranquşam, qaranquş,
Qanadım ayrıc-ayrıc.
Məni vuran bəy oğlu,
Qan qussun ovuc-ovuc.

Qapıdan biri gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim arıtdı,
Su belə duru gəldi.

Qərənfiləm qələmsiz,
Qərarım gəlmir sənsiz.
Qoynuva şahmar girsin,
Necə dözürsən mənsiz.

Qələnfuram, qalxaram,
Qanadımı çalxaram.
Eşitsəm yarım gəlir,
Meyit olsam, qalxaram.

Qələnfur oyum-oyum,
Öpüm, qoynuma qoyum.
Yağış yağar, yer doymaz,
Mən səndən necə doyum.

Qələnfur olmayaydı,
Saralıb-solmayaydı.
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.

Qəlyanı yana-yana,
Doldur, ver yana-yana.
Necəsən sabah gedim,
Qalasan yana-yana.

Qalyanın qarasından,
Çəkərlər arasından.
Necə durub dincəlsin?
Ayrılan balasından.

Qərə toyux qaçırı,
Qanadların açırı.
Ana, məni evləndir,
Qızlar məndən qaçırı.

Qərə çadırın düzü,
Tənəfləri qırmızı.
Əl götürək də, qaçaq,
Heç kəs görməsin bizi.

Qırmızı balınc üzü,
Biz nə tanırdız sizi.
O qədər gəldiz, getdiz,
Üzdən apardız bizi.

Qız qapıya yan verir,
Yan verir, təkan verir.
Yar yarını görəndə,
Ayaq üstə can verir.

Qız idim, sultan idim,
Öz başıma xan idim.
Gəlin oldum, dul oldum,
Hər gələnə qul oldum.

Qızılgülü dərəllər,
Məxmər üstə sərəllər.
Xeyri olsun o qızı
Söydüyünə verəllər.

Qızılgüləm, açmaram,
Açsam da, dolaşmaram.
Sən dövlətdi, mən kasıb,
Mən sənə yaraşmaram.

Qızılgül butasını,
Tanrım saxlasın səni.
Əlacım ona qalıb,
Yuxuda görəm səni.

Qızıl üzüyün sapı,
Durmur barmağım qanı.
Anama qurban olum,
Yarı qonaq saxlırı.

Qoyun mələyən olur,
Südü gələyən olur.
Heç yara bel bağlama,
Səndən dönəyən olur.

Qurbanam, qaşına yar,
Qoy dönüm başına, yar.
Məni bu qəmdən qurtar,
Dolandır başına, yar.

Quşlar çıqqaçıq eylər,
Həyəti palçıq eylər.
Zəhləm o yardan gedir,
Gündə bir acıq eylər.

Ları xoruz banlamaz,
Banlasa, vaxt anlamaz.
Anlamazı danlama,
Anlamayıb, anlamaz.

Marala bax, marala,
Dağlar başın qar ala.
Bir yanan kimsəm ola,
Çəkə dərdim, sarala.

Marala bax, marala,
Vur oxilən, yarala.
Dərd verən yar yetişsin,
Dərdim düşsün qarala.

Maşınımız qırmızı,
Durar, vursan tormuzu.
İndi oğlanlar sevir,
Çalıb-oynayan qızı.

Mən aşığam, ay ağa,
Piltə yanar a yağa.
Mərd sözün üzə söylər,
Heç yapışmaz ayağa.

Mən aşıq, köçdə gedər,
El gedər, köçdə gedər.
Dünyaya bel bağlama,
Nə verib, heçdə gedər.

Mən aşiq, qara gözlər,
Sürməli, qara gözlər.
Qaş atdım mən, ox atdı,
Üzülmə, qara gözlər.

Mən aşıq, o gün eylər,
O qüzeylər, o güneylər.
Nənə balasın görəndə
Bayramın o gün eylər.

Mən aşiqam, qanlı gül,
Qanlı sevil, qanlı gül.
Gül yemiş bülbül bağrın,
Çıxmış ağzı qanlı gül.

Mən aşiq, kəs arayı,
Rəqibdən kəs arayı.
Camalın ay zərrəsi
Almas tək kəsər ayı.

Mən aşiq, bu damaqda,
Bu kefdə, bu damaqda.
Nər maya sövdasında,
Maya mağal budamaqda.

Mən aşıq, həzər, dönər,
Dolanar, gəzər, dönər.
Bu dünya bir dəyirman,
Dərd ilən əzər, dönər.

Mən aşıq, qarsalana,
Qar düşə qarsalana.
Canım qurban eylərəm,
Ayrıca yer salana.

Mən aşıq, yana dağlar,
Alışıb yana dağlar.
Burdan bir el keçibdir,
Boyanıb qana dağlar.

Mən aşiq, özüm səni,
Möv saxlar üzüm səni.
Çoxdandı görməmişəm,
Axtarır gözüm səni.

Mən aşığam, nəvaya,
Bir qulaq as nəvaya.
Nə namərdə yoldaş ol,
Nə aha düş, nə vaya.

Mən aşığam, yasa bax,
Matəmə bax, yasa bax.
Əcələ borclu canım,
Ya bu gündür, ya sabah.

Mən aşığam o taya,
O xırmandır, o taya.
Saçını kəmənd eylə,
Məni də çək o taya.

Mən gedəndə qışıydı,
Çöllər dolu quş idi.
İstədim namə yazam,
Barmaqlarım üşüdü.

Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan kam aldım,
Nə bir nişanam qaldı.

Mən sövgümə gedərəm,
Özbaşıma gedərəm.
Sövgüm məni almasa,
Yoldaşına gedərəm.

Mənim gül butam oğul,
Ətrinə batam, oğul.
Bir arzum var ürəkdə,
Toyunu tutam, oğul.

Mənim anam, öz anam,
İki dolu göz anam.
Yad gələr, yara dağlar,
Genə ağlar öz anam.

Məsciddə əzan yeri,
Aç boxçan, bəzən yeri.
Gözlərim qan ağlayır,
Gördü yar gəzən yeri.

Miz üstə nar qoymuşam,
Ağlamışam, doymuşam.
Siz Allah, qınamayın,
Yarımdan ayrılmışam.

Müsəllanın düzləri,
Sel basıbdır bizləri.
Boynuma kəşkül salım,
Hardan yığım sizləri?

Nar yedim, dilim yandı,
Töküldü kilim, yandı.
Mən kilimnən yanmıram,
Baxçada gülüm yandı.

Narışdan başmaq olmaz,
Duvardan aşmaq olmaz.
Bir cüt öpüşdən ötrü
Yarnan savaşmaq olmaz.

Nədir bu yeriş, oğlan?
Yolların eniş, oğlan.
Qurbət eldə qız sevsən,
Qəribdən soruş, oğlan.

Nər gəlir bədöy atda,
Arxalığı göy qatda.
İyid oğul bəd gündə
Ya atda, ya yer altda.

Oğlan, oğlan od gətir,
Oda salavat gətir.
Nənən pilov edibdir,
Yoldaşların yığ, gətir.

O gələn yara bənzər,
Əlində nara bənzər.
Çoxdandı sevişmişik,
Tazaca yara bənzər.

O tay, bu tay bizimdi,
Əqiq düzüm-düzümdi.
Heç kəs qızın verməsə,
Əmim qızı bizimdi.

Ox atma sən bu daşa,
Bu qayaya, bu daşa.
Düşməni elə vur ki,
Kəlləsindən bu daşa.

O kədər nə kədərdir?
Dərd-qəm çəkmə, hədərdir.
Hər bir kəsin öz yarı,
Özgə gəlib-gedərdir.

Oturmuşdum taxtımda,
Nə var mənim baxtımda?
Kəbinimi kəsdilər,
Günortanın vaxtında.

Ovçu əlində oxdur,
Onun hesabı yoxdur.
Min dost adama azdır,
Düşmən bir olsa, çoxdur.

Ovçuyam, ov deyiləm,
Çaxmağam, qov deyiləm.
Qolu qırılmış ovçu,
Vurulan ov deyiləm.

Pəncərə sən, şüşə sən,
Züvrüşəsən, düşəsən.
Sevgili yarın ölsün,
Əldən ələ düşəsən.

Pəncərənin milləri,
Açıb qızılgülləri.
Oğlanı yoldan eylər,
Qızın şirin dilləri.

Pəncərənin pərdəsi,
Gəlir oxumaq səsi.
Gecə yuxudan eylər,
Nazlı yarın qüssəsi.

Pəncərədən daş gəlir,
Xumar gözdən yaş gəlir.
Səni mənə versələr,
Hər gələnə xoş gəlir.

Potunum[24] dik dabandı,
Yerə basma, amandı.
Tükançıya boşluyam,
Büyün vaxtı tamamdı.

Saralmışam, solmuşam,
Bulud kimi dolmuşam.
Ağlamayım neyləyim,
Yarımdan ayrılmışam.

Sarı qarpız dilimi,
Oxuddum bülbülümü.
Gedirsən, tez qayıt gəl,
Deyim dərdi-dilimi.

Sarı gül, bağım sarı,
Sərvan çəkər ovsarı.
Yazam İmam Rzaya,
Məni göndər el sarı.

Sarı qovun dilimi,
Oxuddum bülbülümü.
Gəl duvar daldasına,
Deyim dərdi-dilimi.

Sərbazxana hayandı,
Sərbaz gəldi, dayandı.
Mən qurbanam sərbaza,
Şeypurunan dayandı.

Sərbazxananın aşı,
İçmənəm sərbaz aşı.
Mən burda qədəm vurum,
Anam töksün göz yaşı.

Sərin su, sərin bulaq,
Bir gün bağa gəl qonaq.
Vəfa əhdi bağlayaq,
Dünya varsa, yar olaq.

---

[24]Potu – ayaqqabı növü

Sözünü de qarıya,
Qulaq as nağaraya.
Mərd iyidin həmdəmi,
Nə ölə, nə qarıya.

Su gələr, daşa dəyər,
Kirpigin qaşa dəyər.
Bir dənə yar sevmişəm,
Yeddi qardaşa dəyər.

Su gələr, səndə dəyər,
Zülfün kəməndə dəyər.
Elə bir yar sevmişəm,
Bütün bir kəndə dəyər.

Su gəlir, lilləndirir,
Bağçanı gülləndirir.
Qardaşım bin qız sevib,
Dilsizi dilləndirir.

Su gələr buruq-buruq,
Suya vurdum yumuruq.
Desələr yarın gəlir,
Gərdənbəndim muştuluq.

Su qırağı biçilməz,
Çay dərindi, geçilməz.
Deyillər, yarından geç,
Yar şirindi, geçilməz.

Sürünü sürün dağa,
Duman, gəl, bürün dağa.
Leylisi itmiş Məcnun
Salıbdı bir ün dağa.

Şair incə, su incə,
Su səpərlər birincə.
Adam özünnən çıxır,
Sevdiyini görüncə.

Şalını alma qara,
Başına salma qara.
Getmişdim yar sevməyə,
Düşdüm mən qalmaqala.

Şirvana dəstə gəldi,
Bir boyu bəstə gəldi.
Xarab qalsın Şirvanı,
Sağ getdi, xəstə gəldi.

Şirvanın küçələri,
Banlamaz beçələri.
Gireydim yar qoynuna,
Payızın gecələri.

Şirvanın şirin narı,
Turş narı, şirin narı.
Şirvanı xarab qalsın,
Yeməzlər şirin narı.

Şüşə billurdan olur,
Ətirli güldən olur.
Oğlanın sarılmağı
Dərdəsər qızdan olur.

Təbriz üstü dörd ayaq,
Mən yarı gördüm bayaq.
Sovqatına baxmışam,
Bir güzgüdür, bir daraq.

Təbriz üsdə Marağa,
Zülfün gəlmir darağa.
Yardan xəbər gəlmədi,
Mən düşmüşəm sorağa.

Təbriz üsdə Marağa,
Zülfün gəlməz darağa.
Axtarıram yarımı,
Yox taqətim fərağa.

Üzərliksən, havasan,
Min bir dərdə davasan.
Səni oda salıram,
Qada, bəla qovasan.

Üzərliksən, havasan,
Yeddi dərdə davasan.
Tanrıdan istəmişəm,
Bu dərdi sən qovasan.

Üzərliksən, havasan,
Hər bir dərdə davasan.
Balama kəc baxanın,
Gözlərini oyasan.

Üzərliksən, məzəsən,
Damar-damar gəzəsən.
O günə qurban olum,
Evimizdə gəzəsən.

Üzərliyim çatdasın,
Yaman gözlər patdasın.
Ağrım, bəlam tökülsün,
Dərd üstümdən atdasın.

Üzərliksən, obasan,
Həzər[25] dərdə davasan.
Qohum ola, yad ola,
Yaman gözdən olasan.

Yalquzam, yatammıram.
Fikrimdən atammıram.
İtirmişəm yarımı,
Axtarıb tapammıram.

Yara köynək tikirdim,
Qatlayırdım, bükürdüm.
Eşitdim yar evlənib,
Acığımdan sökürdüm.

Yar incidir,
Qolbağın yar incidir.
Şüşə qırığ könlümü
İncitsə, yar incidir.

Yaylığın micə-micə,
Xəbər al, kefin necə?
Bir cüt qurban demişəm,
Yar bizə gələn gecə.

Yazı yazana qurban,
Yazıb pozana qurban.
Mənim xoşbəxt günümü,
Səni yazana qurban.

Yeri, yeri, gəlirəm,
Dəsmalla gül dərirəm.
Aç, qoynunda yer eylə,
Soyuq dəyib, ölürəm.

---

[25] Həzər – hər bir

Yoxdan var uman aldı,
Bəlkə var güman, aldı.
Baxtıkəm ova çıxdı,
Dağları duman aldı.

Yolun gedir dolama,
Gəlir bizə salama.
Obalar qurban olsun,
Mənim bircə balama.

Zərli don aldırmışam,
Əşrəfi saldırmıışam.
Qurbana "get" demişəm,
Aləmi yandırmışam.

## TƏBRİZ BAYATILARI

A dağlar, daşlı dağlar,
Ay qoca, yaşlı dağlar.
Hara baxdım gözümə,
Təbriz sataşdı, dağlar.

Ağacda hulu qalsın,
Bağçada gülü qalsın.
Təbrizə yan baxanın
Beli bükülü qalsın.

Ağı qara yazdılar,
Yazıları pozdular.
Təbrizimə gizlincə
Dərin quyu qazdılar.

Ağır ellidi Təbriz,
Bağlı, güllüdü Təbriz.
Gözəllərin gözəli,
Şirin dillidi Təbriz.

Ağzımın dadı Təbriz,
Könlümün yadı Təbriz.
İnsan olan dəyişməz,
Heç nə hərzədi, Təbriz.

Ağzında dilin ollam,
Əlində gülün ollam.
Təbrizə apar məni,
Anana gəlin ollam.

Aldı, şaldı Təbrizim,
Harda qaldı Təbrizim.
Daha ayrılıq sözü,
Bir xəyaldı, Təbrizim.

Almanı alan mənəm,
Təbrizdə qalan mənəm.
Geniş, hamar yolları
Təbrizə salan mənəm.

Alışıb yanma, Təbriz,
Yada inanma, Təbriz.
Dünyada sən özünü,
Daha tək sanma Təbriz.

Araşqının yuyaram,
Dizinə baş qoyaram.
Təbrizə xor baxanın
Gözlərini oyaram.

Araz axar, bulanmaz,
Dərələri dolanmaz.
Sağa-sola baxmaqdan
Yanar-yanar qalanmaz.

Araz axar, sellənər,
Suyu durar, göllənər.
Gözəl qızlar Təbrizdə
Yerişindən bəllənər.

Araz axsın, süzülsün,
Düşmən bağrı üzülsün.
Araz üstə yüz körpü,
Qoy yan-yana düzülsün.

Araz daşıb, lil gəlir,
Dili yoxdu, lal gəlir.
Xəbər verin Təbrizə,
Zəfər çalan il gəlir.

Araz dolanar, gələr,
Suyu bulanar, gələr.
Əziz gündü, bayramdı,
Dost dostu anar, gələr.

Araz Kürə qovuşdu,
Təbriz qəlbə yavuşdu.
Çox şükür ki, dərd-bəla,
Başımızdan sovuşdu.

Araz qırağındayam,
Təbriz qırağındayam.
Bir xoş xəbər gətirin,
Vətən sorağındayam.

Araz, suyun sərindir,
Axma dayan, dur indi.
Günəş Təbrizdən çıxır,
Ərşə yayır nur indi.

Araz, suyun arxa vur,
Axsın getsin, çarxa vur.
Təbriz sənə arxadı,
Sən Təbrizə arxa dur.

Araz üstən keçmişəm,
Sərin suyun içmişəm.
Təbrizdə gözəl çoxdu,
Təkcə səni seçmişəm.

Araz üstə keçid, yar,
Yolu keçdi becid yar.
Gəl gedək ziyarətə,
Təbrizdə Göy məscid var.

Araz üstən keçərəm,
Arazdan su içərəm.
Təbrizin hər nazını,
Tək canıma çəkərəm.

Arazam, bulanmaram,
Mən sənsiz dolanmaram.
Dünya cənnətə dönsə,
Təbrizsiz qalammaram.

Arazda sal göründü,
Dərədən yol göründü.
Sənsiz nələr çəkmişəm,
Təbrizdə qal, gör indi.

Arazdan keçərəm mən,
Suyundan içərəm mən.
Təbrizdə qanad çalıb
Şərurda uçaram mən.

Arazdan su içmişəm,
Körpüsündən keçmişəm.
Xan Təbrizdə yol boyu,
Körpə fidan əkmişəm.

Arazım, şan-şanam mən,
Özüm bir dövranam mən.
Anamın adı Təbriz,
Adına qurbanam mən.

Arazın sal daşı var,
Bal suyu, bal daşı var.
Təbrizin Naxçıvanda,
Bacısı, qardaşı var.

Arazın dur üstündə,
Körpünü qur üstündə.
Bu yol Təbrizə gedir,
Karvanı sür üstündə.

Arazın dur üstündə,
Körpünü qur üstündə.
Yar körpüdən keçəndə,
Nimçəni qır üstündə.

Arpa çayı aşıbdı,
Köpüklənib daşıbdı.
Ana dilində balam,
Təbrizdə dil açıbdı.

Arpa çayı sellənər,
Dəryaçada göllənər.
Təbriz bir gün dil açar,
Söz deməmiş dillənər.

Aslansan, ərsən, Təbriz,
Kükrəmiş nərsən, Təbriz.
Sənə kəc baxanların,
Başın əzərsən, Təbriz.

Aşıq deyər, söz ağlar,
Kabab yanar, köz ağlar.
Dərdlidir, dindirməyin,
Təbriz çalar, saz ağlar.

Aşıqlar haray salar,
Qoşmadan haray salar.
Təbrizin toylarında
Qara zurna hay salar.

Ata min atdan, Təbriz,
Uzaq dur yaddan, Təbriz.
Yüz il yüz ilə qalsa,
Çıxarmı yaddan Təbriz?

Atan atdı Təbrizi,
Satan satdı Təbrizi,
İgidlər məşəl kimi
Uca tutdu Təbrizi.

A Təbriz, sona Təbriz,
Günləri sana, Təbriz.
Bizi ayrı salanı
Od tuta, yana, Təbriz.

Ay bizə güldü, keçdi,
Təbrizə gəldi, keçdi.
Eli elə bağladı,
Qədrini bildi, keçdi.

Ay gedər, batmaz gələr,
Vaxtı uzatmaz, gələr.
Təbrizə qaş-göz eylər,
Gecəni yatmaz, gələr.

Ay qara qaşlı Təbriz,
Yarlı, yoldaşlı Təbriz.
Tanrı səni yaradıb,
Bacı, qardaşlı Təbriz.

Ay ötər, illər gələr,
Darağa tellər gələr.
Təbrizə bayramlığa,
Şərurdan ellər gələr.

Ay Təbriz, uca Təbriz,
Dünyadan qoca Təbriz.
Qucağında ovunam,
Qolların aça Təbriz.

Ay Təbriz, can, ay Təbriz,
Günü sana, say, Təbriz,
Kaş sinəndən keçəydi,
Araz adlı çay, Təbriz.

Bağ becərdim bağ deyə,
Qıyma gülə xar dəyə.
Təbrizli yarım olsa,
Qoymaz beli dərd əyə.

Bağbansan, bağın hanı,
Ceyransan, dağın hanı.
Qara çor yaman vurdu,
Bostanda tağın hanı.

Bağça bağbansız olmaz,
Dəvə sarbansız olmaz.
Min dərdə çarə bulan,
Təbib dərmansız olmaz.

Bağçada gülün solmaz,
Bu dünya belə qalmaz.
Qartalları qıy vurar,
Təbrizsiz qanad çalmaz.

Bağçada gülüm yandı,
Ay keçdi, ilim yandı.
O qədər Təbriz dedim,
Ağzımda dilim yandı.

Bağçamıza sar gəlməz,
Bahar gəldi, xar gəlməz.
Təbrizi bas bağrıma,
Sinəm gendi, dar gəlməz.

Bağda saldım qələmə,
Hər sözü söz eləmə.
Təbriz kükrədi, coşdu,
Haray düşdü aləmə.

Bağda yasəmənim var,
Nərgizim, süsənim var.
Təbrizdə yol gözləyən
Umanım-küsənim var.

Bağlarında bar gördüm,
Heyva gördüm, nar gördüm.
Təbrizə kəm baxanın,
Gözlərini kor gördüm.

Bağında bağban ollam,
Təbibəm, loğman ollam.
Təbriz dərdə düşməsin,
Dərdinə dərman ollam.

Başa qoy araxçını,
Yana burma saçını.
Şirin doğub anası,
Təbriz neylər acını.

Başı ağ saçlı Təbriz,
Dərdə əlaclı Təbriz.
Ömür boyu dünyada,
Olmadın suçlu, Təbriz.

Başında tac Təbrizim,
Dərdə əlac Təbrizim.
Daha bir də qalmazsan,
Yada möhtac Təbrizim.

Başında çalma Təbriz,
Saralma, solma, Təbriz,
Allah köməyin olsun,
Heç dərdə qalma, Təbriz.

Bəbəyim, gözüm dağlar,
İtməsin izim, dağlar.
Həsrətinə Təbrizin,
Mən necə dözüm, dağlar.

Bəxtin gətiridi, Təbriz,
Allah gətirdi, Təbriz.
Üstündən çən, dumanı,
Tanrı götürdü Təbriz.

Bəzədilər gəlini,
Bağladılar belini.
Təbriz tutdu qolumdan,
Mənə verdi əlini.

Boran gəldi, qar gəldi,
Dağ başına qar gəldi.
Dünya mənə dar gəlməz,
Təbriz gəldi, can gəldi.

Bilinmir yaşın, Təbriz,
Ucadır başın, Təbriz.
Şərur yaranan gündən
Olub qardaşın, Təbriz.

Bir ayıl, oyan, Təbriz,
Qırmızı boyan, Təbriz.
Qoşmadan, bayatıdan,
Varmıdı doyan, Təbriz?!

Bostan nədi, tağ nədi?
Bağça nədi, bağ nədi?
Təbrizdə sinəm üstə
Düşmən çəkən dağ nədi?

Böyükdür elin, Təbriz,
Şirindir dilin, Təbriz.
Bəzəyibdir dünyanı,
Çiçəyin, gülün, Təbriz.

Burdan bir ahu keçdi,
Ürəyimdən su içdi.
Təbriz cənnətə döndü,
Arzum başa yetişdi.

Bülbül oxur, səs salmaz,
Haray salmaz, səs salmaz.
Canda ürək Təbrizsiz,
Yaşamaz, nəfəs almaz.

Bülbül həvəsə düşdü,
Gül ilə bəhsə düşdü.
Təbrizdə bir göyərçin
Dəmir qəfəsə düşdü.

Bünövrəsiz dam olmaz,
Kəhər çapar, yorulmaz.
Qonşu bulandırmasa,
Araz suyu bulanmaz.

Ceyranın gözü ala,
Yanında körpə bala.
Təbrizi bilməməzlik
Gör bir saldı nə hala.

Çay deyiləm, bulanım,
Yox yanında yalanım.
Təbriz, sənin başına,
Qoy mən durum, dolanım.

Çay başı söyüd olar,
Təbrizdə igid olar.
Ananın balasına
Verdiyi öyüd olar.

Çatılıb qaşın Təbriz,
Dağların, daşın, Təbriz.
Qardaş dərdi çəkməkdən
Ağardı başın, Təbriz.

Çatılıb qaşın Təbriz,
Axır göz yaşın, Təbriz.
Kimin dərdini çəkir,
Bacın-qardaşın, Təbriz.

Çıxaq dağın yanına,
Baxaq Təbriz yoluna.
Vay atasız, anasız,
Böyüyənin halına.

Dağ başını qar alar,
Bağ-bağçanı sar alar.
Bülbülsüz açılan gül,
Pardaxlanar, sar alar.

Dağ başında çənə bax,
Dumana bax, çənə bax.
Yada Təbriz düşəndə,
Üzün tut, vətənə bax.

Dağ dayanar dağ üstə,
Şimşək çaxar dağ üstə.
Düşmənin sinəsinə
Dağı çəkdim dağ üstə.

Dağ üstündə dağam mən,
Bağça mənəm, bağam mən.
Təbrizin sinəsində,
Yanan bir çırağam mən.

Dağ üstə çən sürünür,
Yaşıl dona bürünür.
Əklənibdir gözümdə,
Ancaq Təbriz görünür.

Dağ yendi, düzə gəldi,
Yar gəzə-gəzə gəldi.
Təbrizi görən kimi
Yaram tez üzə gəldi.

Dağdan maral qaçdı, gəl,
Göydə durna uçdu, gəl.
Təbrizdə başımıza,
Yağı oyun açdı, gəl.

Dağı duman almasın,
Təbriz gülsüz qalmasın.
Analar balasına
Bir də həsrət qalmasın.

Dağı duman almasın,
Aslan yalqız olmasın.
Tanrı köməyi olsun,
Təbriz darda qalmasın.

Dağlar dumandı, Təbriz,
Od tutdu, yandı Təbriz.
Baş əymədi düşmənə,
Dağtək dayandı Təbriz.

Dağlarda nənə yalqız,
Süsənsiz nanə yalqız.
Hörükləri dolaşır,
Gəzişir şanə yalqız.

Dağlarda qoyuna bax,
Dağların boyuna bax.
Düşmənin başımıza
Açdığı oyuna bax.

Dağları çox uludu,
Bulaqları suludu.
Təbrizə vurğun olan
Şahbuzlu, Şərurludu.

Dağları qoca Təbriz,
Dağlardan uca Təbriz.
Dayağın var, dayan, dur,
Ucasan, uca, Təbriz.

Dağları qoşa Təbriz,
Verib baş-başa Təbriz.
Mən səninəm, sən mənim,
Şadyana yaşa, Təbriz.

Dağların gədikləri,
Qar bağlar gədikləri.
Birə yüz bar verir,
Təbrizin əkdikləri.

Dağların maralıyam,
Təbrizdən aralıyam.
Ovçu ox atdı, keçdi,
Sinəsi yaralıyam.

Damda dirəyim Təbriz,
Canda ürəyim Təbriz.
Sənsən arzum, diləyim,
Duzum, çörəyimTəbriz.

Dəmirçidə “Sarı daş”,
Qara mərmər, sarı daş.
Təbriz, gəzsin sinəndə,
Qocalmasın barı daş.

Dərd əlindən dağ ağlar,
Bulud kişnər, dağ ağlar.
Təbrizdən su gəlməsə,
Bağban ağlar, bağ ağlar.

Dərdimə çara Təbriz,
Düşməsin dara Təbriz.
Sənsiz qala bilmərəm,
Mən gedim hara, Təbriz.

Dəryadakı incidi,
Mirvaridi, incidi.
Təbrizdə bir qız sevdim,
Dünyanın sevincidi.

Dərviş quran tasa bax,
Xasa yeri, xasa bax.
Təbrizdə toy-büsatdı,
Düşmən batıb yasa, bax.

Dəyişdi dövran, Təbriz,
Hökm etdi zaman, Təbriz.
Bir vaxt düşmən əlində,
Dedin, əl-aman, Təbriz.

Dilin varsa, millət var,
Dilin yoxsa, zillət var.
Təbrizin torpağında
Qədimdən bir dövlət var.

Din üstə fail ollam,
Arzuma nail ollam.
Təbriz nə pay göndərsə,
Mən ona qayil ollam.

Dost dosta hayan gərək,
Yatmısan, oyan gərək.
Təbrizdə el birləşsə,
Qarşıda dayan gərək.

Dostluq sorağıyam mən,
Bahar növrağıyam mən.
Şəhriyar türbəsinin
Yanar çırağıyam mən.

Dörd yanı qala Təbriz,
Bürünüb şala Təbriz.
Qoyma bir də gözlərim
Yolunda qala, Təbriz.

Duman dağda sürünər,
Yar gözümə görünər.
Bahar gələndə Təbriz
Gül-çiçəyə bürünər.

Dünya göydə adadı,
İşi qandı, qadadı.
Atır-tutur sözünü,
Bilmirəm nə aldadı.

Ellərə dayaq ol sən,
Dənizə mayaq ol sən.
Təbrizim, bu dünyada
Ayıq dur, sayıq ol sən.

Evləri var dəyirmi,
Güllər gülə dəyirmi.
Təbrizin aşıqları,
Dodaqdəyməz deyirmi?

Əhdinə döndü Təbriz,
Hər dərdə dözdü Təbriz.
Sinəm üstə yol saldım,
Canımda gəzdi Təbriz.

Əkdiyin bitsin, Təbriz,
Düşmənin itsin, Təbriz.
Qoyma quşun əlindən
Uçaraq getsin, Təbriz.

Əkin mən, biçin mənəm,
Arana köçən mənəm.
Təbriz, sənin yolunda,
Canımdan keçən mənəm.

Əldə qalxan Təbrizim,
Tərpən, çalxan, Təbrizim.
Qalmasın yad əlində,
Sinən, yaxan, Təbrizim.

Əlində var xınası,
Göllərində sonası.
Kilim, xalça toxusun,
Təbrizin karxanası.

Əzizinəm, yaxşıdı,
Göydə ulduz yaxşıdı.
Təbriz gözəl şəhərdi,
Dünyanın naxışıdı.

Əzizinəm, qalannam,
Ocaq olub qalannam.
Gündə yüz yol Təbrizin,
Başına mən dolannam.

Əziziyəm, ana Təbriz,
Səs sal cahana, Təbriz.
Ta qədimdən bu yana,
Sənsən nişanə, Təbriz.

Əziziyəm, Xoya gəl,
Təbrizə gəl, Xoya gəl.
Təbibin ad günündə
Sən Şərura toya gəl.

Əziziyəm, bağ arası,
Yol gedər bağ arası.
Təbrizdə tez sağalar,
Ürəyimin yarası.

Əziziyəm, dağ yandı,
Dağ dağ üstə dayandı.
Çox şükür ki, yuxudu,
Xan Təbrizim oyandı.

Əziziyəm, dolan gəl,
Gəz Təbrizi, dolan, gəl.
Əslini itirəni
Çalsın ala ilan, gəl.

Əziziyəm, dağıdı,
Külək zülfün dağıdı.
Qoşa duraq yan-yana,
Dost dostun dayağıdı.

Əziziyəm, dağa döndü,
Dağ yandı, dağa döndü.
Hər Təbrizi görəndə,
Ürəyim dağa döndü.

Əziziyəm, dərəndə,
Nərgiz, mixək dərəndə.
Əziz günüm o gündü,
Hər Təbrizi görəndə.

Əziziyəm, dostum gəl,
Qardaşım gəl, dostum gəl.
Təbrizin yaxasına,
Bir dəstə gül asdım, gəl.

Əziziyəm, gözüm Təbriz,
Sənindir sözüm, Təbriz.
Həsrətinə mən sənin
De, necə dözüm, Təbriz?

Əziziyəm, gün batmaz,
Ulduz axar, gün batmaz.
Təbrizdə keçən günə,
Bu dünyada gün çatmaz.

Əziziyəm, gülüm oldu,
Gül əkdim, gülüm oldu.
Düşmən, əlin qurusun,
Təbrizə zülüm oldu.

Əziziyəm, xəstəyəm mən,
Loğmanım, xəstəyəm mən.
Bağa düşən şeh kimi,
Qönçə gül üstəyəm mən.

Əziziyəm, qoçu getdi,
Sürüdən qoçu getdi.
Təbrizdən düşmənlərin
Tabutda köçü getdi.

Əziziyəm, nar ağacı,
Əkibdi yar ağacı.
Yağı düşmən qurammaz
Təbrizdə dar ağacı.

Əziziyəm, narın yeri,
Sinəndə narın yeri.
Təbrizdi bu dünyada
Dövlətin varın, yeri.

Əziziyəm, üzə gəl,
Təbrizə gəl, sözə gəl.
Nə olar haqq aşqına,
Bircə gün də bizə gəl.

Əziziyəm, yol üstədi,
Ağzı, dili püstədi.
Təbrizdə soruşsalar,
Demə, təbib xəstədi.

Əziziyəm, tər sinə,
Mərmər sinə, tər sinə.
Təbrizdən ayrılalı,
İşim düşdü tərsinə.

Əziziyəm, taxtına bax,
Qızıldan taxtına bax.
İndi dövran sənindi,
Təbrizin baxtına bax.

Əziziyəm, yaxına bax,
Bostanın tağına bax.
Təbriz yada düşəndə,
Savalan dağına bax.

Əziziyəm, yanıram,
Oda düşüb yanıram.
Təbrizdəki igidi
Doğma qardaş sanıram.

Əziziyəm, ocağında,
Od yanar ocağında.
Baş qoyub can verəydim,
Təbrizin qucağında.

Əziziyəm, sona gəldi,
Göllərə sona gəldi.
Təbrizdə dərdim, qəmim,
Qurtardı, sona gəldi.

Əziziyəm, yenə gəz,
Düşmə qara, çənə gəz.
Təbrizdən doymaq olmaz,
Yüz il dona-dona gəz.

Əziziyəm, yar andın,
Təbriz, pozma yar andın.
Məskənin cənnət oldu,
Sən cənnətdə yarandın.

Gah mələdim, gah durdum,
Gah yeridim, gah durdum.
Təbrizi bir anatək
Çox incitdim, çox yordum.

Gecə keçər, ay batmaz,
Təbriz yatmayıb, yatmaz.
Belə qəhrəman şəhər,
Tanrı bir də yaratmaz.

Gəlmişəm bağa, Təbriz,
Canım sadağa, Təbriz.
Mən sənə qulun olam,
Sən mənə ağa, Təbriz.

Göstər öz hünərini,
Sil əlinin tərini.
Dünyaya sən vermisən,
Təbrizin Şəbüstərini.

Göydə hiylə dolanır,
Başda xəyal dolanır.
Təbrizə həsrət canım,
Neçə mahal dolanır.

Göydə uçar durnalar,
Qanad açar durnalar.
Təbrizin göylərində,
Qalmaz naçar durnalar.

Gövhər nədi, dürr nədi,
Sehir nədi, sirr nədi.
Vurğun könlüm Təbrizin
Eşqindən divanədir.

Göydə uçan durnalar,
Bağlarında xurma var.
Təbrizdə kəmənd atan
Neçə saçı burma var.

Gözəl, yosma Təbrizim,
Məndən küsmə, Təbrizim.
Səsini ellərə yay,
Heç vaxt susma, Təbrizim.

Gözün qarası Təbriz,
Dərdin çarası Təbriz.
Ürəyimin, canımın
Cigərparası Təbriz.

Gül Təbriz, qonça Təbriz,
Bəzəkli qonça Təbriz.
Ziyarətə gəlmişəm,
Gəzim doyunca, Təbriz.

Gül üstündə xar olmaz,
Kətan köynək dar olmaz.
Şəhriyarsız, Cavidsiz,
Təbrizdə bahar olmaz.

Gül üstə sar olmaram,
Saralmaram, solmaram.
Əlin əlimə dəysə,
Təbrizdə qocalmaram.

Gülləri dəstə Təbriz,
Boyundu bəstə, Təbriz.
Baş qoyub dincələydim,
Dizinin üstə, Təbriz.

Gülləri dər, dəstə qoy,
Bir-birinin üstə qoy,
Təbrizə gələn yoxdu,
Nə istəsən istə, qoy.

Gün çıxdı, gündüz oldu,
Yollarım dümdüz oldu.
Çox el-oba dolaşdım,
Məskənim Təbriz oldu.

Günəş səhər oyandı,
Aləm nura boyandı.
Dağ dağa arxa durar,
Təbriz dağa dayandı.

Hər yanı bəzə, Təbriz,
Qonaq gəl bizə, Təbriz.
Əzəldən qardaşındıq,
Dost olduq təzə, Təbriz.

Hər bülbülün gülü var,
Hər millətin dili var.
Dilinə xor baxanılar,
Burada şeytan əli var.

Həmişə yaz Təbrizim,
Gülü solmaz Təbrizim.
Səndən ayrı yaşamaq,
İnan olmaz, Təbrizim.

Həsrətin qana keçdi,
Dodaqdan cana keçdi.
Təbriz, Təbriz deməkdən,
Ömrümüz sona keçdi.

Həsrətin cana düşdü,
Zülfündən şana düşdü.
Təbriz, Təbriz harayım,
Bu gün hər yana düşdü.

Xalıda min naxış var,
Hər gözdə bir baxış var.
Vətənə nəğmə qoşar,
Təbrizdəki aşıqlar.

Xan oğlu xan Təbrizim,
Sinən qalxan Təbrizim.
Dilin iti qılıncdır,
Bilir cahan Təbrizim.

Xan Təbrizdə gülüm var,
Süsənim, sünbülüm var.
Yarımı dindirməyə
Baldan şirin dilim var.

Xan Təbrizdə gələm mən,
Gül dərməyə gələm mən.
Qismətimə düşübdü,
Ömrüm boyu gələm mən.

Xan Təbrizi gəzərəm,
Hər dərdinə dözərəm.
Sərilib xalça kimi,
Yollarını bəzərəm.

Xan Təbrizim, ağlama,
Araz kimi çağlama.
Şeytan öz içindədi,
Tovlanma, bel bağlama.

Xan Təbrizin axşamı,
Mey ilə doldu camı.
Ürəyimin oduyla
Alışdıram mən şamı.

Xiyaban dolaşıqdı,
Məramın barışıqdı.
Culfadan düz Təbrizə,
Üzümə yol açıqdı.

Xumardı gözün, Təbriz,
Ötkündü sözün, Təbriz.
Vurğunam ellərinə,
Bilirsən özün, Təbriz.

Xumarlanan göz gördüm,
Al yanağlı üz gördüm.
Gəldim ana Təbrizə,
Qucağında yaz gördüm.

Xurcun yəhər başında,
Ağlın olsun başında.
Təbrizdə at oynadar
İgid on dörd yaşında.

İlhamım cuşa gəldi,
Saz ilə qoşa gəldi.
Cavanlaşdı Təbrizim,
Düz on dörd yaşa gəldi.

Karvan Təbrizə gedər,
Əlliyə, yüzə gedər.
Dolanar xiyavana,
Qayıdar, bizə gedər.

Karvan Təbrizə düşdü,
Dağ aşdı, düzə düşdü.
Çox şükür qohum-qardaş,
Qucaqlaşdı, görüşdü.

Kətanam, bezəm sənsiz,
Bayıram, düzəm sənsiz.
Ayağım yer tutmayır,
Yeriyəm, gəzəm sənsiz.

Köhnələri sökdülər,
Yenisini tikdilər.
Xiyaban kənarına
Yüz cürə gül əkdilər.

Köhlən atım yorğadı,
Qaya dağa arxadı.
Namərdə arxalanma,
Mərd igidə arxa dur.

Köynəyi kətan oğlan,
Xəbərsiz yatan oğlan.
Ayıl, görməyə gəlib
Sevgisin atan oğlan.

Külüngü daşa çaldım,
Əl-ələ qoşa çaldım.
Təbrizin xoş günündə,
Hayıf ki, tez qocaldım.

Qadalı-qanlı Təbriz,
Dərdli, fəğanlı Təbriz.
Baş əymədi yadlara,
Şərəfli-şanlı Təbriz.

Qaladı, dağdı Təbriz,
Dörd yanı bağdı Təbriz.
Dözmüş əcəl oxuna,
Yaşardı, sağdı Təbriz.

Qar yağar dağa, Təbriz,
Şeh düşər bağa, Təbriz.
Sənə özüm vermişəm
Canı sadağa, Təbriz.

Qaradır gözün, Təbriz,
Şirindir sözün, Təbriz.
Özün yaxşı bilirsən,
Yoxdur əvəzin, Təbriz.

Qaşları qara Təbriz,
Bürünüb xara Təbriz.
Həsrətində yanıram,
Elə bir çara Təbriz.

Qazanda kərə yağı,
Əritdim kərə yağı.
Çox şükür ki, Təbrizdən
Çəkildi şər ayağı.

Qərənfil açdı, neynim?
Bağbanım qaçdı, neynim?
Təbrizdə gözəl gördüm,
Dilim dolaşdı, neynim?

Qərənfil qoşa-qoşa,
Sən xoş əməllə yaşa.
Şərəflə ömür sürüb,
Xan Təbrizdə vur başa.

Qoca Təbriz, tasa bax,
Mis qazanda pasa bax.
Yadelli toy-büsatda,
Sən Təbrizdə yasa bax.

Qurtulmuş ol, Təbrizim,
Tərlan quş ol, Təbrizim.
Ömrün boyu mərdlərə,
Tay ol, tuş ol, Təbrizim.

Quş gələr, yuva bağlar,
Yağılar qovğa bağlar.
Tanrı bizim Təbrizi,
Özü amanda saxlar.

Quşam, uça bilmirəm,
Mənzil aça bilmirəm.
Təbrizim dar gündədi,
Qoyub qaça bilmirəm.

Leysan yağan yağışlar,
Yer üzünü naxışlar.
Təbrizin torpağına
Min bərəkət bağışlar.

Leyləyin yuvası var,
Yuvada balası var.
Təbrizi darda qoymaz,
Tanrının duası var.

Loğmanın gəldi, getdi,
Dərdimi bildi, getdi.
Təbriz mənə qan verdi,
Üzümə güldü getdi.

Mən Arazam, axaram,
Hey Təbrizə baxaram.
Yağılara od vurub
Yandıraram, yaxaram.

Mən sənsiz gəzəmmərəm,
Hicrana dözəmmərəm.
Təbrizsiz sona kimi
Gölündə üzəmmərəm.

Mərd yarandın mərd, Təbriz,
Görməyəsən dərd, Təbriz.
Sən mərd ilə qardaş ol,
Yox olsun namərd, Təbriz.

Naxçıvanda Əlincə,
İncə yeri, gəl incə.
Gəlsin Təbriz gözəli,
Dodaq qaymaq, bel incə.

Nalbəndin kölgəsi var,
Təbrizin bölgəsi var.
Hər elin, hər mahalın,
Öz sözü, öz səsi var.

Neştəri vur dərindən,
Qan çıxmasın yerindən.
Qəbrim üstə əksinlər
Təbrizin güllərindən.

Nələr yaratdı Təbriz,
Zəfərə çatdı Təbriz.
Dərdi-qəmi kökündən
Qopartdı, atdı Təbriz.

Ormana gəl, düzə gəl,
Dağı dolan, düzə gəl.
Məni görmək istəsən,
Culfadan Təbrizə gəl.

Ömrümün barı Təbriz,
Balandan yarı, Təbriz.
Kətan köynək altında
Görmüşəm narı Təbriz.

Paltar geymə dizdən, yar,
Yaman gözdən gizlən, yar.
Tez Təbrizə gəl, gülüm,
Az giley et bizdən, yar.

Pəncərədən baxma, qız,
Lal sular tək axma, qız.
Təbriz gülündən başqa,
Sinənə gül taxma, qız.

Polad sınar, əyilməz,
Meyvə kalsa, yeyilməz.
Yerli-yersiz söz-söhbət,
Xan Təbrizdə deyilməz.

Sar aldı, bağ dözmədi,
Bülbül güldən bezmədi.
Təbrizdən ayrı düşdüm,
Dərdimə dağ dözmədi.

Saz çalan, sazın hanı?
Söhbətin, sözün hanı?
Tanrı belə yazıbsa,
Alnında yazın hanı?

Sənə “ana” dedim mən,
Döşündən süd yedim mən.
Sənsən ciyərim, Təbriz,
De, sənsiz nə edim mən?

Sənə nə oldu Təbriz,
Saraldın, soldun, Təbriz.
Gül üstə qan çiləndi,
Qan ilə doldu Təbriz.

Sel axdı, dağ dolandı,
O dağ, bu dağ dolandı.
Təbrizi qəmli gördüm,
Sinəmdə od qalandı.

Sevgili yarım Təbriz,
Yazım, baharım Təbriz.
Gəlmədi bu dünyada
Sənsiz qərarım, Təbriz.

Sədəf nədi, dür nədi,
Araz nədi, Kür nədi.
Təbrizin min yaşı var,
Yüz nədi, yüz bir nədi.

Sənsiz qala bilmirəm,
Sazı çala bilmirəm.
Təbriz məndən küsübdür,
Könlün ala bilmirəm.

Sinəsi yara Təbriz,
Axtarır çara Təbriz.
Karvanın qəm yüküdür,
Dostunu ara, Təbriz.

Sinəsi boran dağlar,
Təbrizi yoran dağlar.
Düşmənə göz dağıdı,
Vüqarla duran dağlar.

Su durdu, çayda qaldı,
Şərur bu tayda qaldı.
Arazı ayırdılar,
Təbriz o tayda qaldı.

Sultan Araz, xan Araz,
Şərura cansan, Araz.
Get qurban tək Təbrizin
Başına dolan, Araz.

Şamtək yağda əridim,
Bağça, bağda əridim.
Bu dağ boyda həsrətə,
Dözdüm, dağda əridim.

Şər qurudu, gün batdı,
Qəm könlümü qanatdı.
Hiyləgər yağı düşmən,
Xan Təbrizi aldatdı.

Şərurda yaşaram mən,
Dağları aşaram mən.
Təbriz mənə can desə,
Yüz dastan qoşaram mən.

Tar çalan, tarı gətir,
Mizrabı, tarı gətir.
Təbrizdə çala-çala,
Bu toya yarı gətir.

Tanrı verdi sənə güc,
Yaxşını yamandan seç.
Sür Təbrizə atını,
Arazdan vüqarla keç.

Tarın teli incədi,
Nə dedim yar incidi.
Təbriz cənnətə dönüb,
İndi ürəyincədi.

Təbib yaman xəstədi,
Karvanı yol üstədi.
Xan Təbrizdən özünə,
Ancaq rəhmət istədi.

Təbibəm, xəstəyəm mən,
Yenə yol üstəyəm mən.
Təbrizin bağlarında,
Güləm, gül dəstəyəm mən.

Təbibi güldür, Təbriz,
Yağını öldür, Təbriz.
Qardaşlığı, dostluğu,
Dünyaya bildir, Təbriz.

Təbriz məhək daşıdı,
Ürəyimin başıdı.
Altun barmaq qızlara,
Təbriz üzük qaşıdı.

Təbriz yolu dolama,
Şalı başa dolama.
Şəhriyarın ad günü,
Aləm gəldi salama.

Təbriz durub nəşəli,
Dörd tərəfi meşəli.
Göylərə qaldırıbdı,
Yandırdığı məşəli.

Təbriz gülür, oynayır,
Gözüm ondan doymayır.
Yağı düşmən, quduz qurd,
Ona xoş gün qoymayır.

Təbriz kimi qalannam,
Araz kimi bulannam.
Gündə yüz yol başına
Özüm durub dolannam.

Təbriz, dünyamsan mənim,
Canımda cansan, mənim.
Əziz bacım, qardaşım,
Atam, anamsan mənim.

Təbriz düzən yerdədi,
Səttar gəzən yerdədi.
Ayrılığa, həsrətə,
Dərdə dözən yerdədi.

Təbib, loğmandı, Təbriz,
Canı yanandı Təbriz.
Havan-suyun dərdimə,
Dava-dərmandı Təbriz.

Təbriz, dürsən, gövhərsən,
Al günəşli gövhərsən.
Neçə şair oğlun var,
Sən necə bəxtəvərsən.

Təbriz nurdu bilənə,
Salxım nədi, gilə nə?
Toyumuzu saxlayaq,
Sən Təbrizdən gələnə.

Təbriz, adına qurban,
Haray, dadına qurban.
Ulu Tanrı, yetiş sən,
Sənin dadına qurban.

Təbriz mənim xəzinəm,
Qucağında gəzirəm.
Sən mənim bəbəyimsən,
Mən də sənin gözünəm.

Təbriz, tamaşa Təbriz,
Gəl gəzək qoşa, Təbriz.
Yolunda qurban ollam,
Təki sən yaşa, Təbriz.

Təbriz, səndə gül ollam,
Bağında bülbül ollam.
Od vursalar, yanmaram,
Sən yandırsan, kül ollam.

Təbriz, başın qar alıb,
Qönçə gülün saralıb.
Ətəklədim yanmadın,
Ocaq sönüb qaralıb.

Təbriz, axanı Təbriz,
Bağla yaxanı, Təbriz.
Ayrılığa dözmüsən,
Göstər vəfanı, Təbriz.

Təbriz üstə gün düşdü,
Bəxtimə ağ gün düşdü.
Biz birləşdik ellərə,
Haray düşdü, ün düşdü.

Təbriz elim, obamdı,
Təbriz dədəm, babamdı.
Hara uçsam dünyada,
Təbriz yurdum, yuvamdı.

Təbriz bağdan bar istər,
Alma istər, nar istər.
Təbib ahıl çağında
Ala gözlü yar istər.

Təbriz üstün qar aldı,
Bağçaları sar aldı.
Dünya zülmətə döndü,
Gözlərimdə qaraldı.

Təbriz ayım, ulduzum,
Anasız mələr quzum.
Dünya eşitsin, bilsin,
Yalqız deyil Təbrizim.

Təbriz düşdü odlara,
Təbriz hara, od hara.
Yüz il qalsa da Təbriz,
Boyun əyməz yadlara.

Təbriz, şanlı Təbrizim,
Şirin canlı Təbrizim.
Ey qəhrəman oğullu,
Səttarxanlı Təbrizim.

Təbriz söhbət, sazımdı,
Təbriz bahar, yazımdı.
Şah İsmayıl şir oğlun,
Aslan Tomris qızındı.

Təbriz üstə qara daş,
Dəmirçidə sarı daş.
Bir vaxt görürdüm səni,
Ancaq yuxuda, qardaş.

Təbriz dağdan ucadı,
Küçələr uc-ucadı.
Təbriz cavanlaşıbdı,
Kim deyər ki, qocadı.

Təbriz dumanı neylər,
Çəni, dumanı neylər.
Fələk gəlsə almağa,
Sənsiz bu canı neylər.

Təbrizin öz gülü var,
Bağçada bülbülü var.
Bayatını deməyə,
Yaşlısı var, dili var.

Təbriz, pənahın nədi?
Harayın, ahın nədi?
Ayrılığı saldılar,
Sənin günahın nədi?

Təbriz, şirinsən, şirin,
Sən ala, şala bürün.
Getdi qara günlərin,
Bəsdi, az qəmli görün.

Təbriz mənim gülümdür,
Ağzımdakı dilimdir.
Təbriz, sənsiz yaşamaq,
Mənim üçün zülümdür.

Təbriz şirin dillidir,
Xiyabanlar güllüdür,
Təbrizin gözəlliyi,
Öz-özündən bəllidi.

Təbriz qədim, uludu,
Bu yol Təbriz yoludu.
Çəmənləri yamyaşıl,
Kəhrizləri suludu.

Təbriz gülsə, güləröm,
Dost gəl desə, gələrəm.
Xan Təbrizin üstündən
Qəm-kədəri silərəm.

Təbriz üstə ay batmaz,
Gün dolanar, ay batmaz.
Bu cənnəti, gülşəni,
Tanrı bir də yaratmaz.

Təbriz canımdı, Təbriz,
Axan qanımdı Təbriz.
Mən onun balasıyam,
Doğma anamdı Təbriz.

Təbriz dumandı, Təbriz,
Halım yamandı, Təbriz.
Görməyəsən qara gün,
Bir də amandı, Təbriz.

Təbriz geyib tamam al,
Başında var tirmə şal.
Dünyaya gələn gündən
Sən mənimsən, mənlə qal.

Təbriz, dövlət quşun var,
Qəhrəman keçmişin var.
Uyma yağı sözlərə,
Öz ağlın var, huşun var.

Təbriz yolu dolama,
Yol kənarın sulama.
Ay ellər, gəlin gedək,
Şəhriyarı salama.

Təbriz kimi yar olmaz,
Araz axar, yorulmaz.
Tanrı suyun durultsa,
Kim deyir ki, durulmaz.

Təbriz kimi gül olmaz,
Elim kimi el olmaz.
Şəkərdən də şirindi,
Dilim kimi dil olmaz.

Təbriz başın tacıdır,
Bizə ana-bacıdır.
Düşmən sənə əl altdan,
Yenə dişin qıcıdır.

Təbriz, yolun gözlədim,
Səni çox əzizlədim.
Addım atdım dalınca,
Addımını izlədim.

Təbriz ocağındayam,
Ana qucağındayam.
Təbriz bəzəkli gəlin,
Mən ahıl çağındayam.

Təbriz indi mənimdir,
Yurdumdur, məskənimdir.
Dünya, aləm qoy bilsin,
Xan Təbriz vətənimdir.

Təbriz mənim gülümdür,
Gülümdür, bülbülümdür.
İlk dəfə ana deyən,
Ağzımdakı dilimdir.

Təbriz gülür, gül gülür,
Gül qədrin bülbül bilir.
Bir-birindən daha xoş,
Ay dolanır, il gəlir.

Təbriz, boyun bəstədir,
Bülbülün həvəsdədir.
Həsrətini çəkməkdən,
Təbib inan, xəstədir.

Təbriz, ay laçın Təbriz,
Qayası yalçın Təbriz.
Hiyləgərin hiyləsin
Dünyaya açın, Təbriz.

Təbriz, Culfa, cüt bacı,
Araxçın qoy qıyqacı.
İndi əlimizdədi,
Hər bir dərdin əlacı.

Təbriz mənim bəxtimdir,
Taleyimdir, bəxtimdir.
Şah İsmayıl dövründən
Qalan şahlıq taxtımdır.

Təbrizə gələndə yaz,
Üzünə güləndə yaz.
Tanrı yazan yazını,
Öz türkü dilində yaz.

Təbrizə top atdılar,
Evləri dağıtdılar.
Yatmış pələngi birdən
Yuxudan oyatdılar.

Təbrizə atlı getdim,
Qollu-qanadlı getdim.
Təbriz min il yaşadı,
Tanrıya şükür etdim.

Təbrizə yolum düşdü,
Dərd düşdü, zülüm düşdü.
Təbrizdən ayrılanda
Qırıldı qolum, düşdü.

Təbrizə gül düyümü,
Qönçəli gül düyümü.
Yağı düşmən qoy görsün,
Sevinib güldüyümü.

Təbrizə vurulmuşam,
Yol gedib yorulmuşam.
İldırım tək çaxmışam,
Araz tək burulmuşam.

Təbrizə düşdü yolum,
Açıldı əlim, qolum.
Qoy yarımın başına,
Dolanım, qurban olum.

Təbrizə yol açaram,
Göyərçin tək uçaram.
Bir körpə uşaq kimi,
Qucağına qaçaram.

Təbrizə gələn mənəm,
Ağlayan, gülən mənəm.
Vətən deyə yolunda,
Can verən, ölən mənəm.

Təbrizə gəldi yarım,
Sevindi, güldü yarım.
Ürəyindən kədəri,
Ömürlük sildi yarım.

Təbrizə gələrəm mən,
Dost qədri bilərəm mən.
Şəhriyarın qəlbindən
Nisgilin silərəm mən.

Təbrizə gedən gəlməz,
Dostu yad edən gəlməz.
Qardaş yolun gözlədim,
Bilmirəm nədən gəlməz.

Təbrizə gələrəm mən,
Sevinib gülərəm mən.
İstəsə ala-şala,
Təbrizi bələrəm mən.

Təbrizdə dağ oleydi,
Dörd yanı bağ oleydi.
Görüşünə gəleydim,
Şəhriyar sağ oleydi.

Təbrizdə bağ mənimdi,
Sağ mənim, sol mənimdi.
Araz dərədən axır,
O dağ, bu dağ mənimdi.

Təbrizdən yenənə bax,
Danışıb dinənə bax.
Hicran məni yandırır,
Odlanıb sönənə bax.

Təbrizdə bir dağam mən,
Təbrizə dayağam mən.
Durmuşam keşiyində,
Həmişə oyağam mən.

Təbrizdə gül üstəyəm,
Əlində gül dəstəyəm.
Təbibim, kimə deyim,
Həsrətindən xəstəyəm.

Təbrizdə ceyran mənəm,
Təbrizə heyran mənəm.
Özüm qurban gəlmişəm,
Təbrizə qurban mənəm.

Təbrizdən üzüm aldım,
Nimçəyə düzdüm, aldım.
Qismətimə sən düşdün,
Axtardım, gəzdim, aldım.

Təbrizdə şal axtardım,
Atıma nal axtardım.
Dilin baldan şirindi,
Nahaqdan bal axtardım.

Təbrizdə sazım qaldı,
Sazım, avazım qaldı.
Sənə yazı yazırdım,
Əlimdə yazım qaldı.

Təbrizdə var gilənar,
Bizə qonaq gələ yar.
Şərurda toy-büsatdır,
Sevinə yar, gülə yar.

Təbrizdə gülə bəndəm,
Obaya, elə bəndəm.
Hər sözü şəkər dadan
Dodağa, dilə bəndəm.

Təbrizdə cana gəldim,
Mən bu cahana gəldim.
Təbrizi görən kimi,
Dinə, imana gəldim.

Təbrizdə lalə yalqız,
Qoyma yar qala yalqız.
Bu dünyada qalmasın,
Anasız bala yalqız.

Təbrizdə gümüş oldum,
Dağ başında quş oldum.
Qəhrəmanlar içində,
Heykəlləşdim, daş oldum.

Təbrizdə nar istərəm,
Güneydə qar istərəm.
Qədir bilən, dil bilən,
Gül üzlü yar istərəm.

Təbrizdə gül abıdı,
Gah sarı, gah abıdı.
Tənəklərdə ballanan
Kişmişi, güllabıdı.

Təbrizdə gül əkdilər,
Gül salıb gül əkdilər.
Səndən ayrı düşəli,
Sinəmə dağ çəkdilər.

Təbrizdə var yasəmən,
Ətir saçar yasəmən.
Salxım-salxım açılar,
Qalar naçar yasəmən.

Təbrizdə durdu düşmən,
Tələsin qurdu düşmən.
Zalım ovçu ox atdı,
Ceyranı vurdu düşmən.

Təbrizdə dərs oxusun,
Xalı, xalça toxusun.
Məni odsuz, alovsuz,
Yandırırsan axı sən.

Təbrizdə boy atmışam,
Mətləbinə çatmışam.
Bu dünyanı çevirib
Altın üstə qatmışam.

Təbrizdə yanar ocaq,
Qor düşər qucaq-qucaq.
Atan-anan verməsə,
Naxçıvana gəl qaçaq.

Təbrizdə ara məni,
Sən axtar, ara məni.
Fəxr et, vətən yolunda
Çəksələr dara səni.

Təbrizdə gül satdım, gəl,
İstəyimə çatdım, gəl.
Əl-qolumdan zənciri,
Parçaladım, atdım, gəl.

Təbrizdə asta yeri,
Asta gəz, asta yeri.
Düşmənin gözü çıxsın,
Üzün tut dosta, yeri.

Təbrizdə yaram sızlar,
Vaxt bilməz, aram sızlar.
Təbib əlac axtarır,
Bilmirəm haram sızlar?

Təbrizdə südlü bulaq,
Ağ bulaq, südlü bulaq.
Çörəyiylə, suyuyla,
Məni böyütdü bulaq.

Təbrizdə meynəyə bax,
Üzümə, meynəyə bax.
Qoşa narı gizlədən,
Sən o ağ köynəyə bax.

Təbrizdə üzüm əkdim,
Əlimlə özüm əkdim.
Barını özgə yedi,
Boşuna zülüm çəkdim.

Təbrizdə bulağa gəl,
Dəsmalın yumağa gəl.
Təbriz cənnətə dönüb,
Sən kefə, damağa gəl.

Təbrizdə nar ağacı,
Əkmişəm nar ağacı.
Culfa, Təbriz – ikisi,
Həm qardaşdı, həm bacı.

Təbrizdə çiçəyimsən,
Gözəlim, göyçəyimsən.
Sənsən dinim, imanım,
Hər arzum, istəyimsən.

Təbrizdə kabab yandı,
Gülübda gülab yandı.
Dəftər, qələm od tutdu,
Əlimdə kitab yandı.

Təbrizdən nar almışam,
Dağından qar almışam.
Ürəyimi oxlayan
Qaragöz yar almışam.

Təbrizdə üzümə bax,
Salxıma, düzümə bax.
Baxma özgə sözünə,
Qardaşın sözünə bax.

Təbrizdə süsənim var,
Aranı kəsənim var.
Bir kəlmə söz deməmiş
İnciyib küsənim var.

Təbrizdə güllərə bax,
Xınalı əllərə bax.
Yar könlünü almağa
Sən şirin dillərə bax.

Təbrizdə gözüm qaldı,
Yolunda izim qaldı.
Ölmək Allah əmridi,
Sinəmdə sözüm qaldı.

Təbrizdə bir qala var,
Ətrafında lalə var.
Yarım gəlib çıxmadı,
Bəlkə bir dərd, bəla var.

Təbrizdə haşa dağlar,
Verib baş-başa dağlar.
Qardaş kimi yan-yana,
Durubdu qoşa dağlar.

Təbrizə yol salaydım,
Yol üstə daş olaydım.
Kaş ki, ömrüm boyunca,
Xan Təbrizdə qalaydım.

Təbrizdə aran dağlar,
Dünyanı yoran dağlar.
Yaman gündə düşmənə
Sinəsin gərən dağlar.

Təbrizdə qoşa dağlar,
Verib baş-başa dağlar.
Gözümüzün yaşıyla,
Suladıq, yaşa, dağlar.

Təbrizdə duman olar,
Ayrılıq yaman olar.
Tanrı sevən bəndədə,
Din olar, iman olar.

Təbrizdə çox qaldılar,
Huşu başdan aldılar.
Düşmənlər aramıza,
Ayrılığı saldılar.

Təbrizdə xoş baxışla,
Hananı qur, naxışla.
Leysan yağışı kimi,
Torpağa can bağışla.

Təbrizdə gülən mənəm,
Sevinən, gülən mənəm.
Ayrılığı, həsrəti,
Qəlblərdən silən mənəm.

Təbrizdə Ərk qalası,
Dörd yanında laləsi.
Mənə baldan şirindi,
Öz anamın laylası.

Təbrizdə dam quraram,
Dama günbəz vuraram.
Sinəmi səngər edib
Keşiyində duraram.

Təbrizdə badam, püstə,
Dodaq qaymaq, dil püstə.
Şəhriyara yer verdim,
Sinəm üstə, göz üstə.

Təbrizdə kətana bax,
Bu qaş-göz atana bax.
Mətahını alan yox,
İşvə, naz satana bax.

Təbrizdə gün görəydik,
Bağından gül dərəydik.
Şəhriyar sağ olaydi,
Qoşa ömür sürəydik.

Təbrizdə uca çinar,
Budağı qoca çinar.
Tarix özü şahiddir,
Əyilməz qoca çinar.

Təbrizdə laləm qaldı,
Dərmədim, laləm qaldı.
Şəhid oldu ağası,
Bir yetim balam qaldı.

Təbrizdə gəlin gördüm,
Xınalı əlin gördüm.
Dağdan ağır obasın,
Mahalın, elin gördüm.

Təbrizdə baş meydan var,
Döşəmə, daş meydan var.
Söz gəzdirən, ev yıxan,
Aramızda şeytan var.

Təbrizdə gül bitir sən,
Bağça sal, gül bitir sən.
Nakəsi yer üzündən,
Həmişəlik itir sən.

Təbrizdə çox gəzmişəm,
Güllərini dərmişəm.
Anam qoca Təbrizin
Hər dərdinə dözmüşəm.

Təbrizdə al qərənfil,
Qırmızı, al qərənfil.
Dil aç, dilinə qurban,
Dayanma lal, qərənfil.

Təbrizdə azan oldu,
Yazını yazan oldu.
Araya düşmən girdi,
Dostluğu pozan oldu.

Təbrizdə "Qız bənövşə",
Gəlibdi yaz, bənövşə.
Hüseyn Cavan oxuyur,
Əlində saz, bənövşə.

Təbrizdə binə dağlar,
Yurd yeri, binə dağlar.
Qədəm qoysam sinənə,
Sağallam yenə dağlar.

Təbrizdə bir bağam mən,
Dil-damağı çağam mən.
Dağ kimi dayanmışam,
Arxanda bir dağam mən.

Təbrizdə duman qalmaz,
Çən qalmaz, duman qalmaz.
Həsrətlə yaşayanda
Din qalmaz, iman qalmaz.

Təbrizdə oxumuşam,
Xalını toxumuşam.
Səndən uzaq düşəli,
Elə bil yoxumuşam.

Təbrizdə xəstə təbib,
Qulağı səsdə təbib.
Loğmanın yolun gözlər,
Dərdi dərd üstə təbib.

Təbrizdə ala qapı,
Açıldı dala qapı.
Təbrizə yan baxanlar,
Dilənsin qapı-qapı.

Təbrizdə günə düşdüm,
Toya, düyünə düşdüm.
Dünyanı gəzdim gəldim,
Təbrizə yenə düşdüm.

Təbrizdə çinar ollam,
Yoluna kölgə sallam.
Sənin intizarından
Yanaram, fanar ollam.

Təbrizdə binə tikdim,
Qapısın günə tikdim.
Əcəl vurdu, dağıtdı,
Mən gəldim, yenə tikdim.

Təbrizdə ozan ollam,
Həsrətə dözən ollam.
"Can qardaş" – deyə-deyə,
Dünyanı gəzən ollam.

Təbrizdə gözüm qaldı,
Tənəkdə üzüm qaldı.
Birdən dilim dolaşdı,
Ağzımda sözüm qaldı.

Təbrizdə süzə ceyran,
Yayılıb düzə ceyran.
Ayrılığa, hicrana
Can necə dözə, ceyran?

Təbrizdə quzu gördüm,
Badamı gözü gördüm.
Aşığın sinəsində
Mən telli sazı gördüm.

Təbrizdə sona qaldı,
Durdu yan-yana qaldı.
Təbrizdən bu bayatı
Elə nişana qaldı.

Təbrizdə məzə qaldı,
Əlimdə kuzə qaldı.
Yadlar gəldi, görüşdü,
Ayrılıq bizə qaldı.

Təbrizdə aya baxdım,
Araza, çaya baxdım.
Hicranın sinəsinə
Ox atdım, yaya baxdım.

Təbrizdə qalanım var,
Deməyin, yalanım var.
Məni hər gün, hər gecə
Yadına salanım var.

Təbrizdə xırman ollam,
Dən ollam, xırman ollam.
Xan Təbrizin başına
Dolannam, qurban ollam.

Təbrizdən küsmə, getmə,
Səbrimi kəsmə, getmə.
Basım bağrıma səni,
Yapraq tək əsmə, getmə.

Təbrizdən karvan gedər,
Karvanla sarvan gedər.
Uyma şeytan sözünə,
Əldən din, iman gedər.

Təbrizdən aşdım, gəldim,
Yolu dolaşdım, gəldim.
Həsrətini çəkməkdən,
Ağardı başım, gəldim.

Təbrizdən bəri dağ var,
Culfada dərə, dağ var.
Yar yaylaqdan gəlincə,
Əritmə qarı, dağlar.

Təbrizdən huru gəlir,
Gözümün nuru gəlir.
Araz daha bulanmır,
Suyu dumduru gəlir.

Təbrizdən səda gəldi,
İmdada, dada gəldi.
Qardaşım süfrə açdı,
Ağzımız dada gəldi.

Təbrizdəyəm, bura gəl.
Zülflərin dara gəl,
Həsrətlilər qovuşdu,
Dost-tanışı ara, gəl.

Təbrizi gəzdim, gəldim,
Daşını düzdüm, gəldim.
Bizi çalan ilanın
Başını əzdim, gəldim.

Təbrizdir, bura Təbriz,
Qəm getdi hara, Təbriz?
Səni mən çox axtardım,
Gəlmədim zara, Təbriz.

Təbrizi dolaşanda,
Bal salar arı şanda.
Ayrılmaq çətin olur,
Təbrizə alışanda.

Təbrizi qınama, yar,
Od salma canıma, yar.
Təbriz necə yaraşır,
Adıma, sanıma, yar.

Təbrizi gəzdim, gəldim,
Əlimi üzdüm, gəldim,
Qan ağladım, qan uddum,
Hər dərdə dözdüm, gəldim.

Təbrizi gəzən mənəm,
Təbrizsiz bəzənmərəm.
Qolunu sal boynuma,
Mən sənsiz dözəmmərəm.

Təbrizim gəl, qoşa gəl,
Mən qanad açmışam, gəl.
Hicranı yox etmişəm,
Arzuya çatmışam, gəl.

Təbrizim gəl, quzum gəl,
Baharım gəl, yazım gəl.
Həsrətinə dözmərəm,
Gəl, Təbrizli qızım, gəl.

Təbrizim elə bağlı,
Şanəyəm, telə bağlı.
Bülbül olub ötərəm,
Bir qönçə gülə bağlı.

Təbrizim yaralandı,
Ürəyim paralandı.
Balalar anasından
Zülm ilə aralandı.

Təbrizim darda qaldı.
Boranda, qarda qaldı.
Yad ellidən, yağıdan,
Qisasa qisas aldı.

Təbrizim, xan Təbrizim,
Kükrə, çağla Təbrizim.
Yolunda baş qoyaram,
Sənin hər an, Təbrizim.

Təbrizim sinə-sinə,
Gün düşdü sinəsinə.
Səttar gülləsi dəysin,
Düşmənin sinəsinə.

Təbrizim, xan Təbrizim,
Mənim sultan Təbrizim.
Qolun dola boynuma,
Olum balan, Təbrizim.

Təbrizi cana gətir,
Canı canına gətir.
Dalğalanan bayrağı,
Mənə nişanə gətir.

Təbrizi ağlatdılar,
Sinəmi dağlatdılar.
Yad ellilər, nadanlar,
Yolumu bağlatdılar.

Təbrizin çayları var,
Həftəsi, ayları var.
Yemiş verən, bar verən
Payızı, yayları var.

Təbrizin ocağını,
Gəzdim bağça-bağını.
Gözümə sürmə kimi
Sürtərəm torpağını.

Təbrizin şirin narı,
Yeməyə şirin narı.
Şərurdan qonaq gəlim,
Bağçadan dərim narı.

Təbrizin yoxdu dərdi,
Kim deyir, çoxdu dərdi.
Şeytanların gözünə,
Sancılan oxdu dərdi.

Təbrizin bağına bax,
Bostanın tağına bax.
Həsrətindən əriyən,
Ürəyin yağına bax.

Təbrizin əlinə bax,
Döşündə gülünə bax.
Yumruq kimi birləşən
Qəhrəman elinə bax.

Təbrizin alması var,
Armudu, alması var.
Yol gözləyən gözlərin
Yol üstə qalması var.

Təbrizin alması var,
Xoyu var, Səlması var.
Arzumanın küftəsi,
Sərabın dolması var.

Təbrizin çiçəyi var,
Gözəli, göyçəyi var.
Kamallı, ağ saqqalı,
Kamil ağbirçəyi var.

Təbrizin qucağında,
Yanıram ocağında.
Cənnət ömrü yaşadım,
Hər küncün-bucağında.

Təbrizin yanı bağdı,
Kefi kök, kefi çağdı.
Canım sənə sadağa,
Nə qədər canım sağdı.

Təbrizin yaz çağında,
Köz düşər ocağında.
Bələnəydim, yataydım,
Anamın qucağında.

Təbrizin harasıdı,
Dərdimin çarasıdı.
Gözümün həm giləsi,
Həm də ki qarasıdı.

Təbrizin ənciri var,
Qolunda zənciri var.
Dartdın, qırdın, qardaşım,
Yerində qançırı var.

Təbrizin buz yolları,
Basmasın toz yolları.
Səni görməyə gəldim,
Piyada düz yolları.

Təbrizin yüz kəndi var,
Araz üstə bəndi var.
Təbriz məni ovlayıb,
Məhəbbət kəməndi var.

Təbrizin alçası var,
Alması, alçası var.
Yollara döşəməyə,
Xalısı, xalçası var.

Təbrizin qalası var,
Dağlarda laləsi var,
Koroğlusu, Babəki,
Səttərxan balası var.

Təbrizin gözəl bağı,
Tutmasın xəzəl bağı.
Tanrı özü yaradıb
Hər şeydən əzəl bağı.

Təbrizin bağında mən,
Savalan dağında mən.
Təbrizə vurulmuşam,
Bu ahıl çağında mən.

Təbrizin yolu tozdu,
Düşmənin üzü bozdu.
Yağıların məzarın,
Təbriz əlilə qazdı.

Təbrizin ağ üzümü,
Yolda qoydu gözümü.
Ayrılığa dözmədim,
Tanrı verdi dözümü.

Təbrizlə Xoy arası,
Ürəyimin parası.
Təbibin əlindədi
Hər dərdimin çarası.

Təbrizsiz gəzəmmərəm,
Geyinib bəzənmərəm.
Ayrılığa, hicrana,
Mən daha dözəmmərəm.

Təbrizsiz gülmək olmaz,
Hər işi bilmək olmaz.
Arazı iki yerə
Ayırmaq, bölmək olmaz.

Təndirdə od qarsıdı,
Bu dərd məni sarsıdı.
Təbriz canım, cigərim,
Ürəyimin yarısıdı.

Ucadır başın, Təbriz,
Neçədir yaşın, Təbriz?
Sürmədir gözlərimə,
Torpağın, daşın, Təbriz.

Uzaqdır ara, Təbriz,
Mən gedim hara, Təbriz.
Ovçu bərə axtarır,
Düşməsin tora Təbriz.

Ürəyimi saz eylə,
Baharımı yaz eylə.
Sən mənimsən, mən sənin,
Gəl Təbrizə naz eylə.

Üzündə var xal, Təbriz,
Heç dayanma lal, Təbriz.
Düşmənin ürəyinə
Şişpərini çal, Təbriz.

Üzüksüz barmaq olmaz,
Ürəgi yarmaq olmaz.
Təbrizi özlüyündən,
Heç vaxt ayırmaq olmaz.

Üzüldü can, Təbrizim,
Ürəkdə qan, Təbrizim.
Sinəmdə od gətirdim,
Alış da yan, Təbrizim.

Yanaqları lalədi,
Göz yaşları jalədi.
Al, iç doyunca, Təbriz,
Dünya bir piyalədi.

Yarıma deyin gəlsin,
Tez gəlsin, yeyin gəlsin.
Təbrizə hər gələndə,
Təzə geyinsin gəlsin.

Yatmısan oyan, Təbriz,
Qırmızı boyan, Təbriz.
Bağrıma basım səni,
Nə o yan, bu yan Təbriz.

Yarı görməyə gəldim,
Saçın hörməyə gəldim.
Təbriz gül-çiçək açıb,
Gülün dərməyə gəldim.

Yayılıb düzə Təbriz,
Gəlməsin gözə Təbriz.
Mən sizə gələmmirəm,
Gələydin bizə, Təbriz.

Yol çəkərlər düz yerdən,
Hamar yerdən, düz yerdən.
Haraylaram Təbrizi,
Əlli yerdən, yüz yerdən.

Yol üstə gül düz görüm,
Xan Təbrizdə gəz görüm.
Bu toy qardaş toyudu,
Düş, sona tək süz görüm.

Yolçu yolun düz gedir,
Dərə-təpə düz gedir.
Karvan-karvan Təbrizə,
Naxçıvandan duz gedir.

Zəlzələ gəldi, getdi,
Qəlbləri dəldi, getdi.
Qətran Təbriz ağladı,
Göz yaşın sildi, getdi.

Zülfün darayaq, Təbriz,
Dostun arayaq, Təbriz.
Ömür sürək, gün sürək,
Qoşa qarıyaq, Təbriz.

Təbrizin dar yolları,
Bağladı qar yolları.
Yaz qabaqda, qış keçir,
Çırmala, yar, qolları.

## BEŞHECALI DÖRDLÜKLƏR

Almadan kəs ver,
Heyvadan kəs ver.
Səsivə qurban,
Səsimə səs ver.

Bu yandan keçdi,
O yandan keçdi.
Qızlar içində
Yar məni seçdi.

Burğu buruldu,
Sular duruldu.
Oynayan xanım,
Qolum yoruldu.

Çadramda milçək,
Gözləri göyçək.
Bihəyam ölübdü,
Olmuşam sevincək.

Çay irəhlidir,
Çaydan əhlidir.
Mənim qardaşım
Tehran əhlidir.

Dağlar ərincə,
Gülü dərincə.
Mənə bir namə,
Özün gəlincə.

Dağlar meşədi,
Qəlbim şüşədi.
Göz yola tikmək
Mənə peşədi.

Dağları dəlləm,
Yanuva gəlləm.
Sənsiz neyləyim,
Cavanam, ölləm.

Dağları dəlləm,
Yanuva gəlləm.
Mənə az qüssə ver,
Cavanam, ölləm.

Dağlar daldadı,
Gözüm yoldadı.
Mən sevən oğlan,
İndi hardadı?

Dərbənd aralı,
Düşdüm fərari.
Sövgü bir olar,
O da vəfalı.

Donun sarıdı,
Günüm yarıdı.
Gəl dalan alta,
Mırtın[26] yeridi.

[26]Mırt – söhbət, zarafat

Ey gedən naib,
Şəmsiyən qalıb.
Özün deyibsən,
Anan yalvarıb.

Ey gedən oğlan,
Getmə, bir dayan.
Öz əlindədi,
Sərgərdan qoyan.

Ey-vay, ilahi,
Bostan koludu.
Ara xiyavan,
Yarın yoludu.

Ey-vay, ilahi,
Səbrim olaydı.
Yar gəzən yollar
Qəbrim olaydı.

Eynəgi şüşə,
Qorxuram düşə.
Mən vurulmuşam,
Bir qızıldişə.

Eynəgi sarı,
Neynirsən yarı?
İndinin yarı
Çöllərə salı.

Əkisin məndə,
Verməyəcəyəm.
Səndən başqasın
Sevməyəcəyəm.

Əksin duvara
Mıxlamamışam.
Bir il keçəni
Yoxlamamışam.

Əksin məndə,
Mənim cibimdə.
Niyə gəlmirsən,
Bizim Dərbəndə?

Əksin məndə,
Mən də çəməndə.
Səni sevəni
Gəl gör Dərbənddə.

Əlimdə açar,
Qalmışam naçar.
İşin düyünün
Seyidlər açar.

Əlində şənə,
Gedir xərmənə.
Bir cüt bacın var,
Birin ver mənə.

Gəl atma məni,
Atmaram səni.
Dünya malına
Satmaram səni.

Gəl bizim bağa,
Qar yağa-yağa.
Əskiz saldıraq,
Vuraq otağa.

Gəlirdim sizdən,
Keş corab dizdən.
Allah, ayırma,
Bir-birimizdən.

Görmüşəm səni,
Sevmişəm səni.
Yar ayrılığı
Öldürər məni.

Güldan əyildi,
Gülü dərildi.
Sənin əxlaqın
Belə deyildi.

Güldanda narış,
Küsübsən, barış.
Mənzil uzaqdı,
Telfunla danış.

Güllər güldanda,
Bülbül eyvanda.
Mənimki sənsən,
Külli-cahanda.

Gülü əkmərəm,
Suyu tökmərəm.
Məhəbbət çoxdur,
Əl çəkəmmərəm.

Güldanıyam mən,
Şəhlasıyam mən.
Öz aşiqimin
Qurbanıyam mən.

Hara gedirsiz,
Dağlara baxın.
Bir açın sinəmi,
Yarama baxın.

İşmə piyala,
Düşmə xəyala.
O yar mənimdi,
Çəkmə kənara.

Qızıl pilətə,
Üstündə xətə.
Qardaş, sən Allah,
Getmə qürbətə.

Maşın qərədi,
Qabaq dərədi.
Mən sevən oğlan
Qəlbi qərədi.

Maşında gördüm,
Dərdindən öldüm.
Yeri, vəfasız,
Vəfanı gördüm.

Midalı almas,
Dəsbəndim qızıl.
Famil yaxşı olsa,
Qız evdə qalmaz.

Miz üstə kirşan,
Oldum pərişan.
Vaxt yoxdu yarla
Deyim, danışam.

Neynədin mənə,
Aşiqəm sənə.
Yar ayrılığı
Kar eylər mənə.

O yan tikanlıq,
Bu yan tikanlıq.
Sənsiz bir yerdə
Nə zəndəganlıq.

Orda durmaqdan,
Qaymaq dodaqdan.
Ölüm yaxşıdır,
Subay qalmaqdan.

Otaqda kilim,
Üstündə gəzim.
Nə dedim yara,
Lal olsun dilim.

O yan döndərmə,
Bu yan döndərmə.
Küsmüşəm səndən,
Məktub göndərmə.

Səkinə xala,
Təndiri qala.
Kösöyü götür,
Məni qovala.

Tanrı, bax yarım
Vəfasız oldu.
Məni atdı da,
Kimə yar oldu?

## XALQ MAHNILARI

## APARDI SELLƏR SARANI

Arpa çayı aşdı, daşdı,
Sel Saranı aldı, qaşdı.
Ala gözlü, qələm qaşlı
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Yüz atlıydıq, çıxdıq düzə,
Pıçaq batsın yaman gözə.
Sağrı başmaq suda üzə,
Apardı sellər Saranı!
Bir uca boylu balanı!

Arpa çayı məni aldı,
Apardı dəryaya saldı,
Çilovdarı dalda qaldı,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Qaldı bu sinəmdə dağın,
Öldürdü məni fərağın,
Oldu qara toy otağın,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Adaxlı gözlər yolunu,
Boynuna salsın qolunu.
Su aldı sağı, solunu,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Dügünü töhdüm qazana,
Qaynadı, qaldı əzana,
Əlac yox Allah yazana.
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Arpa çayı ara gəlir,
Kor yengələr dada gəlir,
Sağrı başmaq suda gəlir,
Apardı sellər Saranı!
Bir uca boylu balanı!

Dügünü töhdüm tabağa,
İslandı, qaldı sabaha,
Cilovdar düşdü qabağa.
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Qara ağac qoy qırılsın,
Dibinə balta vurulsun,
Cilovdar, əlin qurusun.
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

## YARALI DURNA

Evlərinin dalı təpə,
Yağış gəlir səpə-səpə.
Oyadıram öpə-öpə,
Üç telli, dörd telli, beş telli durna,
Ovçu əlindən yaralı durna.

Evlərinin dalı qaya,
Qayadan baxarlar aya,

Mənim yarım ağca maya.
Üç telli, dörd telli, beş telli durna,
Ovçu əlindən yaralı durna.

Dama çıxdım mən bu gün,
Damdan tapdım bir dügün.
Nə yem idin yadıma,
Yadıma düşdün bu gün.
Üç telli, dörd telli, beş telli durna,
Ovçu əlindən yaralı durna.

## O YARA QURBAN OLUM

Yük üstə gülü haça,
Kim qaldıra, kim aça.
O yara qurban olum,
Dindirə, gönlüm aça.

Yarım gəlir yatmağa,
Gül ətrinə batmağa.
Səhər yuxusu şirin,
Qıymıram oyatmağa.

Səmavar yana-yana,
Od düşüb şirin cana.
Danışıram kağaznan,
Dil qalıb yana-yana.

## SAMOVARA OD SALMIŞAM

Səmavara od salmışam,
İstəkana qənd salmışam,
Yarım gedib tək qalmışam,
Yar bizə qonax gələcək,

Bilmirəm, haçan gələcək?
Söz verib, sabah gələcək.

Səmavarı qoydum düzə,
Yar yarına çay süzə,
Bəla dəysin yaman gözə.
Narınc hanı, turunc hanı,
Sən olasan yarın canı.

Səmavarın buğu qalxır,
Qırnasından suyu axır.
Gözlərin yola baxır,
Narınc hanı, turunc hanı,
Sən olasan yarın canı.

## EVLƏRİ VAR...

Evləri var xana-xana,
Mən kül oldum yana-yana,
Yandı bağrım, döndü qana.
Aman gülüm, gülüm, gülüm,
Yandı dilim, dilim, dilim.

Evləri var qarşımızda,
Sevdası var başımızda,
Uzaq deyil, qarşımızda.
Aman gülüm, gülüm, gülüm,
Yandı dilim, dilim, dilim.

## ULDUZ, AMAN!

Bu gecə Ay doğacaq,
Xanəvar oynayacaq.
Bir yaman qaynanam var,
Yarımı qoymayacaq.

Ulduz, aman, ay aman,
Halım yaman, ay yaman!

Qaşların qarasından,
Öpərəm arasından.
Mən səni çox sevirəm
Məhəbbət barasında.
Ulduz, aman, ay aman,
Halım yaman, ay yaman!

Əmim oğlusan, nəsən,
Sən məni bəyənmisən.
Eləsinə gedərəm,
Sən onun nökərisən.
Ulduz, aman, ay aman,
Halım yaman, ay yaman!

Su oylağı olaydım,
Ləkdən-ləkə dolaydım.
Yarım əkən çəltigin
Sünbülü mən olaydım.
Ulduz, aman, ay aman,
Halım yaman, ay yaman!

## ÜRƏYİMDƏ SÖZÜM VAR...

Sandıq üstə üzüm var,
Ürəgimdə sözüm var.
İki cəvan bir gəzər,
Birisində gözüm var.

Boz at minəm, boz olar,
Çapıb getmə, söz olar.

Ay qız, yaylığın düşdü,
Mən götürsəm, söz olar.

## SONALAR, AY SONALAR!

Bu gün ayın üçüdür,
Girmə, bostan içidir.
Dodaqların xam şəkər,
Dilin badam içidir.
Sonalar, ay sonalar,
Gül üstünə qonalar!

Mənim yarım sarı laçın,
Fələk qoymur bəxtim açım.
Səni elə götürüm qaçım,
Sonalar, ay sonalar,
Gül üstünə qonalar!

Evlərə qatar məni,
Gül eylər, satar məni.
Vəfalı yarım olsa,
Axtarar, tapar məni.
Sonalar, ay sonalar,
Gül üstünə qonalar!

Sən mənim gözəl yarım,
Bayramda bəzən, yarım.
Qızıldan, ya gümüşdən,
Nişana düzən yarım.
Sonalar, ay sonalar,
Gül üstünə qonalar!

## YERİ, DAM ÜSTƏ YERİ

Yeri, dam üstə yeri,
Bir qızıl cam üstə yeri,
Ayaqların incitsə,
Çıx, sinəm üstə yeri.

Ayağında çəkməsi,
Qızıldandı düyməsi,
Bala ceyrana bənzər
Yarın özün öyməsi.

## QARAGİLƏ

Uca dağlar başında narış qaşlaram, Qaragilə,
narış qaşlaram,
Yarımın ayağına givə başlaram, Qaragilə,
givə başlaram,
Yarım getsə səfərə, mən naxoşlaram, Qaragilə,
mən naxoşlaram.

Evində qarman, Qaragilə,
Veriri fərman.
Xudam eyləsin, Qaragilə,
Dərdivə dərman.

Evlərinin dalısı dana xurmadı, Qaragilə,
dana xurmadı,
Əlin vurma məməmə, məməm xırdadı, Qaragilə,
məməm xırdadı,
Gəl qapı dalısına, anam burdadı, Qaragilə,
anam burdadı.

Əksin məndədir, Qaragilə,
Mıxlamamışam.
Səni sevəndən, Qaragilə,
Yuxlamamışam.

Qaradır o qaşaların arasına bax, Qaragilə,
arasına bax,
Bivəfa sevgilimin vəfasına bax, Qaragilə,
vəfasına bax,
Aç ürəgim başın, yarasına bax, Qaragilə,
yarasına bax.

Qızılgül xəndan, Qaragilə,
Ver şu qələmdan.
Ölüm yaxşıdır, Qaragilə,
Aşiq olmaqdan.

Evimizin qabağı su gələn arxdır, Qaragilə,
su gələn arxdır,
Durum çıxım eyvana, yar gələn vaxtdır, Qaragilə,
yar gələn vaxtdır,
Yarım gəlib çıxmayır, ovqatım talxdır, Qaragilə,
ovqatım talxdır.

Ağac olaydım,
Yolda duraydım.
Sən gələn yola, Qaragilə,
Kölgə salaydım.

Boynuna salmısan zülfündən zəncir, Qaragilə,
zülfündən zəncir,
Mən sənin əsirinəm, bir məni dindir, Qaragilə,
bir məni dindir,

O şirin sözlərindən məgər kim incir, Qaragilə,
məgər kim incir?

Qızılgül əsdi,
Səbrimi kəsdi.
Gəl insaf eylə, Qaragilə,
Ağlama, bəsdi.

O qədər mən ağlaram dəryalar dolar, Qaragilə,
dəryalar dolar,
O gümüş piyalələr mey ilə dolar, Qaragilə,
mey ilə dolar,
O qədər səbr eylərəm, yar mənim olar, Qaragilə,
yar mənim olar.

Əlində çaxır,
Gözləri axır,
Mən baxan yara, Qaragilə,
Gör kimlər baxır?

## DAĞLAR MARALI

Dağlar maralı, ay aman,
Gəzmə aralı.
Fərəqindən qəlbim olmuş
Dağlar, yaralı.
Ay aman, ay aman.

## MİNDİM ATIN AĞINI

Mineydim atın ağını,
Gəzeydim Tehran dağını.
Mineydim atın ağını,

Gəzeydim Tehran dağını.
Göreydim yarın bağını,
Göreydim, ondan öleydim.

Öleydim, ondan öleydim,
Yarı göreydim, öleydim.

Mineydim atın qərəsin,
Gəzəydim Tehran dərəsin.
Mineydim atın qərəsin,
Gəzəydim Tehran dərəsin.
Göreydim yarın bacısın,
Göreydim, ondan öleydim.

Öleydim, ondan öleydim,
Yarı göreydim, öleydim.

Mineydim atın bozunu,
Gəzeydim Tehran düzünü.
Mineydim atın bozunu,
Gəzeydim Tehran düzünü.
Göreydim yarın özünü,
Göreydim, ondan öleydim.

Öleydim, ondan öleydim,
Yarı göreydim, öleydim.

## QIZ-OĞLAN DEYİŞMƏLƏRİ ÜZƏRİNDƏ QURULAN MAHNILAR

**Oğlan:**

– Ay gözəl, gözəl, gəl gedək bağa,
Qoy bir də baxım o gül dodağa.
Ay gözəl, gözəl, gəl gedək bağa,
Qoy bir də baxım o gül dodağa.

**Qız:**

–Yanaqlarım neynirsən, oğlan?
Bağlarda çiçək görməmisən?

**Oğlan:**

– Ay qız, sevmişəm gül camalını,
Bir insaf eylə, göstər xalını.

**Qız:**

– Oğlan, neynirsən mənim xalımı?
Dağlarda miçək görməmisən?

**Oğlan:**

– Xurma dodağın dərdimə dərman,
Onları mənə göstər bir canan.

**Qız:**

– Oğlan, neynirsən dodaqlarımı?
Məgər beçə bal görməmisənmi?

**Oğlan:**

– Sən bizim eldə bir nazlı dilbər,
Səbrim qalmadı, qaşuvu göstər.

**Qız:**

– Oğlan, neynirsən mənim qaşımı,
Gecələr hilal görməmisənmi.

* * *

**Oğlan:**

– Bulaq başında duran qız,
Söylə, kimin qızısan?
Əlin belinə vuran qız,
De, hara ulduzusan?

Vuruldum o tellərivə,
O qərə qaş-gözlərivə.
Vuruldum o tellərivə,
O qərə qaş-gözlərivə.
Yandırma məni, sevirəm səni,
Sevirəm səni, alagöz, sevirəm səni.

**Qız:**

– Sərindi bu bulaq başı,
...................................
Tökmə gözün qanlı yaşı.
Nişanlıyam Fərhada.

Ha orada quzu mələr,
İndi Fərhad dağdan enər.
Ha orada quzu mələr,
İndi Fərhad dağdan enər.
Nişanlıyam, çoban, sevirəm, inan,
Mən ona qurban, alagöz, mən ona qurban.

* * *

**Oğlan:**

– Ay qız, neynirsən cəvanı,
Gəl mənə, alım səni.
Var hər yanda malım-pulum,
Ay qız, sevindir məni.

Səni tutaram qızıla,
Hər kim görə heyran ola.
Səni tutaram qızıla,
Hər kim görə heyran ola.
Yandırma məni, öldürmə məni,
Sevirəm səni, alagöz, sevirəm səni.

Yandırma məni, öldürmə məni,
Sevirəm səni, alagöz, sevirəm səni.

**Qız:**

–Cəvandı, nişanlım cəvandı,
Neynirəm mülki, bağı.
Dəgişmərəm min qızıla,
İnanginən, qoy eni.
Cəvandı nişanlım, cəvandı,
Özü saf, sadiq oğlandı.
Cəvandı nişanlım, cəvandı,
Özü saf, sadiq oğlandı.
Nişanlım cəvan, sevirəm inan,
Mən ona qurban, alagöz, mən ona qurban.
Nişanlım cəvan, sevirəm inan,
Mən ona qurban, alagöz, mən ona qurban.

**Oğlan:**

– Keçən ildən gördüm səni,
Heyran elədin məni.
Gözəl qız al geyinib,
Gəl, ol anam gəlini.
O nə xaldır yanağında, o nə xaldır yanağında,
O nə xaldır yanağında, yanağında, yanağında.
Yandırma məni, sevirəm səni,
Ax, necə sevdim, necə sevdim.
Necə sevdim, yar, necə sevdim, necə sevdim,
necə sevdim.

**Qız:**

– Bilirəm ki, sevirsən
Keçən ildən məni sən.
Amma mən sevmirəm,

Onu da bilməlisən.
Bilməlisən, bilməlisən, hey, bilməlisən.

**Oğlan:**

– Qızların adətidir, sevdigi oğlana naz eylər.

**Qız:**

– Nə qədər naz eyləsə, oğlan alladıb yoldan eylər.

**Oğlan:**

– Sevgiyə naz nə gərəkdir?

**Qız:**

– Sevgisiz naz ola bilməz.

**Oğlan və qız:**

Sevgiyə naz nə yaraşır,
Sevgisiz naz ola bilməz.
Sevgiyə naz nə yaraşır,
Sevgisiz naz ola bilməz.

* * *

**Oğlan:**

– Ay qız, aç bir üzünü,
Nanay- nanay, nay-nanay.
Görüm o qaş-gözünü.
Nanay-nanay, nay-nanay.
Gəl mənə naz eyləmə, hey,
Nanay-nanay, nay-nanay.
Yerə salma sözümü, hey,
Nanay-nanay, nay-nanay.

**Qız:**

– Get-get, küsmüşəm səndən,
Nanay-nanay, nay-nanay.
Gəl, gəl, sən qaşma məndən,
Nanay- nanay, nay-nanay.
Barışmaq istəyirsən, hay,
Nanay-nanay, nay-nanay.
Mənə gül dəracaxsan, hay.
Nanay-nanay, nay-nanay.

**Oğlan:**

– Ey qız, güli neynirsən?
Nanay-nanay, nay-nanay.
Sən ki güldən gözəlsən.
Nanay-nanay, nay-nanay.

**Qız:**

– Mən açmaram üzümü,
Nanay-nanay, nay-nanay.
Gül istərəm çəməndən.
Nanay-nanay, nay-nanay.

**Oğlan:**

– Götür üzünnən duvağı,
Nanay-nanay, nay-nanay.
Görüm o gül yanağı.
Nanay-nanay, nay-nanay.
Əlini ver əlimə,
Nanay-nanay, nay-nanay.
Gəzək çəmənli bağı.
Nanay-nanay, nay-nanay.

**Qız:**

– Örpəgimi qəytər mənə,
Nanay-nanay, nay-nanay.
Sora sözüm var sənə.
Nanay-nanay, nay-nanay.

**Oğlan:**

– Mən ki səni sevirəm, hay,
Nanay-nanay, nay-nanay.
Bir danasan, bir dana.
Nanay-nanay, nay-nanay.

**Qız:**

– Necə sövüm mən səni,
Nanay-nanay, nay-nanay.

**Oğlan:**

– Doğru deyirsən, yəni?
Nanay-nanay, nay-nanay.

**Qız:**

– Hey deyirsən sevirəm, hay,
Nanay-nanay, nay-nanay.
Nişanlamırsan məni.
Nanay-nanay, nay-nanay.

**Oğlan:**

– Anamdan bir yadigar,
Nanay-nanay, nay-nanay.
Barmağında üzük var.
Nanay-nanay, nay-nanay.
Gəl bunu verim sənə, hay,
Nanay-nanay, nay-nanay.
Olginən mənə nigar.
Nanay-nanay, nay-nanay.

* * *

**Qız:**

– Döngəmizdə duran oğlan,
Bığlarını buran oğlan,
Mənə kirpik vuran oğlan,
Ver mənim güllü başmağım,
Dabanı pullu başmağım.

**Oğlan:**

– Döngənizdə durmamışam,
Bığlarımı burmamıışam,
Sənə kiprik vurmamışam.
Məndə yox güllü başmağın,
Dabanı pullu başmağın.

**Qız:**

– Gül baxçanda bağın ollam,
Şirin heyva, narın ollam,
Həmişəlik yarın ollam.
Gətir mənim gül başmağım,
İçi dolu pul başmağım.

**Oğlan:**

– Gül baxçamda barım olsan,
Şirin heyva, narım olsan,
Həmişəlik yarım olsan,
Verərəm sənin gül başmağın,
İçi dolu pul başmağın.

# NAĞILLAR

## KEÇİNİN NAĞILI

Bu nağılı, munnan ötüri diyiplər ki, o dınqılı uşaxlar ki, təzə bular istillə qədəm götürələr, çün xətərə gedillər, bilmillər xətərə gedillər. Dədəynən nənə, ata babalar, bu nağılı diyiplər ki, oların həmi qəlblərin ələ gətirələr, həmi oları yuxladalar, həmi də ki, oları xətərdən rəf eliyələr, təğribən bu cürdi.

Keçi dedi:

– Gedirəm, balalarım, sizə buynuzumda ot gətirəm, ağzımda su gətirəm, məmələrimdə süt gətirəm.

Balaları da kiçiy idi, iki dənəsi qızıdı, bi dənəsi oğlanıdı. Oğlanun adı Çiməngül idi, qızlarun da adı Şəngüliynən Məngül idi. Ərz olsun xitmətiyzə, geçi getdi. Qurdunan həmsayəydi. Qurt bu geçinin sözlərini öz yuvasında eşidirdi, dedi:

– Yaxçı fursətdi, elə bunun nənəsi gedip, mən gedim buları, bi hokkabazlığınan yuvalarınnan çıxadım, xub sərf eliyim da, yiyim.

Bu getdi qapını çaldı, dər surəti ki, qurdun qapısı olmaz, bunu elə ata analarımız ... Bu uşaxlarun biri dedi:

– Kimdi?

Bu, geçinin səsin çıxatdı özünə, dedi:

– Balalarım, mənəm, gəlmişəm, məməmdə süt gətimişəm, ağzımda su, buynuzumda ot.

Bular qulax verdilər, qapını aşdılar, açanda Şəngüliynən Məngülüni qut yedi, Çiməngüli qaşdı, girdi. Qədim evlərdə təndir varıdı, kilbə varıdı, qaşdı girdi kilvəyə. Qut, munı ordan çıxada bilmədi. Buları yedi, getdi, gedənnən sora dubarə bularun nənələri geçi gəldi, dedi:

– Şəngülü bala, Məngülü bala, Çiməngülü bala, aç qapını, mən gəldim. Məməmdə süt gətimişəm, ağzımda su, buynuzumda ot.

Çiməngülü dedi:

– İstisən, bu səri də məni yiyəsən?

Dedi, bəlkə gənə qutdı.

Dedi:

– Yox, bala, bu mən, bu nişan.

Dedi:

– Əgər istisən ki, mən səni tanıyam, çıx, bacadan məmələriyi salla.

Bu çıxtı, məmələrini salladı. Baxdı öz mamasıdı, öz nənəsidi. Gəldi, qapını aşdı, dedi:

– Ba, o bisi balalarım hanı?

Dedi:

– Qut gəldi, yedi.

Çiməngüliyə biy zərrə qəza vərənnən sora bu getdi, çıxdı qurdun damunun üsdünə. Qut dedi:

– O kimdi damun üsdə,
Damun, duvarun üsdə.
Bir ovuş torpax töhtün
Aşın-piloun üsdə?

Keçi dedi:

– Mənəm mənəm, gərnəşərəm,
Kəllə vırram, savaşaram.

Sən mənim balalarımı yeyipsən, gedəcəyix qazı yaana. Görəx, sənin həqqin vardı, mənim balalarımı yiyəsən?

Bular, getdilər həciyə. Keçi bir əz qatığ apardı. Qut da bi şey aparmadı. Getdilər, biləxirə o zamanun qazıları da rişvətxorıdi, indinin qazıları yox a. Keçi qatığı qoyanda yerə mallanın gözləri güldi. Biləxirə bu qurdun dişlərin çəhti bu kəlbətinnən, keçinin də buynuzların ititdi, dedi:

– Hər kəsin balaları hər kəsdədi, alsın.

Çün, bu geçinin buynuzları itiydi, qurdun da dişi yoxudı, geçi vurdu, qurdun qarnın söhdi, balaların çıxatdı. Hələ ölməmişdilər. Sizin də səlamətdığıyzi mən istirəm. Göydən üç alma düşdi, biri mənim, biri sənin, biri də qıraxda əyləşənin.

## AXMAQ QURD

Biri var idi, biri yoxudu. Allahdan başqa bir kimsə yoxudu. Bir qurd var imiş. Qurd bir gün yolnan gedir, qabağına bir qoca çıxır. Deyir:

– Ay qoca, gəl mən səni yeyim.

Qoca deyir:

– Qoy gedim işlərimi görüm, sonra gəlim, yeyərsən.

Qoca belə deyib, uzaqlaşır, gedir.

Gedir, gedir, qabağına bir qoç çıxır. Qoça deyir:

– Ay qoç, gəl səni yeyim.

Qoç qayıdır qurda deyir:

– Sən gəl məni tək yeməginən. Qoy gedim kəndimə, özümə başqa qoçları da yığım gətirim. Sonra məni ye.

– Yaxşı.

Qurd razılaşır. Dolana-dolana gedir. Gedir, bir qoyuna rast gəlir. Deyir:

– Ay qoyun, gəl səni yeyim.

Qoyun deyir:

– Məni tək yeməkdən sənə nə olar ki? Qoy gedim bir neçə dənə də qoyun gətirim, sonra məni ye.

Qurd başı boş olur, bunu da buraxır. Gəlir, gəlir, bir quzuya rast gəlir. Quzuya deyir:

– Ay quzu, gəl mən səni yeyim.

Quzu deyir:

– Mən hələ balacayam, körpəyəm. Qoy gedim bir az kökəlim, dost tapım. Sonra gəlim, məni ye.

Qurd buna da inanır, bunu da buraxır. Gedir, gedir, gedir ... Gəlib bir keçiyə rast olur. Keçiyə deyir:

– Ay keçi, gəl səni yeyim.

Keçi deyir:

– Mən bir quru sümüyəm. Qoy gedim bir neçə dənə keçi tapım gətirim. Sonra bizim hamımızı birdən ye.

Qurd buna da inanır. Gedir, gedir, qabağına bir eşşək çıxır. Fikirləşir ki, bunları əldən verdim. Eybi yox, gərək bu eşşəyi yeyəm. Onu yemək istəyir. Eşşək deyir:

– Sənin atan mənim atamı yorğan-döşəkdə yeyərdi. Qoy gedim yorğan-döşək gətirim. Rahatlıqla ye.

Qurd bunu da yemir. Gəlir, gəlir, bir ata rast gəlir. Deyir, ay at, gəl səni yeyim. At deyir:

– Sözüm yoxdur, nə istiyirsən elə də elə. Gəl, kağız götür ki, məni yeyəndən sonra sahibimə verərsən.

Qurd gedir kağızı atın dalından götürsün. At təpiklə vurur, qurdun əngi əzilir. At da qaçır. Haldan düşür qurd. Ağlaya-ağlaya çıxır dağın başına, deyir:

– Sən gördün bir dənə qoç, ye, qalsın quru qıç.

Neyniyirsən cüt qoçu, məgər döyüşdürməyə gedəcəksən?

Sən gördün bir dənə qoyun, ye, qalsın quru boyun.

Sən neynirsən oyun-moyun, məgər qoyun gedəcəkdi?

Sən gördün bir dənə quzu, ye, qalsın quru dizi.

Sən neynirsən dadı-duzu, məgər aşbazlığa gedəcəkdin?

Sən gördün bir dənə keçi, ye, qalsın quru qıçı.

Sən neynirsən çoxlu keçi, məgər çobanlığa gedəcəkdin?

Sən gördün bir dənə eşşək, ye, qalsın quru köşşək.

Sən neynirsən yorğan-döşək, məgər yorğan-döşəkdə yatacaqdın?

Sən gördün bir dənə at, ye, yerdə qalsın mat.

Sən neynirsən kağız-varaq, məgər qasid olacaqdın?

Bu sözləri deyib ağlayır. Nağıl burda bitir. Qurd muradına çatmır. Siz muradınıza çatasınız, bizim nağılları unutmayasız.

## QUYRUQSUZ TÜLKÜ

Biri var idi, biri yoxudu. Allahdan başqa bir kimsə yoxudu. Bir qoca arvad var idi. Bunun da bir keçisi varıdı. O qədər kasıb dolanardı ki, bu qoja nənə hər gün keçisini sağar, südünü gətirər, bunnan dolanardı. Amma bir müddət görür

kü, bu qoca arvad nə vaxt südü sağıb gətirir qoyur evə, evdən çıxanda görür kü, qabda süd yox olur. Nənə fikirləşir ki, görən bunu kim eliyər? Deyir, gərək mən güdüm, görüm bu südü kim burdan alıb aparır. Nənə başlayır gizlənir evin bir küncündə, gözləyir. Gözləyir. Bir az keçir, görür ki, evə gizlincə bir tülkü girdi. Tülkü girdi, sakitcə gəldi, qabın içindəki südü içdi, getdi. Qoca deyir ki, ay Allah, mən görən bu tülkünün cəzasını nətər verim. Nənə gəlir, odun sobasının yanına maşanı götürür, qoyur alovun içərisində qızdırır. Yenə tülkü evə girib südü içmək istəyəndə qoca arvad götürür maşanı, basır tülkünün quyruğuna, tülkünün quyruğu yanıb düşür. Tülkü gəlir başqa tülkülərin yanına. Başqa tülkülər bunu quyruqsuz görüb başlayır bunu ələ salmağa. Tülkü peşiman olub, gəlir qocanın yanında deyir ki, ay nənə, mən peşiman olmuşam, mənim gəl quyruğumu geri qaytar. Nənə deyir:

– Sən mənim südümü içmisən. Sən mənim südümü geri qaytar, mən də sənin quyruğunu geri verim.

Tülkü gəlir keçinin yanına. Deyir:

– Ay keçi, mənə bir az süd ver, südü aparıb nənəyə verim. O da mənim quyruğumu geri qaytarsın.

Keçi deyir:

– Get, mənə yarpaq gətir. Mən yarpaq yeyim, südüm olsun. Südü verim, sən də gedib quyruğu geri alasan.

Tülkü heç nə demir, gəlir bir ağacın yanına deyir:

– Ay ağac, mənə bir az yarpaq ver, keçiyə verim. Keçi mənə süd versin. Südü nənəyə verim, o da quyruğumu qaytarsın.

Ağac deyir:

– Get, mənə su gətir.

Tülkü yollanır çeşmənin başına, deyir:

– Ay çeşmə, mənə su ver. Suyu ağaca verim, ağac yarpaq versin, yarpağı keçiyə verim, keçi mənə süd versin, südü nənəyə verim, o da quyruğumu geri qaytarsın.

Çeşmə bunun sözünü dinləyir, deyir:

– Qızlara get de, gəlsinlər mənim başımda oynasınlar, mən də sənə su verim.

Tülkü gəlir qızların yanına, deyir:

– Ay qızlar, çeşmənin başında oynayın ki, çeşmə mənə su versin.

Qızlar da deyir:

– Ay tülkü, get, bizə ayaqqabı al. Biz də gələk, çeşmənin üstündə geyinək həmin ayaqqabıları, oynayaq.

Tülkü ayaqqabıçının yanına gəlib deyir:

– Ay ayaqqabıçı, mənə ayaqqabı ver, qızlara verim, qızlar geyinsin, çeşmənin başında oynasın. Çeşmə mənə su versin, suyu ağaca verim, ağac mənə yarpaq versin, yarpağı keçiyə verim, keçi mənə süd versin, südü nənəyə verim, o da quyruğumu geri qaytarsın.

Ayaqqabıçı da deyir:

– Get, mənə yumurta gətir.

Tülkü gəlir kor-peşiman toyuqların yanına, deyir:

– Ay toyuqlar, mənə yumurta verin.

Toyuqlar deyir:

– Get, bizə yem gətir.

Tülkü gedir bir bakkala. Görür bir bakkal oturub. Başlayır bakkalı aldatmağa. Deyir ki, get, filan şeyləri gətir. O gedincə bir çuval yemi alıb qaçır, gətirir, tez verir toyuğa. Toyuq ona yumurta verir. Yumurtanı gətirib ayaqqabıçıya verir, ayaqqabıçı ona ayaqqabı verir, ayaqqabını qızlara verir, qızlar gəlib oynuyur, çeşmə ona su verir, suyu ağaca verir, ağac ona yarpaq verir, yarpağı keçiyə verir, keçi ona süd verir. Südü gətirir nənəyə verir, o da quyruğunu geri alıb, üstünə də bir hələ zınqırov basır. Daha sonra tülkü öz yoldaşlarının yanına gəlib deyir:

– Gördüz, mən istədiyimi necə əldə etdim?

Yoldaşları baxır buna, deyirlər ki, bu quyruğu nətər elədin? Tülkü deyir:

– Filan yerə getdim, suyun içinə uzandım, quyruğum zınqırovlu oldu.

Bunlar da fikirləşirlər ki, bu tülkünün quyruğu indi daha yaxşıdır. Çünki üstündə zınqırovu var. Tez tülkü dediyi kimi, gedirlər suyun içinə uzanırlar. Səhər görürlər ki, suyun üstün buz bağlayıb, quyruqları buz tutur. Ha quyruqlarını dartırlar, görürlər ki, yox, quyruq sudan çıxmır. Bir də güc verəndə quyruqları ortada qalır. Özdəri çıxıb gəlirlər. Hə beləliklə, quyruqsuz tülkü o biri tülkülərin ona güldükləri üçün cəzasını verir.

## XORUZ

Biri vardı, biri yoxdu, Allahdan başqa heç kəs yox idi. Bir kök, yaxşı xoruz var idi. Bir gün bu xoruz küllükdə eşələnəndə bir püstə tapır. O qədər sevinir ki, deyir: "Quqqulu-qu, bir dənə püstə tapmışam. Quqqulu-qu, bir dənə püstə tapmışam". Tez-tez banlıyır-banlıyır: "Quqqulu-qu, bir dənə püstə tapmışam",– deyir, təkrar eliyir. Bu məhəllədə də bir xan otur582rmuş. Xoruz o qədər quqqulduyur ki, püstə tapmışam, püstə tapmışam, xan deyir, gedin, o püstəni xoruzun əlindən alıb gətirin. Gəlirlər xoruzun yanına, xoruzun əlindən tutub həmin püstəni alırlar, xoruz banlayıb deyir:

– Quqqulu-qu, xan mənə möhtac imiş. Quqqulu-qu, xan mənə möhtac imiş.

Bu sözləri başlıyır deməyə. Xan hirslənir, deyir:

– Aparın o püstəni, xoruza qaytarın.

Gətirirlər püstəni, verirlər xoruza. Bu dəfə də xoruz banlıyıb deyir:

– Quqqulu-qu, xan məndən qorxar imiş, quqqulu-qu, xan məndən qorxar imiş.

Başlıyır bu sözləri çoxlu təkrar etməyə. Xan əsəbləşir, deyir:

– Xoruzun başını kəsin.

Gəlib tökülüşürlər, xoruzu tuturlar. Onun başını kəsirlər. Başını kəsəndə xoruz başlıyır banlamağa:

– Quqqulu-qu, nə iti bıçaq imiş. Quqqulu-qu, nə iti bıçaq imiş.

Sonra xoruzu aparıb isti suya salırlar ki, tüklərini təmizləsinlər. Xoruz başlıyır banlamağa:

– Quqqulu-qu, nə isti hamam imiş. Quqqulu-qu, nə isti hamam imiş.

Xoruzu bişirib verirlər plovun üstündə. Xoruz burda da dinc durmur. Başlıyır banlamağa:

– Quqqulu-qu, nə alçaq təpə imiş. Quqqulu-qu, nə alçaq təpə imiş.

Xoruzu tikə-tikə edib yeyirlər. Boğazlarından ət keçəndə xoruz yenə banlıyır:

– Quqqulu-qu, nə darca küçə imiş. Quqqulu-qu, nə darca küçə imiş.

Xoruz xanın qarnından keçəndə başlıyır banlamağa:

– Quqqulu-qu, nə pis yer imiş.

Gəlir, xoruzu xan yeyəndən sonra başlıyır onun qarnından çıxmağa. Xoruz qışqırır:

– Quqqulu-qu, xanın qarnı yırtıldı, mənim canım qurtuldu. Quqqulu-qu, xanın qarnı yırtıldı, mənim canım qurtuldu.

Bizim də nağıl burada qurtardı.

## TÜLKÜ VƏ HACINƏNƏ

Bi gün varıdı, bi gün yoxudı, Allahdan sovay heş kəs yoxıydı, fəqəd Allah varıydı. Bi dənə tülki varıdı, bi dənə qurt. Bi yol Hacınənə vardı. Hacınənə çıxmışdı, bizim orda səxtiman qabağında yuvası varıdı, orda yatmışdı. Hacınənəən üş dənə balası vardı. Tülki getmişdi, demişdi, Hacnənə, balalayin biyin at, yiyim. Qalmışdı məjbur, Hacnənə biyin[27]atmışdı. Tülki götümüşdi, balalarıynan yemişdilə. Tülkinin döt dənə də balası

[27]Biyin – birin

vardı. Yemişdilə, durmuşdula ayağa, o gün o cür geşmişdi. Səhər baxmışdı tülki genə acıxıb:

– Neynim, Alla. Genə gedim Hacınənəyə.

Getmişdi demişdi:

– Hacnənə, at balalayın biyin yiyim, atmasan, sinəyi kəsəcəyəm.

Tülküün də quyruğu yekə olar. Quyruğun yalannan sürtür sinəyə, diyi:

– Sinəyi kəsəcəyəm, ya da at balalaan birin, yiyim.

Hacınənə qorxudan bi dənə atıp, tülki gənə götüüp aparıb, qalıb səhərə. Səhər gənə bu acıxıb. Bi dənə qut gəldi sinəən altına. Hacınənə diyib:

– Da nə cür eliyim axı, tülki mənnən əl çəhmir? Mən balalarımı atdım, bu apardı yedi, bi dənə balam qalıb, nə cür eliyim?

Dedi:

– Baba, tülki səni kəsə bili? Tülkünün ərrəmoturu[28] var? Tülkünün ərrəsi var, tülki, sinəyi kəsə, sən yıxılan! Yalannan diyi, qoxma, atmaqınan balayı. Denən, kəs, kəsməsən, evin yıxılsın.

Tülki gənə gəli, kəsi Hacnənəən yuvasın qabağına, diiy:

– Atın, balayı yeyim, atmasan, sinəyi kəsəcəyəm, yıxılay orda öləy.

Dedi:

– Kəs, köpöy oğlu, kəs görüm necə kəsəcəyən!

Bu ha quyruğun sürtər sinəyin bu yaana, o yaana, o yaana, o yaana, kəsə bilməz. Baxdı kəsəmmədi, dedi:

– Köpöy oğlun qurdu, sənin fəndiydi bu. Sən gəlmiş, Hacnənəni örgətmişəy. Məni büyünnəm ac qoydun. Mən də sənə bi oyun qəyirrəm. Olsun, eybi yoxdı.

Bu bi yol gedər tülki, gedər görər bi kətdə gəlin aparılla, gəlin gətirillə. Gəlin gəli atınan. Tülki atdanı çıxar, gəlnin oturi qucağında. Gəlin diyər:

[28] Ərrəmoturu – dəmir

– Allaha bax, Tarıya bax, düş.

Qədimdə atınan gəlin gətiriydilə axı, atınan, arabaynan. Zat yoxuydu ki, maşın-zat yoxıydı. Bi yol bu diyər:

– Düş aşağı.

Diyər:

– Valla, mən düşəmmənəm aşağıya. Sən o qızıllayın ver mənə, verməsən indi mən düşəcəyəm, atdanacayam yerə səyi abrıyın aparam, söz diyəcəyəm sənə, məsəm[29], bi dənə qolay söz diyəcəyəm sənə, ya da gəyəh qızıllayın verəy mənə.

Bu gəlin benəva, qoxudan çıxadı qızılların, bağlar bu tülkünün quyruğuna. Onnan sora asar boynuna, bağlar quyruğuna. Tülki yavaçca qızıllayı göydü, qızıl ki, atdandı atdan, qaşdı camahatın içinnən. Dedilə:

– Qoymayın, tülki gəlnin qızılların apardı.

Tülki getdi, aradan çıxdı, baba, qızılları apardı. Gəldi bi yollarım qurda yetişdi. Qurd dedi:

– Sənin bu qızılların hardaydı, hardan tapdın, hardan aldıy?

Dedi:

– Baba, mən qışdı, payızdı, mən getdim quyruğumu salladım buza. Buzda bağladıla quyruğuma.

Qut gəlir bizim qapımızdan bi çay gedərdi, yekə çay gedərdi bırdan, o çayda qurda diyi:

– Quyruğunu salla çaya. Qoy quyruğuyan qızıl-mızıl bağlasınna.

Qut quyruğun sallar o çaya, çaydan mına qızıl bağlıyala quyruğuna. Çay donar, donar, donar bunu quyruğun sıxı, diyər:

– Axı quyruğumu sıxırı!

Diyər:

– Qızıl bağlılla quyruğuyan, ona görə sıxırı.

Belə sıxar, belə sıxar, buzda donar bunun quyruğu. Bu bi yol diyər: "Nə cür elim, nə cür elim?" Bu tülki, qaçar bu yana, qa-

---

[29]Məsəm – məsələn

çar o yana gedə itdəri oyada. Hamı itdər gəli qurdun qavağına. Evdən çıxan, ağac əlində çıxalla qurdun əvayına. Qud o qədə çəkər, çəkər, quyruğu qopar, quyruxsuz qaçar, gedər. Tülkiyə diyər:

– Össun köpöy oğlu, biliyən bəlləndirrəm mənim başıma bu oyunu gətdin.

Qaçar gedər. Hara gedir, hara gedir! Gedər mənim bu qızımın babasıgilin baxçasına. Baxar, bunun xan nənəsi qazanda şorba pişirib, qazançada. Oturubdu ocağın başında. Gedər bi qoş vurar, bunu yıxar yerə. Buların qazançasın götürü, sırfaların da götürü, qazannaan da götüri. Aparı gedər, meşədə qoyar qabağına, yeər. Çörəyi də yeər, onnan sora bunun babasıın tükanı vadı. Gedər, buların girər tükana. Tükanda da bi dənə təlis tapar, buların şokalatdarın, şinniləən dolduru təlisə, atar dalına, aparı balalaana. Çallıxda balalarınan yeər. Diyər:

– Necəleyim axı, biz doymadıx? Tülki mənim başıma neynədi! Quyruğum da qopdu, qaldı orda.

Neyniyəh, neynəh, durar gedər, qeyri kəndə. Qeyri kətdə də buların xalası varmış, gedər, buların xalasıgilin duarı alçağmış, ordan düşər, təvlədə bi dənə bizov çıxardar. Bi dənə bizovu çıxadı, aparı gedər, çallıxda qoyar balalarınan yeər, durar ayağa.

Yedıx, işdıx, məddimizə yetişdıx. Göydən üş-döt dənə alma düşdi. Biri səni, biri hacını, biri mənim.

## ƏLİ BƏYİN CEVİZLƏRİ

Bir gün var idi, bir gün yoxudu, Tanrıdan ğeyri heç kim yoxudu. Əli bəg adlı bir kişi varıdı, bu kişi ildən-ilə ceviz ağaclarından çoxlu ceviz dərib evinə doldurardı. İl başına kimi onların yeməlisini yeyib, satmalısını satır, paylamalısını paylardı. Əli bəgin cevizlərinin çoxluğunu anlayan bir oğru tülkü bir gecə çuvallarını götürüb ceviz oğurluğuna – Əli bəgin evinə gedirdi. Bir az gedəndən sonra bir dana onu görüb dedi:

– Ay tülkü qardaş, haraya gedirsən?

Tülkü haraya getdiyini deyəndə dana dedi:

– Məni özünə yoldaş eləyib apar, ziyanım dəyməz.

Tülki razı oldu. Bir az birlikdə getdilər. Yol üstündə olan bir xoruz bunları görüb xəbər aldı:

– Deyin görüm, hara gedirsiz?

Ona da Əli bəgin evindən ceviz oğurluğuna getdiklərini deyəndə, o da dedi:

– Elə isə məni də özünüzə yoldaş eləyin.

Tülkü ilə dana onu da yoldaş eləməyə razılaşdılar. Üçü birlikdə getməyə başladılar. Bir azdan sonra leyləh bunları görüb söylədi:

– Yaxşı yol olsun, haraya gedirsiz? Məni də aparın.

Bunu eşidən tülkü oğurluğa getdiklərini söylədi. Leyləhi də yoldaş eləyib, getdilər. Bir az getmişdilər ki, bir təmənə (çuval tikən ignə) bunları görüb soruşdu:

– Ay qardaşlar, haraya gedirsiz? Məni də aparın.

Onlar haraya getdikləriini söylədikdə təmənə də onlara qoşulub getdilər. Hələ o qədər getmişdilər ki, bir əqrəb quyruğunu belinə duraraq onların qabağını kəsib:

– Haraya gedirsən?

“Oğurluğa gedirik”, – deyəndə əqrəb də onlara yoldaş olmaq istədi. Onlar əqrəbi də özlərinə yoldaş eləyib, getdilər. Getdilər, getdilər, ta Əli bəgin evinə çatdılar orada dana Əli bəgin özü ilə arvad-uşağının yatdığı otağın damına dırmaşıb, bacanın yanında durdu. Xoruz qapı qabağında durdu, luləhin isə pencərə qabağında dayandı.Təbənə ilə əqrəb özlərini qapının deşiklərindən içəri soxurlar.Təbənə kibrit qutusunda, əqrəb isə təndirin kövləsində gizləndilər.Tülkü də arxayın-arxayın anbara keçib, cevizləri çuvallara doldurmağa başladı. Cevizlərin xarhaxarında yuxudan ayılan Əli bəg arvadına dedi:

– Arvad, elə bil anbarda oğru var, tez dur, çırağı yandır.

Arvad kibrit qutusundan kibrit götürüb, çıraq yandırmaq üçün qutunu açanda təbənə barmağına batdı. Arvad qutunu yerə atıb, təndirin kövləsində əlini təndirə uzatdı ki, oradan köz çı-

xarıb, çırağı yandırsın.Təbənə barmağına batan kimi, burada da əqrəb tikanını onun barmağına soxub, zəhərldi. Barmağından zəhərlənən arvad ufuldaya-ufuldya barmağını qoltuğuna basıb, çırağı yandırmağı mümkünsüz görəndə kösövü götürüb bacanı aşmaq istədi. Amma baca açılanda dana bacadan evin içinə və arvadın baş-qulağına t…..a başladı. Buna görə də kösöv, naçaq, balta və dəyənəyi götürüb qapıdan çıxıb oğruya qarşı yügürmək istədilər. Lakin qapının qabağını kəsən xoruz var gücü ilə qanad çalıb toz-torpağı onların gözlərinə sovurdu. Onlar eşigə çıxa bilmədilər. Buna görə də onlar qapını buraxıb, pencərəni açmağa döndülər, amma pencərənin qabağında bunların yolunu gözləyən luləhin pencərənin açılmasıyla onlara su fışqırmağa başladı. Belə ki,onların heç biri pencərədən də çıxa bilmədi. Buna görə də tülkü dincliklə cevizləri doldurub apardı. O, bir az əralaşandan sonra yoldaşları da məğlubiyyətə uğramış Əli bəgin evindən bir-bir çıxıb, cevizləri bölmək üçün getdilər.

## HƏCƏRİN GƏLİN GETMƏSİ

Bir gün var idi, bir gün yox idi,Tanrıdan ğeyri heç kim yoxudu. Hacər adlı bir qız varıdı. Hacər yavaş-yavaş boya-başa çatıb, ərə getməli olmuşdu. Bir gün bunların kəndinin yaxınlığında olan bir kəndindən Hacərə elçi gəldi. Hacəri öz oğlanlarına adaxlı elədilər. Deməlilər deyildi, eşitməlilər eşidildi, oğlan adamları ilə qız adamları toy qərarına qoydular. Gün gündən, ay aydan keçdi alınmalılar alınıb, verilməlilər verilib və toy başlandı. Hacər qıza adaxlısı almış tirmələrdən gəlin paltarları tikilib, qulaqlarına qızıl sırğa, qollarına qızıl qolbağı, boynuna incilər, mərcanlı boyunbağı salındı. Bəzəkli gəlini bir ağ ata mindirib yola düşdülər. Gəlinin yan-yörəsini alan qohumlarıyla kürəkən evindən gələn adamların, çalğıçıların, oxuyanların səs-küyü ala buluda qalxırdı. Belə ki, bu səs çölün heyvanlarına da çatır, onları özünə sarı çəkirdi. Beləliklə də, bir tülkü gəlin aparanlara yaxınlaşdı. At üstə gedən gəlinin

əyin-başını görüb, heyran qaldı və toy adamlarına qoşulub getmək istədi. Bir az gedəndən sonra adamların başını qarışıq görüb atılıb gəlinin atının tərkinə mindi və özünü xalqın gözündən gizlətmək üçün gəlinin çadrasının altına soxuldu. Gəlinin gözəl-göyçək bəzəkləri tülkünün ağzını aşıq qoymuşdu ki, birdən-birə öz-özünə dedi: “Nə yaxşı ki, kəndə çatmamış bunun hər nəyini əlindən alım”. Gəlini soymaq istəyən tülkü onun bütün yaxşılıqlarını, yamanlıqlarını diqqətlə gözdən keçirib, keçəl olduğunu anladı, buna görə də gəlinə dedi:

– Gözəl bəzənmiş olsan da, keçəl olduğun ömür boyu sənlə yoldaşdır, mən də bunu oğlan adamlarına demək istəyirəm.

Tərkində olanı bir uşaq güman edən gəlin dedi:

– Amandı, mənim abrımı aparma!

Kələginin baş tutduğunu görən tülkü dedi:

– Qolbağların mənə verməsən, deyəcəyəm.

Yazıq gəlin çarasız qalıb qolbaqlarını açıb tülküyə verdi. Bir az getdilər, yenə tülkü dedi:

– Yox, deməsəm olmaz, istəsən ki, deməyim, gərək boyunbağını da mənə verəsən.

Yazıq gəlin boyunbağını da açır, tülküyə verir. Hələ o qədər getməmişdilər ki, tülkü yenə də dedi:

– Gərək sırğaları da mənə verəsən, yoxsa elə indicə keçəl olduğunu deyəcəyəm.

Benava gəlin sırğalarını da çıxarıb tülküyə verdi. Amma bir o qədər getmişdilər ki, acgöz tülkü bir daha dilə gəlib dedi:

– Üzügü də gərək mənə verəsən, yoxsa deyəcəyəm.

Yazıq Hacər hər nə yalvar-yaxar etdisə, tülkü razı olmadı. Nəhayət, gəlin üzügünü də barmağından çıxarıb, tülküyə verdi. Bir az getdilər. Oğlanın kəndinə az yol qalırdı. Belə bir vaxtda tülkü daha yubana bilməzdi. O, aldığı boyunbağını, üzügü, qolbağları, sırğaları əlində-qoltuğunda bərkidib, at üstündən özünü yerə atıb,“gəlin keçəldir, gəlin keçəldir”, deyə-deyə xalqın içindən çıxıb, gecənin qaranlığında gözdən itdi.

Beləliklə, Hacərin keçəl olduğu oğlan adamlarına bilindi və Hacərin adamlarının gizli işlərinin üstü aşıldı. Necə deyirlər, "oğurluğun ölü ay işığına düşdü". Oğlan adamları isə tanımadıqları yerdən qız almağın sonunun necə olduğunu gördülər.

Tülkü də boyunbağı, qolbağları, sırğaları, üzügləri quyruğuna düzüb, sağlığını görməyə gözü olmayan qurdun yanına getdi. Tülkünü belə görən qurd dedi:

– Tülkü qardaş, bunları hardan ələ gətirmisən?

Tülkü dedi:

– Bu yaxınlıqda olan kəhrizin qabağındakı göldə buz donmuşdu, gecə getdim, buzun üstündə oturdum və quyruğumu buza qoyub, gözümü ulduza dikib, səhərə kim "İncim, düzül-düzül-düzül! Mərcanım, düzül-düzül-düzül", – dedim. Bunlar yavaş-yavaş quyruğuma düzüldülər.

Bunu eşidən qurd da gedib gecə o göldə buz üstündə oturub, quyruğunu buza qoyaraq gözünü ulduza dikdi və səhərə kimi "İncim, düzül-düzül-düzül! Mərcanım, düzül-düzül-düzül", – dedi. Amma səhər çağı istədiyi şeylərin düzülüb-düzülmədiyini imtahan eləmək üçün quyruğunu tərpədəndə gördü ki, quyruğu donub buza yapışıbdır. Zor verib, quyruğunu qopartmağa çalışırdı ki, bir kəndli kişi bel əlində özünü yetirdi. Kəndli qurdu belə görüb beli qovzayıb, var gücü ilə qurdun quyruğuna çaldı. Qudun quyruğu qırılıb, buzda qaldı. İnci-mərcan axtaran qurd quyruğunu da əldən verib, qanı dal qışlarına süzülə-süzülə qaçıb gedirdi ki, tülkü onu görüb dedi:

– Nə tez inci-mərcanları verib qırmızı şalvar aldın?

Qurd bu sözü eşidəndə, hər nəyi başa düşüb, öz-özünə dedi: "Tülkünün ipiylə quyuya enənin başına bu işlər gəlməlidir".

## CIRTDANIN NAĞILI

Biri varıdı, biri yoxudı. Mən Çırtdanının nağılın xıdmətüzə ərz eliyirəm ki, qədim biziçin, dədə-baba nağılıydı diyərdilə. Bi dənə Cırtdan varıdı, bının bi iddə yoldaşları varıdı. Axı qə-

dim büyünki kimin döydi, mərdüm qazdan, nəfdən istifadə elir əlan. Qədim odun olardı. Gedərdilə, dağlardan, çöllərdən odunnarı qırıb gətirərdilə. Hətta mən özüm də hər pərşəmbələr mədrəsədən gələrdik, gedərdik bu kəndimizin qabağında o tikannarı, boğanaxları, boğanax çöpü bilisən də, nəmənədi, hətta quzu çöpləri qırıp gətirərdik. Odun elərdilər. Nənələrimiz atardıla təndirdə yanardı, çörəy yapardıla, qaza pişirərdilə.

Nənələri göndərir oları oduna. Bılar gedillə, qazılla, o ğəd qazılla, qazılla, ta gün batıncax. Bılar şələlərin gün batanda yığılla, şələ bağlıyırlar özləriyçin, şələlərin götürürlər, gəlillər kəndə. Belə qaranquluğ olur day, tapa bilmirlər kəndi. Nəğəd gəzirlər, öz kəndlərin tapa bilmillər. Bılar görürlər ki, bi yerdən, bi dənə yerdən ışığ gəlir. Bular oişığın səmtinə gedillər. Qapını döydülər, gördülər, bi nəfər qapının dalınnan çıxtı. Bu insana oxşur, amma bının başında şaxı var, qulaxları bir cürdü. Bının quyruğu da var. Bilirlər, bu divdi. Bu div də ki insannan ziddidi, bıları dəvət elir içəriyə. Gəlillər içəriyə. Bılara şam-zad verir. Bılar qorxularınnan yatmıllar. Deyir:

– Yatun.

Yer salır hərəsi için, bıları yatırdır. Yatırdannan sora deyir ki, deyün görək, kim yatıbtı, kim oyax? Bılar deyir:

– Hamısı yatıp, Cırtdan oyax.

Deyir:

– Cırtdan niyə oyaxtı?

Deyir:

– Cırtdan gecələr çün nənəsinin əziz giramisidi, nənəsi durardı, şamnan sora bınıçın qorqa qourardı, qorqa yiyərdi, girdikan[30] içiynən, odu ki, bu yemiyipti o qorqaynan girdikanın, bu oyax qalıp.

[30]Girdikan – qoz

Durur döy, bır dan ordan varıymış, indi yoxıymış qorqa qourur, onnan sora girdəkan içi sındırır, bılar hamısı yeyillə, yatılla. Bi middəttən sora div deyir ginə:

– Kim yatıptı, kim oyaxtı?

Deyillər:

– Hamı yatıp, Cırtdan oyaxtı.

Deyir:

– Cırtdan niyə oyaxdı axı?

Deyillə:

– Cırtdan niyə oyağ olacağ! Bu yatannan sora nənəsi bınıçın yarma köpbəsi, yarma pilo[31]pişirərdi, qədim düyü bu surəttə olmazdı, yarma köpbəsi pişirərdi, bi dənə onun başına toyuğ kəsərdi, qoyardı, sarı yağ tökərdi, Cırtdan yiyərdi, onnan sora yatardı.

Bu div durur, ginə bılarıçın o qəzanı mühəyya elir. Touğ gətirir, kəsir. Yarma köpbəsi pişirir, sarı yağ tökür. Bular yeyillər, yatıllar. Bir müddəttən sonra div deyir:

– Deyin görək, kim yatıptı, kim oyaxtı?

Bular, yoldaşları hamısı oyağıdı da, qorxularınnan yata bilmirdilə. Deyirdilə, div bizi yeyər, öldürər. Deyillər ki, hamı yatıp, Cırtdan oyax. Deyir:

– Cırtdan niyə oyaxdı?

Deyir:

– Cırtdan niya oyağ olacax, Cırtdan ki, bu qəzaləri yedi, əlan teşnə[32] olardı, nənəsi durardı gedərdi, ələyi götürərdi, ələyinən su gətirərdi, Cırtdan içərdi, yatardı.

Div durur gedir, ələyi götürür, nə ğədr aparır, bılaxdan hey doldurur, ta bi mụddət yol gələnə ələk boşalır. Bılar da, uşaxlar da durulla, Cırtdan, yoldaşları axtarışılla, divin şişədə canın tapılla. Div gedir, doldurur gəlir, beş-on qədəm gəlcə-

---

[31]Yarma pilo – yarmadan hazırlanan aş

[32] Təşnə – susuz

yin su ələhdən gedir, qalmır. Gedir doldurur, hey bu işi təkrar elir. Bu o ğəd əsəbani olur ki, deyir:

– Bu adəmizadlarun hamısın yiyəcəəm, öldürəcəyəm. Yiyəm, ətdərin kabab eliyəm, yiyəm.

Gəlir, çox əsəbani haləttə deyir:

– Qapını açun.

Bılar qapını açılla. Görür, Cırtdan ki, buların böyügiydi, bu bunun şişeyi-canın alıb əlinə, durub bi dənə daşın üstünə. Deyir:

– Əgər hərəkət eləsün, mənim icazəmsiz, mən şişeyi-canuu vuracam daşa, öləsən.

Div görür, yox, day bu heş zad eliyə bilmiyəcəħ insanzaddarın əlinnən, məcbur olur, deyir:

– Süz hər nə əmr eləsüz, mənim çarəm yoxtu, gərək süzünən mudara eliyəm, hər nə dəstür versüz, mən o işi əncam verəm.

Deyillər:

– Yat aşağı.

Bu div də qəbləzin ki, bular bu oduna gələlər, bu uşaxlar, divi görəllər, neyliyələr, bının cərəyanını danışmışmışlar, buların dədələri, babaları. Bu div bıların, kəndinin əhalisinnən üş-dört yüz nəfər yemişimiş, ya öldürmüşümüş. Bılar divə deyəllər:

– Sən yat.

Div yatır dalı üstə. Deyir:

– Əgər hərəkət eliyəsən, şişəyi-canuvı vıracıx bu daşa, sındırax.

Bu yatır, ta bụlar güdüllə, hey çağırılla bına, yatıpsan, oyaxsan, yatıpsan, oyaxsan. O ğəd bu sözü təkrar elillər, bu divi yuxu tutur. Yuxu tutmağ həmun, bụlar yavaccalı iki dənə mil götürürlər, milləri soxurla divin gözlərinə. Divin gözləri ikisi də kor olur. Bılar dururla, hərəsi qaçılla bi tərəfə. Div də kor oldu da. Hey durur bu yana, o yana, bu adəmizaddarı tapa, bıları öldürə, ginə yiyə. Bının muradı oyumuş ki, bu uşaxların hamısın orda öldürə, özlərin də yeyə. Muntaha şansları orda gətti, bılar zirəhlig elədilə, onun şişəyi-camın əllərinə

gəttilə, saxladıla, bını yuxlattıla. Allahın köməhligiynən bılar divin gözlərin kor elədilə, şişeyi-camın vırmadıla. Dedilər, qoyun səhər ahaliyi-kəndə xəbər elərik, gələllər, görəllər.

## FATMA XANIM

Biri varıdı, biri yoxudu, Allahdan sovay heş kəs yoxudu. Cənni-cənnətə qatışdı, piyalə gözləri ağlım apardı, qələm qaşları zəhləm apardı. Hardan deyim sənə, ağalarun buyurduğunna, xanımların qulluğunnan. Bir dənə kişi varıdı, bi dənə arvad. Vırdı, bu arvad öldü. Buların bi dənə də inəyi varıdı. Bu arvad öldü, bu arvaddan bi dənə qızı qaldı. Qızınadın qoydulla Fatma. Bu, bir car, bu uşağıdı. Bu kişi getdi bi dənə arvad aldı. Kişi getdi, arvad aldı, bu döndü. Bi inəyi verib. Ögey nənə dedi:

– Görəy aparasan süb, Fatma, munu utarasan, axşam gətirəsən.

Bir güniki gün, bu səfər getdi, bi batman pambuğaldı. Gündə muna dedi:

– Bi kələfi apar eşikdə əyir, həmi inəyi utar, axşam gəlginən.

Bunu, indi öz qızı da bi dənə var. Bu inəyi apardı utara, pambuğu apardı əyirə, bi dənə pambux getti, yel apardı, bi dənə qarınun bacasınnan saldı. Bu dedi:

– Məni nənəligim, məni öldürər.

Ağlaya-ağlaya getdi, inəyi apardı, getdi, damnan çağırdı:

– Qarı nənə, mənim pambuğum düşdi, mənim pambuğumu verginə.

Dedi:

– Qızım, sən gəl aşağı, mən sənün pambuğun verim.

Endi, getdi aşağı. Dedi:

– Bi gə mənim başıma bax.

Munun başına baxdı, gördü, elə gurbağadan, pıs-pısadan, hər nəmənə munun başında var. Dedi:

– Bax, gör, mənim başım yaxçıdı, nənün başı?

Dedi:

– Zəhləm nənəmün başınnan gedər, sənün başun yaxçıdı.

Dedi:

– İndi verərsən?

Dedi:

– Get, mənim sırfama bax, gör mənim sırfam yaxçıdı, nənün sırfası?

Getdi, gördü, munun sırfasında hər nəmənə var. Dedi:

– Mənim sırfam yaxçıdı, nənün sırfası?

Dedi:

– Yo, nənəmün sırfası heşdi, sənün sırfun.

Çunkün ki, qorxeydi nənəlikdən, nənəlig onu vıra. Dedi:

– Xob, gələ, bu pambuğun, get. Qabaxda bi ağ su gəler, onnan üz-əlün yuarsan, o yana geərsən, bi qırmızı su gəler, onnan buxaxlara, çəkərsən üzüvə, deməli, onnan bir dənə o yana geçərsən qara su gəler, qaşlarua çəkərsən, çıxarsan, geərsən evüzə.

Bu, gəldi bularu üçün də elədi. Axşam oldu, bayırdan gələndə gördülər, bi şafax tügər, bu nə şafaxdı, nə şapaxdı, nə şapaxdı? Gördülə, Fatma xanımdi, belə olup, belə olub, eynən ayna kimin bı şapax saler. Bı şapax saler, bu nənəlik tez höylə qaldı:

– Qız, sən nəmənə eleyibsən, o cür cavan olubsan!?

Bu dedi:

– Valla, mənim pambuğım getdi bi dənə qarınun bacasına. Mən getdim, qarı mənə dedi:

– Ağ suyunan üzün yu, qara suyu qaşlarua çək, təmiz olgina.

Mən odu, bü cür oldum. Səhər süb hökm elədi qızına, bi dəstə pambuq verdi, inəyi verdi, dedi:

– Sən də get, sənün pambuğuyu yel aparsın, sən də cavan ol.

Bu geti, yeləsdi, munun bi dənə pambuğunnan getdi, düşdü qarınun bacasına. Getdi, dedi:

– Qarı nənə, mənim pambuğumı ver.

Dedi:

– Ən gəl aşağı, mən sənün pambuğuyu verim.

Bu getdi. Dedi:

– Bi gə mənim başıma bax.

Baxdı, gördü, munun başı belədi ki, hər nəmnə var. Dedi:

– Mənim başım yaxçıdı, nənün başı?

Dedi:

– Mərdəşürə sənün başun verim, nənəmün başı.

Dedi:

– Get gör, mənim sırfam yaxçıdı, nənün sırfası?

Getdi, gördü, sırfası da elə aşqaldı. Dedi:

– Mənim sırfam yaxçıdı, nənün sırfası?

Dedi:

– Mərdəşürə sənün sırf oyı verim, mənim nənəmün sırfası.

Dedi:

– Gələ pambuğun, çıx, get. Qabaxda bi qara su gəler, onnan üzün yuarsan, onun dalıyca ağ su gəler, onnan yuarsan, axırda qırmızı suyunan.

Bu buları yudu, üçinən yudu, bi dənə bi ədəm məsəl, bırdan həvək təkin düydöyən aslandı. Düydöyən aslandı burdan, bi çeynim saqqız təkin munu ağzında çeynəndi.

Axşam oldu, gördülə, munu adı Nərgizdi, Nərgiz gəler, ağzında saqqız çeyner. Bi dənə də bi şey munu ağzınnan aslanıb. Nənəsi dedi:

– Lua qalasan bala, o nədi!?

Dedi:

– Valla, getdim, mənə qarı dedi, mənüzümü yudum, bü cür oldum.

Bu Fatma xanım ki, çox cavanıdı, mınçın elçi gəldi. Elçi gəldi, munu nənəli gapardı saldı təndirə, başın qoydu, bi dən də köynək verdi, dedi:

– Mıı tikginə.

Bu otdu orda, elçilər gəldi. Bunu öz qızı ağzında saqqızı çeyniyə, bu qonaxlarıçın çaydan, şirnidən gətdi. Xoruz gəldi, qapıda dedi:

– Quqqulu-qu, Fatma xanım təndirdə,
Ayaxları küvlədə, öz şöqıynan naqqış tikər.

Bu arvad çıxdı, xoruzu qualadı. Dedi:

– Səni bivaris qalasan, xoruz,o nədi oxeyesan?

Xoruz genə getdi, gəldi:

– Quqqulu-qu, quqqulu-qu, Fatma xanım təndirdə,
Ayaqları küvlədə, öz şoyqıynan naqqış tikər.

Bu arvad munu üç yol qualadı. Qualadı, bular eşigə gedəndə, bu qonaxlar baxdı, gördü doğru. Deyər, Fatma xaam oturup təndirdə, bi dən də köynək tikər, başın da qoyup təndirün. Bu qonaxlar getdi ... Qonaxlar getdi, xiləsər[33]da döndü, bu qızı gəldilər, aldıla, Fatma xanımı apardılar. Munu qonağ apardılar. Bu arvad, bı səfər öz qızına dedi ki, sən get bacun yaanna, gəlin gəlib da. Bu durdu, getdi, bacınun yaanna. Bacı da indi bilmerəm, bəş aydı, altı aydı, bacı hamilədi, yo, doqquz ay, hamilədi, bu hamilədi. Dedi:

– Bacı, du gedək hamama.

Bular durdula, getdilə hamama. Bu ögəy bacı bu Fatma xanımı itələdi, saldı houzun içinə. Munun paltarın geyindi, çıxdı gəldi, gəldi. Bəle, gecə durdula, şam-mam yedilə, evdə işlədi, yudu, arıtdı, gəldi yata, elə ağzında saqqız çeynədi. Kişi dedi:

– Bu nəmənədi çeynesən?

Dedi:

–Valla, bacım çıxdı getdi evlərinə, mənə bi çeynim saqqız verdi.

Dedi:

– Munu gecə çağat.

Dedi:

– Yoxa, bacım mənə verib, çığatmaram.

Hay iki gün, üş gün, bir gün, bu şahu oğlu çıxdı, munu əri ola, eşikdə dəstəmaz ala, gördü, xoruz gəldi, dedi:

– Quqqulu-qu, quqqulu-qu,
Fatma xanım yatıpdı,

---

[33]Xiləsər – xiləsər

Hamamda laqqa balığ utupdu.
Şah oğlu, Şah İbrahim
Onun qucağında yatıpdı.

Kişi dedi:

– Xoruz, o nədi? Kişə….

Dedi:

– Quqqulu-qu, quqqulu-qu,
Fatma xanım hamamda yatıpdı.
Laqqa balığ, balığ utupdu.
Şah oğlu, Şah İbrahim
Qucağında yatıpdı.
Saç gəlibdi gərdənini tutpdu.

Bu gəldi, bu arvada dürüs baxdı, gördü, doğur deer, bu Fatma xaam döy. Getdilə hamama, hamamun suyun çəkdilə, gördülə Fatma xanım hamamda xılas olub, qucağında oğlı. Saç gəlib uşağın gərdəninə, boğazına dolaşıb su getmiyə, su getmiyə munun qaarna. Munun suyun çığatdıla, munun paltarın geydirdilə, gəldilər evə. Gəldilər evə, kişi getdi, bi dənə töylədən qatır çəkdi, bi dənə qatır çəkdi. Bi dənə çəllək bağladı, bi dənə it küçügü bağladı, qızı mindirdi qatıra. Çəllək səsləndi, küçük hürdi, at hürtdi[34], qız da buların dalıycağ süründi. Olar getdi o yana, biz də gəldik bu yana. Eşidənnəri sağ ossun. Qutardı.

## DÜNYA MALINA BEL BAĞLAMAQ OLMAZ

Biri var idi, biri yox idi, keçmişdə Məhəmməd, Əhməd və Səməd adında üç qardaş yaşayırdı. Onlar atalarından qalan zəmini birgə biçib, birgə döyərdilər. İllərin birində əkdikləri zəmi hasil vermədi və göydən gələn bəla əkini tamamilə məhv etdi. Onlar Tanrının bu təbirinə baş əyib, hərəsi bir peşə dalınca getdi. Səməd bir dərzi yanında işləməyə başladı. Əhməd toxuculuq işləri qurdu. Sonuncu qardaş Məhəmməd isə

[34]Hürtdi – hürkdü

uzun yola çıxdı. O az getdi, yüz getdi, dərə-təpə düz getdi, nəhayət, abad bir kəndə çatdı. O, baxıb gördü ki, yolun qırağında bir kişi tək canına böyük bir zəmiylə əlləşir. Salam verib, əleykə aldıqdan sonra Məhəmməd kişiyə dedi:

– Bu zəminin hamısını bir gündə biçib qurtarsam, mənə nə verərsən?

Kişi dedi:

– Bunun əməgi yoxdu. Əgər görə bilsən, məhsulun yarısı sənin olsun.

Məhəmməd işə başladı. Kişi də qayıdıb kəndə getdi. Məhəmməd biçdiyi sünbülləri bir-bir bağlayıb qırağa qoydu. O, sünbülləri biçib qurtaran-qurtarda gördü gün batmaq istəyir. Günəşə yalvardı, batmasın. Son bağı da bağlayıb qurtarsın. Ancaq vaxtı dayandırmaq olmazdı. Bir neçə tel sünbül qalırdı ki, gün batdı və son sünbül bağını gün batdıqdan sonra bağladı. Bir neçə dəqiqədən sonra zəmi sahibi gəldi və zəminin qurtardığını görüb heyrət etdi. Ancaq Məhəmməd ona istəmədi yalan desin və son bağı vaxtından sonra bağladığını söylədi. Kişi nə qədərə israr etsə, Məhəmməd qəbul etmədi və öz yolunu tutub getdi. O az getdi, yüz getdi, başqa bir vilayətə çatdı. Baxıb gördü, bu kəndin ərbəyi özünə şərt ilə çoban tutmaq istəyir. Onun şərti bu idi ki, hər kimsə bir ildə onun qoyunlarını itə, qurda verməsə, qoyunların yarısını ona verəcəkdir. Məhəmməd bu işi öz öhdəsinə götürüb çobanlığa məşğul oldu. Qəzadan ildən bir gün qalmış qoyunların birin qurd tutub yedi. Beləliklə, Məhəmməd bu işi də nəticə vermədi. Məhəmməd betər darıxma əl verdi və heç nə qazanmadığı üçün evlərinə də dönə bilmirdi. Narahat halda gəlib böyük bir gölün qırağında dayandı. Ağlayıb göz yaşlarını gölün suyuna qatdı. Birdən gözünü açanda gördü, çiyninə quş qonubdur. O, əlini atıb quşu tutmaq istəyəndə quş pırlayıb getdi. Məhəmməd onun dalınca düşdü və quşu tutdu. Quşa başına gələnləri söylədi və bəxtinin ondan üz döndərməsindən gileyləndi. Quş dedi:

– Məni buraxsan, mən səni bu fəlakətdən qurtararam.

Məhəmməd dedi:

– Necə qurtaracaqsan?

Quş cavab verdi:

– Mənim sehrli bir gümüş üzüyüm vardı. Onu sənə verərəm. Hər nə istəsən, o üzüyə desən, o sənə yetirər.

Məhəmməd üzüyü alıb sövünə-sövünə evinə qayıtdı. Quş deyən kimi üzükdən hər nə istədikdə o verdi. Məhəmməd üzüyün sayəsində kasıblığın daşını tamamilə atır. Bir gün Məhəmməd arvadına deyir:

– Arvad, indi var-dövlət sahibi olduq. İstəyirəm, şahı qonaq çağıram.

Arvad nə qədər çalışdı, kişini bu işdən yayındıra bilmədi. Məhəmməd gedib şahı qonaq çağırdı. Şah dedi:

– Məni dəvət etdiyin üçün sağ ol. Mən gələ bilmərəm. Amma vəzirlərimi göndərərəm.

Şah vəzirlərinə əmr etdi o qonaqlığa getsinlər. Vəzirlərin biri öz-özünə:

– Ey dadi-bidad, kəndçi hara, belə bir qonaqlıq hara? Yəqin bu işin içərisində ayrı bir iş var.

Onlar gəlib məqsədə çatanda atları lap işdən düşmüşdü. Məhəmməd sehrlə atlar üçün yem hazırladı. Sonra vəzir, vəkil içəri dəvət etdi və sehrli üzüklə gözəl xörəklər gəldi. Elə yeməkləri onlar ömürlərində belə görməmişdilər. Yeyib-içəndən sonra oranı tərk etdilər. Vəzirlər sehrli üzük barədə şaha bilgi verdilər və artırdılar ki, bu üzük gərək şahın olsun. Nəinki bir kəndli adamın. Şah dedi:

– Tədbir tökün, o üzüyü necə ələ gətirmək lazımdır.

Çox götür-qoydan sonra bu qərara gəldilər ki, Məhəmmədi çağırıb və sehrli üzüyü istəsinlər. Belə də oldu. Məhəmməd gördü, iş oturub, bir söz demədən qayıdıb evinə gəldi və məsələnin nə yerdə olduğunu arvadına dedi. Arvad ərinə toxtaxlıq verib dedi:

– Düzdü, mənim sözümə qulaq vermədin. Mən bilirdim, o qonaqlıq başımıza iş açacaq. Amma olan olub, keçən keçib. Get quşu tap, gör o nə deyir?

Məhəmməd gölün qırağına gəlib bir müddət gözlədikdən sonra gördü, quş gəldi. Quş gördü, Məhəmməd çox narahatdır. Quş dedi:

– Narahat olmağa dəyməz. Üzüyün vaxtı səndə qurtardı. Qayıt, öz başına bəla açmadan onu padşaha təslim et. Eşitməyibsən, atalar deyib: “Dünya malına bel bağlamaq olmaz”.

## PADŞAHIN OĞLU VƏ ARVADI

Biri varıdı, bir yoxudı, Allahdan sora heş kəs yoxudı. Cənni-cənnətə qatışdı, piyalə gözləri ağlım apardı, qələm qaşları zəhləm apardı. Hardan ərz eləyim, ağalarun qulluğunna, xanımlarun buyurduğunna. Bir dənə şah varıdı, şahun bi dənə də oğlu vardı. Bu, qırx dənə arvad almışdı, qırxun da başın kəsmişdi. Vırdı munun axır arvadı dedi oğluna ki, biz qalsağ, bizi də öldürər. Dedi:

– Neynim, nənə?

Dedi:

– Biz burdan durax, çıxax gedək.

Oğlan getdi, vəznidən yüngül, qiymətdən ağur xurcunnarı doldurdu, mindilər ata, nənə-bala kətdən çıxdılar. Çıxdılar, az getdilə, çox getdilə, bir qədreyi yol getdilə, bi dənə saxtımana tuş gəldilər. Saxtımana tuş gəldilə itələdilə, gördülə bu kilitdidi. Oğlan atı qoydı qapıda, nənəni qoydı qapıda, duvarun üstünnən aşdı, getdi qapını aşdı. Girdi, gördi ev quruludu, ama evün yəsi yoxdu. Bular burda beş gün, üş gün qaldıla, gördülə evün yəsi yoxdu. Oğlan dedi:

– Nənə, mən gederəm ov vırmağa.

Bu getdi ov vırmağa. Nənə otumışdı, gördi bi dənə div girdi içəri. Div dedi:

– Gərək sən mənnən olasan.

Dedi:

– Dədün yaxçi, nənün yaxçi.

Dedi:

– Olmasun, mən səni yeyərəm.

Arvadun əlaci olmadı, arvad bunnan oldu. Arvad bunnan oldı, bir gün, iki gün, oğlana demədi. Oğlana demədi. Bu div dedi:

– Xob, mən nə cür eliyim, sənü oğluyu öldürüm?

Dedi :

– Mən bilmerəm.

Dedi:

– Sən, bu oğlun yolla, Günbaran qarpuzu var, sən oğlun yolla, ora gessə, orda mənim qardaşım var, Sarı devdi, mən Qara devəm, Sarı devdi, ora gessə, qoymazla bu gələ.

Bu durdu ayağa, gedə. Getdi, az getdi, çox getdi, bi qədreyi-yol[35]getdi, getdi, gördi bi dənə qoca kişi su suvarer. Oğlanun adı Məhəmməd İbrahim idi. Dedi:

– Məhəmməd İbrahim, hara gedersən?

Dedi:

– Valla, gederəm, filan yerdən qarpuz gətirəm, nənəm mərizdi.

Dedi:

– Nənün məriz döy, nənün divinen var, səni ölümə yoller.

Bu qəyitdi, bi dənə qocaya silli[36]vırdı. Dedi:

– Çəpəlin biri çəpəl, mənim nənəm gəler, oynaşı var, məni ater!?

Bu xeylək yol geder, xeylək gedənnən sora ürəyi yaner. Deyer:

– Qocanı mən vırdım. Nəyçin?

Qəyider gələr, cibünnən dəsmali götürər, qocanu üzün siler, genə çıxar geder. Genə hay geder, geder, geder, geder, bi

---

[35]Bi qədreyi-yol – bir qədər yol

[36]Silli – sillə

dənə bağa yetişər. Burda bi yekə ağaş var, qapı çimənnik, bostannıx. Geder, görər, bi dənə keçi burda belə sızıllər[37]. Deyər:

– Nədi?

Deyər:

– Ayağıma tikan batıp, neçə ildi, əlləşərəm onu çığadammərəm.

Bu əl elər, ayağın qoyar munu ayağınu üsdünə, tikanı çəkər, çığadər. Munnan çirki, cərahat açılər, həngamə.

Bu deyər:

– Hara gedesən? Sənün nənün, səni ölümə yoller.

Deyer:

– Day mən gedəcəm.

Bu götürər, muna bi cüt öz balasınnan verer muna, balasınnan verər. Genə, bu balalarıynan az geder, çox gedər, gedər, çimənnikdə yatar. Bunu yuxu aparır. Bu div, ister üsdən gələndə qollarında dəyirman daşın ata munu üsdünə. Bular ki çığırır, Məhəmməd İbrahim oyanır. Oyanır, bi dənə bulara silli vırar. Baxar, görər yo, div munun başunu üsdündədi. Genə burdan durella ayağa, gedəllər. Gedər, görər, bi dənə eyvandı, eyvanın qabağı bostandı. Bi dənə eyvanda qız var ki, belə bil ki, üzünə baxmağ olmur. Bu keçi muna deyər:

– Sən qarpuzu əlünnən dərmə. Qarpuzu əlünnən dərsün, barmaqlarun tökülər.

Bu gedər, qarpuzu ağacınan dərəndə qız üsdən deyər ki, "dərdilər, ay dərdilər!".

Dedi:

– Qız, yat, dərməzlər.

Dedi:

– Dərdilər.

Dedi:

– Nəynən?

---

[37]Sızıllər – sızıldayır, ağlayır

Dedi:

– Ağacınan.

Dedi:

– Ağacınan da qarpuz dərəllər!?

Bu dərər, xurcunnarı doldurer, tökər atu üstünə, qəyidər gələr. Qəyidər gələr, bu at, biləvarıs, qapıya gələndə at kişnər. At kişnər, bu arvad deyər ki, Məhəmməd İbrahim gəldi. Deyər:

– Mən ki onu ölümə yolladım, necə gəldi?

Bu genə geder, girər quuya, üstünə dəyirman daşın qoyer, qaler orda. Bu qaler orda. Bu gələr:

– Nənə, nəcəsən?

Deyər:

– Bala, indi bikə yaxçıyam.

Kəsellə, yeellə, içellə. Bu səfər div munnan soruşer ki, sən oğlunnan soruş, gör sənün oğlun qudrəti nədə bətti[38]? Bir gün oturella. Deyər:

– Bala, nənən sənə qurban, sən maşalla, maşalla, çox güjlüsən, sənün qudrətün nəyə bətdi?

Dedi:

– Nənə, hər yərə yollasun, mən gəlləm.

Dedi:

– Bə sənün qudrətün …?

Dedi:

– Mənim qudrətim ona bətti, mənim başımun tükünnən bi dənə çəkəsən, mənim barmaqlarımı daldan bağlıyasan, mən onu genə çəkərəm, qırram.

Deyər:

– Olmaz.

Deyər:

– Olar.

[38]Bətti – bənddi, bağlıdı

Bu durar ayağa. Buna bi dənə demişdi, bu namərdün qızı, bədcins üş dənə tükdən kəsər, munu barmaqların bağlar. Bu bağlar. Bu nənə-bala bəsəb şuxluğ elellə. O yannan da tükü qırammer, bu div amədə gələr, yetişər, munun gözün çığader. Gözün çığarder, munun gözün atar iki dənə heyvana. O heyvannar mını ağzında saxlar. Götürər bu Məhəmməd İbrahimi aparer, saler bi dənə quuya. Quyu da qarı yolu təkin karvan yoluymuş. Karvan gəlib geçər, gedər. Gedər qəyidər, gəler görer, bu heyvannar elə quyunun dibində qalıb. Deyər:

– Tədbir tökün, görün, bu quyuda nəmnə var? Axı bu heyvannar, burda qaler.

Hər kəs bikə çörək verer, çörəği tökellə quuya. Bi nəfər salella quuya, ip bağlella, salella. Bu, geder aşağıda öz ipi belinnən açer. Deyər:

– İpi çəkün yuxarı.

Çəkellə, görellə bi dənə cavandı ki, da nə deyim? Sora ipi salella, o birsi də çıxer. Munu qoyellar karvanu üsdünə, qəflə munu götürər, gedər, deməli, bu mal. Bunu götürər geder. Şah görər, bi nəfər gətirellə belədi, belədi, şəkil kimin oğlandı. Munu endirellə. Munu qoyella, bu iki gün, üş gün munu çığadella, baxçada otuzdurella gündə.

Bir gün görer göydən bi dənə göərçin gəldi. Göərçin gəldi, çəh-çəh vırdı, iki dənə, otdula bırda. Dedi:

– Bacıya bacı, munu tanıyesan?

Dedi:

– Niyə tanımeram.

Dedi:

– Kimidi?

Dedi:

– Bu, Məhəmməd İbrahimdi ki, divinən oyneyib nənəsi, gözün çığadıb, atıb ora. Nə oleydi bunun gözü yanında oleydi, biz uçanda bizim qənətimizdən düşeydi, bu çəkeydi gözünə, gözün qoyeydi, əvvəlkinnən yaxçı oleydi.

Bu da bilmir ki, bu güzü, bu heyvannarun ağzında. Bu heyvannar gətirer, bu gözün qoyer munu əlinə. Bu gedər, əlin çıp-çıp elər, bi dənə qənət tapər. Qənəti çəkər, gözün qoyar, görər, göz belə oldu ki, əvvəlkinnən yaxçı. Bu şahun, bi dənə qızı çıxar, görər, bu üş-dört gündü, bu oğlan burda korudı. Əlan namaz qılar. Geder dədəsinə deyər:

– Dədə, o oğlan gözləri açılıb, oturub namaz qılar.

Deyər:

– Yox, baba?

Deyər:

– Valla!

Gəler, deyer:

– Valla, mənim cərəyanım bü cür oldu. Mən isterəm, gedəm.

Dedi:

– Qıbleyi-aləm sağ olsun, mən qoymaram gedəsən. Mən qızımı verim sənə. Kömək verim sənə, get.

Dedi:

– Mən köməg istəmerəm, qızun da versün, sora verərsən. Mən gərək gedəm, o məni tək öldürüb, mən gedəm, onu gərək tək öldürəm.

Bu gələr. At da, heyvan içərdeydi da, bunu həniltisi gələcəğin at kişnər da. Bılar, başda olmellar. Bu girer içəri, görər, sən də mənim öz balam, bılar elə, məsələm, bir yerdədilər. Bılar bir yerdədilər, bu yetişər, elə duardan əyrini götürər, vırər divə. Div qəyidər muna deyər:

– Sən mənə neynədün!?

Deyər:

– Silkin, çəpəlin biri çəpəl.

Birin də vırer. Birin vıranda bu dib şaqqalaner, atar o heyvannarun ağzına. Nənəsinə deyər:

– Dik otugınan.

Deyər:

– A qadalarun mənə dəysin, başuva dolanım, mən neynim, girdim burda giriftar oldum.

Dedi:

– Giriftar olmadun. Birin də mənə demədün, ikisində demədün, üçündə demədün, oturasan, səni gərək doğrıyam, atam qapıya.

Oğlan şaqqaler. Durar ayağa, burda nəminə varıdı, yığer, yığışdırer, götürər, gedər həmin şahun evinə. Getdi, şah öziçin, bu qızın toyun elədi, verdi mına. Dedi:

– Qal bırda.

Dedi:

– Qalmaram. Bu cür gəlmişəm, bu cür gedəcəm dədəmün yanına.

Gəldi. Dədəsi dedi:

– Hax mənnən idi, ya sənnən idi? Mən bileydim, bu arvaddarı öldürdüm. Mənim başıma nə gəleydi, sən getdün, nənün, sənün başuva o oyunu gətdi.

Olar getdi o yana, biz də gəldik bu yana.

## YAXŞILIĞA YAMANLIQ

Qədimdən deyiblər, yaxçuligə yamanlikdi. Bir gün bir nəfər yolunan gedirmiş, görər bir yilan düşüb otun içinə. Deyir: "Heyvani qoy mən bunu otun içinnən çağartım". Çağartur, salar kisəsinin içinə, atar dalına. Bir az yol gedənnə, yilan çixar daraşar kişiniy boynuna, deyir:

– Mən səniy caniy necat vermişəm, otın içinnən çağartmişam.

Deyir:

– Yaxçuligə yamanlıkdı.

Adəmmizad da iney canının qorxusunnan deyər, bəs gedək o köç dana şeydən, heyvannan xəbər alaq, görək nəcir, necədi? Gedəllə, bir dana ağaca çatalla. Deyillə:

– Yaxçuligə yamanlıkdı?

Ağac deyir:

– Bəli, Adəmizad gəliri meyvəni yiyəri, kölgəmənə ötürəri, durub gedənnə də mənin baş-qulağım qırırı, tökiri yerə.

Yılan deyir:

– Gördin?

– Bir az gedək qabağa.

Suya çatalla. Diyəllə:

– Yaxçuligə yamanlıkdı?

Deyir:

– Hə.

– Adəmizad gəliri məni içəri, libasun yuyəri, hamu cür nazafət eliyir. Axur da kəsafət tökəri mənim içimə.

Deyillə:

– Qoy gedək üçüncü görək nə olar, təvəkkül Allaha.

Gedəllə, bir dana tülkiyə ras gələllə. Tülküyə deyillə:

– Yaxçuligə yamanlıkdi?

Tülkü də o qəd hoqqabaz olar, deyər:

– Mən ki həbpili-həpov degiləm, fövru-qəzavət eliyim. Gərək bunu əməlli əncam veriz, mən baxam onnan qəzavət eliyim, görəm yaxçuligə yamanlıkdı?

Adəmizad otu yan vurar, yılanu kisədən çiğartur, salar kisəsinə otdan necat verə, tülkü deyir:

– Əlan, salmusey kisə içinə, vur, ölsün. Niyə qoyur ey, diri qala ki, səni məsala caniy ala? Vurar, yılan ölər. Adəmizad deyir:

– Mən səniy yaxçuligiyə nəm eliyim? Nə cür eliyim, səniy yaxçuligiy cəbrin eliyim?

Deyir:

– Variysə, bir dana quzu gətiginən, mən filan dağda, orada qəyə içində yerim vardu. Gəti mən yeyim, bu təlafi olsun.

Deyir:

– Olsun.

Kişi gələr evə, munu arvad-uşağına deyir:

– Belədi, mən gərək bir quzu aparam tülkü yanına.

Arvad da o qəd xəsis imiş, deyir:

– Aparey tülkü yanına nəm eliyey? Ver arvad-uşağıy yesin, özümüz acunnan ölürik.

Deyir:

– Yoo, mən söz danışmişəm. Söz ağzumnan çıxıb. Qol vermişəm, o yol gözlər, gərək aparam.

Arvad o qəd nadürüstümüş, deyir:

– Sən bir qoy, qəza yeginən, mən quzunu salım günüyə, amadə olsun, sən apar.

Arvad da gələr, gələr nadürüslikdən bir dana tazu varları imiş, atar gunün ey içinə, ağzun bağlar. Kişi də atar daluna, götürür gedər, deyər, quzudu da! Aparur. Tülkü usta olar da! Görür, adəmizad gəliri, çıxar qəyənin üstünə, uzaxdan baxar. Adəmizad çatanda deyir:

– Qoy görüm bu nəmədi, vaqea quzunu gətirib?

Gününü açanna, görər tazu həmlə elədi tülküyə. Deyir:

– Dədəyə nəhlət, adəmizad, illah ki, yaxçulugə yamanlıkdı.

## KEÇƏL HƏSƏN

Biri var idi, biri yoxudu, Allahdan başqa heç kim yoxudu. Bir qoca kişi ilə arvad var idi. Bu qoca kişi ilə arvadın da Həsən adlı keçəl bir oğlanları var idi. Həsənin əlindən heç bir iş gəlməzdi, onlara heç bir kömək etməzdi. Bir gün nənəsi Həsəni yanına çağırır. Xalının altından bir az tümən çıxarır, gətirir verir ona. Deyir:

– Həsən, al bu tüməni, get, özün də bir işlə məşğul ol.

Həsən nənəsindən alır o tüməni gedib özünə bir saqqız alır. Sonra da gəlir dədəsinin bağına girir, saqqızı bir daşın üstünə qoyub oturur. Həmin gün də hava o qədər isti olur ki, saqqız daşın üstündə əriyir. Özü də gedir başını atır, bir ağacın altında başlayır yatmağa. Bir də ayılır görür kü, daşın üstünə bir qarğa qonubdur. Həmin qarğanın da dırnaqları saqqıza yapışır. Qarğa nə qədər eliyir, uça bilmir. Həsən bunu görür, gəlir yaxınlaşır, qarğanı saqqızdan ayırır. Qarğa başlayır yalvar-yaxara, deyir:

– Ay Həsən, gəl məni burax. Əvəzində canın nə istəsə, mən sənə verərəm.

Həsən deyir:

– Yaxşı tutaq ki, mən səni buraxdım. Bəs səni harda görəcəm?

Qarğa tüklərindən üç dənəsini çıxarıb verir Həsənə. Deyir:

– Nə zaman mən sənə lazım olsam, bu tükümün birini yandır, mən dərhal yanında olaram.

Həsən heç nə demir, tükləri alır, gəlir evə. Axşam olur, görür ki, nənəsi heç nə hazırlamayıb. Evdə də heç nə yoxdu yeməyə. Nənə də, baba da, bular hamısı acdılar. Həsən gətirir həmin o qarğanın tükünün birini yandırır görür ki, qarğa hazır olur. Başlayır qarğaya deyir:

– Mənim yeməyə bir şeyim yoxdur. İndi acından ölürəm. Mənə bir qazan bir şey ver.

Bir az keçir, qarğa gəlir, deyir:

– Al bu qazanı. Nə qədər istəyirsən ye. Elə bu çömçəni ki, götürüb qazanın içinə vurub "pilov, pilov" desən, o zaman sənə yemək hazır olacaq.

Həsən də gəlir, qazanı götürür, çömçəni salır qazanın içinə "pilov, pilov" deyir, bir də görür ki, qazanın içi aşla doludur. Həsən götürür boşqabları, qabları pilovla doldurur, qoyur süfrəyə. Yenə ikinci dəfə götürür həmin çömçəni salır qazana, ayrı-ayrı yeməklərin adını çəkir, bir-bir doldurur, yeyir. Səhərisi gün bunu görür, dədəsi deyir:

– Ay bala, gəl ona belə eləyək sən ki, belə əlindən gəlir bir qazan yemək deməklə yeməyin hazır olur, gəl padşahı qonaq çağıraq. Bu haqda da bütün şəhərin camaatına xəbər verək.

Elə də olur. Hamı yığışır gəlir. O zaman padşah vəzirinə deyir:

– Ey vəzir, bunlar çox kasıb bir adamdılar. Nətər olur ki, onlar birdən-birə belə bir süfrə açmaq istəyirlər. Bu qədər pulu hardan alıblar?

Vəzir deyir:

– Qibleyi-aləm sağ olsun, sən indi səbr eləginən, mən gedim görüm nələr olub, örgənim, gəlib sənə xəbər verərəm.

Vəzir gəlir məclisə, yeyir, içir. Görür ki, bunların bir qazanı var, elə Həsən nə istəsə, bu qazanı döyəcliyir, qazanda yemək hazır olur. Fikirləşir, yox, bu qazanı gərək bu keçəldən alım. Çünki bu keçəlin nəyinə lazımdır. Gəlir Həsənin yanına vəzir, deyir:

– Həsən, sən de görüm bu qazanı hardan almısan?

Deyir:

– Mənə bunu satıblar, almışam.

Vəzir heç nə demir, qayıdır saraya. Axşam gəlir, qullarından göndərir ki, gedin gecə yarısı, onun qazanını oğrulayıb gətirin. Bu qullardan biri gedir, bir dənə qazan götürür. O qazana oxşayan qazanın yerini dəyişdirir. Bunu alıb gətirir. Həsən də durur səhərisi günü yenə qazanın içinə başlayır çömçə ilə vurmağa. “Plov, plov” deyir baxır ki, qazanın içindən heç nə çıxmadı. Fikirləşir ki, hə yəqin ki, kimsə mənim qazanımı çalıb. Heç nə demir, yenə gəlir qarğanın tüklərindən birini yandırır. Görür ki, qarğa yenə hazır oldu. Deyir:

– Qarğa!

Deyir:

– Bəli, nə istəyirsən?

– Bəs mənim qazanımı oğurlayıblar.

Deyir:

– Bəs mən sənə nə eləyim?

Deyir:

– Mən minmək üçün bir eşşək istəyirəm.

Qarğa heç nə demir. Gətirir bir eşşəyi, verir ona. Deyir:

– Amma çox diqqətli olmalısan. Çünki sən buna həmişə bir çubuq vursan, eşşək altını batıracaqdır.

Həsən heç nə demir. Eşşəyi alır, evə gətirir. Gətirir, əlində bir sopayla eşşəyin arxasına vurur. Görür ki, hər dəfə arxasına vurduqca eşşək bayıra çıxır. Hər dəfə də eşşəyin nə-

cisindən bir qızıl sikkə düşür. Bir də vurur, görür, ikisi düşür. Nə qədər başlayır çoxlu vurmağa, o qədər vurur ki, görür ki, yox ee, qızıl sikkələr tökülür. Həsən heç nə demir, gətirir, bu həmin qızılları yığır, aparır satır, evə lazım olan nə isə alır. Gətirir dədəsinə, nənəsinə də əlavə pul verir. Bir gün Həsənin nənəsi deyir ki, mən hamama gedəcəm. Həsən deyir ki, yaxşı, get. Deyir ki, yolum çox uzaqdır, qoy eşşəyi də götürüm, onunla gedim. Həsən nə qədər istəyir ki, eşşəyi verməsin, nənəsi deyir ki, yox, mənim yolum uzaqdır, gərək eşşəklə gedəm. Nə isə, gətirir nənəsi eşşəyi alır, eşşəyə minib gedir hamama. Gəlir hamamın qabağında eşşəyi bağlayır. Bu hamamçının da oğlu hamamın qabağında otururmuş. Eşşəklər bir-biri ilə dalaşmasın deyə, bir-birinin yerini almasın deyə, onları rahlıyırmış. Əlindəki sopayla götürür, bu eşşəyə vurur ki, eşşək düz yerdə otursun. Bir də görür ki, eşşəyin arxasından bir qızıl pul düşdü. Hamamçının oğlu tez yüyürür, babasına xəbər verir ki, bəs xəbərin varmı, bir eşşək bağlayıblar hamamın qabağına, bu eşşək heç biz gördüyümüz eşşəklərdən deyil. Gəl gedək ona bax. Hamamçı gəlir:

– Nə deyirsən, ay bala?

Gətirir, əlindəki həmin çubuqla eşşəyi, bir də vurur. Görür ki, yox e, eşşəyi vuran kimi eşşəyin arxasından qızıl sikkələr tökülür. Heç nə demir. Hamamçı da bunları axmaq yerinə qoyur. Gedir, öz eşşəyini gətirir, bağlayır bunun yerinə. Bu eşşəyi də əvəzinə götürür, aparır.

Bu Həsənin nənəsi hamamdan çıxır, eşşəyinə minir, evə gəlir. Gecə olur. Həsən yenə eşşəyi çəkib gətirir evin ortasına. Xalçanın üstünə gətirir. Başlayır eşşəyi vurmağa ki, yenə ondan qızıl sikkələr tökülsün. Nə qədər çubuqla vurursa görür ki, yox e, heç bir şey yoxdur. Eşşək elə boş gedir. Həsən deyir ki, hə, yenə mənim eşşəyimi kimsə dəyişdirdi. Bunu görən kim eləmiş ola? Yenə gedir dədəsinin bağına. Kolların ortasında dərdli-dərdli oturur. Birdən ağlına gəlir ki, vay, bəs qar-

ğanın bir tükü qalıb. Gedim bu tükü yandırım, görüm başıma nə çarə qılıram. Həsən deyir:

– Qarğa, qarğa!

Cavab verir :

– Bəli, Həsən.

Deyir:

– Eşşəyi dəyişiblər.

Qarğa deyir:

– Sən məndən bunu istəyirsən? Amma bilginən ki, bu sənin son arzundur. Mən indi sənə bir qabaq verəcəyəm. Nə zaman ki, bu qabağı əlinə alsan, oxusan, içindən çoxlu adamlar çıxacaq. Hərənin də əlində bir çubuğu var. Kimi istəsən, vura-vura onu öldürərsən.

Həsən deyir:

– Lap yaxşı. Qabağı alır gətirir evə.

Səhərisi gün deyir ki, qoy əvvəlcə hamam sahibinin yanına gedim. Həsən düzəlir yola, gəlir hamamçının yanına. Hamamın qabağında dayanır. Başlayır qışqırmağa:

– Ay hamamçı, ay hamamçı.

Hamamçı gəlir, deyir:

– Nə var?

Deyir:

– Get, mənim eşşəyimi gətir. Öz eşşəyini apar.

Hamamçı deyir:

– Əşi, get işinin, gücünün dalıyca. Dəlisən, nəsən? Nə danışırsan?

Həsən deyir:

– Yox, sən eşşəyimi geri gətir.

Hamamçı yenə deyir:

– Açıl başımdan. Elə eləmə ki, səni vurum.

Bunu deyəndə Həsən qabağa gəlir və başlayır qarğanın dediyi kimi oxumağa. Bir də görür ki, qabağın içindən çoxlu adamlar çıxdı. Hamısının da əlində uzun çubuq, zopa var.

Bunlar hamısı tökülürlər, başlayırlar hamamçını döyməyə. Deyir ki, "Yaxşı, gedirəm, gedirəm". Hamamçı qorxur. Gedir, eşşəyi gətirir. Həsən eşşəyini alır, gəlir evinə.

Səhərisi gün götürür qabağı, gedir padşahın yanına. Padşaha deyir:

–Get, vəzirinə denən, mənim qazanımı gətirsin.

Padşah deyir:

– Ay bala, get işin-gücünlə məşğul ol. Sən bir yalançısan.

Həsən deyir:

– Sənə deyirəm, get vəzirinə denən, mənim qazanımı gətirsin. Gətirməsə, sizin başınıza oyun açacam.

Padşah əmr eləyir ki, bütün sərbazlarına ki, çıxın bu adamı rədd eləyin. Həsən tez qabağını çıxardır, başlayır oxumağa. Bir də görür ki, adamlar töküldü. Hərəsinin əlində bir çubuq, zopa. Başlayırlar bu padşahın adamlarını vurmağa. Bütün padşahın adamlarını döyəndən sonra padşahın özünü tuturlar, başlayır bunu da vurmağa. Padşah bunu görəndə başlayır qışqırır:

– Ay vəzir, ay vəzir, tez ol, qazanı gətir.

Həsən yenə götürür həmin qabağı, deyir ki, çomağınızla qayıdın geri. Bunlar görür ki, adamların hamısı girirlər qabağın içinə. Padşah sonra vəzirinə deyir ki, get, qazanını gətir. Həsən də qazanını alır, sonra qayıdır gəlir evlərinə. Şad, xürrəm yaşayırlar.

## OĞLAN VƏ DİV

Bir də belə rəvayət eliyirlər ki, bir qoca arvad varmış, bunun da bir oğlu varmış. Oğlan hər gün səhərdən axşama qədər gedərmiş bazara, dolanarmış, satdığın satıb, qoyduğun qoyarmış, qayıdarmış. Nə qazanarmışsa, gətirib ailəsi ilə birlikdə yeyərmiş. Oğlanın da qazancı gündə üç tümənnən artıq olmazmış. Bir gün oğlan gedir çölə, görür ki, yaşlı bir adam var. Yaşlı adam ona yaxınlaşıb deyir:

– Ay bala, sən burda neyliyirsən?

Deyir:

– Mən burda iş axtarıram. Bir iş olsa, işliyəm, evimi, ailəmi saxlıyam.

Yaşlı adam deyir:

– Gəl mənim yanımda çalışginən.

Oğlan heç nə demir, düşür onun arxasınca, gəlir. Yolda bu yaşlı adam deyir:

– Sən mənim yanımda çalışacaqsan, mən sənə bir qoz verəcəm. Həmin qozu götürüb gedəssən, sənə başqa heç nə vermiyəcəm.

Oğlan razılaşır. Başdıyır bu yaşlı adamın yanında çalışmağa. Bir il tamam olur, gətirir həmin adam, ona bir qoz verir. Deyir:

– Bu sənin gördüyün işin müqabilində qazandığındı.

Oğlan deyir:

– Lap yaxşı. İndi icazə ver, mən də öz şəhərimə dönüm. Çünki mənim də qoca nənəm, qardaşlarım evdə məni gözdüyür.

Həmin adam oğlana qayıdıb deyir:

– Amma bir şərtim var ki, bu qozu yolda sındırmıyasan. Nə zaman ki, sən öz şəhərinə, ailənin içinə çatdın, o zaman qozu sındırıb, baxarsan.

Oğlan deyir:

– Yaxşı.

Gəlir yolda bu fikir onun beyninnən çıxmır. Deyir ki, bir qoz nədi ki, mən onu sındırmıyım. Qoy sındırım baxım görüm, bunun içində nə var? Gəlir, oğlan yolun ortasında həmin qozu sındırır. Qozu sındıranda görür ki, qozun içinnən bir sürü insan, heyvan, inək, nə varsa, çıxır. Öz-özünə deyir ki, ay Allah, bu nə sirdi, bu nə möcüzədi ki, bir qozu qırırsan, içinnən bu qədər insan çıxır, heyvan çıxır. Deyir, yaxşı, indi mən bunları nətəər geri aparacam? Elə belə fikirləşir, Allaha yalvaranda bir div kəsir bunun qabağını. Deyir:

– Ay oğul, nə iş görürsən?

Oğlan deyir:

– Heç, bir qozum vardı, onu qırdım, içinnən bunlar çıxdı. İndi mən bilmirəm bütün bunları öz evimə, yurduma nətər aparım.

Div deyir:

– Mən bütün bunların hamsını səninçün toplayacam, amma bir şərtim var. Sən nə zaman ki, öz məmləkətinə dönəcəksən, onda heç vaxt evlənmiyəcəksən.

Oğlan deyir ki, yaxşı. Div gəlir, əlindəki çubuğnan yerdə bir dairə cızır. Bütün heyvanları yığır bu dairənin içinə. Bunnan sonra da oğlan götürür həmin qozu əlinə, gəlir şəhərinə. Gəlir şəhərinə, evinə çatannan sonra qozu təzədən götürür, sındırır. Qoz sınan kimi bütün heyvanların hamısı onun həyətinə dolur. Oğlanın nənəsi, babası buna çox sevinirlər. Babası qayıdır, deyir:

– Ay bala, indiyə qədər kasıb idik, səni evləndirə bilmirdik. İndi sənin hər şeyin var. Malımız da var, davarmız da var. Gərək səni evləndirək.

Oğlan da deyir:

– Yox, mən evlənmiyəcəm.

Nə qədər deyirlər, axırda deyir ki, yox, mən nə zaman evlənsəm, ölərəm. Ona görə də, bu sözü mənə demiyin. Açır başına gələnləri babasına danışır. Baba deyir:

– Ay oğlum, sən indi evindəsən, o çöldədi. Hardan biləcək ki, sən evləndin, gəlib səni öldürsün.

Babası nə qədər deyir, oğlan deyir ki, yox. Əgər məni istiyirsizsə, məni evləndirmiyin. Nəysə, babası çox deyir, oğlan az eşidir. Axırda babası deyir ki, ay bala, gəl, burda heç kəs yoxdu, gəl səni evləndirək. Nəysə, oğlanın saqqızını oğurluyurlar. Axırda gəlib bir toy məclisi qururlar. Toyun ilk gecəsində hava birdən-birə qaralır. Oğlan bir də baxır ki, divi görür. Divi görüncə toydan çıxır, başdıyır qaçmağa. O qədər qaçır ki, boş biyaban, çöl biyabana üzünü tutub qaçır. Qaçıb, qaçıb, gəlib bir mağaraya çatır. Görür ki, mağarada yaşlı bir qadın var. Qadın buna qayıdır deyir:

– Oğul, hara gedirsən?

Deyir:

– Heç yana. Bir div var, məni öldürmək istiyir, mən onnan qaçıram.

Qadın deyir:

– İndi ki, qaçırsan, bu iki köpəyi də yanına al ki, qorxmuyasan.

Oğlan gedir, gedir, yenə qabağına qoca bir qadın çıxır. Qoca qadın deyir:

– Ay oğul, hara gedirsən?

Oğlan deyir:

– Heç, məni bir div öldürmək istiyir, mən ona görə onnan qaçıram.

Qoca qadın deyir:

– Bu iki dəsmalı da özünlə götür, mağaranın arxasında bir divar var. Bu dəsmalları nə zaman bir-birinə tutuşdursan, bir od yaranacaq, odun arasından sənə yol olacaqdır. Bu zaman o yolu tutub, qaçarsan.

Oğlan heç nə demir, iki dənə yaylığı bu qoca arvaddan alır, başlıyır qaçmağa. Gəlir, çıxır bir mağaranın arxasına, görür ki, mağaranın arxasında böyük bir divar var. Heç bu divarı aşmaq olmaz. Gətirir iki dənə dəsmalı bir-birinə sürtür, od alov vurdu, ordan bir yol açıldı. Oğlan girir bu yola. Görür ki, yolun üstündə bir qızla bir qadın oturubdu. Qadın deyir:

– Ay oğul, hara gedirsən?

Oğlan deyir:

– Mənim başıma gələnlərim bax budur. Bir div mənim arxamca düşüb, məni öldürmək istiyir.

Deyir:

– Ay oğul, qorxma. Div bura gələ bilməz.

Oğlan deyir:

– Elədisə, məni övladınız kimi qəbul edin, qoy qalım yanınızda. Mən də nə istəsəniz, onu sizinçün eliyərəm.

Oğlan bir neçə gün qalır burda. Başdıyır çalışmağa. Bir gün qız gələr, oğlanın torbasındakı iki dənə dəsmalı götürər, deyər:

– Lap yaxşı oldu. İki dənə dəsmalı bir-birinə sürtərəm, görüm ki, bir atəşdən bir yol açılacaqmı? Mən də çıxım gedim.

Qız iki dənə dəsmalı götürür bir-birinə sürtür, baxır ki, doğurdan da, alovun içinnən bir yol açıldı. Qız başdıyır o yana qaçır. O yana qaçanda div bu yana gəlir, bu yana div o yana gəlir. Div bu yana gəlində oğlanı tutmaq istiyir. Ancaq qoca qadın imkan vermir. İki köpəyi divi tuturlar, onu parça-parça eliyirlər. Onnan sonra oğlan öz şəhərinə qayıdır və toyunu edir.

## DAZEY-DAZEY VƏ NAZEY-NAZEY

Bir gün var idi, bir gün yox idi, bir kənddə Dazey-dazey və Nazey-nazey adında bir ər-arvad varıdı. Dazey-dazey bir bit idi, Nazey-nazey bir birə idi. Bunlar bir-birlərini çox istərdilər. Dazey-dazeyin bulamaşdan çox xoşu gələrdi. Bir gün Dazey-dazey arvadına deyir:

– Xanım, mən gedirəm cütə, axşama bir bulamaş pişir.

Bu gedənnən soora Nazey-nazey gətirir təndiri gözəl yandırır, evi-eşiyi silir, süpürür, bir dənə də işvəli aş pişirir, qutulur. Qutulanda ki yorulmuşmuş, arqın-yorqun əyilir təndir içərisindəki bulamaş qazançasının qapağın qoya, düşür bulamaş qazançasının içinə, ölür. Dazey-dazey gəlir, baxır görür Nazey-nazey yoxdu evdə. O yana Nazey-nazey, bu yana Nazey-nazey, hey çağırır, o qonşu, bu qonşu, evi, hər yanı gəzir, görür, bundan bir xəbər yoxdu. Çıxır, əyləşir bir az küçə qapısında. Gələnnən-gedənnən Nazey-nazeyi soruşur, amma heş xəbər alammır. Xülasə, deyir, qoy bu bulamaşdan bir dənə içim, indi hər yerdə olsa, gələr da. Gəlir əyilir təndirə, mələğəynən bulamaşı qarışdırır ki, dənni-düşdü yerinnən bir az yesin. Bir mələğəz çəkir, elə ikincini çəkəndə, vay, baxır görür, Nazey-nazeyin ölüsü bulamaş qazançasındadı. Axır aşı da qoyur, onu da, durur

qaçır, oturur küçə qapısında. Oturur küçə qapısında yerdə, başına çalır torpaxları, sorur başına, genə də başına çalır. Oradan kəndin Qarqası keçirdi. Qarqa Dazey-dazeyə baxıb deyir:

– Dazey-dazey, niyə belə?

Dazey-dazey deyir:

– Nə olmuyum, neyniyim? Nazey-nazey düşüb bulamac qazançasına ölüb.

Qarqa bu xəbəri eşidəndən sonra qanadların yolur, burnunun sallır, gedir oturur çinarın başında. Bu çinar vardı ki, bülbüllər oxuyurdu başında, çinar ağacına deyərdilər “çinari-bülbül”. Çinari-bülbül qarqanı o vəziyyətdə görür, deyir:

– Qarqayi-dümdük, niyə belə?

Qarqayi-dümdük deyir:

– Belə olmayım, neynəyim? Dazey-dazey deyir ki, Nazey-nazey düşüb bulamac qazançasında ölüb.

Çinar da bunu eşidən kimi yarpaqların tökür, qol-putaxın sallır. Çinarın əyağınnan bir su geçirdi sünbülləri suvaran. Su çinarı o cür görüncə deyir:

– Çinari-bülbül, niyə belə?

Çinari-bülbül deyir:

Belə olmayım, neyləyim? Qarqayi-dümdük deyirdi, Dazey-dazey deyir, Nazey-nazey düşüb bulamac qazançasında ölüb.

Su bu xəbəri eşidən kimi çox narahat olur. Rəngi qıpqırmızı qana dönür. Su gedir yetişir bir buğdalığa. Sünbüllər suyu o cür görüncə deyir:

– Suyi-qan, niyə belə?

Suyi-qan deyir:

– Belə olmayım, neyləyim? Çinari-bülbül deyirdi, Qarqayi-dümdük deyirdi, Dazey-dazey deyir, Nazey-nazey düşüb bulamac qazançasında ölüb.

Sünbüllər hamısı bu xəbəri eşidən kimi yıxıldılar yerə, narahat oldular. Orada bir kişi varıdı, su suvarırıdı, əlində bel varıdı. Ona Əlibelli deyərdilər. Əlibelli sünbülləri o cür görüncə deyir:

– Süsən-sünbül, niyə belə?

Süsən-sünbül deyir:

– Belə olmayım, neynəyim? Suyi-qan deyirdi, Çinari-bülbül deyirdi, Qarqayi-dümdük deyirdi, Dazey-dazey deyir, Nazey-nazey düşüb bulamac qazançasında ölüb.

Əlibelli narahat olur, beli tullur bir tərəfə, d… kəsir, gedir evə. Evdə xanımı çörək yapırdı, Əlibellini o vəzdə görür. Deyir:

– Ağayi-d…, niyə belə?

Ağayi-d… deyir:

– Belə olmayım, neynəyim? Süsən-sünbül deyirdi, Suyi-qan deyirdi, Çinari-bülbül deyirdi, Qarqayi-dümdük deyirdi, Dazey-dazey deyir, Nazey-nazey düşüb bulamac qazançasında ölüb.

Soora xanımı da bu xəbəri eşidən kimi döşdərin kəsir, atır təndirə, durur, qaçır küçəyə. Qab-qacax satan gəlirdi. Qab-qacax satan xanımı o cür görüncə deyir:

– Xanımı-əmcək, niyə belə?

Xanımi-əmcək deyir:

– Belə olmayım, neynəyim? Ağayi-d.. deyirdi, Süsən-sünbül deyirdi, Suyi-qan deyirdi, Çinari-bülbül deyirdi, Qarqayi-dümdük deyirdi, Dazey-dazey deyir, Nazey-nazey düşüb bulamac qazançasında ölüb.

Qab-qacax satan bu xəbəri eşidən kimi bütün qab-qacaxları salıb daşlara sındırır. Qab-qacağın sınmax səsinə hammı yığışır kəndin ortasına. Görüllər, balam, belə olmayacax. İş-güş dayanır hər yerdə. Süsən-sünbül, Suyi-qan, Çinari-bülbül, Qarqayi-dümdük çağırıb, hammısı yığıldılar Dazey-dazeyi çağırdılar Nazey-nazeyə bir yas gecəsi tutub, ona başsağlığı verdilər. Dazey-dazey gördü Nazey-nazey bulamac qazançasına düşüb ölməsəydi də, bi gün öz əcəliynən öləcəydi. Hamısı gecənin axırında getdilər evlərinə, sabahdan işlərinə başladılar.

## İBRAHİMİN NAĞILI

Biri varıdı, biri yoxudı, Allahdan qeyrəz heş kəs yoxudu. Qədim zaman bi nəfər, elə bü cür cavan, İbrahim adında gedir, məsəl, bir ayrıki şəərə. Gidir orda bi nəfərin yanında xidmətkar qalır. At-matı, zadı varımış, ona baxırmış, məsəla, bay bına huquq-qaral verirmiş. Bının da üç dənə qızı varımış. Bir gün mına deyir:

– Oğlum, sən niyə öylənmisən?

Deyir:

– Baba, mən bu məmləkətin adamı dəyrəm. Mən ayrı məmləktdən gəlmişəm bıra.

Deer:

– Bizim şəhrimizin rəsmi bıdı, ildən-ilə qızlar gedər hamama, hamamnan çıxannan sora oğlannar gedər, o hamamın qabağında o tay bu tay durallar, hər kəs, hər kəsə xoşu gəlsə, onun üsdünə dəsmal atar, onnan izdivac elər.

Gəlir, bına bi dənə dəsmal verir, deyir ki, sən də get dur, cavannarın səfində, hər kəsi xoşun gəlsə – qızın at onu üsdünə. Bu da gedir. Bu da Allahdan istiyir ki, bının öz qızlarınnan, məsəl, bu birinin intixab eliyə. Xiləsə, gedir. Hay bına atım, ona atım, ağa, souşur qutarır, ata bilmir. Qəyidir, korupeşman gəlir, gələnnən sora bu Hacı bına deyir:

– Oğlum, bə niyə atmadun?

Deyir:

– Valla, cərəyan bu cür.

Qalır yengi ilə. Genə yengi başa gəlir, il dönür, başa gəlir, bu gedir. Deyir ki, əgər qızların üstünə ata bilməsön, qızlardan sora dullar gələllər, yanı o adamlar ki, əri ölüp, ya xeyir boşanıb, olar gələllər, oları da intixab eləsün. Xiləsə, atıpsan atıpsan. Bə gənə gedir, oğlannarın dəstəsində durur, hay qızlar gəlir, souşur, bu ata bilmir. Qalır, görür, bəle, bı səfə dullar dəstəsi gəldi. Bının birin intixab eler, atır bının birin üsdü-

nə. Atır bının birinin üsdünə, demə bu da, bu şəhərin malikinin arvadıymış. Qədim, bu şəhrə, bının əri malikimiş. Deyir:

– Sən kimin oğlusan?

Deyir:

– İsmailin.

Deyir:

– Güdə, yanı belə ağız bu yerə yetiripsən, məəm üsdümə dəsmaluu atısan?

Gedir xiləsə. Oğlan gəlir öylərinə, görür bu Hacı, onun əlində dəsmal yoxdı. Deyir ki, hop neylədün? Deyir:

– Valla, qızdarın üsdünə atammədim, bü cür, bi dənə arvadın üsdünə atdım, o da mənə belə dedi.

Dedi:

– Allah övüyi yıxsın, sən məni ki, xarab eliyipsən. Mənim dədəmi yandıracax, filan.

Qaldı, qalannan sora bir gün bu arvat sərmayədarımış, bi dəs mına kot şalvar tikdirir, qoyur buxçuya, verir bi dənə nökərrərinin əlinə, beş-on dənə də atınan göndərir besab bu oğlanın dalıyca. Bu kot şalvar ki, tikdirip bının da cibin doldurup, məsəl, ləli-cavahıratnan. Deyər ki, oğlana diyərsən, kim bura gəlincək, gərək bını paylıya fağır, beçarıya. Gəlillə, bəle, nökərrər gəlir, bını dəp tərəqqeynən mindirirlər ata. Bu libası geyir qəşəg, cavandı da, başın zadın darıyır, olur bi dənə şux cavan. Minir ata, əlin salır cibinə, görür, ləlı-cavahıratdı. Bu nökərin biri deyir ki, xanım buyurdu ki, bunu gəlincək paylıyasan. Bu da dərrakəliydi, deyir, baba, məni imtahan eleyir. Mən pul qazanmamışam ki, bu pulu paylıyam, başa məni bı imtahan eley. Xülasa, mını dəp tərəqqeynən gətirillər bu xanımın yanna. Gətirillər bu xanımın yanna, gətirənnən sora bılar izdivac eleyellə, izdivac eleyellə. Bıların da şəhrin qaydəsi o umuş ki, camaat namazı qılarmışlar, hər kəs camaat namazına getməseymiş, onu öldürərmişlər. Bu arvat çox sirvətməndidi, gətirir bına bi dənə tükan nişan verir. Görür, tamam

ətlazdan, zibadan basıplar bıra. Bi dənə qızıl yarım ərşin verir bu oğlanın əlinə, deyir:

– Bıra mənimdi. Bırda alver eləginən, nə vədə ki "Allahü-əkbər" çəkildi, gedəsən, elə qapını bü cür açıx qoyarsan, gedərsən namaza, getməsün, öldürəllə səni. Bax, yadunda qalsın, çün mənim ərim o üş-dört nəfər ki dul varıdı, olardan sora ölüp, mən ərə getmişəm, olar küdürət eleyiplə. Gələllə, sənün burda başuu alladalar, namazdan qalarsan, səni öldürəllə. Ayığ olgınan.

Bu gəlir bəle, qalır tükanda, alverin eliyir, gecədən geciyə nəğdin nisiyəsin aparır xanıma təhvil verir. Bir gün olur, həmin o arvatdar gəlir, bının başın qal eliyir[39]. Bının başın qal eliyir, bu namaza gedə bilmir, namaza gedə bilmir. Axşam gəlir, deyir:

– Valla, cərəyan bu cür oldu, mən gedəmmədim.

Dedi:

– Ə, öyün yıxılsın, mən sənə demədim, səni öldürəcəhlər.

Axşam olur, bəle gəlillə bını, memurrar gəlir dolət tərəfinnən, bını çəkə-çəkə aparılla. Deyər ki, indi gedisən, bular da o şah da, qəral qoyup, üş dənə hər kəs nəmənə istəsə, onu verəcək, onnan öldürəcəhlər. Deyər ki, sənə diyəcək ki, nə istiyesən qanuva? Deyərsən ki, mən xəzanəni istiyerəm. Ağa, bını çəkə-çəkə memurrar aparıllar. Bəle, şahdı, vəzirdi, onnan bi dənə də bizim dilə gələn, imam cümədi.

– Oğlan, bə niyə gəlmədün namaza?

Deyir:

– Xob, xiləsə, bu cür oldu.

Deyir:

– Xob, büyünkü qanua nə istiyesən?

Deyir:

– Qıblə-aləm sağ ossun, xəzanoyi istiyerəm.

[39]Qal eliyir – başını qatır

Dəsdur dəsdurdu, verillər xəzanəni, çəkillə bu yarunun övünə, çəkillər bu yarunun övünə. Üş gün qaraldı, bını aparıp besab danışdırala. Genə səhər olur, bını aparıllar. Deyir:

– Xob, xanım, büyün nə isteyim?

Deey ki, büyündə desə, qanuva nə istiyesən? Deyərsən ki, şaha qızuu istiyerəm. Genə mını memurrar gətirillə. Bəle, mını danışdırılla:

– Büyünkü qanuva nə istiyesən?

Deyir:

– Qızuvu istiyerəm.

Deyir:

–Ədə, filan-fılan şüdə, bir gün ömrün qalıp, səhər səni öldürəcəhlər, mənim qızımı neynisən sən?

Söz sözdi. Bəle, verillər, qızın daverir. Qızın da verir. Bu gəlir, bını ötürüllə, bu şahın qızının yanna. Bu qalır bırda, bu qız görür, bu çox nayrahtdı. Çün bu arvadı bına söz örgədir, bu qızın gözünü oğurrer, durur gəlir genə bu xanımın yanına, deyir, bəs, bu cür oldı cərəyan. Hə da day qız bilmir ki, bu hara gedir. Deyir ki, day mən diyə bilmərəm sənə. Büyünküsında, elə sən alıpsan, elə o söz örgədər sənə. Bu qəyıdır gəlir, məcbur qəyıdır, gəlir şahın qızının yanına. Şahın qızı deyir:

– Sən hara getdün?

Deyir:

– Valla, cərəyan bü cür.

Deyir:

– Öyün dağılsın, o bi dənə rəyyət qızıdı, mən bi dənə şah qızı. Yanı mən onu cox bilmirem?

Xob, qız da cərəyanı bilir da, bu şahın qızı. Xiləsə, bu şahın qızı, göndərir bi dənə nəccar gətirtdirir, nəccar gətirtdirir. Gətirir bi ağaş qoyur bının qabağına, deyir ki, bının için yonacaxsan, için xali eliyəcəhsən bu ağacın, nəmənə dünyada

heyvanat var, əksin vıracaxsan bu ağaca. Bu şahın qızı bu nəccara dəsdur verir. Deyir ki, çəşb[40]. Deyir:

– Neçə günə?

Deyir:

– Bir həftə mənə vəx ver.

Deyir:

– Baba, mən istirəm, büyün ola.

Deyir:

– Mən eliyəmmərəm.

Göndərir, bi ayrısı gətirir, xiləsə, bına doyuncağ pul verir. Bu gətirir, bizim dilə gələn, bi dənə bu yoğunnuğa ağacın için oyur, yanı boşaldır, qurquşun doldurur bının yerinə, ağur olsun. Ərzi-bəhüzür, nəmənə də dünyada heyvanat var, bının əksin vırır bu ağaca. Deer:

– Mını götü əlüvə, görüm.

Götürür, görür baba, bu götüməli bi şey dəyi, ama gözəl bi şeydi bu. Deyər:

– Bını qoyarsan çiynüvə, gedərsən. Elə ki, səni şah istədi, qoyarsan mını çinüvə, memurrarınan gedərsən. Olar ki oturupla, vəzirdi, tamam ruəsalar da, böyüh başlar şah diyəcək ki, büyünkü qanuva sən nə istiyesən? Deyəcəhsən ki, büyünkü qanıma birin bu mollanın təpəsinə vıracam mınnan, birin şahın, birin vəzirin, büyünkü qanıma da bını istiyerəm.

Bını qoydu çiyninə, gəldilə memurrar bını gətdilə. Gətdi, bu cür məcilsdə atdı yerə. Bu molla, bını götdü, gördü, bu götüməli bi şey dəyi, amma çox gözəl bi şeydi. Şah vərəndazladı, gördü, yo, götüməli bi şəy dəyi. Vəzir götdü, gördü, yox, götüməli bi şəy dəyi. Şah dedi:

– Xob, bular keçiblər, büyünkü qanuva nə istiyesən?

Dedi:

[40]Çəşb – baş üstə, əmrin olur

– Birin bınnan sənin başuva vıracam, birin mollanın, birin vəzirin, büyünkü qanıma da bını istiyerəm.

Molla dedi:

– Qiblə-aləm sağ ossun, mən diyə bilmirdim, bu elə mənim yanımda namaz qılırdı.

Şah dedi:

– Valla, mən süzdən qorxuram, elə bu mənim yanımda durmuşdı, namaz qılırdı.

Vəzir dedi:

– Qiblə-aləm sağ ossun, elə mənnən yanbayanaş durmuşdı.

Qozadı mının birin vəzirin təpəsinə, birin mollanın təpəsinə, ikisi də öldi orda. İstədi şahın təpəsinə vıra, şahın qızı qaşdı qucaxladı, dedi:

– Ədə, zalım oğlı, dədəmi niyə öldürüsən?

Hə, xüləsə, qoymadı. Da ordan yığışdı. Dedi:

– Bu nə qanundı, başa mənim heç əlim yetişmədi, köyşəndəyəm, namaza gələmmədim, gərəyelə məni ödürəsüz? Bu nə qanundı?

Ordan həmi qanunı sındırdılar. Day hər kəs elə hər yerdə namaz qıldı, qıldı. Day o qanını ordan həsb elədilər, qanunı yığışdırdılar.

## YAĞ İLƏ ŞORUN QİYMƏTI BİR OLAN YERDƏN QAÇ

Deyir, günlərin birində ölkə hökmdarı öz vəzirini yanına çağırıb ona belə bir məsləhət verir ki, sən qocalıb əldən düşmüsən. İşə-gücə yaramırsan, yaxşısı budur ki, məmələkəti tərk edəsən. Zəhmətinə görə sənə bir qul, yəni nökər bağışlayıram. Vəzir daha bir söz deməyir, bu adamı götürür, yola düşür. Onlar az gedir, yüz gedir, dərə-təpə düz gedir, nəhayət, gəlirlər bir yerə çatırlar. Görürlər ki, burada yağ ilə şorun qiyməti birdir. Ona görə qula deyir, gəl buradan gedək. Burada yağ ilə şorun qiyməti bir olduğuna görə burada qalmaq olmaz. Ancaq qul qəbul etmir. Və-

zir çox deyir, qul az eşidir. Axırda qul vəziri ölümlə hədələyir. Vəzir öz taleyinə baş əyib burada qalmağa razı olur. Onlar bu məmləkətin baş kəndinə, yəni paytaxtına daxil olurlar. Onlar şəhərin mərkəzinə çatanda baxıb görürlər, şəhərin mərkəzində dar ağacı qurulub. Oraya çoxlu adam yığışıb. Birisini də çəkə-çəkə aparırlar dar ağacına. Bu adam ağlaya-ağlaya deyir ki, vallah, mənim günahım yoxdur. Mən evi elə birmərtəbəli tikirdim. Bunu usta özü tikib. Bu sözü eşidən ölkə padşahı əmr verdi ki, binanı tikən ustanı gətirsinlər. Usta gərək izah eləsin ki, evi niyə iki mərtəbəli tikib? Oğru da yıxılıb qıçı sınıb. Buna görə də usta cavab verməlidir. Əmr şah əmridir. Tezliklə usta gəlir və ona deyirlər ki, sən niyə evi ikimərtəbəli tikmisən? Oğru da oraya oğurluq eləmək üçün gedib, yıxılıb qıçı sınıb. Usta onların cavabında deyir:

– Vallah, ev tikdirən düz deyir, o yazıq elə evi birmərtəbəli tikdirirdi. Mən mane olmuşam ki, evi iki mərtəbəli tiksin.

Deyirlər, həə, günah səndədir. Gərək dar ağacına gedəsən. Usta bir dar ağacına baxır və bir də ölkə başçısına, tez özünü itirmədən deyir:

– Mənim də günahım yoxdur. Buna bais filankəsin qızı olub. O qız gündə iki dəfə gəlib oradan keçirdi. Mən də o qıza baxıb, bir də gördüm, evi ikimərtəbəli qaldırmışam.

Gedirlər qızı gətirirlər və qıza deyirlər ki, sən o yerdən gündə iki dəfə keçmisən. Ustanın fikri səndə olub evi iki mərtəbəli qaldırıb. Oğru da divardan aşanda yıxılıb qıçı sınıb. Gərək ölümə gedəsən. Qız deyir:

– Mənim bu işdə günahım yoxdur. Buna bais dərzidir. Mənim donumu neçə vaxtdır tikib qurtarmır. Mən gündə onun yanına getməli olmuşam.

Əlüstü dərzini çağırırlar, deyirlər:

– Günahların hamısı səndədir. Gərək səni asaq.

Bunu deyib ipi keçirirlər dərinin boğazına. İpi dərzinin boğazına salırlar. Görürlər ip dərzinin boğazına yerləşmir. Görürlər, bunu asmaq olmayacaq, dərziyə deyirlər:

– Bu baxanların içindən bir nəfər tap, sənin yerinə onu asaq.

Dərzi o yan, bu yana baxıb görür bir nəfər var ki, onun yerinə bunu asmaq yaxşı olar. Bu adam kim olar? Həmin vəzir ilə gələn qul. Qulu tutub onun boynuna ipi salmaq istəyəndə vəzir ölkə başçısına deyir:

– Onun yerinə məni asın.

Hökmdar deyir:

– Bu işi nə üçün görürsən?

Vəzir deyir:

– Qibleyi-aləm sağ olsun. Mən bilirəm ki, bu ölümdən sonra o dünyaya gedib əbədi padşah olmaq istəyirəm.

Vəzirin bu sözü bu ölkənin padşahını betər tutur. Əbədi hökmdarlıq arzusu ilə ipi vəzirdən alıb keçirir öz boynuna və dara çəkən adama deyir ki, öz işini görsün. Çünki o istəyir, bu asılmaqla əbədi hökmdarlığa çatsın. Əmr hökmdar əmridir. Tez yerinə yetirirlər və ölkə padşahı oğrunun yerinə asılır və əbədi padşah olmaq tamahı ilə ölür. Vəzir qula deyir:

– Gördün, sənə demədimmi ki, burada yağ ilə şorun qiyməti birdir. Burada qalmaq olmaz. Sən elə gördün ki, ölüm bizim qapımızı döydü.

Deyirlər, bu əhvalat vəziri qovan padşahın qulağına çatır. Vəzirin ağıl-zəkasına əhsən deyib, onu yenidən vəzirliyə çağırır.

## HACI SƏYYAD QIZI

Şəhri-Tiblizdən bir nəfər, Əli varıdı. Əli adınnı, gəliri bu İrana. Gəlir İranda, onun ağasının adı Hacı Səyyatıdı. Hacı Səyyat oğluna vəsiyyət elər:

– Oğul, Məhəmməd!

Deyir:

– Bəle!

Deyər:

– Mən gedirəm Məkkəyə.

Buların öladı olmazdı, Həcı Səyyatın. Geddi təzədən bu əvlənməğə. Allah-taala, muna soraki xanımnan bir ölat vərdi. Allahın məhəbbəti cuşə gəldi, qədimi xanımdan bir uşağı oldu. Ya oldu, olmadı dedilə:

– Hacı Səyyatın filan xanımınnan bir uşağı oldu, adın qoydula Tapdıx.

Dedi:

– Arvat, da bizim bu vəli-vəsimizi bu Tapdığı eliyəcaıx. Tapdıx, bizim hər nəmənəmizdi. Oğlumuz Məhəmməddən yaxçı budu.

Bir qızının adı Pəridi, bir oğlu Məhəmmətdi, bir oğlı Tapdıxdı, çün özgə nənədən gətimişdi. Bular gəlillə çıxılla İrana. İrannan o zaman kərvannan, dəvəynə tacir malı ki, gedirdi gəlirdi, gedir, gəli yetirir. Məkkəyə ki bular hərəkət elir, Hacı Səyyat deyir:

– Oğul, Tapdıx, bu vəsiyyətim səni ossun. Gələndə qurbannığımı kəs, gedəndə yola sal, qonaxlarıma məhəbbət elə, çayınnan, çörəyinnən hamısınnan...

Deyir:

– Baş üsdə!

Bu Tapdıx ki, o vəx dedilər, Hacı Səyyat Məkkədən gəlir. Dedilər:

– Oğul, Tapdıx, sən məşqul ol, vər-vəsaili cəmlə.

Ağsəqqəllərdən bi üş-dördü deer:

– Tapdıx!

Deey:

– Hə!

Deey:

– Gədə, özgədən də adama dədə olar?

– Necə?

Dedi:

– Sən Hacı Səyyatın oğlu dəyilsən, səni məçiddən gətiriplə, eleplə oğul. Sən Hacı Səyyatın oğlu dəyilsən, səni mə-

çitdən gətiriplə, eleeplə oğul. Hara bıraxırən, sən Pərini. Bu sənə naməhrəmdi. Pərini al, Hacı Səyyatın malına sahab ol.

Bu, əl atır ki, Pərinin döş-başını bi əlləştirə. Deey:

– Çəkil dalı, sən mənə bacı-qardaşıx. Dədəm vəsiət eliyib.

Bu istiyib bunu tuta qucaxlıya, əlində bardax varıdı, elə he Tapdığın təpəsinnən birin vırır. Tapdıx başın bağler, gedər Hacı Səyyat, dədəsinin qabağına:

– Tapdıx, bala, be niyə sən o cur olub, başıyi niyə bağlamışən?

Dedi:

– Bə, elə qızıy var da. Qızıy mənim özgə oğlanlarıynan danışırdı, dedim, niyə onnan danışırən? Sən mənim bacımsan. Məni verdilə, olar vırdı.

Deyir:

– Mən evə yetişənəcən qızın iri sümüyü arpa kimin ola gərə, çün bu xəyanət oldu. Gərəg belə eliyən ki, day qıyamətdə də sümüy də tapılmıya.

Gəlir, Tapdığ aparır bir cəngəldə bunu vırır, yaralır. Biləxirə deyir, öldü da. Ölüm halındadı. Bu qalır, burda cəngəldə. O yannan Əli xan çıxırı qoşunnan dolanmağa. Gəlillə, qoşuna dorəsinə dəstur verir:

– Dağılın, bi su tapın, çeşmə tapın, su içəx.

Görüllə bele, bi dənə ağaş var, ağaşların altında bi çeşmə var, su. Camahət tökülür gəlir, çeşmədən su işməyə. Həmən qızı aparmışdı, mən, iştiba elədim, dedim, Tapdığı aparıb. Qızı aparıb öldürmüşdü, orda iştibah elədim də. Gəlir Alı xan. Belə baxanda at su içə işmir, çəkilir dal dalı. De, atı təpihlir, niyə su işmey? Belə baxır, görür bir adam əksi düşüb, suda adam görükür. Başın qozuyanda üsdən səslir bir qız, deyer:

– Mən naməhrəməm, mənə baxmaginən, üryanam. Bir şey at, mən bürünüm, sitarımı örtüm, gəlim.

Bu qədim şahlarda aba olardı, bulardan birin çıxardır, yollur. Qız bürünür, gəlir. Deey:

– Sən burda niyə qalmısan?

Deer:

– Hali-hekayət bu cür olub, məni dədəm bu hala salıb.

Alı xan deer:

– İndi ki bəs elədi, gə mən səni aparım duxtura[41].

Şəhri-Tiblizdə toxtadım. Demə, şəhri-Tibliz də bu qızın dədəsinin şəhəridi. Gəlir munu ki, apara toxtada, qoşur qoşunnan barabar, qəyidir ovna. Ovanda munun yaraların toxtadır, təmizlədir ki, gedə Tiblizə qonax. Bu yannan Tapdıx da olub oğul da. Qız gəli vəsəti-mərzidə, Türkiyəynən İranın mərzində qərə oğru olur. Bular tökülüllə, buları çapala, bular qaçır dağılır. O qoşun qaçır dağılır. Bu qız, özünü vırır biyabənə, qərənquluxda dey, bu yana qaçılla, o yana qaçılla, həmən qızı gəlillə, buların əlinnən alala ha. Qız gedi yetirir, gecənin bir vəxti görür, bi ışıx gəli. Özün vırır o ışığa. Görü belə, bi dənə çobandı, çayı, çörəyi, evi, zindəgannığı, davarı, həməndi. Orda yetişir, buçay-çörəh yeməğə. Çoban, tez çəbnəin salır altına, dey:

– Qiyamət günündə sən mənim bacım, mən sənin qardaşın.

Bu çoban durur, həmən Pərini aparır tapşurur nənəsinə, deey:

– Nənə, bunu mən çöldən tapbışam, özümə bacı eləmişəm. Elə doğurdan bacımdı.

Bu qız bir gün çıxır, məsələm o kəndi bələtdir. Bir gün çıxır o kəndi bələtdir, bir günə deey: “Baba, mən çobanın evində nə vağaça qalacam”.

Demə, elə o yerdədi, təpənin dalı şəhri-Tiblizdi, öz şəhərrəridi. Qız durur gedir, başırır şəhərin bir quşəsində, bir aşpazxananın qabağında durur. Aşpaz deyər:

– Bala, orda niyə durmusan?

Libasın əvəz eliyip ha bir keçəl börk, cırıx paltar. O, qız libasınnan çıxıb girib oğlan libasına. Keçəl oğlan olub, deey:

– Baba, məni boğazıma işlədin, mən ölmüyüm acınnan.

---

[41]Duxtur – həkim, doktor

Deyiblə, eybi yoxdu, çün qız, bular bilmiydilə qızdı. Qəlbidən bu qızıdı, qız evin işinə, aşbazlığa varid idi. O qədər qəzanı təmiz pişirdi, təmiz düzətdi, bu səsləndi. Dedilə, həmən Məhəmməddi ki, Hacı Məhəmməd, Hacı Səyyatın oğludu ki, bu musavırxanada hütel qoyub, hütəldi. Qız amma o şikildədi, tanımılla, qız, amma tanır. Gəlir, ovannı Ali xan düşür çölə, Pərini axtarır. Çoban gəlir evə, Pərini axtarır. Məhəmməd dubarədən Pərini axtarır. Yo, bi dənə tacir Pərini axtarır ki, namə verə. Şəhri-Tiblizə girəndə bir namə yazır, yapışır ona, deer:

– Ey gəlip gedənnər, bu naməni Əli xana yetirin.

Tacır ta naməni görür, deey, mənim buraya getməğım, ticarətim olmadı, qəyidirəm bu naməni aparam verəm Ali xana. Alı xandı, çobandı, həmən tacirdı, bular dəstə cəm, üçü də nə bi-birə ürəh sözlərin deyəllə, nə bi-birə deyellə. Sən nəmənəyən, mən nəmənəyəm, üçü bahəm hər yerdə. Dəvriş məsələsi var, dəvrişlər baxardı, mərəkə qurardıla, indi də var, ilan oynatmax, nəm nəmənə, zəncir qırmax. Bular deyellə, elə həy yerdə olmuş olsa, Pərinin qatilin biz burdan tapa billıx. Yetişillə həmən yerə ki tamaşaxanaya, mərəkə qurupla. Qız deey ustasına:

– Ağa Məhəmməd, icazə ver, orda bi tamaşaxana var, mən də gedim bi tamaşa eliyim.

– Oğlum, bir az tez qəyit.

Qız gedi, görür, Alı xan ordadı, çoban ordadı, taciri tanımır ki, o naməni tacir aparıb. Qız gəli, deey:

– Ağa Məhəmməd, bu gecə həmən o pəhləvani gətirəcəyən bir qonax. Mənim onun nümayışlarınnan xoşum gəldi, həmən Alı xanın.

Çoban der:

– Mən Ali xannan ayrılmam, mən də gələcəyəm.

Tacir dey:

– Mən də gələcəm.

Üçü də buların gəlillə, həmən yerdə qonağ olulla huteldə. Həmən qız, ovanda nəmənə qəza pişirərdi Alı xan yiərdi, ya

naharın, ya şamın, həmən qəzanı pişiri, qoyur Ali xanın qabağına. Ali xan qəzanı ağzına qoymağ, həmin görür bu aşnadı.

Bu elə bil mənim o zaman qəzalarımı yeərdim, həmən qəzadandı. Bular, bi fikirləşillə, gecə gəlir araya. Gecə Ağa Məhəmməd deey:

– Siz üçüz, gecə də bizə qonağız.

Gecə bular gəlillə bi dənə otağa. Həy yeri qız dəstur verir, bərkidillə. Deyellə:

– Heş kəs çıxmıyacağ eşiyə.

Bular başlılla orda bir-biri tanıyala.

Axşam olar, Tapdıx gələr,
Tapdıx gələr bazardan.
Qutulmasın seriyağı bu azardan.
Qohum-qardaş saldı məni nəzərdən,
Qalmışdım cəngəldə yaralı dəvriş.
Kəhlik kimin mən də çıxdım daşlara,
Qorxudan çıxmışdım mən ağaşlara.
Gecə urca oldum mən də çobana,
Qalmışdım cəngəldə, yaralı dəvriş.
Səhər-səhər çıxan dan ulduzuyam,
Keçən aşıxların söhbətiyəm, sazıyam,
Adım Pəridi, Hacı Səyyat qızıyam,
Qalmışdım cəngəldə, yaralı dərviş,
İstirsən, görsədim camalı, dəvriş.

Da burda naməhrəm yoxudu. Ali xanıdı, əriydi, Hacı Səyyat dədəsiydi, Həcı Məhəmməd qardaşıydı, Tapdıx da ki övey qardaşıydı. Elə camalım görsədə, bu, börkün-zadın qoydu yerə. Hacı Səyyat baxdı öz qızı Pəridi. Munu yollamışdı Tiblizdən ki, öldürələ, bu salimdi. Alı xan kəsir qapını. Bi nəfər, vəzir dey, onu istirdi apara, mən bi aftafa götürüm, gəlim. Çoban muna bi ağaş:

– Köpey oğlu, mənim bacımı hara aparmısən?

Çoban vırır, munu qəytərir dalıya. Alı xan o üş nəfəri öldürür, gəlir, dubarədən Pəriyə Tiblizdə bi dənə toy tutur. Hacı Səyyad munu məhmil-kecavaynan dubarədən yola salır şəhrə. Yollur Alı xanın öz şəhrinə. Sağ olun, biz də sağ olax, siz də sağ olun, yorulmıyasız.

## SULTANIN ÜÇ OĞLU

Biri varmış, biri yoxmuş, bir padşahın üç oğlu varımış. Bir gün padşah oğlanların yığır başına, deyir:

– Gedin mənim bütün qullarımı, kənizlərmi gətin yanıma, bir dənə də bərbər tapın gətirin, mənim üzümü təmizləsin.

Onları bu dediyi kimi eliyir, qulları, kənizləri yığırlar başına, bir dənə də bərbər tapıb gətirirlər. Bu bərbər başlıyır padşahın saç-saqqalını təraş eləməyə, bu təraş eliyəndə padşah baxır ki, saçının tükünün biri ağarıbdı, deyir, hə, mənim ömrümün axırıdı. Gərək oğlanlarıma vəsiyyət eləyim. Oğlanların çağırır bir də yanına, bir neçə gün keçir, bir də çağırır yanına, deyir ki, övladlarım, mən bir neçə günnən sora öləcəm, mənim vəsiyyətlərmi eşidərsiz, yerinə yetrirərsiz. Bəli, elə olur ki, padşah bir neçə gündən sora ömrün bağışlıyır. Padşahın kiçik oğlu gəlir qardaşlarının yanına, deyir ki, gəlin gedək görək babamız bizə nə vəsiyyət eləyibdi? Vəsiyyətində də deyir ki, hər biriniz bir gecə gəlib qəbrimin başında yatarsız. Böyük qardaş deyir ki, yox kim qəbrə gedib girər, kim gedib qəbirdə yatar? Bu sözü deyəndə kiçik qardaş bir az alınır, durur gəlir babasının qəbrinin üstünə, bir çadır qurur, gecə yarsı başlıyır orda yatmağa. Gecə olur oğlan görür kü, qaranlığdan bir qaraltı gəlir. Qaraltı gəlir, çadırdan gizlincə çıxınca görür ki, bir qara geyimli adamdı, qara da atnan gəlib qəbin ətrafında fırlanır. Tez qılıncını çıxarıb onu vurub öldürür. Padşahın oğlu atı öldürmək isdiyəndə at insan kimi dil açıb ağlıyıb deyir:

– Ay oğlan, məni öldürmə. Sən mənim tükümnən qopar, nə zaman ehtiyacın olarsa, bu tükləri bir-birinə sürt, yandır, mən sənin yanına hazır olaram, hər işinə kömək eliyərəm.

Oğlan deyir:

–Yaxşı.

Gətirir, atlının qara geyimləri vardı, onun geyimlərni geyir, atın üstünə qoyur, atı da buraxır, at çıxıb gedir. Gəlir o biri gecə oğlan gəlir, ortancıl qardaşına deyir:

– Hə, indi növbə sənindi. Babam sənə nə vəsiyyət eliyib.

Ortancıl qardaş deyir:

– Məni buraxın gedim, kimdi indi gecə yarısı durub qəbrin üstündə yatan?

Oğlan deyir:

– Yaxşı, sən getmə, bizim padşah atamız belə vəsiyyət eləmişdi, sən də buna getmirsən, eybi yox, mən gedərəm.

Gəlir, həmin gecə də kiçik qardaş qəbrin üstündə yatır, gecə yarısı görür ki, qırmızı geyimdə biri gəlir. Yerindən qalxır ki, bu bir kişidi, atı da qırmızıdı, geyimi də qırmızıdı. Qılıncını çıxarır, onu vurur, öldürür, atı öldürmək istiyəndə at yenə insan kimi dil açır, deyir:

– Məni buraxgınan, əvəzinə mənim tükümnən götür, mənə ehtiyacın olanda bu tükləri bir-birinə yandır, mən hazır olum, hansı dərdin olsa, ona qaça-qaça gələrəm.

Oğlan deyir:

–Yaxşı.

Geyimləri qoyur atın üstünə, at çıxır gedir. Üçüncü gecə gəlir, bu gecə də özünün növbəti nöbəsi olur. Yenə gəlir, qəbrin üstündə yatır. Bu dəfə də görür ki, ağ geyimdə biri gəldi. Geyimi də ağdı, atı da ağdı. Oğlan yenə qılıncını çıxardır, bu atlını da öldürür, atı da öldürmək isdiyəndə, at yenə insan kimi dil açıb deyir ki, məni öldürmə, neçə dənə qardaşmı buraxdın, məni də burax, nə zaman isdəsən, mənim də tükümdən al çək, nə zaman isdəsən, mən sənin yanında hazır olaram. Kiçik

oğlanın qardaşları şəhərdə çalışmaq istəyirlər, qardaşlarına deyir ki, biz padşah övladlarıyıq, bizim bu şəhərdə çalışmağımız yaxşı olmaz. Gəlin çıxaq gedək, başqa bir şəhərdə çalışaq. Gəlirlər, çıxırlar başqa şəhərə, görürlər ki, bu şəhər çox səs-küylüdü. Gedirlər, baxırlar kı, orda bir yaşlı bir qadın oturub. Ondan soruşurlar ki, bu şəhər niyə belə səs-küylüdü? Yaşlı qadın qayıdıb deyir ki, bəs bu şəhərin padşahının üç qızı var. Bu gün üç qızını ərə vermək istəyir. Bir xəndək qazıb səksən metr hündürlüyündə, səksən metr uzunluğunda, səksən metr dərinliyində. Hər kim atı ilə xəndəyin o yanına, bu yanına atlamağı bacarsa, padşahın qızının atdığı almanı tuta bilsə, o qız onundu. Qardaşlar bunu eşidir, evə geri qayıdırlar. Kiçik qardaşa deyirlər ki, sən burda otur, biz çölü gəzməyə gedirik. İki qardaş – böyüknən ortancıl qardaş bunu evdə qoyub, çıxıb gedirlər. Kiçik qardaş gizlincə bunların arxasınca baxır, görür ki, qardaşları atlarına mindilər, harasa çıxıb getdilər. Fikirləşir ki, yəqin xəndəyə tərəf gedirlər. O da bilir ki, o xəndək o qədər böyük və uzundu, dərindi ki, heç cürə qardaşları xəndəyin bir yanınnan o biri yanına keçə bilməzlər. Kiçik qardaş gəlib yadına düşür ki, atlar ona öz qıllarlından veriblər. Götürür atın tükündən birin, yandırır. Görür ki, budur, dağ başından bir qara at gəldi. Oğlan atı minir, bir hey deyib cəkir, xəndəyin o yanına gəlir, bu yanına gəlir, tullanıb keçir qız almanı atır, o tutur. Sonra da gəlir, dağın arxasında geyimlərini çıxardır, atın üstünə bağlıyır, atı buraxır, getsin. Tez böyük və ortancıl qardaşlarından qabaq evə gəlib çatır. Axşam olur, kiçik qardaş görür ki, iki qardaş çox yorğun-əzgin şəkildə evə gəlirlər. Onların qabağına çıxıb deyir:

– Hara getmişdiz, məni niyə götürmədiz?

Nə qədər sual verirsə, qardaşları ona cavab vermir. Səhər açılır, bu dəfə böyük qardaş durur, yenə gedir kiçik qardaş. Bunlar evdən çıxan kimi gəlir, yaşlı qadına yüz tümən verib deyir ki, əgər qardaşlarım gələrsə, denən, çölə getdi, indi gələ-

cək. Oğlan yenə gəlir dağın arxasına, tükləri yandırır, bu səfər qırmızı at gəlir. Oğlan yenə qırmızı atın üsdündəki geyimləri geyinir, atı minib xəndəyə doğru gəlir. Xəndəyə çatanda ata bir sopa vurur, at xəndəyin o üzündən bu üzünə sıçrayır, keçir. Padşahın qızı alma atır, almanı tutur. Kiçik qardaş yenə qayıdır, dağın arxasında geyimlərni çıxardır, atı da buraxır. Yenə tələm-tələsik iki qardaşınnan tez evə qayıdıb, baxır ki, hələ yox, qardaşları gəlmiyiblər. Oturur, qardaşları gələndə deyir:

– Hara getmişdiz? Niyə mənə xəbər vermədiz? İki gündü gedirsiz, ama hara getdiynizi mən xəbər bilmirəm.

Qardaşları buna qayıdır ki, biz böyük qardaşıq, hara gediriksə, özmüz bilərik, sən hələ kiçiksən, əlindən nə gələr ki? Üçüncü gün gəlib çatır. İki qardaşı gedir. Oğlan yenə qoca arvada gətirir, yüz tümən pul verib, deyir ki, mən gedirəm, əgər məndən qabaq qardaşlarm gəlsə, denən ki, indi gələcəkdi. Oğlan yenə gəlir dağın arxasına, atın ona verdiyi qılları yandırır. Bu dəfə ağ at gəlir. Ağ atın üstündəki geyimləri geynir, ağ atı minir, sürür xəndəyə tərəf. Xəndəyə çatanda ata bir qamçı vurur, at sıçrayıb xəndəyin o yanından bu yanına keçir. Şahın qızı – üçüncü qızı yenə almanı atır, oğlan almanı tutur. Kiçik qardaş qayıdır dağın arxasına, geyimlərni cıxardır, atı buraxır. Yenə qardaşlarınnan tez evə gəlir, görür ki, axşam düşdü, qardaşları rəngləri qapqara girirlər içəri. Onlara deyir ki, üç gündü hardasız? Bir Allah xatirinə, deyin görüm, məni niyə öznüzlə götürmürsüz? Qardaşları deyir:

– Biz üç gündü gedirik, hər şey bitdi, amma əlimizdən daha hec nə gəlməz. Üç qız vardı, üçü də əlmizdən getdi.

Kiçik qardaş deyir ki, baxın, mən üç gün bundan qabaq məni götürün, dedim, götürmədiz. Al, bu böyük alma elə böyük qardaşımındı, ortaboy alma ortancıl qardaşımın, bu kiçik də mənimkidi. İndi gedin toylarnızı eləyin. Kiçik qardaş bütün başına gələnləri qardaşlarına danışır. Yenə gedir dağın arxasına, həmin qılları yandırır, görür, üç at, geyimlər də üstün-

də hazır oldular. Üç qardaş geyinirlər, keçinirlər, hərəsi bir ata minib padşahın yanına gedirlər. Padşahda üç qızını bu üç qardaşa verir, onların toylarnı edir, taxt-tacını da onlara bağışlayır, özü kənarda durur. Mən sağ, siz salamat!

## QOCA KİŞİ VƏ ÜÇ QIZI

Biri var idi, biri yox idi, bir qoca kişi var idi. Onun işi-gücü çır-çırpı topluyub, ailəsini dolandırmaqdı. Bir gün bu adam yenə qaydasıyla gəlir bir çölə, çır-çırpı topluyur, tikanlı otları topluyur, aparır bazarda satmağa. Bu kişinin də üç gözəl qızı var imiş, qızlar o qədər gözəl imiş ki, hətta pərilərdən də gözəl sanarmışlar onu. Bir gün yenə bu qoca kişi gəlir, çoxlu tikanlı ot topluyur, çör-çöp topluyur, bir-birinə bağlıyır, belinə qaldırmaq istəyəndə görür ki, gücü çatmır, çünki bu dəfə topladıqları çox ağır olur. Gətirir, bu çır-çırpını yarı bölür, deyir ki, bəlkə yarı-yarı aparım ki, aparıb evimə, bazara çatdıra bilim. Nə qədər qaldırır, görür ki, yenə də gücü çatmır. Gəlir, yenə çırpının yarısını tökür yerə, yarısını alır dalına, getmək istəyəndə baxır ki, yox, yenə də gedə bilmir, çönür, çırpıları yerə tökür, onları ayağıyla əzəndə görür ki, bu tikanlı otların içində bir ilan yatır. Qoca ilana qayıdıb deyir:

– Ay ilan, gəl sən mənim başımı ağrıtma, burdan dur, get ki, mən də bu çır-çırpını götürüm aparım evimə, bazarda satım, ailəmi dolandırım.

İlan insan kimi dil açıb deyir:

– Əgər böyük qızını mənə versən, mən yerimdən qalxaram, yox, əgər sən qızını mənə verməsən, səni də öldürərəm, burdan da heç yana getmərəm.

Qoca qalır naçar. Başlayır ağlamağa. Deyir:

– Yaxşı, gedərəm qızıma deyərəm. Əgər o da razı olsa, mən bir söz demərəm.

İlan qocanın sözünü eşidənnən sonra o çır-çırpının içindən çıxıb gedir. Qoca kişi də kor peşiman çır-çırpıları yığır,

evinə gəlir. Aparır, bazarda satır, şey-şüy alıb evinə qəlir. Gəlir, evdə oturur, qaş-qabağı yer süpürür, bilmir ki, neynəsin. Bu vaxtı qızı su gətirir ona. Görür ki, dədəsi çox bikefdi. Deyir:

– Dədə, sənə nə olub, niyə ağlıyırsan?

Dədəsi deyir ki, ay bala, bəs belə-belə, bu gün çır-çırpı yığırdım meşədə, nə qədər elədim, çırpıları götürə bilmədim, baxdım ki, çırpının içərisində bir ilan yatıbdı. İlan çıxdı, dedi: "Ya böyük qızını mənə verəssən, ya da ki, həm səni sancaram, həm də bu çırpının içindən çıxmaram". Qız deyir:

– Ay dədə, bu nə işdi? Dünyada bir kişi, oğlan tapılmadı ki, mən indi ilanla evlənim? Mən heç vaxt onu istəmərəm.

Qoca heç nə demir. Ağlıyır-ağlıyır, yerinə girib yatır. Sabah olur, gəlir yenə çölə, çır-çırpı toplamağa başlıyır. Görür ki, yenə dünənki ilan gəlib çıxdı və deyir:

– Ey qoca, nə xəbər gətirdin?

Qoca deyir:

– Valla, ay ilan, qızım təklifimi qəbul eləmədi. Deyir ki, dünyada insan qalmadı ki, mən ilanla evlənim?

İlan deyir:

– Eybi yox, bu dəfə get, fikrini ortancıl qızına de...

İlan bunnan razılaşır, düzəlir yola. Qoca kişi durur, yenə çır-çırpı yığır, bazara gətirir, satır, çörək zad alır, evə gəlir.

Yenə də oturur bir küncdə, başlıyır ağlamağa. Ortancıl qızı yaxınlaşır ona, deyir:

– Dədə, niyə ağlıyırsan?

Dədəsi deyir:

– Niyə də ağlamıyım? Bəs bu gün ilan yenə gəldi, dedi ki, indi ortancıl qızınla evlənmək istirəm.

Qız bunu eşidəndə başlıyır ağlamağa. Deyir:

– Dünyada adam qalmadı ki, mən ilanla evlənim? Mən heç vaxt bunu eləmərəm.

Kişi yenə kor-peşiman yatır. Səhər açılır, durur geyinir-keçinir, düzəlir yola. Gəlir meşəyə. Meşədə çır-çırpı yığır ağ-

laya-ağlaya. Görür ki, yenə ilan gəldi. İlan çıxır qoca kişinin qabağına, deyir:

– Qoca, nə xəbər gətirdin?

Qoca deyir:

– Valla, qızım qəbul eləmədi. O da dedi ki, dünyada kişi, adam qalmadı ki, mən ilanla evlənim?

İlan deyir:

– Eybi yox, bu dəfə balaca qızına de. Oldu-oldu, olmadı, gələrsən, mən səni sancıb öldürəcəm.

Qoca kişi deyir:

– Yaxşı, day mənim əlacım yoxdu.

Götürür bu, çır-çırpını yığır, dəstəliyir, atır belinə, gəlir bazara. Əlindəkiləri bazarda satır, sonra qayıdır evinə. Yenə kor-peşiman oturanda bu dəfə kiçik qızı əlində su, dədəsinin yanına gəlir, deyir ki, ay dədə, nolub, niyə ağlıyırsan? Deyir:

– Bəs, qızım, iki bacın da ilanla evlənməyi qəbul eləmədi. Bu gün də ilan meşədə qabağıma çıxdı. Dedi ki, kiçik qızından soruş. İndi sənin cavabını ona aparmalıyam.

Qız deyir:

– Eybi yox, dədə, sən bacılarımın dediyinə fikir verməginən.

Kişi soruşur:

– Ay bala, sən ilanla evlənməyə razısan?

Qız deyir:

– Hə, razıyam, niyə də evlənməyim? Əgər bunu Allah yazıbsa, mən onunla evlənərəm. Get, ilana denən ki, kiçik qızım sənin xaişini yerinə yetirir.

Səhər olur. Qoca kişi durur, sevinə-sevinə geyinir, keçinir, gəlir meşəyə. Elə meşəyə təzə çatmışdı ki, ilan qarşısına çıxır. Deyir:

– Qoca, nə xəbər gətirdin?

Qoca deyir:

– Qızım qəbul elədi.

Deyir:

– Lap yaxşı, sənə daha çır-çırpı yığmaq lazım olmayacaq. Gedərsən, evinə çatanda sənin evinnən, qapından 3 yel gələcək. Biri qırmızı olacaq, biri ağ, biri də qara. Əgər qırmızı yel gəlsə, bil ki, qızıvı götürməyə gəlmişəm.

Qoca kişi deyir ki, yaxşı. Gəlir evinə, oturur. Bir də görür ki, bir yel gəldi, evi tamamən sildi, süpürdü və hər yana da çiçək səpildi, çıxdı getdi. Ağ yel gəlir, görür ki, həqiqətən də, hər yerdə hər cür şirniyyatlar gəldi, hazır oldu. Qırmızı yel gəldi, baxdı ki, dəvələrin zınqırovunun səsi gəlir. Çıxır qoca küçəyə – həyətə, görür ki, hər yan atla doludu, atlarında üstündə çoxlu ilanlar var. Ancaq qızına ayrılan atın üstü boşdu. Qoca heç nə demir, yüyürür qızının üzündən-gözündən öpür, onu boş atın üstünə mindirir. Atlar başdıyırlar bu evi dolanıb, çıxıb gedirlər. Bir neçə gün keçir, bu qoca deyir ki, gedim, görüm mən elə qızımı ilana verdim, heç bir işindən də xəbərim olmadı.Görən ilan qızıma nə elədi? Gedim, bir görüm. Gəlir, gəlir, bir dağın arxasına çatır. Görür ki, burda bir böyük ev var. Bu ev başdan-ayağa qızılnan doludu. Gizlənir, baxır görür ki, ilan gəldi, dərisindən aralandı çıxdı, hovuzun başına gəldi, namaz qıldı, sonra başladı yemək yeməyə. Qoca görür ki, bu, heç də ilan deyil, olduqca gözəl bir oğlandı. Evə gəlir. Qızları ona deyir:

– Ay dədə, sən bizim bacımızı gördünmü? Yerini de, biz də gedək görək.

Qoca deyir:

– Yox, siz ora gedə bilməzsiniz. Orda bir ilan var. Əgər gedərsiniz, onu hisləndirərsiniz, o sizi öldürər.

Qoca kişi nə qədər deyirsə, qızlar ona qulaq asmırlar. Səhər açılır, tez durur iki bacı, geyinirlər, bacılarının evinə gedirlər. Görürlər ki, budu hə, ilan gəldi, ilanı görən kimi qaçıb gizlənirlər. Qoca kişinin gördüyü kimi baxırlar ki, ilan dərisindən sıyrılıb, namaz alıb, gözəl bir oğlana çevrilib. Sonra da gəlir arvadıyla yemək yeyir, sora da ilan dərisinə bürünüb çıxıb gedir. Bacılar ilan gedəndən sonra gəlirlər kiçik bacılarının yanına.

Ordan-burdan söhbət edəndə qızlar deyir ki, ərin evə gələndə dərin nətəər yanır deyə soruş. Qız da onlara qulaq asıb deyir ki, yaxşı, soruşaram. İki bacı qaçıb gizlənir. Vaxt olur, yenə ilan gəlir. İlan gələn kimi gizlənirlər. İlan gələn kimi qız soruşur:

– Sənin bu dərin alov tutub yanırmı?

Oğlan qayıdıb deyir:

– Əgər mənim dərimi oda atsan, məni heç zaman tapa bilməssən. Dəmirdən əsa, bir cüt ayaqqabı geyinsən, nə zaman onlar deşilsə, məni axtarıb tapa bilərsən.

Qız deyir:

– Yox, mən sənin dərini heç vaxt oda atmaram.

Oğlan deyir:

– Mənim dərim ancaq sarımsaqnan, soğan qabıyğıynan yanar.

Qız heç nə demir. Amma iki bacı ki, evdə gizlənmişdilər buları eşidirlər. İlan çıxıb gedəndən sonra bu iki bacı gizləndikləri yerdən çıxıb qaçırlar bazara. Gedib çoxlu soğan-sarımsaq qabığı alıb gətirirlər, gizlənirlər yenə. İlan gəlir, dərisindən sıyrılır. Tez iki bacı bu dərini oğurlayırlar, gətirib oda verillər. Bunu oda verəndə oğlan bir göyərçinə dönür, uçur bir divarın üstünə. Deyir ki öz arvadına, səni Allaha tapşırıram. Mən gedirəm. Bu iki bacılar da çıxıb gedir evlərinə. Balaca bacı gəlir, kor-peşiman görür ki, əri bir göyərçin olub, uçub gedib. Kor-peşiman gəlir, fikirləşir ki, nə edim, nə etmiyim mən ərimi tapım. Gəlir, çıxır bir dəmirçi dükanına deyir ki, ay dəmirçi qardaş, mənə dəmirdən bir əsa, bir cüt də ayaqqabı hazırla. Bu qızın adı Mehri-nigar, ərinin də adı Salman imiş. Qız ayaqqabıları hazırlatdırır, geyinir, əsasını da götürür, çölə çıxır. Gedir-gedir bir çaya rast gəlir. Bu çayı keçir, görür ki, bir toyuq dəstəsi var. Adamlardan soruşur:

– Ay camaat, bunlar kimindi? Niyə bu toyuğu buza atıblar?

Adam cavab verir ki, bunlar Salmana aiddir. Mehri-nigarın əri Salmanındı. Qız deyir ki, yaxşı. Gəlir yoldan, yenə gedir, görür, bir davar var. Çoxlu mal-heyvan var. Soruşur:

– Yaxşı, bəs bunlar kimindi? Bunları topluyun, mən keçim.

Deyirlər ki, bunlar Salmana aiddir. Burdan da keçib gedir, bir çeşməyə çatır. Əyilib su içmək istiyir. Görür ki, bir qız gəldi. Qıza deyir:

– Əlindəki tası ver, mən də bir az su içim.

Deyir:

– Yox, mən bu tası sənə verə bilmərəm, çünki bu mənim ağamındı. Mən bunla onun əlinə su tökəcəm.

Hirslənir qız, başlıyır qarğış eləməyə. Deyir ki, ağanın əlinə tökdüyün bu su qoy elə qan-irin olsun. Qız – kəniz heç nə demir. Suyu götürüb evə gedəndə görür ki, su qana dönübdü. Demə, bu qızın da ağası elə Salmanın özü imiş, Mehri-nigarın əri imiş. Şüpələnir, görür ki, su qana dönübdü, deyir ki, de görüm, suyun başında kim var idi? Deyir, valla, heç kim bir qadın oturmuşdu, məndən su istədi, mən verMədim, o da qarğış elədi. Deyir, yaxşı, qayıdarsan geri, bu tasnan suyu götürərsən, yarısını ona verərsən, yarısını da mənə gətirərsən. Qız deyir, yaxşı. Qız durur, yenidən gəlir çeşməyə. Tası doldurur suynan. Yarısını verir Mehri-nigara. Mehri-nigar suyu içəndən sonra yarısını da götürüb gəlir. Götürüb gələndə qıza deyir:

– Ay xanım, bu suyu ağanın əlinə birdən tökərsən.

Qız heç nə demir, qayıdır geri, deyir:

– Ağa, gəl əlinə su töküm, yu.

Ağası deyir ki, ver, özüm töküm. Bu dediyi kimi suyu birdən-birə ağanın əlinə tökəndə görür ki, tasın içərisində bir üzük dığırlanır. Deyir:

– Hə, bu üzüyü kim bura salıbdı?

Deyir ki, mənə bu tasda suyu verəndə yəqin ki, qız üzüyünü də bunun içərisinə qoyub. Deyir, gəl gedək. Qız qayıdır geri. Salman deyir:

– Gedərsən həmin çeşmənin üstündəki qızı götürüb gələrsən evə.

Kəniz qayıdır çeşmənin yanına, görür ki, Mehri-nigar oturub orda. Deyir ki, qalx gedək. Deyir:

– Hara gedək?

– Ağam səninlə görüşmək istiyir.

Götürür qızı, aparır Salmanın yanına. Salman baxır ki, hə, bu elə onun öz arvadıdır. Tez əlindən tutur gəlirlər evdə otururlar, yeyirlər, içirlər. Arvadı deyir:

– Mən səni tapmaq üçün çox yollardan keçdim. Amma bir gözəl bağ gördüm ki, o bağ mənim xoşuma gəldi. Gəl gedək, o bağda məni gəzdir.

Salman heç nə demir, qalxır ayağa, arvadının əlindən tutur, gəlirlər bağı gəzməyə. Bağı gəzəndə həmin evə rast gəlirlər. Qadın deyir ki, bu evin qapısını aç, girim. Salman deyir:

– Yaxşı.

Açandan sonra Mehri-nigarın gözü bir şüşəyə rast gəlir. Deyir:

– Bu şüşə nədir?

Salman deyir ki, bu şüşə anamın ömrüdür. Mehri-nigar gedir, şüşəni alır, atır yerə. Elə bu zaman böyük bir fırtına qopur. Hər ikisi yuxuya dalır. O qədər yatırlar ki, bir müddətdən sonra ayılırlar. Ayılannan sonra onların ətrafını bürüyən nə ki, tilsim var idi, hamısı sınıb tökülür və bundan sonra hər iki gənc şad-xürrəm yaşayırlar.

## PƏRİ QIZ

Biri varmış, biri yoxmuş, bir cavan oğlan varmış. Bu oğlan hər gün gedərmiş çöldə gəzərmiş, tozarmış, axşam qayıdarmış evinə. Bir dəfə də elə olur çıxır evdən, gəlir bir meşəliyə çatır. Çöldə gəzəndə baxır ki, üç dənə pəri kimi qız gəldi, başladılar suya girməyə. Qızlar o qədər gözəl olur ki, oğlanın fikrini aparır. Oğlan bu qızlardan birinə aşiq olur, öz-özü-

nə deyir ki, ey Allahım, nə olaydı, mən bu qızlardan biriylə evlənəydim. Deməli, bu qızlar da pərilər şahının qızları imiş. Oğlan fikirli-fikirli yolu gedəndə qabağına bir qoca kişi çıxır, oğlan qoca kişidən soruşur:

– Ay qoca, sən bilərsən, dünya görmüş adamsan, bu qızlar kimdi?

Qoca cavab verir:

– Onlar pərilər şahının qızıdı.

Oğlan deyir:

– Mən neyləyə bilərəm ki, onlardan birini alım?

Qoca deyir:

– Bu pərilər şahının qızı bir neçə gündən sonra gəlib burda çaya girəcəklər, o zaman gələrsən, gizlənərsən bu kolların dibində. Onlardan hansı xoşuna gəlirsə, onlardan birinin pal-paltarlarını oğurluyub qaçarsan. Onlar sudan çıxanda başlayacaqlar yalvaracaqlar sənə, paltarlarını istəyəcəklər, dəridən-qabıqdan çıxıb, çox söz deyərlər, ama sən onların heç birinə inanmaginan. Və onlara çalış ki, hansı qızın ki paltarını götürdün, ona and içdir, anasının südünə and içdir ki, sənə heç bir şey etməyəcəklər. Ondan sonra da onların sözünü qəbul elə. Sən bundan sonra onla evlənə bilərsən.

Oğlan qoca kişiyə deyir ki, çox sağ ol və ordan uzaqlaşır. Qocanın dediyi kimi, üçüncü gün gəlir, böyük bir ağacın arxasında gizlənir və başlıyır gözləməyə. Görür, həə budu, doğurdan da, üç dənə qız gəldi. Üçü də suya girdi. Paltarlarını da soyunub qoyurlar bir ağacın kölgəsinə. Oğlan tez gizlincə ağacın arxasından çıxır, bu qızların ən böyüyünün paltarlarını götürüb, oğurluyub qaçır. Qızlar sudan çıxırlar, bu yana baxırlar, o yana baxırlar. İki qız geyimlərini tapır, geyinir. Bu qızın geyimi tapılmır. Bu zaman oğlan çıxır ortaya, deyir ki, bəs sənin paltarların məndədi. Sən əgər mənim arvadım olsan, mən sənin paltarını özünə qaytararam. Qız başdıyır yalvarır-yaxarır, ayaqlarına düşür ki, nə istəsən eliyərəm, mənim paltarlarımı ver, çı-

xım gedim. Qız nə qədər deyir, oğlan qəbul eləmir. Qoca kişi də onu öyrətmişdi heç zaman nə desə, qəbul eləmə. Yadına düşür. Qıza and içdirir anasının südünə ki, sənə heç bir şey etməyəcəm, sənnən də evlənəcəm. Qız kor-peşiman, pəri olur da, anasının südünə and içir. Oğlan gətirir paltarlarını, verir və bununla evlənməyə razı olur. Qız oğlana deyir:

– Sən məni istəsə idin bu qədər, ama bilginən ki, çox çalışman lazımdı. Sənə hansı işləri versələr, sən gərək onları qəbul edəsən.

Qız götürür bunu, aparır pərilər şəhərinə. Pərilər şəhərinə girəndə bu pərilər şahının arvadı deyir:

– Əgər mən sənə qızımı versəm, gərək mənim şərtlərimi yerinə yetirəsən.

Oğlan deyir:

– Nə şərtin var?

Pərilər şahının arvadı deyir:

– Birinci şərtim odur ki, bütün çölü-xiyabanı süpürüb, meyvə ağacları basdırmalısan. Bu meyvə ağacları da üç gündə əmələ gəlməlidi ki, gərək biz onun meyvələrini yeyək. Əgər bu şərtimi yerinə yetirsən, qızım sənin olar. Yox yetirməsən, gərək başını kəsəm.

Oğlan qayıdır kor-peşman arvadının yanına, qızın yanına, pərinin yanına deyir ki, bəs sənin anan belə-belə dedi. Qız deyir ki, bikef olma. Sənin heç nə eləməyə ehtiyac yoxdu. Qız tez çıxır çölə, pəridi, başdıyır dua oxuyur, bütün çöl-biyaban başlıyır yaşıllaşmağa, meyvə ağacları burda əkilib, üç gün tamam olanda meyvələr əmələ gəlir. Oğlan gedir səhər-səhər, həmin meyvələrdən yığır, bir səbət bağlıyır, aparır pərilər şahının arvadının qabağına qoyur. Qadın deyir ki, bu nətəər olur ki, üç gündə bu qədər meyvə ağacları əkibdi və meyvəsini də götürüb gəlir, yəqin bu işdə bir iş var. Pərilər şahının arvadı qayıdır ki, indi sənə ikinci bir hökm verəcəm. Ancaq bu hökmü gərək bir gündə yerinə yetirəsən. Oğlan deyir:

– Hökm nədi?

Pərilər şahının arvadı deyir:

– Nə qədər ki, meşə var – gördüyün bu meşələr var, bu meşənin bütün ağaclarını bir günün içində gəlib kəsəsən, olaрın yerinə üzüm əkəsən. Həmin üzümü əkəsən, üzümün barınnan da gətirsən, gələk yeyək. Əgər bu işi eləyə bildin, mənim qızım sənindi.

Oğlan yenə kor-peşman qayıdır qızın yanına, qız deyir:

– Niyə bikefsən?

Deyir:

– Bəs belə-belə, anan mənə bu əmirləri verdi.

Pəri deyir ki, qorxma, get rahat yat, oğlan gedir yatır. Qız yenə durur ayağa, pəridir. Gedir bir dua oxuyur, bütün nə qədər meşədə ağaclar var, hamısı kəsilib tökülür yerə. Bunların yerində üzüm əkilir. Səhər açılar-açılmaz baxırlar ki, üzümlərin üstündə ağ-ağ şanılar var. Oğlan durur, bu üzümdən yığır, aparır bu pərilər şahının arvadının qabağına qoyur, yenə bu qoca pəri fikirləşir ki, bu necə bəni-adamdır ki, əlindən bu qədər iş gəlir. Yəqin buna kimsə köməklik edir. Oğlana deyir:

– Bir hökmüm də var, gərək onu da yerinə yetirəsən. Sabah üç ata birdən minməlisən. Əgər üç ata birdən mindin, bunların üstündən yıxılmasan, bərk dursan, düşməsən, qızımı sənə verəcəm.

Oğlan qızın yanına gəlir, bütün bu olanları ona söylüyür. Qız deyir ki, sən rahat ol, get yat. Deyir:

– Birinci minəcəyin at mən olacam, ikinci bacım olacaq, üçüncü isə o biri bacım olacaq.

Elə olur ki, birinci atı gətirirlər gətirdikləri at kiçik qız olur. Oğlan soldan minir, sağdan minir. Bu at getdi, ikinci at gəlir. Yenə oğlan soldan mindi, sağdan mindi. Bu at da getdi, üçüncü at gəldi. Oğlan bu ata mindi demə, bu at onun öz arvadı imiş. Oğlan ona minincə, at qaçır. Pərilər şahının arvadı deyir ki, yox, oğlan bu hökmü də yerinə yetirdi.

Oğlanla qız başdıyırlar, baş götürüb qaçırlar. Birdən geri dönəndə görürlər ki, bu pərilər şahının arvadı da onların dalınca gəlir. Oğlan qışqırır:

– Ay arvad, bəs biz indi neyniyək?

Qız deyir:

– Heç nədən qorxmaginən. İki dənə qamış alıb dənizə qaçaq.

İki dənə qamış alıb dənizə qaçırlar. Qamışlarla başlıyırlar suyun içində nəfəs almağa. Bu pərilər şahının arvadı gəlir, yaxınlaşır həmən dənizə. Görür ki, burda heç bir kəs yoxdu. Dua oxuyur. Bu zaman bütün dənizin suları çəkilir. Baxır ki, oğlanla qız sudan çıxdılar, qaçdılar. Yenə qaçırlar. Bu pərilər şahının qızı, arvadı da düşür onların arxasıyca. Qaçırlar, qaçırlar gəlib bir meşəliyə çıxırlar. Pəri qız bir dua oxuyur, hər ikisi çönüb olur bir ağac. Ağaca dönürlər. Pərilər padşahının arvadı gəlib görür ki, başdan ayağa ağaclıqdı, buları tapa bilmir, çıxıb gedir. Bu pəriynən oğlan yenə qaçır, sonra gəlib evə çatırlar. Evin içinə girəndə oğlan qıza deyir:

– Sənin anan yenə gələ bilər.

Qız deyir:

– Qorxma.

Bir dua oxuyur, bütün evlər yerlə-yeksan olur. Bu pərilər şahının arvadı da bura gəlib çatanda görür ki, bunlardan heç bir xəbər yoxdu. Pərilər şahının arvadı gedənnən sonra yenə bir dua oxuyur, həmənki evlər əvvəlki yerinə gəlir. İndi oğlan deyir:

– Yaxşı, pəri, indi biz nə edəcəyik?

Deyir:

– Heç bir şey. Gəl indi bura çox yaxınlıqda böyük bir dərya var. Gəl bir dua oxuyaq, ikimiz də balıq olub dəryaya girək.

Oğlan deyir, yaxşı. Qız durur, bir dua oxuyur, hər ikisi çönür olur balıq. Qızın anası yenə gəlir, oranı dolaşır, buranı dolaşır, ancaq onları tapa bilmir. Qızla oğlan da balıq olub, bu dəryanın içindən bir yannan o biri yana üzüllər. Bular eşitmişdilər

ki, bu dəryanın içində böyük bir şəhər var. O şəhərə gəlirlər, burda bir müddət qaldıqdan sonra özləri üçün toy eliyillər. Pərilər şahının arvadı nə qədər gəzsə də, onları tapa bilmir. Sonra fikirləşir ki, onlar yəqin ki, buranı tərk eliyb başqa şəhərə gediblər. Sonda pərilər şahının arvadı da buları gəzməkdən bezib deyir ki, gəl bunlardan uzaq gəzək, qoy onlar bir yerdə olsunlar. Yəqin ki, çoxdan toy eliyib ər-arvad olublar. Beləliklə, həmin qıznan, pəriynən cavan oğlan şad-xürrəm ömürlərini yaşayırlar.

## SONA BÜLBÜL

Azərbaycanda hökm sürən bir padşahın 3 oğlu var idi. Onların ikisi çoxbilmiş və hiyləgər, kiçik oğlan isə səmimi və fədakar idi. O oğlanın adını Səyyad qoymuşlar. Padşaha məxsus olan gözəl bağın yaxşı-yaxşı meyvələri var idi. Alma ağaclarının sırasında olan məxsus bir alma ağacı fəqət ildə 3 alma gətirərdi. Bu almalar yalnız padşaha məxsus idi. Günlərin birində bağa bir yoldan keçən girdi və bağbana dedi ki, bu almaların birini dərib ona versin. Bağban cavab verib dedi:

– Yox, mən bu işi görə bilmərəm. Onlar padşahındır. Bilsə şah, məni öldürər.

Yoldan keçən əllərini göyə açıb Allahdan istədi ki, bu bağın bütün meyvələri və yaşıllıqlarını qurutsun. Allah bu adamın istəyini yerinə yetirdi. Bağ bir anın içərisində öz gözəlliyini əldən verdi. Bu vəziyyətdən dəhşətlənən bağban yoldan keçəndən xəbər aldı:

– Nə iş gördün ki, bağ bu hala düşdü?

Kişi təmkinliklə cavab verdi:

– Bu bağ heç zaman əvvəlki halına qayıtmaz. Məgər Sona bülbülü tapıb buraya gətirsəz, o oxuyub nəğmə deyəndən sonra öz gözəlliyini yenidən tapar.

Kişi bunu deyib gözdən itdi, getdi. Bağban ağlaya-ağlaya gəlib macəranı padşaha danışdı. Bu xəbərdən padşah çox narahat oldu və bağbanı da betər danladı:

– Sən məgər ki, məni çağıraydın, mən özüm bu işi həll edərdim. İndi kim gedib Sona bülbülü tapacaq, hardan tapacaq?

Şah oğlanlarını çağırıb, onlara dəstru verdi ki, gedib hər yerdən olsa, Sona bülbülü tapıb gətirsinlər. Qardaşlar atalarının əmrini yerinə yetirib, yola çıxmağa hazırlaşdılar. İki böyük qardaş, yəni lap böyük və ortancıl qardaş üçün məxsus atlar gəldi. Kiçik qardaş isə gedib lap aşağı axurdan bir at seçib gətirdi. Qardaşlar atlarına bir qamçı vurub, yola düşdülər. Az getdilər, çox getdilər, axırda gəlib üç yol ayrımına çatdılar. Onlar yol ayrımında gördülər, bir nurani qoca oturub, öz-özü ilə danışır. Qardaşlar salam verib, əleykum aldıqdan sonra qocadan soruşdular ki, bu yollar hara gedir?

Qoca deyr:

– Bu yolların biri Tiflisə, biri İrana, o birisi isə çox çətin yoldur. Bu yolda çoxlu çətinliklər var. Amma bütün dərdlərin dəvası bu yoldadır.

Böyük qardaşlar asan yolu seçdilər. Hərəsi birinə getdi. Onlar gedib o şəhərlərdə hamam şagirdi oldular.

Səyyad da bu çətin yolu çəkib atını çapmağa başladı. Az getdi, çox getdi, dərə-təpə düz getdi. Axırda gəlib devlərin yaşadığı kəndə çatdı. Əvvəl Qırmızı devin qapısını döydü. Ordan gözəl bir qız çıxdı. Səyyadı görcək həmən ürəyi yandı. Əvvəl dedi:

– Oğlan, nə ürəklə bura gəldin? Qırmızı dev səni görsə, tikə-parça eləyər. Gəl bir tərəfdə gizlədim. Bir yol tapıb səni qaytararam. Mən də illərdir bu devin əsiriyəm.

Səyyad cavab verdi:

– Mən əvvəla, devi görməyə gəlmişəm. Onunla həqq-hesabım var. Bu sözlərdən yaxşı tez əvvəl mənə bir yemək gətir.

Qız devin xörəyindən gətirib oğlana verdi. Oğlan yemək yeyəndən sonra gördü, yer titrəməyə başladı. Qızdan onun səbəbini soruşdu. Qız dedi:

– Qırmızı dev gəlir. Hər vaxt gələndə onun ağırlığından yer belə titrər.

Qırmızı dev gəldi. Ormandan tutduğu heyvanların ölüsünü bir-bir otağına yığdı. Sonra qızdan soruşdu:

– Gəlib-gedən varmı?

Qızın dili tutuldu. Nə hən[42] deyə bildi, nə yox. O ətrafdan Səyyad göründü.

– Bəli, burdayam.

Dev dedi:

– Çox xoş gəlmisən, Səyyad oğlan.

Səyyad cavab verib dedi:

– Xoş günün olsun. Görürəm, mənim adımı haradan eşidibsən?

Dev cavab verdi:

– Sən anadan olan gün mən dağı-daşı gəzirdim. Bütün çöllər, ormanlar sənin bu dünyaya gəlişini mənə xəbər verdilər. Bir də cəsarətindən bəllidir ki, sən həmən Səyyadsan.

Dev qıza dedi:

– Qonağımız üçün bir şeylər hazırla.

Qız dedi:

– Qonaq acıydı. Sənin xörəklərindən yedi.

Bu iş devə bir az ağır gəldi, ona görə dedi:

– Elə bil, sən mənə boynu yoğunluq eləmək üçün gəlibsən. Amma bilirsən ki, səni öldürməmiş buradan qaytarmayacağam. İndi savaşaq, istəyirsən qalsın səhərə?

Səyyad dedi:

– Xeyr, işi səhərə saxlamazlar. Yeməyini ye, dur döyüşək.

Dev yeməyini yeyəndən sonra onlar başladılar döyüşməyə. Səyyadın atı Səyyada dedi:

– Dev qılıncı vuranda mən uçub onun üstündən gedərəm və qılınc boşa çıxar.

Belə də oldu dev üç növbə qılınc atdı. Hər üçü də boşa çıxdı. Səyyad qılıncı endirib devin beynini dağıtdı. Devi öldürəndən sonra onun buynuzlarını bir torbaya salıb özü ilə gö-

---

[42]Hən – hə

türdü. Qız çox sevincək yanına gəldi və ondan xahiş etdi ki, hər yana getsə, onu özüylə aparsın. Səyyad dedi:

– Mənim yolum uzundur. Mən Sona bülbülün dalıyca gedirəm. Onu tapmayınca heç yerə qayıda bilmərəm.

Qız nə qədər yalvardısa, oğlan qəbul etmədi. Gəlib Ağ devin yurduna çatdı. Ona məsləhət gördülər ki, gəldigi yoldan qayıtsın. Çünki Ağ dev Qırmızı devin tayı deyil. Bunun yeddi başı və qırx boynuzu var. Səyyad dedi:

– Eybi yoxdur, mən onun başlarını da, buynuzlarını da bədənindən ayıraram.

Bunu deyib Ağ dev olan məntəqəyə getdi. Devin qapısını döyüb, baxıb gördü ki, onun qulluğunda gözəl bir qız dayanıb. Ağ devin yerini soruşdu. O da əvvəlki qız kimi dedi:

– Sənə yazığım gəlir. Ağ dev gəlsə, səni şaqqa-şaqqa edəcəkdir. Necə gəlmisən, elə də qapıdan qayıt.

Oğlan razı olmadı. İçəri girib devin xörəyindən bir az yedi. Ağ devin yolunu gözlədi. Ağ dev gəlib çıxdı və Səyyadı görcək həmən tanıdı. Dev qıza dedi:

– Qız, qonağımız var. Ona bir şey gətir, yesin. Sonra haqq-hesabımızı görərik.

Səyyad dedi:

– Mən ac idim, doyunca yemişəm. Sən də ye, sonra danışarıq.

Ağ dev yeməyi qurtarandan sonra Səyyada dedi:

– Sən mehmansan, istərsən əlnən savaşaq, istəmirsən qalsın səhərə.

Səyyad dedi:

– Yox, xeyir, işi səhərə saxlamazlar. Dur, döyüşək.

Onlar döyüşməyə başladılar. Səyyad bunu da Qırmızı dev kimi öldürdü. Başlarını, buynuzlarını bir torbaya yığıb yoluna davam etdi. Ağ devin əsirində olan qızı da götürüb getdilər. Qızlar nə qədər cəhd etdilər ki, onu yarı yoldan qaytarsınlar olmadı ki, olmadı. Axırda gəlib Qara devin olduğu yerə çatdılar. Qızlar qıraqda qaldı. Səyyad Qara devin evinə tərəf getdi. Səyyad gecə

yatıb səhərisi gün Qara devlə döyüşməyə başladı. Onlar üç gün savaşıb heç biri qalib gələ bilmədi. Savaşın son anlarında devi Səyyad öldürdü. Sonra gəlib qızı azad elədi. Qız ona dedi ki, mən əhd eləmişdim hər kimsə bu devi öldürsə, mən ona gedəcəyəm. Səyyad qəbul etdi. Amma şərt qoydu. Sona bülbülü tapıb vətənə qayıdandan sonra onunla toy edəcək. Qız dedi:

– Yaxşı, gəl bu daşları əlindən tök, Sona bülbülü ələ keçirmək asan iş deyil. O Çantus adlı zalım bir padşahın əlindədir. O, indi yuxudadır. Ayılsa, yüz sənin kimi pəhlivanı udar.

Qıza dedi:

–Sən burda qal, mən gedirəm adada yaşayan Çantusu tapım və Sona bülbülü ondan alıb gətirrəm.

Səyyad bir neçə gün yol gedəndən sonra gəlib dənizin qırağına çatdı. Atına qamçı vurub, at suya girmədi. Atdan soruşdu ki, niyə getmirsən?

At dedi:

– Mən quraqlıq atıyam, gərək su atı tapasan.

Səyyad Allahına yalvarıb, yaxarıb, ağlayıb, yorğun halda yatdı. Gözlərini açanda gördü, başının üstdə su atı dayanıb. Tez cilovunu tutub tumarlamağa başladı. At Səyyaddan soruşdu:

– Nə üçün gəlibsən, nə istəyirsən? Mənə desən, sənə köməklik edərəm.

Səyyad dedi:

– Mən Sona bülbülü aparmağa gəlmişəm.

At dedi:

– Mən səni adaya kimi apararam. Amma bülbülü almaq üçün sənə mənim böyük bacım köməklik elər.

Bunu deyib dənizə təpildilər. Onlar dənizdə çox çətinliklər gördülər, amma bütün çətinliklərə üstün gəlib adaya çatdılar. Gəlib su atının böyük bacısına məsələnin nə yerdə olduğunu dedilər. Böyük bacı Səyyada dedi:

– Ada dənizin qırağında yerləşir. Möhtəşəm sarayı şahın olduğu yerdir. Ora quş quşluğu ilə gedə bilməz. Əgər mənə

elə gücün ola, qamçı vurub mənim bütün vücudumu titrədəsən, onda şahın sarayının üzərindən uçaram və sən də qızıl qəfəsdə olan bülbülü götürüb gələrsən.

Səyyad ata elə bir qırmanc çaldı, atın bütün vücudu lərzəyə gəldi. Sonra uçub sarayın üzərindən ötdü. Səyyad fürsəti fövtə verməyib əlini uzatdı. Bülbülü qəfəsi ilə çalıb götürdü. Su atları Səyyadı gətirdikləri yol ilə qaytarıb quraqlığa saldılar. Özləri də qayıdıb dənizə təpildilər. Səyyad üç qızı və bir də Sona bülbülü götürüb gəldikləri yol ilə qayıtdı. Az gəlib, çox gedəndən sonra əvvəlki üç yol ayrıcına çatdı və düşündü ki, qardaşları ilə birgə bu uğuru və bu sevinci bölüşdürsün. Gəlib onlar olduğu şəhərə çatdı. Neçə gün axtardı, onları tapa bilmədi. Axırda bir qocanın yanına gedib ondan bələdçilik istədi. O da dedi:

– Bu şəhərdə qərib adamlar çox var. Onları yalnız bir vasitə ilə tapmaq olar. O da car çəkəsən, bütün qəriblərə şam verməklə mümkündür. O vaxt qardaşların gəlib səni görər, apararsan.

Səhər tezdən Səyyad yeddi qoyun alıb onun ətini bişirtdirdi və bütün qəribləri şama dəvət etdi. Onun da qardaşları gəldi. Bu zaman Səyyad onlara yaxınlaşıb özünü tanıtdırdı. Və Səyyad onlara muştuluq verdi ki, dallarınca getdikləri Sona bülbülü tapıb, aparır atasına. Üç qardaş ki, öz vilayətindən dönüb öz ölkələrinə qayıtmaq qərarına gəldilər. Onların biri Qırmızı devin tilsimindəki qızı, o biri də Ağ devin tilsimində və əsirliyində olan və sonuncu qızı da Səyyad özünə seçib yoldaş oldular. Bəli, bunlar yola düşdülər. Bir az gələndən sonra bir meşəligə çatdılar. Böyük qardaşlar kiçik qardaşdan istədilər ki, onlar üçün su gətirsin. Səyyadın adaxlısı qardaşların hiyləsini duydu və nə qədər çalışdı, onu bu hiylədən qurtarsın olmadı ki, olmadı. Qız onun inadkarlığını görüb dedi:

– İndi ki, gedirsən mənim bu bir tay başmağımı və bir tay əlcəyimi özündə saxla. Mən onu padşahdan istərəm. Səni tapıb saraya gətirəndə görərəm ki, su quyusundan çıxıbsan.

Səyyad quyuya tərəf getməkdə olsun, qardaşlar da bu tərəfdən Sona bülbülü götürüb atalarının yanına gəldilər. Şaha xəbər çatdı ki, oğlanları gəliblər. Şah bütün saray əhlini toplayıb oğlanlarının pişvazına getdi, təntənə ilə qəsrinə gətirdi. Şah oğlanlarından soruşdu ki, bu qızlar kimdir? Hərə adaxlısını nişan verdi. Qalan qız kimdi, soruşduqda hər iki qardaş dedi:

– O, bizim kənizimizdir.

Şah soruşdu:

– Yaxşı, deyin görüm, Sona bülbülü tapan kimdir?

Böyük qardaş dedi:

– Mən.

Və ortancıl qardaş dedi:

– Mənəm.

Şah gördü, bu işin içərisində ayrı bir iş var. Ona görə bu qərara gəldi ki, hər kəs quşu danışdırsa və solan bağı əvvəlki hala gətirsə, bəlli olar Sona bülbülü tapıb gətirən. Böyük qardaş bülbülün qəfəsinə yaxınlaşıb dedi:

– Gözəl bülbülüm, oxu, bu bağımız yaşıllaşsın.

Sona bülbül susub qaldı. Heç qanadını belə tərpətmədi. Ortancıl qardaş gəldi, o da nə qədər çalışdı, bülbülü dilə gətirə bilmədi. Beləliklə, hamı məyus oldu. Bağ isə solğun-solğun dururdu. İndi sizə kimdən xəbər verim Səyyaddan. Səyyad quyuda olarkən buna bir neçə heyvan həmlə etdi. O bütün var gücü ilə onlara qalib gəldi. Bir müddətdən sonra yoldan ötən karvan quyudan su götürmək istəyəndə Səyyad onlara yalvardı ki, onu bu quyudan çıxartsınlar. Karvan əhli gəlib Səyyadı quyudan çıxardılar. Onlar Səyyaddan soruşdular ki, nə halət olub, o bu quyuya düşüb? Səyyad ayıq-sayıq adam idi. Bir də bilirdi bu karvan başqa ölkənin adamları idi. Ona görə belə cavab verməyi məsləhət gördü:

– Mən yoxsulun biriyəm. Gecə dolananda ayağım zuyub[43] düşdüm quyuya.

Tacirlər ona şam verdilər və sonra tacirlər öz yollarına, Səyyad da öz yurduna döndü. Səyyad şəhərə varid olan zaman çoxdan sevdigi bir qocanın yanına getdi və xahiş etdi ki, həqiqət öz yerini tapana kimi bu barədə heç kimsəyə bir söz deməsin. Qoca bir gün şəhərdə dolanırdı. Gördü şahın adamları əllərində bir əlcək onun tayını toxuyan adama çoxlu pul verəcəklərini söyləyirlər. Qoca evə gəlib macəranı Səyyada danışdı. Səyyad ondan ayrılıb bir dərziyə şagird oldu. Və şahın istədiyini yerinə yetirmək istədi. Usta Səyyada dedi:

– Oğul, sən təzə gəlibsən. Haradan bu çətin işi görə biləcəksən?

Səyyad dedi:

– Sənin işin olmasın, şahın cavabını mən özüm verəcəyəm.

İş qəbul oldu. Səhərə kimi əlcəyin tayı tikilib hazırlandı. Şahın adamları gəlib əlcəyi aparanda ustaya dedilər ki, onlarla gəlsin və şahdan öz ənamını alsın. Usta qorxurdu ki, şah əlcəyi bəyənməsin və başı bəlaya keçsin. Ona görə Səyyadın özünü göndərdi. Şah baxıb gördü ki, əlcək həmən onun tayıdır. Səyyad da onu gördü. Amma heç biri bir söz demədilər. Səyyad gəlib usta dərziyə dedi:

– Al, bu pul sənin olsun. Mən gedirəm, səninlə mənim iş birliyim tutmaz.

Usta nə qədər yalvardısa, Səyyad öz dediyindən dönmədi. Səyyad ayrı bir bazarda başmaqçı şagirdi oldu. Yenə şəhərə car çəkildi ki, bəli, şahın əlində bir başmaq var. Onun tayını kim tiksə, o çoxlu ənam alacaq, tikə bilməsə, başı gedəcəkdir. Ona görə heç usta xərrat cəsarət eləmədi bu işə yaxın dursun. Səyyad ustadına dedi:

– Sən istə, qəbul et. Qalanı mənim boynuma.

[43]Zuyub – sürüşüb

Usta dedi:

– Oğul, gəl bu daşları ətəyindən tök. Çünki bu iş şuxluq götürməz. Başın bədəninə ağırlıq eləyir?

Səyyad isə qəbul etdi və bir günün içərisində başmaq da hazır oldu. Şahın adamları gəlib ustanı özləri ilə aparanda usta yenə qorxusundan getmədi və Səyyadın özünü göndərdi. Səyyad başmağı verib ənamını aldı, qayıtdı. Aldığı pulları ustaya verdi. Oranı tərk etdi və onun tanıdığı qoca kişinin yanına getdi. O gələndə həmən qoca kişi dedi:

– Səyyad, işlər pisləşib.

Niyə? – deyə soruşduqda qoca cavab verdi:

– Bülbül oğurlanan şah şəhərin darvazasına gəlib və deyir ki, bülbül oğurlayan kimdirsə gəlsin, onunla haqq-hesabım var. Səyyad qocaya dedi:

– Sən get şahın yanına, ona de ki, mənim oğlum gedir, öz atını versin.

Qoca getdi və atı gətirdi. Səyyad atı minib şəhərin mərkəzində böyük qardaşını gördü. Soruşdu:

– Hara gedirsən?

– Şahın yanına.

Səyyad dedi:

– Get, lap yaxşı iş görürsən.

Böyük qardaş Çantusun yanına gəlib, ərz edəndən sonra dedi:

– Bülbülü gətirən adam mən idim.

Çantus soruşdu:

– Nə cür onu ələ gətirdin?

Böyük qardaş cavab verdi:

– Mən onun sənin meşələrindən tutdum.

Çantus dedi:

– Bu yalandır. Keç, onu gətirən adam gəlsin.

Ortancıl qardaş gəlib Çantusa dedi:

– Bülbülü gətirən adam varsa, o da mənəm.

Şah soruşdu:

– Sən nə sayaq onu ələ gətirə bilmisən?
Ortancıl qardaş dedi:
– Mən sizin vilayəti dolandım. Gördüm bir quş uçur. Onu izləyib tutdum. Gördüm mənim axtardığım Sona bülbüldür.
Çantus əsəbi oldu və sonuncu dəfə şərt etdi:
– Ya bülbülü qaytarsınlar, ya da ölkələrini oda çəkdirəcəyəm.
Bu halda Səyyad şahın yanına getdi. Şah oğlu Səyyadı tanımırdı. Ona görə dedi:
– Oğul, mən bilmirəm sən kimsən? Bir belə çətin işin öhdəsindən necə gələcəksən?
Səyyad dedi:
– Sən izin ver, qalanı mənim boynuma.
Şah izin verdi və Səyyad Çantusun qoşunları olan yerə yollandı. Çantus Səyyaddan soruşdu:
– De görüm, bülbülü gətirən adam sənsənmi?
Səyyad cavab verdi:
– Bəli, mənəm.
Çantus soruşdu:
–Sən Səyyadsan?
Dedi:
– Bəli.
Çantus dedi:
– Haradan bilim ki, sən o adamsan?
Səyyad devlərini başlarını, buynuzlarını Çantusa göstərdi. Çantus gördü, doğrudan da, bir belə igidlik göstərən adam budur. Ona görə alnından öpüb qoşunlarını çəkib getdi.
Səyyad gəlib atasına dedi:
– Məni tanıdınmı?
Dedi:
– Yox, sən kim olasan? Necə Çantusu geri qaytardın?
Səyyad dedi:
– Mən oğlun Səyyadam.
Şah dedi:

– Əgər doğru deyirsənsə, bülbülü oxut, qoy bağımız gül açsın.

Səyyad bülbülü apardı bağa və dedi:

– Oxu, bülbülüm, oxu, qoy bağımız gül-çiçək açsın, hər yer yaşıllaşsın.

Sona bülbül oxumağa başladı həmən. Bağ əvvəlki halına gəldi. Şah Səyyada dedi:

– Bəlli oldu ki, qardaşların sənə xəyanət ediblər. Nə desən onların haqqında, onu icra edəcəyəm.

Səyyad dedi:

– Ata, onlar məni öldürmək istəmişlər. Ona görə mən onların ölümünü istəmirəm. Amma belə düşünürəm ki, onlardan sənə oğul və mənə də qardaş olmaz. İzin ver, başlarını götürsünlər, ölkəni tərk etsinlər.

Şahın əmri ilə böyük qardaşlar ölkədən qovuldu və daha sonra Səyyadı gətirdikləri qızla evləndirdilər. Qırx gün hər yerdən toy-düyün səsi gəldi.

## TOXMAQ

Bir kasıb kişi varıdı, çöldən odun, tikan yığmaq ilə keçinərdilər. Bir gün arvadı dedi:

– Kişi, neçə aydı, dilimizə ət dəgməyib. Yarım kilo ət al, gətir, biz də ət dadaq, nə olar!

Kişi çölə gedib, çox əlləşib, çalışıb, odun yığıb aparıb bazarda satıb, yarım kilo ət aldı. Evinə qayıdanda suya əl yetirməli olur, ancaq bu arada bir qarğa gəlsin, əti dimdiginə alıb, yuvasına aparsın. Kişi qurtarınca qarğa əldən çıxmışdı. Kişinin iki əli oldu, bir başı, gedib bir naçaq (balta) gəldi qarğanın havarına səsləndi:

– Ya mənim ətimi ver, ya ağacı kəsirəm, ətimi götürürəm. Qarğa dedi:

– Ağacı kəsmə, mən sənə bir süfrə salım, hər zaman desən: “Həzrət Süleyman eşqinə açıl,” şahın da süfrəsində olmayan yeməklər onda olar.

– Olsun, at gəlsin.

Kişi süfrəni götürüb gəli. Hal-qəzyəni xanımına dedi. Neçə gün bu süfrə ilə keçindilər. Bir gün xanım kişiyə dedi:

– Kişi, bizim şaha layiq bu gözəllikdə yeməklərimiz var, bir gün şahı nahara qonaq çağıraq, nə deyirsən?

– Nə deyirəm, çağıraq da!

Kişi şahı qonaq çağırmağa getdi. Şah istəmirdi, amma vəzir dedi:

– Qurban, elə kişidə bir iş var, gedək, görək nə olur?

Şah qəbul elədi. Şah ilə vəzir naharçağı kişinin evinə getdilər, nə ocaq gördülər nə tüstü, nə qazan. Kişi onları bir hisli dama keçirtdi. Oturdular, kişi süfrəni qabağa qoyub dedi:

– Açıl, süfrəm, açıl, Həzrət Süleyman eşqinə.

Süfrədə şahın o zamana kimi görmədigi və dadmadığı yeməklər hazır oldu. Yeməgə başladılar.

Şah vəzirə göz elədi, gedəndə vəzir süfrəni oğurlayıb, soxdu ətəginin altına. Axşam çağı şam yeyəndə, kişi süfəyə əl atdı, amma yox idi. Şah ilə vəzirin apardıqlarını bildi. Şahın qapısına gəldi, ancaq qapıçı qabağını kəsib, beş-altı çəkdi. Kişi kor-peşman qayıtdı. Kişi sabahısı nacağı götürüb, qarğanın havarına getdi. Səsləndi :

– Süfrəni şah oğurladı, ya mənim ətimi at, ya da ağacı kəsirəm, vəssalam.

– Ağacı salma, sənə bir eşşək yetirim, onun bətər xasiyyəti var, nə vaxt desən, “eşşəgim qızıl teslə”, neçə dənə qızıl tesləyəcək.

Kişi bir də gördü, qabağında bir eşşək var. Eşşəgi qabağına qatıb sürür. Yolda imtahan elədikdən sonra sevincək evinə gedib, xoş xəbəri xanımına verdi. Kişi bir gün eşşəgi minib, ayın-oyun almağa şəhərə gəldi. Eşşəgi bir karvansaraçıya tapşırıb, dedi:

–Amandı, bərk muğayət ol, ha! Ayrı eşşəgnən dəgişik aparmasınlar, bu qızıl tesləyər!

Kişi o yana, karvansaraçı eşşəgi dəgişib, yerinə ayrı eşşək bağladı. Kişi evinə qayıtdıqda eşşəgin qızıl verməsini gö-

rüb, karvansaraçının dəgişdirdigini bildi. Gəlib karvansaraçıya dedi, amma o boynuna almadı.

Kişi yenə nacağı götürüb, qarğanın havarına getdi:

– Ya mənim ətimi at, ya ağacı kəsirəm, vəssalam.

– Əl saxla, sənə bir toxmaq salıram, hər vaxta desən, "vur, toxmağım" hər kimi desən, toxmaq vuracaq.

Kişi toxmağı götürüb gəldi. Yoldan imtahan üçün dedi: "vur, toxmağım", toxmaq qovzandı, kişinin harası gəldi, gubsadı. Dedi:

– Dur, toxmağım.

Toxmaq dayandı.

Gəlib evdə hal-qəziyyəni xanımına dedi. Sabahı da toxmağı götürüb, şahın qapısına getdi. Məmurlar gördülər, şaha oğru deyən kişi yenə gəlib, kişini döyməgə cumdular. Kişi dedi:

– Vur, toxmağım, vur!

Toxmaq qovzandı, düşdü məmurların canına. Onları şilküt eləyəndən sonra dedi:

– Dur, toxmağım, dur!

Toxmaq dayandı.

Şaha xəbər verdilər. Şah ilə vəzir gələndə kişi dedi:

– Vur toxmağım, vur!

Toxmaq qalxıb, haraları gəldi, tapdadı. Şah dedi:

– Vurma, süfrəni verim!

Kişi süfrəni şahdan alıb, imtahan elədikdən sonra, aparıb evinə qoydu. Bu səfər karvasaraçının havarına getdi. O, nəm-nüm eləyincə, dedi:

– Vur, toxmağım, vur!

Toxmaq qalxdı vurmağa. Beləliklə, eşşəgini də alıb evinə qayıtdı.

## KEÇƏL

### I mətn

Bir keçəl varimiş. Bir gün keçəl nənəsinə deyir:

– Ged əmimə de, dədəm ilə qol-qərar qoyubdu axı, əmim qızını versin da mənə.

Nənəsi üç dəfə gedir, deyir, qulaq asmırlar, deyirlər:

– Bizimki tutmaz.

Əmi varlı idi, bunlar kasıb. Keçəl bunu bildikdə deyir:

– Mən elə tutduraram can kimi.

Keçəl bir gün keçi otarmağa gedir. Yeməgin yeyəndən sonra yağış yağır. Yağış yağanda paltarları islanmasın deyə, paltarlarını çıxardır, qoyur bir dənə küpənin altına, özü də durub bir daşın üstünə çıxır. Yağış açandan sonra şeytan onun yanından keçirmiş, onun paltarlarını qupquru görüb soruşur:

– Sən nə elədin, paltarların bu cür quru qaldı?

Keçəl deyir:

– Mən öz əqlim gücünə bu cür qalmışam.

– Yaxçı, mənə də öyrədərsən?

– Yox, sən mənə bi söz öyrət, mən də sənə.

Şeytan deyir:

– Mən indi kağızda bir şey yazaram, keçilərin dağılar gedər, birini də yazaram, çıxarlar bir-birilərinin üstünə.

Keçəl deyər:

– Yaz görək!

Şeytan bunları yazanda keçəl onun əlinə baxıb, virdün olduğunu öyrənir.

Sonra bir daha nənəsini elçi göndərir, amma əmi deyir, qızını (molla, xanəndə və s. kimi) başlı-qulaqlı birinə vermək istəyir. Bu adamlar əmisi evinə gedəndə, keçəl vird yazıb, onların zığa, suya düşmələrinə səbəb olur. Əmi baxıb görür, biri islanıb gəlir, birisi zığlıdı. Qalır, bunların hansına qız versin?

Keçəl deyir:

– Əmi, indi mənə qız verirsən, ya bunlara?

Əmi deyir:

– Yox, deyəsən, bizilə bunlarınkı tutmadı, sənə verirəm.

Beləliklə, keçəl qızı alır.

## II mətn

Bir keçəl ilə arvad varımış. Arvadı deyib:

– Həm keçini keçi apar, həm də pulu pul gətir.

Keçəl "yaxçı" deyib gedib. Bir arvada deyir:

– Mən qonaq elə!

Arvad deyib:

– Ərim evdə deyil, səni qonaq eləmirəm.

Gedib bir ayrı arvada deyib:

– Məni qonaq elə!

Arvad deyib:

– Yaxçı, amma damda qalarsan.

Bu arvadın bir oynaşı varmış. Keçəl görür, nəmənə yaxçı yemək var, arvad bu oynaşa yedirdib. Birdən görürlər, qapı çalındı. Qapını çalan arvadın cütdən gələn əri idi. Oynaşa deyib:

– Ged kəndin dalına.

Özü qapını açmağa gedib. Arvad ərinə yemək gətirir. Əri deyir:

– Bəs niyə quru çörək verirsən?

Belə olanda keçəl birdən keçinin qulağını burub, səsini çıxardır. Ər deyir:

– Keçi kimindi? Əlbət, keçi almısan!

Arvad deyir:

– Yox, qonşunundu, əlbət, qonşu gətirib!

– Vallah, gedəcəyəm onun başını kəsim.

Arvad gizlicə keçələ çörək aparıb deyir:

– And vermişəm Allah, keçinin qulağını burub, mənim abrımı aparma.

Sora keçəl istəyirmiş çay içə, genə keçinin qulağını burur. Arvad gizlincə çay dəmləyib gətirib, keçəl içib. Ər-arvad yatmaq istəyəndə, keçəl genə keçinin qulağını burub. Ər deyib:

– Arvad, sən mənə yalan deyirsən, bu kimin keçisidir?

– Baba, vallah, qonşunundu.

– Gedəcəyəm, yoxsa kimindi.

Gedib Keçəli tapıb. Keçəl buna deyib:

– Bədbəxt, sənin arvadıvun oynaşı vardı, odu, kəndinin dalındadı.

Keçələ deyib:

– Gey (keç), çaxart.

Keçəl atılıb, oynaşı arada öldürüb. Çıxardıb çölə.

Ər deyib:

– İndi onu necə eləyək? Xalx[44]bilərlər.

Keçəl deyib:

– Sən qorxma.

Keçəl oynaşı eşşəgin üstündə oturdub, o yüzündə ağac, bu yüzündə ağaş, düz bağlayıb, bir də yalandan siğar[45] yandurub dodaqları arasına qoyub. Sora eşşəgi şərxəyə[46]ötürüb. Şərxənin sahibi görüb, deyib:

– Bə, köpək oğlu, niyə qoyursan, malını yayırsan?

Sora gedib buna bir şənə vuranda ölü eşşəkdən yerə yıxılıb. Keçəl özünü yetirib bunun yanına, deyib:

– Köpək oğlu, niyə dədəmi öldürdün? Vallah, gedirəm şikayət edəm.

Ağsaqqal-zad gedib, deyiblər nəmənə cərməsi (cərimə), veririk. Keçəl deyib:

– Yaxçı.

Cərməni alıb, genə bunu bağlayıb eşşəgə gedib şəhərə. Şəhərdə görür, bir daşqa yegin gəlir. Birdən eşşəgi üstündə cənazə ötürüb onun qabağına. Daşqanın eşşəkləri bu eşşəgi basıb altına, boğublar. Ondan da nə qədər pulu varımış alıb, qayıdıb.

Yolu üstə ölünü aparıb bir dərədə hellədib, deyib: "Canın çıxsın, mən getdim, sən qal burda! Sora gedib arvadının yanına, deyib:

– Gördün, arvad, keçini keçi gətirdim, pulu da pul.

---

[44]Xalx – xalq

[45]Siğar – siqaret, siqar

[46]Şərxəyə – bostana

# LƏTİFƏLƏR

## MOLLA VƏ SU QITLIĞI

Muğanın bəzi obalarında içməli su çox çətin ələ gəlir. Dəvə ilə gedib uzaqlardan su daşıyarlar. Bir gün bir molla bu obaların birində qonaq olur. Eşiyə çıxır, aftaba götürüb təharət alır. Bunu görən bir obalı deyir:

– Bura bax! Biz içməyə su tapanmırıq molla ..... yuyur.

## DƏLİL

Molla minbərdə danışırdı. Bir yerə yetişdi ki, dedi:

– Ağa atını mindi.

Yerdəkilərin biri başına döyüb başladı ağlamağa. Camaətdən biri dedi:

– Əyə, niyə ağlayırsan? Bəlkə ağa atını aparır suvarmağa.

## HÜNDÜR HASAR

Padşahın sarayının dövrəsinə uca hasarlar çəkilir. Molla Nəsrəddin ordan keçirdi. Ustadan soruşur:

– Ay usta, bu hündürlükdə hasarı neyçün hörürsən?

Usta deyir:

– Bu hasarı ona görə hündür tikirik ki, oğrular aşa bilməsinlər.

Molla gülümsəyir və deyir:

– Hardan? İçəridən, yoxsa çöldən?

## MÜTTƏHİM VƏ QAZI

Müttəhim:

– Qazi ağa, məni həbsxanaya saldırırsan, yetimlərim nə yeyəcək?

Qazi:

– Ayın başında ayın maaşımdan bir azını verərəm sənin əyalına.

Müttəhim:

– Onda sənin yetimlərin nə yeyəcək?

## ÜÇ GÜNÜ

Bir kişinin Fatma, Gülgəz və Fəxruqə adında üç arvadı var idi. Bunları razı salmaq üçün hərəsinə bir hədiyyə aldı. Fatma ilə içəri damda görüşüb, qızıl boyunbağı verdi. Gülgəz ilə evin bir gizlin yerində görüşüb biləsinə qızıl qolbağı verdi. Fəxruqə ilə də başqa bir gizlin yerdə görüşüb biləsinə bir cüt qızıl sırğa verdi. Hərəsinə bərk-bərk tapşırdı o birilərinə deməsinlər. Gülgəz səhər çağı qolbağlarını göstərmək üçün eyvana çıxdı. Qolunu uzadıb, günülərinə dedi:

– Biriniz o yanı süpürün, biriniz bu yanı!

Sırğası olan Fəxruqə sırğalarını göstərmək üçün əlini qulağının dibinə qoyub başını irəli gətirib dedi:

– Eşitmədim, nə dedin?

Boyunbağısı olan Fatma döşünü qabağa verib, silkələnib, dedi:

– Öləsiniz də, qalasınız da nə o yanı süpürəcəyəm, nə bu yanı.

## EŞŞƏK

Çöldə yaşıl otları qalayıb o tay-bu tay eşşəgin belinə çatarlar. Eşşək söyünər, deyər:

– Yaxşı oldu, evdə doyar qarnına[47] yeyəcəgəm, kef edərəm.

Evdə o yaşıl otları gətirb malın qabağına tökərlər. Mal yeyər, eşşək baxar. Malın qabağından çıxan artığı gətirib, eşşəgin qabağına tökərlər.

---

[47]Doyar qarnına – doyunca

## EŞŞƏYİ İTMIŞ ADAM

Adamın biri axund yanına gedib deyir:

– Üç eşşəgimi itirmişəm, neçə gündür axtaqıram, ancaq tapa bilmirəm. Eşşəklərimi tapsınlar deyə minbərə çıxdıqda söyləsəz, çox məmnun olaram.

Axund bunun sözünə "olur", – deyə cavab verdi. Gecə minbər üstə moizə elədikdən sonra dedi:

– Hamı diqqət etsin, içinizdə gözəllikdən və gözəldən xoşlanmayan varmı?

Məclisdə oturanların biri üzünü axunda tutub dedi:

– Mənim gözəllikdən və gözəldən zəhləm gedir.

– Gəl, qabaqda minbərin aşağısında dayan.

Axund yenə deyir:

– Kim Allahın verdiyi nemətlərdən faydalanmaq istəmir?

Yenə biri qalxıb:

– Ağa, o adam mənəm. Məncə, bədənimizin bu üzvləri nemət deyil qalsın, hələ çətinlik də sayılırlar.

– Gəl qabağa, minbərin aşağısında o birisinin yanında dayan.

Axund yenə deyir:

– Kim insanlara yardım edib, əllərindən tutmaq istəməz?

Məclisin dibindən biri qalxıb, dedi:

– Ağa, mənim bu ikiayaqlı canavarlardan zəhləm gedir. Həqq-qiyamət günü yenə bunlların üzünü görəcəgimdən narahatam.

Axund onu da o birilərinin yanına çağırıb, üzünü eşşəgini itirən kişiyə tutub dedi:

– Gəl, eşşəklərini apar.

## MƏRDALI

Dəmiryolunun qırağında Mərdalı qardaşıynan durmuşdular. Qatar gəlib keçir. Qatarın uzunluğunu seyr edəndən sonra deyir:

– Qardaş, yaxşı ki, bu qatar uzununa getdi. Eninə getsəydi, kəndi aparardı.

## ÜZÜAĞ ÇIXDIM

Bir malik öz rəiyyətlərini, çobanlarını çox incidirdi. Bir gün baş çoban özünə yaxın çobanları yığıb deyir:

– Mən istəyirəm ərbabın məndə olduğu yüz qoyuna bir hesab düzəldəm. Sonra qoyunları özüm üçün ortaq istifadə edəm.

Onlar razılaşırlar. Baş çoban bir kuzə qatıq götürüb bir nəfər özgə çoban ilə şəhərə gəlirlər. Çoban ərbabın yanına gəlib dedi:

– Gəlmişəm qoyunların hesabını verəm.

Ərbab dedi:

–Ver görək.

Çoban dedi:

– Qırxını verdim qəssaba, qırxın gətirmə hesaba, yerdə qaldı iyirmisi, doqquzu dağdan uçdu, digər doqquzu isə dərəyə düşdü. Yerdə qaldı ikisi. Bu da birisinin dərisi. Yerdə qaldı birisi, mənə verirsən, ver. Çoban haqqı-hesabı edirsən, et.

Ərbab əsəbiləşir, qatıq kuzəsini vurur çobanın başına. Qatıq dağılır çobanın üz-gözünə. Çoban qapıya çıxıb özüynən gələn yoldaşına deyir:

– Bax gördün, üzüağ çıxdım.

## YAXŞI FİKİR

Adamın biri eşşəgini götürüb bir şeylər almaq üçün şəhərə yollandı. İstədiklərini aldıqdan sonra onları xurcunun bir tərəfinə qoydu, ancaq xurcun eşşəgin belindən düşməsin deyə, o biri tərəfini də daş ilə doldurdu.Yolda gedərkən bir kişi ilə rastlaşdı. Kişi onun durumunu gördükdə daşları xurcundan boşaldıb, aldıqlarını iki yerə bölməklə özünün də rahatcasına eşşəgə minməsindən danışdı. Kəndli onun sözünü bəyənib, o deyən kimi elədi.

Bu durumdan razı düşən kəndli öz-özünə dedi: “Bu kişi bu huş-başla çox varlı-karlı olmalıdır”. Buna görə də kişidən soruşdu:

– Neçə baş qoyunun var?

Kişi cavabında:

– On baş.

Kəndli özünü 50 baş qoyunu ilə müqaysə etdikdə onun varının az olduğunu gördü. Sonra əkin yerləri və başqa mal varlığından xəbər aldı və hamısında özünün daha varlı olduğunu gördü. Belə olduqda bir daha xurcunun içini daş ilə doldurub, dedi:

– Sənin əqlinlə getsəm, var-dövlətimi itirrəm, qoy elə öz əqlim ilə gedim.

## BƏLƏDİYYƏNİN ƏMRİ

Təbrizin Saət qabağı meydanından bir az yuxarı bir dükançı varıydı. Bir gün axşama yaxın tanışlardan biri onun dükanına gəlir. Axşamüstü dükanı bağlayıb, evə gedəndə dükançı dükanın qabağındakı ağacı çıxarıb dükana qoyur. Qonaq heyrətlə soruşur:

– Nə üçün ağacı çıxarıb dükana qoydun?

Dükançı deyir:

– Bələdiyyə gətirib xiyabanın qırağına ağac əkib və əmr eləyib kimin dükanının qabağındakı ağac sına-zad eyləyə o dükançıdan beş tümən (o zamanın pulu) cərimə alınacaqdır. Mən də qorxuram, gecə bar-bazar yetimləri gəlib bu ağacı sındıralar. Onda gərək beş tümən cərimə verəm.

## BƏHANƏ

Kənd müəllimi şagirddən soruşur:

– Oğlum, niyə məşğələlərini yazmayıbsan?

Şagird cavab verdi:

– Ağa, vallah gecə gətirdim qoydum qabağıma yazam, səbr gəldi, yazmadım.

## DAR BACA, YOĞUN ARVAD

İki kəndli Təbrizə gedib gəzirdilər. Sinemanın bilet satılan yerinin bacasından darısqal bir otaqda bir yoğun, ətli arvad görürlər, oturub bilet satır. Biri deyir:

– Görəsən, bu yoğun arvadı bu dar bacadan nə cür içəri soxublar?

O birisi deyir:

– Hətma, uşaqlıqdan qoyublar, orda qalıb böyüyüb.

Əlbət də, bilet satılan yerin içəri aşılan qapısı eşigdən baxanda görünməyirdi.

## İBRƏTİ DANIŞIQ

Bir gəncin (cavanın) atası Məhəmməd iki-üç nəfər yaxın qohumlarıyla oğlunun sevdigi qızın dədəsinin rəzılığını almaq üçün gecə ilə qız evinə elçi gedirlər. Öncədən Məhəmməd kişiyə bərk-bərk tapşırmışdılar ki, amandı, sən danışma, bara qoyarsan ha! Qoy bu birisiləri danışsın. Çay işəndən sonra qızın dədəsi Məhəmməd kişini yaxşı tanıyırdı, söz çəkmək üçün tez-tez soruşurdu:

– Ağa Məhəmməd, nə yaxşı belə?

Məhəmməd kişi ki, özünü böyütmək üçün istəyirdi danışsın, dedi:

– Vallah, gəlmişik sizin əbiyəni (atanı) alaq bizim əxiyəyə (qardaşa).

## RAHAT YAT

Bir gün Xoyun kəndlərinin birində əli dəgənəkli bir kişi müztərəb halda tələsik gəlirdi. Bir adam kişidən soruşdu:

– A kişi, nə olub, nə itiribsən?

– Qərə inəgim itibdir.

– Get evinə, rahat yat, naxırın hamısını sel apardı.

## ZİRƏNG ARVAD

Birər arvadın bir inəkləri varıydı. Günlərin birində inəgi suvarmağa ikisi də ərindilər, o dedi, "sən apar" bu dedi, "sən apar". Nəhayət, susmağa qərar verdilər, danışan inəgi suvarmağa aparacaqdı. Neçə saət səssiz oturdular. Xanım darıxıb, qonşuya getdi. Qonşu nahara aş pişirmişdi. Arvadı qonaq saxlayıb, kişiyə də bir kasa çəkdilər. Qonşu uşağı aşı gətirib:

– Xanımın nahara bizə gəli, bu aşı da dedilər, sənə gətirim. İndi haraya qoyum?

Kişi öz-zünə fikirləşdi: "Bura bax, arvad bu uşağı göndərib, məni danışdıra. Onda inəgin suvarmağı mənim boynuma düşər". Kişi dinmədi. Uşaq əl çəkməyib necə dəfə təkrar soruşduqda, kişi qəzəblənib, əlini qovzayıb çaldı başına ki, gətir, tök başıma. Uşaq bunu doğru sayıb, həmin işi gördü. Aş kişinin əgin-başından süzüb, axdı, ancaq inək suvarmağın dərdindən yenə dinmədi.

Uşaq qayıdıb getdikdən sonra küçədən neçə yüklü eşşəgi olan bir kişi keçirdi. Susayan kişi dedi: "Qoy bu evdən bir az su alım, içim". Qapını açıb səslədi:

– Ay ev yiyəsi, Allah yolunda mənə bir az su verin, içim, səvabdır.

Bu anda gözü üstü-başından aş süsülən kişiyə sataşdı. İçəri girib soruşdu:

– Kişi, niyə belə? Sənə nə olub?

Divardan səs çıxdı, kışıdən gəlmədi. Əlinə döndüyüm, evdə hər nə varıydı, yığışdırıb eşşəklərə yükləyib, düzələr yola.

Bir azdan sonra arvad evə qayıtdı. Kişini bu halda və evi boş görəndə dedi:

– Başı daşlı, bu nə haldı?

– Ahan! İnəgi aparıb suvaracaqsan.

Arvad çığırdı:

– Axmaq kişi, di görüm, evin seyləri necə olub?

– Necə olacaq? Əvvəl aş bəhanəsinə uşağı göndərdin, o danışdırammadı, sonra eşşəkçini göndərdin, o da danışdırammadı, evin seylərini də o yığışdırıb apardı.

– Başına kül ələyim, Allah ağıl paylayanda sən hansı təndirin küfləsində idin?

## CİN

Bir kişi çöldə əkin suvarırdı. Az dincəlmək üçün boynunu düzəldib, əlindəki belə dayanır. Bir də görür, qabağında uzun bir şey dayanıb, ha yuxarı baxır, o şey göyə kimi uzanmışdı. Bunun cin olduğunu düşünüb, beli yerə atıb, "tuv" dabana, kəndə sarı göturülür. Çox qaçandan sonra dayanır. Yenə uzun şey qabağında durmuş idi. İki ayaq da borc alıb, var gücü ilə yenə qaçdı. İkinci dəfə dayanır. Yox, uzun şey yenə onu buraxmayırdı. Yenə qaçır. Gəlib gurultu ilə evə təpilir. Ailəsi başına yığışır. "Kişi, nə olub?"– deynən, arvadı soruşur. Çırağın işığında kişinin gözü börkündən sallanmış ağ sapı görür və uzun şeyin nə olduğunu başa düşür. Kişinin dincəldigini bəyan edən boğaz və burunundan yumuşaq bir səs çıxır: "Heyyy!"

## QƏSSAB

Qonşuluğumuzda (Nəqdə şəhrində) iki arvadlı bir qəssab yaşayırdı. Günlərin birində xanımının tez-tez pəncərə qabağına gedib, eşiyə baxdığını görür. Qəzəblə deyir:

– Birini gözləyirsən?

– Yox, nigaran olma. Keçənlərdə toyuqlarımızın biri xoruz kimi banladı, ona görə duayazan yanına gedib, hal-qəziyəni dedim. Adam "ilk banladığında nə gün idi?", – deyə soruşdu. "Yadımda qalmayıb, ağa!", – deyə cavab verdim. Sonra "Banlayanda üzü hansı tərəfə idi?", – deyə soruşdu. "Vallah, buna da diqqət yetirmədim", – dedim. Deyib, gözdə-qulaqda ol, banlayanda durduğu yerin torpağından mənim üçün gətir, indi mən də onun harada durub, banlayacağını gözləyirəm.

Qəssab bunu eşidəndən sonra xanımına dedi:

– Xanımcan! O toyuğu apar ver, dua yazan yesin. Bəlkə daha belə oyunlar çıxartmasın, biz də biryolluq rahatlaşaq.

## QƏBRİSTANLIQDA BOŞ YER YOXDUR!

İllərin birində Həsənlu qəsəbəsində[48]ölüm-itim çoxalır. Qəsəbə adamı nigəran qalıb, Namaz adlı bir kişiyə deyirlər:

– Sən qabaqcadan qəbristanlığa ged, biz cənazəni gətirdigimizdə sənə səslənəcəyik: "Namaz, bu cənazə üçün də yer vardı, gətirək?" Sən də cavabımızda de: "Gətirməyin, gətirməyin, daha yer qalmayıb." Bəlkə beləliklə, Allah rəhmə gəlsin, bəsdi daha, çox adam ölübdü.

Namaz qəbristana yollanıb, cənazəni gətirənləri gözləyir. Cəmaət qəbristana yaxınlaşdıqda, tabutu yerə qoyub, səsləyirlər:

– Bu meyit üçün də yer vardı?

Namaz onların cavabında uca səslə deyir:

–Yerə nə gəlib! Buradan Ağqalaya[49] kimi hər yer bütün boşdu, gətirin, Allah işizə bərəkət versin, təziyyə, cənazə savabından uzaq olmayasız.

## KASIB EVİ

Urmu şəhərinə tabe Boydaş (Nəcəfabad) kəndinə mənsub bir şəxsin dedigınə görə, kənddə kasıb bir kişinin evinin damı hər yağış yağanda damcılayırdı. Bu kişi belə günlərin biri eşiyə çıxıb, yaşğışın kəsdigini görür, ancaq evinin damı hələ də damcılamaqda idi. Kişi üzünü evinə sarı tutub, deyir:

– Ev olmadın, olmadın, barı eşik ol.

---

[48] Həsənlu qəsəbəsi – Sulduz mahalında yerləşir.

[49]Ağqala – Sulduzda kənd

## ZƏNA DEYİL, ZİNA

Azərbaycan şəhərlərinin birində adı pisliklərlə dilə gətirilən və şəxsiyyəti hörmətdən uzaq sayılan Nadəli adında biri yaşayırdı. Buna görə də, "Zəna Nadəli" adı ilə tanınırdı. Deyilən sifətlərlə tanındığından dolayı bütün qapıları üzünə bağlanmış, heç eldən qız ala bilmirdi. Subaylığın daşını atıb, evlilik yaşaya bilsin deyə, başqa şəhərdən gəlin gətirib, evlənmək qərarına gəldi. Maku şəhərindən gətirdigi gəlinlə aylar yaşadıqdan sonra bir gün xanımı ondan soruşdu:

– Ağa Nadəli, nə üçün sizə "Zəna Nadəli" deyirlər?

Cavabında deyir:

– Yox, tərsə eşitmiş ola bilərsən, mənə "Zina Nadəli" deyirlər.

## HAMI TƏQSİRLƏR MƏNDƏ İMİŞ

Bir gün Molla Nəsrədinin evinə oğru girmişdi. Səhər qonşular yığılıb mollanı danlamağa başladılar. Biri dedi:

– Molla, niyə qapını möhkəm bağlamamışdın ki, oğru aça bilməyə?

Biri dedi:

– Kişi, sən necə yatmışdın ki, oğru gəlib, bilməmisən?

Biri dedi:

– Kişi, sən niyə qiymətli şeyləri bir yerdə gizlətməmişdin?

Hərə bir söz dedikdə molla deyir:

– Bəs məlum olalı, oğrunun heç günahı yox imiş, hamı təqsirlər məndə imiş.

## İKİ ÇUVAL EDƏCƏKDİM

Bir gün Mollanın bir cüt çuvalını oğurlamışdılar. Molla car çəkib dedi:

– Mənim çuvallarım tapılmasa, bir iş görəcəyəm ki, hamı heyran qala.

Oğrular dedilər, bu Molladan hər nə desən çıxar, yaxşısıdı, çuvallarını verək. Gətirib çuvalları verdilər, sora dedilər:

– Molla, sən ki bu qədər təhdid edirdin, de görək, çuvalları tapmasaydın, nə iş görəcəkdin?

Molla dedi:

– Heç, evdə bir böyük xurcunumuz var idi, onu aradan kəsib, iki çuval edəcəkdim.

## ÖZÜNÜZ BAXIN

Bir günləri Molla arvadına deyir:

– Çıxginən damda ünləginən, deginən Molla saman altda.

Arvad çıxar dama, ünlyər:

– Molla anbarda qalıb saman altında, gəlin buna necat verin.

Hər dəm yığılı, hovlu gəli Mollanın anbarına. Qapını açarlar, görərlər mollanın gözləri o qaranlıq guşədə parıldır. Deyərlər:

– Molla, bəs sənin arvadın deyir, bəs sən qalmısan saman altda!

– Baba, mənim samanım tükənibdi, istirdim deyəm "samanım yox", gördüm heç kəs inanmaz, indi dedim, qalmışam saman altda. Özüz baxın görün, anbar boş.

## MƏN MƏGƏR BELƏ DEMİŞDİM?

Deyirlər ki, bir gün molla yol gedirdi, yorulmuşdu. Deyir:

– Xudavənda, bir mərkəb mənim üçün yetir ki, mənsəvar olum. Daha piyadə yol getməyə taqətim qalmadı.

Nagahan bir piyadə digəri yorulub yolda qalmışdı. Mollanı tutub dalına səvar oldu. Molla nəhayətdə xəşmigin olub dedi:

– Xudavənda, altmış ildir ki, Allahlıq eyliyirsən, hələ də sözümü anlamırsan. Mən məgər belə demişdim?

## VƏRƏSƏLƏR ÜSTÜNDƏ SAVAŞIRLAR

Bir gün bir məclisdə Bəhlul Danəndəni danlayıb nəsihət edirlər ki, pullarını korlama, dalı yanına bir zad qoysun. Bəhlul üzdən gedib dedi:

– Yaxşı, bunadan sora...

Bir azdan sonra şam araya gələndə Bəhlul bir kasa xörək götürüb dalısında gizlətdi. Şamın arasında bir də gördülər ki, Bəhlulun dalısında pişiklər boğuşurlar. Dedilər:

– Bəhlul, genə nə iş çıxardıbsan orda?

Bəhlul dedi:

– Bir iş görmənişəm, bir zad dalı yana qoymuşdum, indi vərəsələr üstündə savaşırlar.

## YAVAN YEYƏCƏK Kİ ...

Bir gün bir nəfər çörəkçixanadan bir dənə çörək götürüb qaçdı. Bu tərəfdən bir doşabçı dükandan eşigə yığdığı doşabları surətlə dükanın işinə qaytarmağa başladı. Dedilər:

– Sənə nə oldu? Bəs sən niyə doşabları içəri yığırsan?

Dedi:

– Doşabı oğurlayan onu yavan yeyəcək ki....

## ÇOX YORULDUM, BİR DƏNƏ ÇAY VERİN

Bir nəfər gedər qəhvəxanaya, elə bir çox yorğun imiş, bir dənə çay istər. Qəhvəçi çayı xidmətinə gətirər. İçəndən sonra deyir:

– Bir dana da gətir.

Bu elə on dəqiqə, on beş dəqiqə təkrar olar. Axır qəhvəçi cana gələr, deyər:

– Qərdəş, sən, doğrudan, yorulmadın bir belə çay içməkdən?

Deyər:

– İttifaqa, düz buyurursuz. Çox yoruldum, bir dana çay verin, bu yorğunluğum çıxsın.

# MƏRASİMLƏR

## ÇİLLƏ MƏRASİMİ

...Çillə gecəsi İranda, daha Azərbaycanda ilin lap uzun gecəsi və qaranlıx gecəsidir. O gecələr məmulən çün qışın lap şiddətdi zamanında olar, çox soyuğ olar. Qədimnən Azərbaycanda bu gecənin məxsus rəsmləri vardı ki, onu tutallar, o mərasimi geçirəllər. Bu mərasimdə çilləyə, çillə gününə Azərbaycanda məxsus yemişlər, məmulən qarpız, çox məşurdu ki, o gecə hetmən gerəh qarpız yiyilə o gecə. Əlbət də, qədim zamannar biz ki, qədim uşaxlıx dörəmizdə kürsü qurardığ evdə. Kürsünün dörəsində əyləşərdıx, o gecəyə məsələm iydə, kişmiş, milax, qarpız, qarpızı məmulən samannıxda saxlardıx, o zamana çün qarpız çətin qalar. O zaman biz bunı qoyardıx samana quylardıx, saman içində, samannıxda saxlardıx və gətirərdih kəsərdıx bını. Qonşular yığışardı bir-binə, bir-birin evinə, o gecə şənnih tutardıla, şadlığ elərdilər. O qarpızı kəsərdilər ta gecənin nisfinə kimin oturardıla, məxsuz şirin-şirin nağıllar diyərdilər. Çün o gecə uzunudu, o gecəni təğribən yarıya kimin danışardıla. Sora hər kəs gedərdi öz evnə və yatardı. O gecəyə də məxsuz bizim mərsimlərmiz var və nağıllarmız var, sözlərmiz vardı ki, çox deyilməli və eşitməli bir zatdılar.

## ÇİLLƏ NƏĞMƏLƏRİ

Çillənin xonçasında,
Payızın boğçasında.
Anam yemiş saxlayıb,
Evimizin taxçasında.

Qızılgül qonçasında,
Şeh dondu qonçasında.

Sevgimə nar göndərdim,
Çillənin xonçasında.

Oğurlayıb ulduzu,
Anamın gözəl qızı.
Göy göydən günəş alıb,
Çilləmizin qarpızı.

Narların danaları,
Göstərir balaları.
Hayata nəfəs verir,
Yurdumun anaları.

Hər yer dondu, sərindi.
Qar kövşənə sərildi.
Çillənin xonçasını
Döşəmişəm, gəl indi!

Milaxlar şirinləşib,
Şənlik deyib, birləşib.
Him bir olub peşməgə,
Oturum, şirinləşib.

Başladı qar buludlar,
Səslədi, hay buludlar.
Deyin, yanıma gəlsin,
Çox sözüm var, buludlar.

Ocaqlar gur-gur yanır,
Alvan alov qovzanır.
Qara bulud dalından
Şən günəşim boylanır.

Əllərin saza bənzər,
Boyun gülnaza bənzər.
Bir kərə səni görsəm,
Çilləm də yaza bənzər.

Gözümdən tamazılar,
Gizlənib tam arzılar.
Hamı şənlik edəndə,
Hə edər tamarzılar?

Payız getdi, qış gəldi,
Sona getdi, quş gəldi.
Bilmədim, nə danışdım,
Sözüm sənə xoş gəldi.

Uca dağlar hərəsi,
Qaldı kəhlik qərəsi.
Sevgim bizə gəleydi,
Qışın uzun gecəsi.

Böyük çillə gələndə,
Şaxta sümük dələndə.
Yoxsulun canı çıxdı,
Külək qapı döyəndə.

Çillə gəlsin, xoş gəlsin.
Qar talaya tuş gəlsin.
Ağır qardan bərəkət,
Şəhərmizə xoş gəlsin.

Şaxtamı kəndə salaram,
Ağacları çatladaram.
Hər yanı buz bağladaram,
Təmam xəlqi ağladaram.

**Böyük çillə:**

Qabağın yazdır sənin,
Ömrün azdır sənin.
Hərbə-zorba demə çün,
Fikrin dəyazdır sənin.

## AXIR ÇƏRŞƏNBƏ
### I mətn

... Axır çərşəmbədə elə genə o cür, tamam namzəd qızlara pay gedər. Bu biysi qızlara, hər kəs izdivac eliyib, əri var, uşağı var, elə olara da. Əyə ağası olsa, maması olsa, olardan pay gələr.

Axşam oldu, ot yandıralla, otun üsdünnən atdanallar, diyəllər: "Sənin qırmızılığın mənə, mənim sarılığım sənə".

Gecə bəzi qızlar, ya oğlannar, gedəllə bi ayrı hemsayəni evində qulağ asalla, göyələ, orda nəmənə diyillər. Bu, niyyət tutubdu, görə olar, nəmnə danışır, bunun niyyətinə xoş söz desələ, bu, xoşhal olar, xoş söz deməsələ, xoşhal olmaz.

Bi dənə üş yolun ayrımında kilid qoyalla, duralla. Bi nəfər adam, yolda geçən, bi söz diyər: eyər bunun düz olsa, bu xoşal olar, olmasa, yox.

Onnan sora tamam uşaxlar, gələllə damnar üsdə, yol üsdə. Damnar üsdən kicavə salallar pencərələən qabağına, diyəllər: "Bıllı-bıllı sallamışıx, bizim payımızı verin".

### II mətn

Bizim məntəqədə məxsusən kəndimizdə axır çərşəmbəni, qədim ne cür idi, o cür tutallar. Axır çərşəmbədə ot yandıralla. Bi iddəsi yerdə yandırar biyəzi çıxar, damda yandırar. Ot yandırannan sora, qutulanda o közün də damnan bu cür səpəllə aşşağı. Səpib qutulannan sora gecə oldı, gecə de gələllə gedəllə bir-birin evinə bıllı-bıllı sallalla. Bu bıllı-bıllı, bizim məntəqədə

bi dənə resm idi. Bıllı-bıllını gətirəllə paçadan atalla içəri. O atan özün görsətməz. Əşşağıda şalına indi hər nə osa bağlalla. O da çəkər götürər aparar, özün görsətməz. Sora dalda açə baxa görə şirnidi, nəmənədi, aça, baxa ona. Beyan günnər də il təvil olan gün hamı gedə böyühlərin evinə. Böyühlərin təbrih diyəllə, əyləşəllə bi şirni yiəllə, zad eləllə. Üş gün təğbən bu mərasimi rəsmi tutalla üş gün. Üş günnən sora gedib gəlməsi olar. Yavaş-yavaş da bu mərasim qutular çıxar gedər.

## III mətn

Çərşəmbə axşamı mərdüm[50] yığışar, kəndin rəsmi rusuminən hər kəsən öz damına çıxar ot yandıralla. Uşaxları otdan atdandıralla, özləri atdanalla. Onnan geşdi, ersinnən damnarun dörəsinə cızıx çəkəllər. Onu valla, heş özüm də bilmərəm, elə deyəllə rəsmidi. Bayramda ki oldu, belə il bayramda hamu əvvəl kiçiklər gedər böyüklərün yaana. Mərdüm bir-biriynən get-gəli oley. Bu onun evinə, o bının evinə. ... Bü cürdü ki, mərdüm çıxey təbiətdən istifadə eləməyə. Çıxella gezməyə, dolanmağa, qəza, nahar filan çöldə. Biləxirə bilənçilik.

## IV mətn

Kəndin mərasimi oydu, çıxardılar əvvəl şal sallıyardılar. İndi şal sallamax yoxdu, pencərəyə gələllər. Pəncərədən atallar şalı sallalar, ya gələllər qapıya, ya gələllər evə. Apararığ ona pul verərik, ya yumurta verərik, ya badam verərik. Diəək: “Bayramıyız mubarey ossun”. Bizim bacıya gələrdilər. Mən getdim, bi qutu kirbit bağladım. Dedi: “İşıxlığa çıxasan”. Bunun uşağı olmurdu, bu qonşumuzun uşağı olmurdu. Bi qutu kirbit bağladım, bi dəstə də göy qırtdım, bağladım. Bi dənə qızım varıdı evdə o mənnən dava ilədi, dedi: “Ona niyə bağladın?”. Elə sevindi, elə sevindi, səhərdən arvat gəldi, dedi: “İşıxlığa çıxasan”. Bi dənə balası oldı. Üş dənə oğlu oldu, iki dənə qızı.

---

[50]Mərdüm – camaat, insanlar

## ÇƏRŞƏNBƏ MƏRASİMİ NƏĞMƏLƏRİ

Dərdim, bəlam, diş ağrım,
Ağırlığım, baş ağrım.
Tökülsün odda yansın,
Mənim baxdım oyansın.

Nə dovra ha, nə dovra,
Tonqalı xırda dovra.
Nə dara ha, nədara,
Şah getdi Qəndəhara.

Gəldi gülün çərşənbə,
İldə bir gün çərşənbə.
Ürəkdə arzım budur,
Ola yüz gün çərşənbə.

Dərdim çoxdur, ağlaram,
Hər görəni dağlaram.
Yarım qurşaq sallasa,
Özümü də bağlaram.

Su gəlir sıxım-sıxım,
Susuzladım, su içim.
Sevgim bulaq başında,
Keçmişdim, bir də keçim.

Bulaqdan düşdü yolum,
Çiçəkdir sağım, solum.
Bulaq, mənim bəxtim aç,
Mən sənə qurban olum.

O bulaq, qoşa bulaq,
Daşlanır daşa bulaq.

Mənim bəxtimi açdın,
Min illər yaşa, bulaq.

Xonçanı işlə, göndər,
Şirin yemişlə, göndər.
Mənə alma göndərsən,
Birini dişlə, göndər.

Yol üstə saldım açar,
Qalmışam Allah, naçar,
Biri şirin söz desə,
Könlüm qəfəsdən uçar.

## TOY MƏRASİMLƏRİ

### I mətn

Toyda vəğti ki, toy tamam oldi, axşam olur, gedirix, gelni, götüürüh, aparıx. Dolandıralla, gedəllə, bi səri dolandıralla gələllə. Elə ki, yetişdilə damadın qapsına, erus[51] xanımı saxlalla qapı qabağında, damat gedər indi ya dam üsdə, ya pəncərədə üş dənə alma atar. O almanı indi kim tutur, çox məsələm adam hazır olar almanı tussun. Onnan sora erus xanımın başına pul səpər, noğul səpər, onna sora damat gələr. Bahəm əyləşəllər, gəlib gedənə "xoş gəldin" eləllər.

### II mətn

Zəh vırallar qızın evinə. Oğlan evi, zəh vırar qızın evinə. Vəx qoyallar, məsələn, bu gün geleceyıx bu saatdə. Xəstəgar gələllər. Bəd o xastəgaridə danışallar. Hər nəmnəni danışallar. Qız harda qalacax, hansı evdə qalacax, kimin evində. Qeynata evində qalacax, ya oğlanın öz evi vardı, qalacax,

[51]Erus – gəlin

ya mostəcər qalacaxla. Bularun hamısın danışarlar. Sora ki tefahümə yetişdiler, bələni verdi qız evi, indi məsələn diyərlə, beş günnən sora ya sabah, on günnən sora hər vəxd gələllər. Bi dənə qət sındırma[52] vardı. O qət sındırmada qızın dayıları, əmiləri, böyühlər, bi də oğlanın böyühləri gələllər orda qət sındırallar, üzüh taxallar. Hala o üzüh taxmaxda mümkündü. Birisi var nişannı qalır, fəqət üzüh taxılla da əğd olmur, üzüyü taxıllar, beş ay, bir il hər kəs öz sonnətinə görə. Sora o üzüh taxannan sora o, 15 moddətin arasında moşkeli qabağa gəlmədi, gedillə neynillər əğd elillə. Əğdi də hala ya gedillə mehzərdə bi dənə xususi malla əğd oxur, ya da evdə mofesseh malla gəlir evə. Qonaxları dəvət elillər, hər kəs özünə görə əlli nəfər, yüz nəfər. Bəd ki əğdi oxudular, bi dənə çeşni olurı. Mivə[53] və şini[54], ya çalıb oynamağ. O hala hər kəs öz dəramədinə görə şam verə bilər, müfəssəl, ya yox elə nahardan sora bi denə çalıb oynamax, mivə, şirni mehmani qutular. Sora o söhbətdə ki eliyiplə, havağa yetişi, toya yetişir ki, nə vax toy eliyəcəxlə. İndi genə bəzilər namzədi kimin ki feğət üzüh taxmışdıla, münkündü əğddən sora beş ay, bir il, iki il ö cür qalalar. Sora onnan sora, ruzi-ərusini tein elillər. O gün toydu da. İndi qeblən çoxtər elərdilə, indi çox azalıptı, həman həna gecə tutulla. Oğlana həna gecə tutulla, qıza həna gecə tutulla. Oğlana həna gecə tutanda, qız evi bi səri vəsail alır aparır oğlana: kot şəlvar, da hə kəs hər nə xoşu gəldi. Bıları xonnarda aparılla oğlan evinə ki, onın səhərisi də toydı. Məsələn, oğlanın yoldaşları yığışılla, süb biləsin dörtdə, beşdə aparalla oğlanı hamama, oğlan hamamına. Orda məsəm istəxr tutulla, nədi çalıb oynama, oğlan yoldaşları. Sora saldış, solduş oluri biri. İki dənə yoldaşlarınnan saldış, soldış olur. Hamamnan çı-

---

[52]Qət sındırma – qənd sındırma
[53] Mivə – meyvə
[54]Şini – şirni

xannan sora gəlir, o süphün tamam sobhanəsi[55] saldışıyna solduşun boynınadı. Hala saldış, solduş xamə, kərə hər nə xoş gəlsə, təzə çörəh alılla yiyillə. Hərə gediri öz işinin dalsıca ki, nahardan sora nəmnədi? Toydı ki, süphi də gəlin gediri ərəşgaha, ta nahara kimin. O mərahil ki, toy oldı, toy oluri. İndi hala hər kəs istəsə talar tutulla. Talarda da xanım, ağa ayrıdı. Yox, bi nəfər istəsə qarışıx ola, bağ tutulla, sərd-xana tutulla. Orda xanım, ağalar qatışıxdı. Xas bi zat da olmur. Gənə çalıb oynamağ, o gəlinə qızıl taxmağ o, kadoları vərmağ. Oldu ki, axşam qutulur gedir, gəlinnən damadı aparılla, indi ya öz evləri olsa öz evlərinə, bəd ya qeynatasıın evinə. Orda da bi yarım saat, bi saat oturulla, hərə durur dağılır gedir. Sabahısı bənde-təxt idi ki, ona da fəğət xanımnar gəlir, nahardan sora. Mehmanı kimindi, döt-beş dənə mehmani də qonaxlıx olurı, xas bir zat yoxdı, elə mivə, şirni, çalıb oynamax, xanım olur hammısı. Axşam hammısı çıxır gedir, qutuldu.

## III mətn

Toylarda yığışardılar cavannar, qocalar toylarda, cəlman deyərdıx biz, cəlman gedərdilə. Nəşə havaları vardı, yüz, əlli hava, ayaxlarıynan, əlləriynən başların tərpədib oynardıla. Məxsusən hammısı bir halda, hərəsi özünə bir halda yox. O zaman cəlman başı, toy başı deyərdilə. İki nəfər, biri ö tərəfdən, biri bu tərəfdən qarşı-qarşıya durardılar, toyların da gedərdilə, oynamaxların da oynardılar. Bu deyərdi, bu qutulanda ağzınnan söz qutulmamış, o birisi bunun ağzınnan alardı. Cəlman deyərdilə, nəşə havaları varıdı. Ona toy başı da deyərdilə, cəlman da deyərdilə. Gəlin çıxardanda gəlinin qabağında o gücli, qoli biləyi qudrətdi gücli bir insanlar güləşərdilər. Bu, onu basardı o yana, o, bunu basardı bu yana. Onnan əlavə at qovardıla gəlinin qabağında. Hanki at hamısınnan qabaxta getsəydi, əvvəldə yetişsəydi, o ata bir hədiyə, bir caizə, bir xə-

[55]Sobhanəsi – səhər yeməyi

lət verərdilər. Ama indi bu zamanda olardan az galıb, az nimunə qalıb. Getdıxcə ooza, durum dəyişir. Gönül ayrı bir yolda, indi o belə-belə vurulla səslənir, addarın mən tanımıram, yeni çıxmış bi şeylərdi, olardan çıxıb o qədim rəsmu rusumlar qalmıyıpdı. .... Biz toydan, cəlmannan, oxumaxlarınnan, mahnılarınnan, havalarınnan ad apardıq. Olar da baxardın hər hava ki, oxurdula onun əyax dəyişməsi də ona uyğunudu. Məsələn, "şeyxani" deyərdilə. Şeyxanidə şeyxani sözlərin diyərdilər, əyləmməz-əyləmməz diyərdilə:

Əyləmməz, əyləmməz bir xan əyləmməz,
Bu dünyadı gedər heş Süleyman əyləmməz.

Bunu da bir havaynan diyərdilə, ya bayatılarnan diyərdilə:

Dağdan dağa gəlmişəm,
Milsiz bağa gəlmişəm,
Bi ceyranım itipdir,
Axtarmağa gəlmişəm.

Yaxud diyərdilə belə:

Pəncərənin ışığı,
Qovdun bizdən aşığı.
Gəlmiyıb gələcəxdır,
Evmizin yaraşığı.

## IV mətn

Balovda bu toy mərasimi, toy diyəndə bilmirəm, siz bilisiz də, toy biz düyünə diyirıx burda. Balovun toyları da bizim Azərbaycan toylarınnan çox fərqli dəyi. Bir az fərqi şayəd bəzi yerlərdə ola, çox fərqli dəyi. Qız oğlan ki, bir-biri gördü, bəyəndi iş yerində, çöldə, baxçada, bağda gördü bəyəndi, təğribən demağ olar ki, Balovda rəsm bunaydı ki, oğlan səy eliyə sərbazçılığın[56] da qurtara, sora təqribən bir az müstəqil ola, bir az özün tapa, ayağ üsdə dura bilə, onnan sora gələ evlənə. Düzdü, bəzləri hərdən iştibah da elillə və gəlillə bevəx, yanı vəxtin-

[56]Sərbazçılıq – əsgərlik

də evlənmillər. Sərbazçılığın eləməmiş, ya bi iş tapbamış, ya bi öz ayağı üsdə durmamış da evlənillər, ama məmulən rəsm bunadı ki, cavannar, bircaz ayağ üsdə durmayı bacaralar, sora gələlə evlənələ. Elə ki, oğlan qız bir-biri bəyəndilər, oğlan yavaşça, məsələn, bi xalasına, ya dayısına, ya əmisinə, ya bi dos-larının birinə yavaşça diyər ki, utana-utana ki, baba, mənim dədə-nənəmə deginən ki, filan qıza elçi gessinnər. Mən isdirəm evlənim. Hər halda duralla gedəllə elçi. Elçi də getmağa əvvəldə elçi gedip elə fori[57] deməzlə, biz gəlimişığ, qız istiyax. Əvvəldə bi nəfərnən bi xəbər göndərəllər ki, biz istirix gəlax bi evizə. Tərəf də annar da ki, mənim cavan qızım var. Bularnan mənim axı da bir-birnə irtibatımız yoxdu ki, hətmən bi cərəyan var. Cərəyan da hətmən elçilıxdı. Fikir sal-çıx eləllər. Məsələn, ya diyəllər: "Felən bizim vəxdimiz yoxdu, məsələn, səbr eləyin, məsələm, payıza kimin səbr eləyin, bağ-baxçadan qurtulax", ya da ki diyəllə: "Gözümüz üsdə, gəlsinnə, eybi yoxdu". Hər halda bu cur cərəyannar bərguzar olannan sora durallar üşdöt nəfər, əvvəldə az, əvvəldə üş-döt nəfərnən, dədədi, nənədi, bi də əmidi, bi də məsələn, əmi xanımıdı, duralla gedəllə o qızın evinə. .... Hə, filən kəs bu cur də, dedi: "Allahun əmriynən, peyğəmbərin şərinən, biləxərə dünyadı. Bi qız, bir oğlanındı. Siz, əgər icazə versəz, biz oğlumuzu nökərçılığa sizə ..." Olar da diyəllə ki, xob, çox səmimi olsalar, görəsən, diyəllə ki, heş məsələ dəyi. Qız da sizindi, oğlan da sizindi. Təsmimləri siz tutun. Bu şərayıtda o əvvəl söhbətdər gedər, sora qərarlaşalla ki, ağa, biz, rəsmi gələcaax da sizə. Rəsmi gələcaax da bəhs eliyax, söhbət eliyax. Sora qərallaşalla, məsələn, diyəllə, gələn həftə filan gün oğlan evinnən on beş-yirmi nəfər yığılar. Qız evi də özünə tədarük görər, özünə görə çaydan, şirnidən, miyvədən, filanna. Oğlan evi də bi böyük gülünən, bi də bi böyük şirni qutusuynan duralla gedəllə qız evinə gecə. Məmulən, gecə

---

[57]Fori – tələsik, əvvəlcədən

şamnan sora bu iş olar. Gedəllə əyləşəllər, qız evinnən də gənə o başbilirləri, o tayfanın böyühlərin çağırallar, əyləşəllər, iki tərəf söhbət eləllər və bu söhbət arasında burda bi başlıx məsələsi var, başlıx da ibarət olur. Burda fars dilicə şirbəha, yani süt pulu, ananın sütünün pulu, bizim kəndimizdə və bu məntəğələrdə başlıx diyəllər buna, başlıx parası, başlıx pulu. Orda başlığı danışallar ki, əlbətdə danışardılar ha demağ olar. Çünkü indi yavaş-yavaş bu başlıx da aradan gədir da. Balo kəndində də yavaş-yavaş aradan gedi. Əslən başlığ alan yoxdı, çox az. Qabaxçaları ama başlıx həmişə olardı. Başlığı da alardıla, genə toya xəşlərdilə, genə həman qıza xəşlərdilə, cehizə-filana bu cur şeylərə. Bi yol başlıx danışılar, cehiz danışılar, nəm qızıl danışılar: "Qıza bi belə qızıl alacaxsız, bi belə zinət, bi belə libas falan". Bu cür şeylər danışılardı. Və sora qərar, mədar qoyular. Toy zamanı və kəbin kəsmə zəmanı qərallaşar. Soradan çıxalla gələllə. Beş gün, üş günnən sora kəbinin kəsəllər, toy mərasimi başlar. O zamannar ki, mənim yadımdadı, toyumuz üş gün olardı. Balovda üş gün toy olardı. Bir günə diyərdıx "xəlvət güni". Xəlvət güni, xəlvət kələmə farsi kəlmədi, yanı boşlux gün, yanı, heş kəs yoxdı, özgə yoxdı, xəlvət yanı heş kəs olmıyan gün, yeni adam az olan gün, ona diyəllə xəlvət. O gün də heş kəs dəvət olmazdı, çağrılmazdı. Elə toy sahapları özləri evdə gətir-götür elərdilə. Qab-qaşıx yuyardıla, evi yığışdırardıla. Bi də bi çalğıdan zatdan olsaydi, bi oxumadan, çəpihdən filannan olardı, məsəm, öz aralarında. O gün qurtulardı. İkimci gün, "həna güni" diyərdilər. Həna günündə də yavaş-yavaş qonaxlar çoxalardı, çağrılannar gələrdi. Nahar verilərdi. Gecə də ki, həna gecəsi olardı. Həna gecəsi, bu günün adı "həna günü" və "həna gecəsi" qoyıldığı illəti budu ki, o gün də gecə damadın əl-ayağına həna yaxardılar. Və ona görə də bu günə, yanı ikimci günə və ikimci gecəyə, "həna gecəsi" və "həna günü" diyərdilər. Qonaxlar da bu gecə, məxsusən həna gecəsində tamam qonaxlar çağrılardı, gələrdi toyda əyləşərdilər,

şamı yiyərdilər, şamnan sora çalardıla, oynardılar. Və bizim kəndimizdə, Balov kəndində Hüseyn Nurizadə adında qoval çalan, təbil çalan, davul, qoval çalanımız vardı ki, ittifağən elə bu Hüseyn Nurizadə, mənim özümü xalam əridi ki, qocalıd da, qoval çalmır. Bu Azərbaycanın lap gözəl qoval çalanı ki, onun qoval navalları zəbt eləmişıx, vırmışıx, navara saxlamışıx, belə gözəl musiqilərdən də ürəyə yapışan musiqilərdi ki, onun çaldığı qovallar və Sultan Əli adında da bi düdəhçisi varıdi ki, bularun düdəh və qovalları vagiən çox belə ürəyə yapışan və gözəl musiği kimin də indi istifadə olunur. Biz, mən özüm yığıb saxlamışam, qoval çalardı, düdəh çalardı. Calman gedərdilər. Calman-yallı gedərdilər cəmaət cavannar. Çox güzəl yallı gedənnər, calman gedənlər varıdi bizim kəndimiz, Balo kəndində. Bu həna gecəsi, yanı şamnan sora ki, qonaxlar şamı eləmişlə, qonaxlar içərdə bir az kəman, qavalnan çalıb oynardılar. Sora başlardıla, toya olan hədyələrin verərdilər. Sora ordan çıxardılar həyətə. Həyətdə, ya küçədə bi boş yerdə başlardıla cəlman getmağa, çalıb oynamağa. Gecə saad on ikiyə, birə, ikiyə kimin çalıb oynardıla, cəlman gedərdilər. Onnan sora həmun gecə bi də qız evinnən oğlan evinə xon[58] gələrdi. Hatta qoval, zurna, qovalnan oynıyannar, cəvannar gedərdilər. Kətdə küçələrnən belə çala-çala gedərlə qız evinə. Ordan xonnarı, təxtə xon, ya məjməhi, sini, məjməhi, şirniləri və damadın libasların o xonnarda qoyardıla üş-dört nəfər cəvannardan başlarna gətirərdilər oğlan evinə və xon mərasimi də olardı, yanı xonnarı ...orda *saldış*, *solduş* məsələsi qabağa gələrdi. Cavannardan, o toyun bəyi, məjlisin bəyi, damada sağdış və solduş intixab elərdilə cavannardan. Sora o xonnardan şirni verilərdi biləlırnə. Xonnarın içində iki dənə köynəy olardı ki, birin virərdilə sağdışa, birin solduşa. Sora xonnarın şirnisin dağıdardıla məjlisə. Və xon mərasimi də qurtulardı. Hənasın da qoyardıla bi qıraxda qalardı

[58]Xon – xonça

ki, məclis qurtulannan sora damadın yaxın familləri yığılallar, həna mərasimi, yəni damadı əlinə həna qoyallar və gecəni yatallar ta sabah da ki, toyun axır güniydi. O günə də *gəlin çıxma güni* diyərdilər. Axşama kimin həyətdə çalardılar, oynardılar, cəlman gedərdilər və axşam başı da ki, yığılıb gedərdilə gəlini götürüb gələrdilər ki, məmulən o zaman ki, mənim yadımdadı otuz beş, qırx il, əlli il bunnan qabax, bizim uşaxlıx zamanımızda da maşın-zad o şəraitdə yoxıdı ki, gəlini gedib maşınnan gətirələr, atınan gətirərdilər. Məsəm, arabaynan gətirərdilər, ya yol yaxın olanda, o küçədən bu küçəyə olanda elə piyada gətirərdilər. Elə yerdə gələrdi gəlin, dörəsində oynıya-oynıya gətirərdlər. Sora yavaş-yavaş maşınnar çıxdı da. Bu oldu toy...

**V mətn**

Həna gecələri həna tutardılar. Toy eliyərdilər, şal sallıyardılar, toy çalardılar, deyərdilər, gəlin, həna gecəsidi. Böyün həna gecəsidi. Gəlinə, damədə həna tutardılar. Damədə xon yollıyardılar. Damədə xon yollıyardılar, qız evinə xon yollıyardılar. Orda xonı qoyardılar, damədi tərifliyərdilər. Sağ olsun damədin atası, sağ olsun anası. Var olsun eli, tayfası. Səhər gəlin çıxardardılar. Gəlini götürərdilər, qoyardıla maşına, ətir səpərdilər başına, qismət olardı qardaşına:

Ay gəlin, mübarəkdi toyun,
Ay ərus, mubarəkdi toyun.
Ərusu qoydim maşına,
Qismət ola qardaşına.
Ərus, mubarəkdi toyun,
Gəlin, mubarəkdi toyun.

Maşallah, gəlin reyhana bənzir,
Gəlinin gözləri ceyrana bənzir.
Bazardan aldım soğanı,
O soğanı, bu soğanı,
Sağ olsun ərus doğanı.

Toyun mubarəkdi, ərus,
Toyun mubarəkdi, ərus.

Bazardan aldım məkəni,
O məkəni, bu məkəni,
Sağ olsun oğlan əkəni.
Toyn mübarəkdi, ərus,
Toyun mübarəkdi, ərus.

## TOY NƏĞMƏLƏRİ

Gəlin, çıxart corabların,
Ağrımasın ayaqların,
Xoş gəlibdi qonaqların.
Toylar mübarək, mübarək olsun, bada.
Ey gülü-reyhan, reyhan biçərəm mən,
Damad yolunda candan keçərəm mən.

Bazardan aldım badamı,
O adamı, bu adamı.
Sağ olsun oğlan adamı.
Ey gülü-reyhan, reyhan biçərəm mən,
Damad yolunda candan keçərəm mən.

Bazardan aldım qovunu,
O qovunu, bu qovunu,
Sağ olsun oğlan qohumu.
Ey gülü-reyhan, reyhan biçərəm mən,
Damad yolunda candan keçərəm mən.

Gəlindi evlərin gülü,
Oxuyur şeyda bülbülü,
Anasının şirin dili.
Ey gülü-reyhan, reyhan biçərəm mən,
Damad yolunda candan keçərəm mən.

Bazardan aldım camları,
O camları, bu camları.
Sağ olsun xalacanları.
Ey gülü-reyhan, reyhan biçərəm mən,
Damad yolunda candan keçərəm mən.

Bazardan aldım soğanı,
O soğanı, bu soğanı.
Sağ olsun oğlan doğanı.
Ey gülü-reyhan, reyhan biçərəm mən,
Damad yolunda candan keçərəm mən.

Bazardan gəlir aynası,
Üstündə var nişanası.
El-tayfanın bir danası.
Ey gülü-reyhan, reyhan biçərəm mən,
Damad yolunda candan keçərəm mən.

* * *

Gəlin deyər ata-ata,
Yaş tökər yata-yata.
Ağa qaynatan sənə ata.

Bazardan aldım sehini,
O sehini, bu sehini.
Sağ olsun qızın qeyini.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bəgin canına nuş gəldin.

Çıraqqazları yandırın,
Tənəbəni dolandırın,
Ağa bəgə göz yandırın.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bəgin canına nuş gəldin.

Gəlin potunun[59] sarı,
Geymə, dabanın ağrı.
Göy at qapıda bağlı.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bəgin canına nuş gəldin.

Gəlin deyər, bacı-bacı,
Yaşı tökər acı-acı.
Canım, baldız sənə bacı.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bəgin canına nuş gəldin.

* * *

Ay qardaşın gül toyuna,
Süburubdu yolların, a gəlin.
Ay başlarda xonça gedər,
Süburubdu yolların, a gəlin,
Kağızdan ağdı qolların, gəlin.

Toy elə, gəlim toyuna,
Ay qardaşın gül toyuna.
Qurbanam sümsad boyuna,
Süburubdu yolların, a gəlin,
Kağızdan ağdı qolların, gəlin.

* * *

Ağ barmağa qızıl üzük,
Taxtın bərəkalla, gəlin.
Özün bərəkəllah, gəlin.
Əllərinə əlvan xına
Yaxdın, bərəkallah, gəlin.

[59]Potu – ayaqqabı növü

* * *

Sandıq üstə kücü var,
Kücünün qırx oxu var.
Al edib, qız apardız,
Sizdə bəglər gücü var.

* * *

Qırmızı yastıq üzü,
Siz nə tanımırdız bizi.
Sövdasız oturmuşduq,
Sövdaya saldız bizi.

* * *

Baxçalar barı,
Heyvalar narı.
Qardaş, başına dönüm,
De, adaxlın hanı?

* * *

İstəkanın bir dəsti,
Dəsti mənə də bəsti.
Sağ gözüm yara qurban,
Sol gözüm mənə bəsdi.

## SƏRBƏNDİN TOY MƏRASİMLƏRİNDƏ OXUNAN TİRİNGİLƏR

Bu dərə başdan gəlir,
Süzülür, daşdan gəlir.
Hər kim yarı gəşəngdir,
Səhər obaşdan gəlir.

Alma atdım, nar gəldi,
Köynək biçdim, dar gəldi.

Kölgə düşdü eyvana,
Dedim, yəqin yar gəlir.

Damdan dama daş atma,
Qaşın mənə oynatma.
Qardaşın aradan baxır,
Hirsin mənə boşaltma.

Damdan dama damımız.
Qonşıdır eyvanımız.
Sən ordan bax, mən burdan,
Kor olsun düşmanımız.

Aman-aman olub, gəl,
Halım yaman olub, gəl.
Tarı babayun saxlasın,
Ömrüm tamam olub, gəl.

## YAS MƏRASİMLƏRİ

### I mətn

Bəle, o zaman ölü kü ölürdi, bu cür təşrifat yoxudu. Qocalar ki, ölərdi bi dənə yavaş gedən at vardı, bi qərə qutuydi, onda biz, yavaş-yavaş – özü də maşın-zad yoxudı, faytun varıdı. Oların dalıca yavaş-yavaş aparardıx, ağa, qabrinə, orda yuardıla, quylardıla. Gecələr şami-qəribanıdı, indi günüz şami-qəribandı.[60] Göüsən diyillə: şami-ğəriban. Gecə şami-ğəriban olardı, günüz indi elillə, günüz tutulla, ama o zaman gecəydi.

Üçün tutardıla, sora qırxın tutardıla. Əvvəl güni halva çalardılar, acı halva diyəllər, ölüdə. Ama indi acı halva çalmazla. Qədim amma əvvəl güni acı halva çalalla, diyəllə, ölü-

---

[60]Şami-qəriban – İmam Hüseynin şəhid olduğu gecə

nü acı halvası. Sora üçümci güni gənə halva çalalla, o şirin halva olur da. Əvvəl güni acı, doşabın az elə, nəmnə, cür yanıx bi halva elərdilə. Çox adam yeməzdi, atardıla qəbrin üsdünə, orda quş-muş gələrdi, yiərdi.

Qərə giyərdilə, arvatdar, qərə giyərdi. Məsələm, məəm adamım ölüb, gedərdim çadır alardım, məsələn, arvatdara, don alardım, aparardıx yasın vəsətində saladıx başına. Kişilər də qərə-mərə mod deldi o zaman. Sal gərdin tutardıla. Azarağ olurdi, indi amma göüsən, baba, çoğ uzadılla, döydümci, beşimci ilin də tutulla.

Şəhərdə mod deyldi, kətdə adamnar, öləndə hər qonşi, bi məjməə qəza düzəldərdi, aparadı o yas evinin, ölənin evinə. Olar ki, zəhmətə düşmiyələ, da özləri pişirəmməzdi, çünkü başları qatışığ olı, amma şəhərdə yox, şəhərdə o cür mod dəyldi, şəhərdə özümüz pişirərdıx. İndi gələllər, məsələn, arvatdar gələr, evdə qəza-məza pişirəllə, köməhlığ eləllə, ölü sahıbı gedər qəbr üsdə. Yoxun qohumnar qalar evdə, çay hazırlar, qəza hazırlar ki, qəbr üsdən gələndə bulara nahar verələ. Ya, məsələn, indi təşrifat çoxalıb, elə qəbir üsdən aparılla talara[61], talarda qəza verillə biləlinə.

**II mətn**

Bizim kəndimizin, Allah heş kəsə nəsib eləməsin, əlbət də, ölüm də həxdi toy həğğ olan kimin, dünyaya gəlmax həğğ olan kimin, ölüm də həxdi və elə hər kəsin də başında var. Bizim kəndimizdə də dünyadan gedənnərə ayrı yerlər kimin məclisi-tərhim, yəni yas məclisi qurular, məçitdə qurular. O zaman, qırx, əlli il bunnan qabax bizim kəndimizdə rəsm bunaydı ki, bi nəfərün ölsü öləndə, adamı öləndə ona dildarlıx vermağ içün və təsəlli vermağ üçün və dörəsinə yığılıb biləsinə sahab olmağ uçün, əvvələn tamam famillər, yığılardı dörəsinə. Beş, altı gün elə onun dörəsində olardılar ki, özün təh

[61]Talar – toyun keçirildiyi məkan, salon

ehsas eləməsin. Sora dörədən gələn məcilsə yəni tərhim, yas məclisinə gələn qonaxlara yetişmağ üçün qoymazdılar yas sahabı, yanı ölü sahabı zəhmətə düşə. Evlərdən xon gələrdi, yəni yemək xonı, ğəza xonı gələrdi. Evlərdə qonşılar pişirərdilər, düşürərdilər və hər evdə nəmənə pişmişdi, onnan bir-iki qab qoyardıla bi dənə məjməhiyə. Sora sudan, onnan sora tərə-türədən, yəni yeməli tərə-türədən, soğannan, filannan hər nəmənə lazımdı, qoyardıla o məjməyə, çörəhdən filannan...

## III mətn

Onda da yas tutarux. Gədərıx, mən, göçəh ölənnəri oxşaram. Onda da ölənnəri oxşarux, göçəh çay verrix, xurma verrix, nuğul qoyyux, halva qoyyux, gülab qoyyux. Onda biydən biyinin nənəsi ölüb, nənəsiin dilicə ağlarıx, qızının dilicə:

Nənə demə,
Qan olı, tufan olı.
Nənə dolanan yerrərə,
Balalar qurban olı.
Arazın başı mənəm,
Dibinin daşı mənəm.
Hansı məjlisdə anasız qız ossa,
Onun yoldaşı mənəm.

Ay çıxar, bədir eylə,
Gün ona səbir eylə.
Bu babasız qızdara,
*nənə nazı görmüyyənnərə,*
*qardaş ölən bacılara,*
*cavan yola salananara*
Görən kim qədir eylə.

Qədir, qiymətim nənə,
Umud evim nənə,
Xoş dilliğim nənə.

Qardaş, donu ikidi,
Biri tovus tüküdü.
Qardaşa söz demən,
Qardaş ata mülküdü.

Əliyəm, başa düşər,
Daşlanar, daşa düşər.
Bacının müşkül işi,
O da qardaşa düşər.

Ay gedi, batan yerə,
Məlləhlər yatan yerə.
Bacılar qurban olar,
Qardaşlar yatan yerə.

Kəhlih beçə çıxatdı,
Say, gör neçə çıxatdı,
*Zəhmət çəkib* bala böyüdənnərin,
*qardaşı olannarın bala böyüdüb xeyri-bağın yemiyənnərin, boyuna baxmiyannarın*
Fələh heçə çıxatdı.

## YAS SAYASI (AĞILAR)

Saya saya gəliniz,
Qara-qara geyiniz.
Gəldigiz yas yeridi,
Gəl, əyləş, yas yeridi.
Aç ürəyimin başın,
Yara yara yeridi.

Mənim oğlum iki idi,
Biri tovuz tüküdü.
Biri baş kəkil idi.

Sinəm üstə yeridi.
Saya-saya gəliniz,
Qara-qara geyiniz.

Mələ, ceyranım, mələ.
Balam daa düşməz ələ.
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gələ.

Mələ denən sözümə,
Yükü yığdım düzünə.
Pərdə çəkdim üzünə.
Allah mənə pay verdi,
Yenə verdim özünə.

Aman-aman gəliniz,
Qara-qara gəliniz.
Yandım, Allahım, yandım,
Yandım, Billahım, yandım.

Aləm bir dona yansa,
Mən dona-dona yandım.
Yatmışdım, oyandım,
Göz yaşıma bulandım.
Dağ olsaydı, əriyərdi,
İnsan idim, dayandım.

Saya-saya gəliniz,
Qara-qara geyiniz.
Qəmim qəmdən baş oldu,
Əzbərim qardaş oldu.
Yollarda mənə yoldaş,
Bircə kəsik baş oldu.

Qəmim qəmivə qurban,
Dərdim dərdivə qurban.
Qızılgül pər-pər oldu,
Dərməmiş pər-pər oldu.
Gözəl adın dilimdə
Bir ömür əzbər oldu.

Saya-saya, ay nənə,
Geyin qara, ay nənə.
Oğlu ölən nənəm var,
Günü dönən nənəm var.
Qara günüvü qabla,
Gülü sönən nənəm var.
Qol-qanatsız dədəm var,
Kəhər atsız dədəm var.
Yalnız-yalnız nə gəzər,
Toy baratsız dədəm var.

Saya saya gəliniz,
Qara-qara gəliniz.
Gəldigiz yas yeridi,
Alma, nar yeridi.

Toyun əzəli oldu,
Qəlbim yaralı oldu.
Tazə gəlinəm, amma
Başım qaralı oldu.
Pozuldu toy əsası,
Yox dərdimin çarası.
Nəşənə toydan qaldı,
Bir əynimin qarası.

Gözüm qaldı boyunda,
Gəlsin mənə qadası.
Aman, aman yasdı, yas,

Toy aynamı basıd kas.
Oğul, oldun haralı,
Səni gördüm yaralı.
Qara torpağa qoydum,
Ala gözlü maralı.

Dağlar bizdən aralı.
Dağlar başın qaralı.
Ağlamaqdan büdrədən,
İşıq gözüm qaralı.

Saya-saya gəliniz,
Yas paltarı geyiniz.
Elin yaman çağıdı,
Duman yanan çağıdı.
Əllər açıq, göz yolda.
Anavın ölən çağı,
Gəl oğul, namərd olma.
Atan üçün dərd olma,
Qoca dədən yazıqdı.
Qarı nənən yazıqdı.

Hənası əllərində,
Düzməsi qollarında.
Qırmızı şal başında,
Kəsilmiş birçəkləri,
Düzülmüş inciləri.
Adaxlı gözü yolda,
Gəlin dolağı qolda.
Gəl, olma namərd, oğul.
Ömür uzun gəlmədin,
Qəm tozunu silmədin.
Cavan göyərçinimsən,
Haçan uçdun, bilmədim.

Saya-saya gəliniz,
Duman dağlar görünüz.
Çox ağlayan, yox gülən,
Gözlər ağlar görünüz.
Qəmim qəmizə qurban,
Dərdim dərdizə qurban.
Axır yas olsun sizə,
Verən əlizə qurban.

Qalanlarız sağ olsun,
Gəlin, üzün ağ olsun.
Çıxart yas paltarların,
Hamıza son dağ olsun.

Saya, sayanı deyək[62],
Yola salın, biz gedək.
Bayram günü qayıdaq,
Elizi toylu görək.
Qoyunlar boylu görək.
Qəmiz-qüssəniz azalsın,
Nasazlarız sazalsın.
Saya sayanın başı,
Köçən bunun qardaşı.
Ver köçənin yolunda,
Sayaya torta aşı.

## YAĞIŞ YAĞDIRMA MƏRASİMLƏRİ

### I mətn

Yağış yağmıyanda da çıxardila ocaxlara sütaşı pişirirdilə. Uşaxlar bi də su səpərdilə bir-birin üsdünə, diyərdilə: "Al-

[62]Bu bənd başsağlığı verilən ailənin gələnlərə təşəkkürüdür.

lah, yağış verginən, bız çıxmışığ müsəlləyə, bu sütaşını pişirmişığ, Alla, sən qəbul eləginən. Qəbul eləginən sütaşı pişirmişığ”. Bı cür su səpərdilə, ya çömçə dolandırırdıla. Bir az hər kəs su tökərdi onun çömçəsinə yağış tərəfinnən.

### II mətn

Sora bi də, məsələn, qədim yağmazmış yağış, yağməzmiş. Çemçə xatun dolandırardıla. Alla rəhmət eləsin bizim qonşumuz Həlimə vardı, elan bu seyid İsmayilgilin nənəssidi ... Həlimə varıdı, Məsimə varıdı, bular yığılardıla arvadlar, qoca arvadlar yığılardılar, uşaqlar bi dənə Çemçə xatun qayırardıla. Bu evləri dolandırardıla, deyərdilə:

Çemçə xatun yağ istər,
Xudadan yağış istər.
Əli qalıd xəmirdə,
Bircə qətrə su istər.

Onnan ki, o adamıdı ustadıdı, məsəla, göyül istərdi yağış yağa çıxardı, bircə baydə su səpərdi bu Çemçə xatuna. Buunun içi yarma gətirərdi, noxud gətirərdilə, lubya gətirərdilə, verərdilə. Bular yığardı. Adam vardı, pul verərədi. Yığardıla, ayran aşı pişirərdilə.

### III mətn

Mən durdum, bi dənə Çemçə xatun qayırdım, verdim Kazımın əlinə, bi dənə də kisə verdim əlinə. Üç-dört dənə uşağı saldım yanısına, gidərdilə, evlərdə diyərdilə:

Çemçə xatun yağ istər,
Xudadan yağış istər.

Gəldilə, bu Çemçə xatunu gəzidilə, mən apardım kennu[63], palçıxdan kennu varıdı. O məcal apardım kennu dalıma belə derəm, munu belə tapladım, belə tapladım, dedim: “Yağ-

[63]Kennu – taxılın saxlandığı qab

masa, başın kəsəcəyəm”. O məsəl söz vaxdına çəkər, biz gittiy ora, bulut gəldi şakku-şukkuynan, dünyanı yağış götdü başına. Elə oldu ki, qonşudan gedə bilməzdih.

## YAĞIŞLA BAĞLI SAYALAR (ÇÖMÇƏ XATUN)

Çömçə xatun nə istər,
Şırhaşır yağış istər.
Əli-qolu xəmirdə,
Bircə qaşıq su istər.

Çax daşı, çaxmaq daşı,
Yandı ürəyim başı.
Biçinlərin yoldaşı,
Əkinlərin yoldaşı.
Qalax-qalax xırmanlar,
Hanı çayın nəm daşı?
Çax daşı, çaxmaq daşı.
Yandı almalar başı.
Heyvalar sarı-sarı,
Duzlayır sapa qarı.
Ay buludlar, siz Tarı,
Gəlin bu kəndə sarı.
Bu kənd bəylər kəndidi,
İgit xəyilər kəndidi.

Dağlar qurax-quraxdı,
Tikan turax-turaxdı.
Tikan nəyə karımdı[64],
Mənə lazım oraxdı.

[64]Karımdı – nəyimə gərəkdir mənasında

Çax daşı, çaxmaq daşı,
Hanı göyün yoldaşı?
Hanı dağların başı?
Allah, bir yağış göndər,
Göyərtsin dağı, daşı.
Ala dağın buludu,
Əkinçinin umudu.
Allah, bir yağış yetir,
Arpa, buğda qurudu.
Çax daşı, çaxmaq daşı,
Sayaçıya pay daşı.
Olduğundan pay verən
Əli olsun yoldaşı.
Var olan əlin qısan,
Yastığı mismar daşı.
Verən əl Allah əli,
Əllərə yardım əli,
Ellərə yardım əli.
Çax daşı, çaxmaq daşı,
Sayaçıya pay daşı.

Əmcigi quru inək,
Gəlin, sayanı deyək.
Allah bir yağış yetir,
Bal, qaymağı biz yeyək.
Bal, qaymaq ota bənddi,

Ot-ələf suya bənddi,
Çay, əmən göyə bənddi,
Göylər buluda bənddi.
Bulutlar, ay bulutlar.
Əkinçiyə umudlar.

Darını səpdim, səpdim.
Şumlayıb yer əkdim.
Göy gözü quru baxır,
Şənə sinəyə çəkdim.
Əmcəgi quru inək,
Gəlin, sayanı deyək.
Saya yaxşı sayadı,
Onun işi payadı,
Üzü sarı çayadı.
Çaylar axın şaqaşaq,
Nehrə çalaq laqalaq.
Kərə, qaymaq sizinki,
Ayrana biz də qonaq.
Əmcigi quru inək,
Gəlin, sayanı deyək.
Saya elin yoldaşı,
Pis günlərin qardaşı.
Ay Allah, yağış göndər,
Göyərtsin dağı-daşı.
Sayaçı paya bağlı,
Pay verən yaya bağlı.
Yay hasili su istər,
Hasillər çaya bağlı.
Söyləsin daşa-daşa,
Çaylardan aşa-aşa.
Muştuluğun mən verim,
Yangın yada, yoldaşa.
Göy üzündə baş-başa,
Qara bulud çaqqaşa.
Yağa yağışın duzu,
Uşaqlar ay oynaşa.
Əmcigi quru inək,
Gəl səni sevindirək.

* * *

Çömçə xatun nə istər,
Allahdan yağış istər.
Əli-qolu xəmirdə,
Bircə qaşıq su istər.
Çömçə xatun beş günə,
Vədə verib üç günə.
Allah, bir yağış göndər,
Birinci imam eşqinə.

Onda səni dindirək.
Saya-saya nə istər,
Allahdan yağış istər.
Pay verənin əlində,
Al qırmızı narı istər.
Pay verməyin qəbrini
Çox yox, bir qarış istər.
Çax daşı, çaxmaq daşı,
Biçinçinin yoldaşı,
Əkinçinin yoldaşı,
Yandı sünbülün başı.
Bax çömçənin eşqinə,
Əbülfəzin məşkinə.
Allah, bir yağış göndər,
On iki imam eşqinə.

Çax daşı, çaxmaq daşı,
Çağır yarı, yoldaşı.
Selin, çayın nəm daşı
Uşaqların göz yaşı.
Yandı ürəyim başı,
Yandı anamın aşı,
Allah, bir yağış göndər,
Göyərtsin dağı-daşı.

Buğda daraq-daraqdı,
Dağlar quraq-quraqdı.
Ay buludlar, getməyin,
Gedib, göydən itməyin.
Qaradağın buludu,
Yetimlərin umudu.
Allah, bir yağış göndər,
Arpa, buğda qurudu.

* * *

Çömçə xatun nə istər?
Allahdan yağış istər.
Əli-qolu xəmirdə,
Bircə qaşıq su istər.
Astana, ay astana,
Quşlar qonub bostana.
Allah, bir yağış göndər,
Arpa, buğda islana.

* * *

Gətir, gətir, hay gətir,
Qızıl qaya dibindən,
Bir qırmızı gün gətir.
Keçəl qızı qoy evdə,
Saçlı qızı gətir, gətir.

Gətir, gətir, hay gətir,
Gün gedib su içməyə,
Al donun dəyişməyə.
Dumanlar, qaçın, qaçın.
Günəşin yolun açın.
Tutub səni asarlar,
Boynuva damğa basarlar.

Qara toyuq qanadı,
Kim vurdu, kim sanadı.
Getdim gün gətirməyə.
İt baldırım daladı,
Daladı, qanlar axdı.
Gəlin yarama yağ yaxdı.
Bir yağ verin, yağlıyaq,
Dəsmal verin, bağlıyaq.
Verənin oğlu olsun,
Erkəkli toğlu olsun.
Buğdası çoxlu olsun,
Verməyənin qızı olsun,
Öz gözü ....... olsun,
Arvadı qoxlu olsun.
Bircə gözü kor olsun,
Qapısından axan sel,
Azarlı azar olsun.

## İNANCLAR, SINAMALAR

Ana körpə uşağını qondağa bələyəndən sonra onu yerdən qucağına götürəndə, uşağı sol əlində saxlayaraq, sağ əlinin kəfəsini əvvəlcə yerə, sonra uşağın kürəyinə çalar və belə deyər: "Yuxum sənin, yuxum sənin". Bu ovsun üç dönə təkrar olur. Və inanırlar ki, bu iş uşağın gecə dinc yatacağına səbəb olar.

* * *

Arvad doğanda çətinlik çəkərdisə, gecə olsun, gündüz olsun, çıxıb damda əzan verərdilər.

* * *

Başına cındır palaz atan bir kimsənin üstünə su çiləyərdilər.

* * *

Bir adamın üstünə gərnəşmək ədəbdən uzaqdır. Gərnəşərsə, sonra yumruğunu öz döşünə tapdayar.

* * *

Bir evdən ölü çıxsaydı, dalınca küçə qapısından eşikdə çölmək sındırardılar. Bir çölmək ki, gündə içində ğəza bişər və ocağın üstündə qərəlmiş idi.

* * *

Bir admı büvə sancarsa, büvə gedər, məzarlığın ağzında durar. Deyər, indi gətirib buradan keçirəcəklər.

* * *

Bir gəlin və ya arvadın, adaxlısı və ya əri səfərdə olanda, onun tez gəlməyini istəyən gəlin və arvad, kirşana bənzər və veşə adlı bir tozdan bir az tapıb yandıraraq deyər:

Veşə,
Səni yolladım işə,
Orda atıla, burda düşə.

* * *

Bir nəfər çox gülərsə, köynəyinin yaxasını qovzayıb bədəninə püfləyir (yaxasına püfləyir) ta çox gülməyin ziyanın çəkməsin.

* * *

Bir nəfər küçədən keçəndə bir evdən ğəza iyi doyub və o ğəzaya tamahı axardıysa, öz zəfinə ğalib olmaq və ruhiyyəsini təquyət etmək üçün bir əlin o evin divarına, sonra öz döşünə vurar və deyərdi: “Sizdə də var, bizdə də”. Bu əməli bir daha təkrar edərdi. Hətda indi də bəziləri iyi olar[65] və üz-gözləri şişir.

* * *

Bir nəfər gecə yuxu görəndə səhər yuxusunu suya deyərdi. Bir nəfər ayrı adamı yuxuda görsəydi ki, ölüb deyərdilər, onun ömrü uzanıbdır. Bir də deyərdilər, yuxu yozanınkıdır.

* * *

Bir nəfər ayrı adamın saqqızını ağzına salıb çeynəyərsə, deyərdilər, camaatın məhəbbəti ona azalar.

* * *

Bir nəfərə cadu ediblərsə, cadunu batil etmək üçün o adamı murdarlarlar. Gahdan özü bilmədən bədəni, ya üstünün bir yerinə nəcasət sürtərlər. Bir arvadın əri biləsini istəməzdisə, deyərdilər, günüsü buna cadu edibdir. Həmzad arvadın südünü suya qatıb, bu cadu olunan arvadı o murdar suda çimizdirərdilər, ta cadu batil olsun.

* * *

Bir şey itəndə tapılsın deyə, aşağıdakı ovsunu təkrar oxuyarlar:

Tapıl-tapıl,
Pul verim.
Tapılmasan, çul verim.

* * *

Birinin ayağını ayaqlayarsan, o da gərək sənin ayağını ayaqlaya, yoxsa evində adam ölərdi.

* * *

Çərşənbə ilə duz günü əkinə çıxmazlar.

---

[65] İyi olmaq – umsunmaq

* * *

Dar vəqti və gecə çağı ayrı evə ələk versən, çuvalın bərəkətsiz olar.

* * *

Deyərdilər, novdan altında durma, başına keçəl düşər.

* * *

Deyirlər, ilan ulduz görməyincə can verməz.

* * *

Deyirlər, ay çıxanda yanları uzun olarsa, quraqlıq, gödək olarsa, yağınlıq keçəcəkdir.

* * *

Deyirlər, qovunun üstündən bal yesən, adamı götürər.

* * *

Deyərlər, su aydınlıqdır. Müsafirin dalınca su səpərdilər.

* * *

Deyərlər, iskanları çayla doldurub yerə qoyanda öz-özlərinə bir rədifdə səf düzülsəydilər, evə qonaq gəlir.

* * *

Deyirlər, əgər süpürgəni baş yuxarı qoyarsan, o evdən ölü çıxar. Buna görə heç vaxt süpürgəni baş yuxarı qoymazlar.

* * *

Deyirdilər, ilanın bir qarış baş tərəfindən, bir qarışda quyruğundan kəsilərsə, ortasının yeməyi halaldır. Ancaq ilanın sümügündən, batmasın deyə çox qorxadılar.

* * *

Deyirdilər, şalvarını tərsə geyərsən, gözbağlıcının işlərindən baş çıxartmaq olar.

* * *

Dırnaq tutanda qoymazlar tilişkələri dağılsın, deyrdilər, dırnağın tilişkələri dağılsa, adamın huşu dağılar.

* * *

Dükançı səhər tezdən dükanı açandan sonra əvvəlinci müştəri şey alıb, pul verəndə müştəriyə deyir: "Siftə səndən, bərəkət məndən".

* * *

Evin həyətnə qəcələ gəlsəydi, deyərdilər: "Xeyir xəbər olasan, qəcələ!"

* * *

Gec dil açan uşağa quş yumurtasi verərlər, onda tez dil açar.

* * *

Göz atanda (səyirəndə), əli ona çəkərək deyərlər: "Xeyrə atırsan at, şərrə atırsan, yat!"

* * *

Göz, nəzərdən ötrü yeddi qonşunun küçə qapısından çöp yığar, üzərliklə qatıb, uşağa üzərlik salarlar. Onun külünü aparıb küçə qapısının iki tərəfinə tökərlər.

* * *

Gövşəndən qurumamış buğda götürənin olusü ölər, qurumuş buğda götürənin oğlu olar.

* * *

Hər kimin ovucu qaşınarsa, ya dırnağının mayasına kiçik ağ ləkə gələrsə, deyirlər, əlinə pul gələcək.

* * *

Xoyun kəndlərindən olan Dizədiz və yörəsində uşaqların kürəyinə hekal dikərdilər. Hekal dəvə yunundan toxunmuş bir ip idi ki, ona mınçıq, qotaz, yeddi qardaş, göz muncuğu, bir şahılıq, ya bir qırnlıq kimi qulplu pullar, dua-pitik və belənçi şeylər dikərdilər.

* * *

İki adam baş-başa dəyəndə hərəsi öz başını qaşıyar və tüpürərdi ki, başlarına keçəl düşməsin.

* * *

İlan tutanlar, ilanı ovsunlamaq üçün, ona xitabən deyərlər: "Həzrəti Süleymanın hökmüylə, Nuh Nəbiyyullahın kəlməsiylə, Adəm Səfvətullahın kəlməsiylə, Musa Kəlimullahın kəlməsiylə, İsa Ruhullahın kəlməsiylə, Məhəmməd Rəsulullahın kəlamıyla, gəl, özünü əyan elə!".

* * *

İlin axır çərşənbəsi dırnaq tutar və dırnağın tilişkələrin hamam gəndovuna axıdardılar. Bəzi arvadlar saçlarının ucundan bir az qeyçilayıb gəndova axıdardılar.

* * *

İşqiran adama deyirdilər, soğan yeyəcəksən.

* * *

Kimsəsiz uşağı br arvad yaxasından salıb özünə uşaq edərd.

* * *

Küçədən bir evə gəlin aparanda oğlanı bağlamaq niyyəti ilə pıçağın ağzını bağlayarsan (tiyəsini qatlayarsan). Deyərdilər, gəlin geçəsi oğlan gəlinlə bir iş görə bilməz. Oğlan gəlini təzahəb edə bilməyəndə çıxardıb qəbristanlığı dolandırardılar.

* * *

Qaynar suyu yerə tökməzdilər, deyirdilər, adamı cin vurar.

* * *

Meyvə yarpaqlı və barlı olsun deyə, dibinə başmaq tayı (qədim tək gön başmaq) quylayardılar.

* * *

Muğanda bir arvadın uşağı olmayıb, ya uşağı olub, qalmadıqda çətinliklə uşaq taparsa, nəzər dəyməsin deyə cəmaatın xoşuna gəlməyən bir ad uşağa qoyardılar. Məsələn, Dilənçi adı.

* * *

Nəzər dəyməsin deyə uşağa, ya böyüyə, ya ev əhlinin hamısına üzərlik salarlar. Məmula, evin arvadı üzərliyi ovu-

cunda tutar, bir-bir ailə üzvlərinin başına dolandırar və üzərlik olan əlini onun kürəyinə tapdayar. Axırda üzərliyi o birisi əlində gətirdiyi xəkandaz içindəki odun üstünə tökər. Çırta-çırt yanıb tüstü qovzanar. Nəzər dəymiş adama üzərlik yandıranda, tüstüsünü nəzər dəymiş adama tərəf verib deyərlər:

Üzərliksən, havasan,
Hər bir dərdə davasan.
Hansı evdə sən olsan,
Dərd-bəlanı qovasan.

* * *

Bəd nəzər, yaman göz, pırtlasın, çıxsın, düşsün yerə!

* * *

Od-ocağı yandırmaq istəyəndə, alışıqlar yaşlıqdan od almayanda, yanar kibriti onlara tutub deyərlər: “Keçmə, gedim qarı nənəyə kibritə, keçmə, gedim qarı nənəyə kibritə”. Bu sözü neçə dönə təkrar edərlər.

* * *

Oğlan uşağı qazan dibi yalayanda deyərlər, qazan dibi yalama, toyunda qar yağar.

* * *

Uşaq odla oynasa, gecə yerinə işər.

* * *

Uşaq uca yerdə və dam qırağında dursa, şeytan itələr.

* * *

Uşağa göz dəyməsin deyə börkünə çeşidli şeylər dikərdilər ki, aşağıda neçəsi qeydə alınır: yeddi göz (göy rəngli daş, üstündə ağ xallarla), dağdağan pişik mınçığı, pitik (kağaz üzərinə yazılmış dua).

* * *

Uşağı güzgüyə göstərməzlər, uşaq qorxar.

* * *

Uşağı çox güldürməzlər, əti tökülər.

* * *

Uşağa qırx gün əvvəl evdən eşigə çıxartmazlar.

* * *

Uşağın qırxı çıxdıqdan sonra hamama aparıb, qırxlıq quslu tökərmişlər.

* * *

Uşağın göbəyin kəsdikdən sonra onu hara quylasan, uşaq böyüklüyündə oraya çox gedər, uşaq mömün olmağına görə, çox məscidlərə qoyarlar. Ev uşağı olmaq üçün də evdə quylarlar. Savadlı və dərs oxuyan olmaq üçün də məktəbdə, ya mədrəsədə qoyarmışlar.

* * *

Uşağın üstündən atılmazlar, çünki atılmaq uşağın ömrün qısaldar.

* * *

Uşaqlar qarpızı yeyib, cecəsini gəmirəndə böyüklər deyərdilər, cecəsini gəmirmə, başına keçəl düşər.

* * *

Səhər ev adamları çörək yeməzdən özgəyə çörək versən, ev bərəkətsiz olar.

* * *

Səpin çağı buğda qovursan, məhsul az olar, yarma bişirsən, bol olar.

* * *

Səpilən toxum oğurluq olsa, bitməz.

* * *

Taxıl çuvalının üstündə otursan, bərəkətsiz olar.

* * *

Təndirdə pişən ilk çörəyi yesən, arvadın ölər.

## YAĞIŞ YAĞDIRMA İLƏ BAĞLI İNANCLAR

Anası, qızı və bir də özü dul olan bir arvadın ocaq daşını oğurlayıb, suya salardılar.

* * *

Baltanı ağzı yuxarı qoyardılar.

* * *

Deyərdilər, tısbağanı ayağından assan, yağış yağar.

* * *

Güllə ilə ölmüş kimsənin qəbrindən daş, torpaq götürüb suya salarmışlar. Belə bilərmişlər ki, güllə ilə ölən adamın ürəgi yanıqlı olar, elə buna görə onu soyutmaq üçün göy də rəhmə gəlib, yağış yağar.

* * *

Toxumluq buğdadan hədik bişirər, sacda qovurarlar.

* * *

Şəhid qəbrindən daş götürüb, sacda qızdırardılar.

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## CİNLƏR HAQQINDA

### I mətn

Elə bu cinin zadınna mən eşitmişəm, məsələn, bu hamam koşəsinə, məsəl, bi nəfər səhər ertə, səhər əzanı durardıla. Evlərdə hamam yoxudu ki, gedərmiş hamama, baxar görər, cinlərin toyudu. Bu kişinin dalında bi belə kəmiyi varımış, burasınna. Bu baxar görər bunların toylarıdı, çalılla, oynulla. Bu da boxçasını qoyar yerə, qalxar uynamağa. U da bu cinni bizdən yeylər deyəriy da, cinnər yığılalla, munu götürür. Bunu götürüllə. Bu gidər duzi-mizan hamamnan çıxar, gələr o, məsələn, baxar, filankəs kim munu götürüddü, duzi-mizan adam olutda qalar o, məsələn, bi ayrı gecədə bi ayrı nəfər gidər. Gidər, görər, elə u curdu, məsəlan, uların irağ üssünnən, ülüləri ülüt. Bizdən yey, cinlərin ülülləri ülüt deyillə. Bu da deyər ki, bu ayrı kəsməz ki, buları ülüləri ülüt. Otura, bu da ağlıya. Bu əl qoyar unamaya, unamaqaya deyillə, gətirin o kömmuyu də qoyəx, bunun kömmuyi üssünə. Gələr, deyər, filankəs, mən getdim, uların ülüləri ülmüşdü, uynadım. Deyər, sən nə otureydin, ağlıyeydin da. Mən uynadıqca olar, diyiddi, bərkə sən soynirsən. ... Cin var elə onnan "Bismillahir-rahmanir-rahim" deynə cin gedər kənara, da heş iş olmaz.

### II mətn

Burda bizim qəblən bi dənə hal-heybandan buyurduz, bi dənə cəvan var idi. O axşam ki, çıxır qapıya, bunu gəlir, bi dənə surətində bını götürür, gedər. Bunun dədə-nənəsi çıxır eşigə ki, bu uşah nə cür oldı, hara gedib bu oğlan? Tapammerlər. Görürlər, gecə sat ikidə gəldi. Gətirəllər, bunı qapıda qoyəllar da, gedəllər. Qarar qoyullar ki, biz hər gecə səni götürür, gedərik. Bi gün bunun dədəsi görür ki, baba, bu yoxdu. Bu gedəndə uşahların birin qoyar təngədə, bunu gedin görün,

bu hara geder. Uşahlar gəlillər, təngədə qalıllar. O həminki qız genə hal-heybanı, bunu götürür, gedər. Aparallar, çıxadallar bi dənə kövşən kimin yerə. Dağ kimin yerə. Orda bular göreyerlər, bəli çalerlar, oynerlar bu da (oğlan) olarlan qoşuler, oynuyer ... Bu qayıdar, gələr. Dədəsi buna deyər:

– Bala, sən hara gedərsən? Hal-heybanilər səni aparar-lar. Mən sənə bi dənə iynə veririəm, sən bu iynəni, onı hər yerdə ki, səni apardı, sancarsan onın dalına, əli çatmıya. Çün, dəmirdən hal-heybanı qorxar. Bu o saət sənnən evdə olar. Onu gəti görüm, nəmənədi.

Bu gəlib gedəndə iynəni buna verir. Bu sancır qızın dalına. Küçədə sancır, qız deyər:

– Bəs, mən day sənün oldum. Sən məni göti, apar evüzə.

Bu götürür gətirir evlərinə. Bunu yolluyerlər:

– Get, səkçəynən su daşı.

Bu, səkçəyi dolduranda bi dənə uşağa deyər ki, mənim dalımdan iynəni çəkginən. O, ignəni çəkəndə ordan day yox olur. Quzesi qalır orda, özi gedər. Day tapa bilmerlər.

## III mətn

Fatma doğmuşumuş. Nənəmin maması Kəblallah Qulu gedər, töyləyə mala yem tökə. Fatma görər, baca açıldı, bi nəfər bacadan aslandı. Bu bilən mıncığınan. Mıncığınan aslananda bu arvat tez başının dəmirin götürer, onun mınçığın qırer, tökər yerə. Olar Al arvadı, Halanı çox istərlər, Haladan da qorxarlar. Deer:

– Nənəm məni öldürər, xalam məni öldürər. Mənim mıncığımı ver, mənim mıncığımı ver.

Bu zahı geder, töylədə çağırer:

– Kəblallah Qulu, bu, olardan gəlib bacaya. Mən oların mıncığın qırdım.

Kəblallah Qulu çıxer, onu qovaler. Üş-dört gecə gəler o bacaya, deyər:

– Mənim mıncığımı ver.

Deyər ki, sən mənə bi dənə əlamət ver, mən sənin mıncıqlarını verəm. Dedi:

– Süzə iki dənə şey verərəm, bi dənə bilərzik verərəm, bi dənə oraq. Bilərzigi ver bacuva – beçara bizim nənəmin bibisinı. Orağ sən göti. (Demişdi Al arvadı). Yeddi püşgü süzə dillənmərik.Yeddi püşgü süzə eziyət yoxumuzdu.

Yeddi püşgüdən Fatma bir, Nəhməd iki, nənəm üç, mən dörd, Leyla beş, Elnaz altı, bi dənə də qalıp yeddi ola. Olar bizdən yeylərdi da, Al arvadlar, bismillah.

### IV mətn

Bir də varmış ki, bi nəfərin quzu[66] varmış dalında. O quz bunun əziyyət verermiş. Qədim hamamlardan varmış, qoca arvatlardan. Deyər ki, bu quzu mənə əziyyət verər, neyniyim? Gündə böyüyür. Deyər ki, qoca arvad:

– Sən gedəsən, bi dənə köynə hamam var. Çərşəmbə günü gedəsən köynə hamama, şəyatinlər gələcək ora. Ora şəyatinlər ki, gəldilər, bular yığışacaxlar. Sən gördün gəldilər, hər əda çıxatdılar, sən də o ədanı çıxadasan. Özündən əda çıxatmıyasan.

Deyər:

–Yaxşı.

Bu, axşam gedər, qalar köynə hamamda. Görür, bəli, bular çala-çala gələllər, oynelar. Bu da qoşuldu, bularlan bu da oynadı. Oynadı, oturdu. Yedilər, işdilər, oynadı. Onın biri durdu, bının quzun götüdü. Əliynən siyirdi, götürdü, qoydu bi dənə taxçaya. Oynayandan sora bular çıxdılar, getdilər. Bu da çıxdı, gəldi evinə. Səhər oldı. Bi nəfər vardı, quzu vardı onun da. Bunu gördü, dedi:

– Sənin quzun nə cür oldı?

Dedi:

---

[66]Quzu – beldə iri şiş kütləsi

– Bəs mənim quzum, getmişdim bi dənə hamama, bi xanım bu cür dedi. Bəs, şeytanilər gəldi, mənim quzumu götdü, qoydu orda taxçaya.

Dedi:

– Xub. Bəs, mənim də quzum mənə axı əziyyət verer. Nə vaxdədi?

Dedi:

– Çərşəmbə.

Bu, çərşəmbə getdi, gəldi. Dedi:

– Sən mənə neylədin?

Dedi:

– Mən də qoşudum, olarlan oynadım. Xoşlarına gəldi. Mənim quzumu götdülər. Gələn çərşəmbə bular gələndə ağlıya-ağlıya gəldilər şeytanilər. Bu geşdi, bu səfər oynadı, külbaş. Bu oynadı, o quz ki var idi, götümüşdülər qoymuşdular, onu gətdilər, qoydular o quzun üstünə. Odu ki, deyəllər, quz bağlayı qoz. Onun da quzu bunun belinə gəldi. Bu, səhər gəldi, dedi ki, ay dadi-bidad, sənin də quzunu gətdilər, qoydular mənim quzum üstə. Bu nəmənəydi?

Dedi:

– Özün eləyibsən. Neyləyibsən sən? Ola ağlıya-ağlıya gəlibsə, sən də qoşuleydın, ağlayeydın da olarlan. Sən niyə oynuyerdın ki?

## HAL ANASI

Mənim elə bu hacağanın xamnəsi[67], xamnəsi, məsala, Qöleybani deyərdilə. O məcal xamnəsi bicə nəfəri gətiri evə, məsala, şəkli adam imiş, gətirillə evə, bu deyir, mən Qolyabaniyəm. Gətirillə munu saxlıyılla, bu iynədən qorxar, gətirillə munun yaxasına iynə vurellə ... Deyəllə, sən gəl burda qal. Bizim uşağmuşağımıza çat. Bu qalar, bu uşağ-muşağınan yetəg olarmış.

[67]Xamnə – böyük nənə

Qulyebanimiş, yetig olarmış. Qalar bi gün, bu uşağ qalar, ocağına gedər. Qapıda, məsələm, munu qapıda zadda oturardıla. Uşağa diyər: "Bicə bu munu çək, bu şeyi çəkginən, bu şeyi çək". Bu suzəni uşaq çəkər, çəkənə gətirər, deyər: "Ala, bu uşağızı yeddi ildi burada zənnanganlıq elədim. Bircə mənnən heş zad istəmədiyiz. Get, zibiliz çox ossun. Mən bunu istəmişəm".

## QARANQUŞUN ÖMÜRÜ NİYƏ AZDIR?

### I mətn

Əhalinin əqidəsinə görə, qələnquş bir ildən artıq yaşamaz. Buna görə bir əfsanələri də var. Deyirlər, dünyanın əvvəlində ömür paylananda hamı quşlar paylarını almışdılar. Təkcə sərçə ilə qəylənquş qalmış idi. İki qalan ömürdən biri min il, biri isə bir il imiş. Sərçə burda bir hoqqa qoyaraq qələnquşdan soruşur:

–Sən bu ömürlərin hansını götürmək istəyirsən? Min ili istəyirsən, ya bir ili? ("Bir" kəlməsini çox uzadır).

Qəylənquş iştaha düşərək bir ilin çox olduğunu zənn edərək, deyir ki, mən həmən o bir ili istəyirəm. Odur ki, sərçə min il yaşar, qəylənquş isə təkcə bir il.

### II mətn

Ayrı bir əfsanədə deyir ki, İbrahim peyğəmbəri oda atıb, yandırmaq istəyəndə qəylənquş dimdigində su gətirib, odun üstünə tökürdü. Bir halda ki, sərçə dimdigində çöp gətirib oda salaraq, onu daha da alovlandırmaq istəyirdi.

## QARIŞQANIN BELİ NİYƏ NAZİKDİR?

Deyirlər, Həzrət Süleyman ki, heyvanların dilini bilirmiş bir gün bir qarışqaya deyir:

– Nədəndir sənin belin belə nazik, amma başın belə yekədir?

Qarışqa cavab verir:

– Belimin nazikliyi qənaətçillikdəndir, çünki mən ildə fəqət bir dənə buğda yeyirəm. başımın yekəliyi isə ağlımın çoxluğundandır.

Həzrəti Süleyman "imtahan edərik", – deyə əmr edir qarışqanı bir mücrüyə salıb, bir buğda dənəsi də yanına qoyub, ağzını bağlayıb, möhürləyirlər. Bir ildən sonra açanda görürlər ki, qarışqa buğdanın yalnız yarısını yeyibdir. Bunun əyllətini soruşanda deyir:

– Dedim, bəlkə yadınızdan çıxdı, bu mücrünün ağzını il başında açmadız, barı bir illik də çörəgim olsun.

## QATIR NİYƏ DOĞMUR?

### I mətn

Deyirlər, qatır niyə doğmaz. Qatır imamların birin qədim ayaqların ayaqlayıp. Bu qarquş eləyip, deep ki, "Get, daluva baxasan! Uşağın olmasın! Dalıva baxasan həmmişə!"

### II mətn

Peyğəmbər səlavatullah Allah rəhmətinə gedir. Bırdan qoyunnar gəlib onun qəbrinin üstündən geçəndə dırnağı bunu acılır. Peyğumbar səlavatullahı əziyyət elir. Deyir:

– Bu nə heyvandı, gəldi mənim üstümdən geşdi?

Deyərlər: "Valla, desək buna qoyundu, qarquş eylər qoyuna. Qoyun ilannığ olar".

Deyərlər:

– Qatırdı.

Peyğumbar dedi:

– Deginən bu heyvana, qatıra ki, bala üzünə həsrət qalasan! Sən bala görmüyəsən!

Odur ki, qatırın uşağı olmaz.

## TISBAĞA NECƏ YARANDI?

### I mətn

Məsəl, o qədim dörə ki, elə ehtiram varıdı ki, o gəlinin qəynətəsi gəlif, gəlin başını yuyurmuş. Gəlinin qəynatası görüftü ki, gəlin başın yuyur. Bu səfər o gəlin utandığınnan, çərək tabağı varmış, o tabak çövrülür gəlinin məsəl başına. Qədim dövrə, o olur məsəl tosbağa , gəlin olur tosbağa.

### II mətn

Tosbağa odi, o zaman da hamır eləyermiş (gəlin), qolları çırmak. O zaman hamıda ehtiram var idi, ya sıdıqları kamil idi, zad, qaynata bunun qollarını görəndə gəlin deer:

– Xudaya! Mənim tabağımı çövür üstümə. Məni bi dənə çöl heyvanı eylə. Məni qaynatam gördü.

## BƏDNƏZƏR

Təbriz dövrəsində İnçə dərə adında bir kənd var. Bu kəndin əhlindən biri deyirdi: “Mənim yüz on yaşında bir atam var, deyər, qədim zaman dörd gün dalbadal kəndə yağış yağdı. Dağın başında bir böyük qaya var idi. Yağış bu qayanın altın şumlatdı və qaya dığırlanıb, gəlib yolu gətirib, bir uclarını daşa və bir uclarını da mal-heyvana bağlayıb sürərlər. İplər davam gətirməyib qırılar və daş yerindən tərpənməz. Hər nə eləyərlər, çarə olmaz. Kənd əhlindən biri deyər, filan kənddə bir bədnəzər var, gedin, onu gətirin. Bir güclü şam eşşəgi var idi, onu minər, gedib bədnəzəri gətirərlər. Bədnəzər daşa baxıb deyir:

– Pəh, nə böyük daşdır!

Daş aradan parçalanıb iki bölünər, bir parçası o taya, bir parçası bu taya düşər. Daşın tikələrini çəkib, yolu açarlar”.

## PEYĞƏMBƏRLƏR, DİNİ ŞƏXSİYYƏTLƏR, PİRLƏR VƏ OCAQLAR HAQQINDA

## ALLAH DÜNYANI NƏ VAXT YARADIB?

Allah Həzrət Musanı çox istərdi. Həzrət Musa Allaha dedi:

– Sən bu dünyanı nə vaxt yaradıbsan?

Deer:

– Musa, sən mənim işimə əlün aparma! Peyğümbərlikdən düşərsən.

Deyər:

– Allah, sənin qadovu alım, de mənə görüm, bi dünyanı nə vaxt yaradıbsan?

Deyər:

– Xaiş eliyisən, deyim da. Musa, bu dünyani su tutmişdi. Elə bi qarış quru yer yox idi, tamam su idi. Bir dənə əjdaha yaratdım, o, suyu – dünyanın suyunu qurutdu. Sora bi dənə əjdaha yaratdlm, o əjdahanı yedi. Sora dünyanı yaratdım, məğribdən məşriqə min dənə şəhər düzəltdim. Hər bi dənə şəhərə min dənə sahtman. O, sahtımanların hamısın darıynan doldurdum. Sora, dünyada bi dənə quş yaratdım, gündə üş dənə o quşa rizq təyin elədim. Bi dənə süb, bi dənə nəhar vaxtı, bi dənə axşam. Tamam saxtmanların darısın quş yedi, qutardı, sonra mən dünyanı xəlq elədim.

## QƏZƏNFƏR DAĞI VƏ ŞAH MƏHƏMMƏD HƏNƏFİYYƏ OCAĞI

Deyirlər, kafirlərdən olan Qəzənfər Xan dizəsinin dağlarındakı Kafir qalasında olarmış. Qoruq kəndindən belə bunun hökmündə imiş. Əzab kəndi Ğəzənfərin zindanı və Dizədizə kəndi işgənçəgahı imiş. Bu kənddə adamları dizi-dizi yeridirmiş. Həzrət Əlinin oğlu Şah Məhəmməd Hənəfiyyə Ğəzənfərin qızına vurulur. Qızla sevişir, qızı qaçırdır. Ğəzənfərin qo-

şunu bunları təqib edir, bir daşın yanında bunları qomarlayırlar. Qız deyir:

– Bəs, neyləyək?

Şah Məhəmməd Hənəfiyyə deyir:

– Atam Əlini çağır.

Qız Həzrət Əlini çağırır. Həzrət çavab verir. Həzrət Əli Ğəzənfərin əngindən bir təpik vurur. Kəlləsi gedib bir dağın başına dəyir. Oradan qozanıb gedir Arazın o tayına Üç kilisə deyilən bir yerdə düşür. Bəziləri deyirlər, bir kilisənin divarına yapışır. Ğəzənfərin başı dəyən dağın adı o zamandan qaldı Ğəzənfər dağı. Şah Məhəmməd Hənəfiyyə ilə qız o daşda ğeyb olurlar. Qoşun əhli o qədər o daşa ox vururlar ki, oxların yeri hələ də qalır.

Bəzilərinin dedigin görə, qız söhbəti yoxdur. Deyirlər, Şah Məhəmməd Hənəfi kafirlərlə dava eliyə-eliyə gəlir o daşda ğeyb olur. O daşa indi Şah Məhəmməd Hənəfi ocağı deyilir.

## TƏÇƏNƏNƏ

Təçənənə Pir kəndi qadınlarının ocağıdır. Əlbəttə, hərdən kişilər də ziyarətə gedirlər. Pir kəndi Xoyun 23 kilometrliyi quzey-doğu tərəfində yerləşir. Kənd əhli və hər yerdə buraya Pir kəndi deyirlər. Deyirlər, bir zaman mal-heyvana qırğın düşür. Kəndlilər qalan mal-heyvanı aparıb Təçənin üstündəki məzarın dövrəsində dolandırdılar. Malları qaytaranda bir camış gördülər ki, ayrılıb, damın qapısından çıxan yoğun bir ilanı yalayır. İlan da əsla dinmir. Hətta bir nəfər deyirdi, malheyvanı çıxarıb Təçənin üstündəki yoğun ilanın dövrəsində dolandırdılar. Hansı heyvan ilanı yalayırdı, şəfa tapırdı.

Deyirdilər, qədim yağış yağmayanda kənd əhli Təçənin başına məsəlliyə çıxar. Namaz qılar, “ya Hüseyn” Təçib kəndə kimi qaçardılar. Kəndə yetişincə yağış yağardı. İndi də kəndlilər yay-yazda yağış cəhdindən korluq çəkərlərsə, bir qurbanlıq mal Təçənin dörəsinə dolandırarlar. (Qədimlər yer-

də, indilər maşınla) Təçənin ətəgində, ya gətirib kənddə qurban kəsər və ətini kəndlilərə paylarlar.

## ƏBƏLFƏZL OCAĞI

Əbəlfəzl ocağı Həmzəyan və Korabulaq kəndlərinin arasında bir dagın döşündə yerləşir və Xoydan 29 km arası var.

### I mətn

Qədim zaman iki qardaş yerlərini iki bölür və araya bir daş qoyurlar. Qardaşların birini tamam gücrəyir, gizlincə daşı aparır qardaş, ayrıca səhminin içərisində qoyur. Yəni həram basır, keçir qardaşının səhmindən qatır özününkünə. Səhər gedib görür, daş öncə halal böldükləri yerindədir.Yəni həram basır aparır, içərilik qoyur. Sabahısı gün baxır, görür, yenə daş halal yerinə qayıdıb. Bu əməl neçə gün təkrar olur. Belə gördükdə deyir: “Mən buranı Əbəlfəzl malı eylədim”

### II mətn

Deyirlər, bu zəminin yiyəsi yuxarıdakı bulağın qabağında bir göl qayırmaq istəyir. Bir daş götürür, aparır gölün badına (yəni gölün dövrəsindəki divar, qoyunun da badı deyirlər) qoyur. Sabah gəlir gölün qalanın işlyə. Görür, daş qayıdıb öncə haradan götürmüşdü oraya. Deyir, görəsən da, hansı məətəl adamın işidir. Gətirib qoyub buraya. Aparır yenə, gölün badına qoyur. Sabahı yenə gəlib görür, daş qayıdıb əvvəlki yerinə, aparıb yenə gölün badına qoyur. Bu əməl neçə gün təkrar olur. Burda deyir, mən buranı Əbəlfəzl malı eylədim. İndi o daş bir damda (otaqda) qoyublar, ocaq olub və camaat Əbəlfəzl adına ziyarətə gəlirlər.

Deyirlər, dörə kəndlərin birindən bir kəndli gəlir, ocağın ağaclarından yeddi çubuq (yun çırpısı ağacı kimi) kəsir, aparır. O kənddə dəva düşür və yeddi adam ölür. Qədim zaman ətraf zəmilərdə işləyən əkinçilər ocaqdan dəstə səsi (zəncir dəstəsi) eşitdiklərini söyləyirmişlər.

## SEYİD ƏHMƏD

### I mətn

Seyid Əhməd ağa heyət aparmışdım ona. Ondan çox möcüzat görmüşlər, deyiblər ha, mən eşitmişəm. Bunun bi dənə xoruzu varımış, bi dənə xoruzu üş dəfə qonağa kəsib verib. Sora qonaq gecə gəlip evinə, əlbətdə, kəndlillərin danışığın deyirəm, mən bi dənə xoruzu kəsib, o gecə qonağın yola salıp. Sabah gecə buna genə qonaq gəlip, deyir:

– Tut gəti o xoruzu, tövlədən tut, kəsginnən.

Deyip:

– Hacı ağa, dünən gecə kəsmişik o xoruzu.

Seyid deyip:

– Mən sənə deyirəm, get o xoruzu gəti.

Gedərlər, görürlər tövlədə genə xoruz var. Üç dəfə o xoruzu kəsip, qonağın yola salıp. İki il bunnan qabax mən qurbanlıx aparmışdım, heyət aparmışdım ora.

### II mətn

Bi dənə qaranqulux dərə varmış, bi qatır düşseymiş, qatırı çay-su apararmış. Deyər ki, qatır pərt olanda mən əl atdım bunun kefəsinə, dedim:

– Ya Seyid Əhməd ağanın cəddi!

O orada Seyid Əhməd Ağanın cəddin çağıranda burada seyid deyər:

– Qorxma.

Bı (atı qurtulan), dügünü getdi səhər-səhər. Çıxdı, gətdi.

## EL MƏSƏLLƏRİ İLƏ BAĞLI RƏVAYƏTLƏR

## ŞEYTAN HƏSEYİDLİNİ ALDADA BİLMƏYİB

Şeytan Həseyidlilərin zirəng adam olduqlarını eşitmişdi. Bunların zirəngliyini yoxlamaq üçün gəlib bir Həseyidli ilə yoldaş olur. Bir gün Həseyidli səhər tezdən çöldə cüt sürürdü. Şeytan gəlib Həseyidli ilə görüşəndən sonra deyir:

– Gəl, mərcləşək, görək hansımız günəşin çıxmağını tez görə bilərik.

Mərcləşirlər. Şeytan gözlərini cütləyir gün doğan yerə, Həseyidi üzünü çevirir, gözlərini tikir cütün günbatan tərəfindəki çox uca Evrin dağının zirvəsinə. Həseyidli Şeytandan qabaq günəşin işığını Evrin dağının başında görür və Şeytana göstərir. Şeytan görür, yox, deyilənlər düzdü.

Şeytanla Həseyidli şərikligə buğda əkirlər. Buğdalar yetişəndən sonra Həseyidli bir buğdanın boğazından yapışır, Şeytana göştərir, soruşur:

– Buğdanın başşaq tərəfini götürürsən, ya aşağı tərəfini?

Şeytan görür, bu qidanın başşaq tərəfi bir barmaq boyda, qılçıqlı bir şeydir, amma aşağı tərəfi uzun və yarpaqlıdır. Tez deyir:

– Aşağı tərəfini.

Həseyidli elə bu cavabı gözləyirdi. O, buğdanın başşaqlarını biçir, aparıb döyür və buğdaları çuvallara doldurur. Şeytan da küləşləri biçib, aparıb döyür. Samandan başqa nə çıxacaq idi? Heç zad.

Bu səfər Həseyidli ilə şeytan kəşir əkirlər. Kəşirlər əmələ gələndən sonra gözəl yarpaqları kərdilərdə ucalmışdı. Həseyidli Şeytandan soruşur:

– Kəşirin baş tərəfini götürürsən, ya torpaqda qalan tərəfini?

Şeytan buğda bölüşməsində alt tərəfləri götürməklə başına necə börk keçib, əli bir şey tutmamağı xatırladı. Ürəgində dedi: “Ananın oğlu olasan, bu səfər məni aldadanmazsan”.

Şeytan sevinə-sevinə gömgöy, özəl kəşir başlarını biçib, aparır. Kəşir başılar quruyub, heç zad olur. Yenə Şeytanın əli boşa çıxır, deyir, gedim görüm.Görür Həseyidli zəmini belləyir, necə gözəl sarı kəşirlər çıxardır.

## AĞ KÖYNƏKLİ AĞ KÖYNƏKLİDİR

Belə rəvayət edirlər ki, iki qardaş var imiş. Onların qadınlarının biri iş bacaran, o birisinin qadını isə bacarmazdı. Günlərin birində bu iki qardaş səfərə çıxmalı olurlar. Özü də bir aylıq səfərə. Qardaşlar getməkdə olsunlar, sizə söz açım onların qadınlarından. Onlar bir-birinə özlərini təriflməyə başladı. Ancaq heç birinin sözü o birini basmadı ki, basmadı. Axırı bu qərara gəldilər ki, hərəsi bazardan bir ağ parça alıb ərlərinə köynək tiksinlər. Bəlkə bu yolla onların bacarıqlı, bacarıqsız olmaları məlum olsun. Qadınlar bazara gedib, parça alıb, əyinlərinə köynək tikməyə başladılar. Biri həvəssiz halda köynəyi tikib qurtardı. Amma zirəng xanım bir neçə gün onun üstündə zəhmət çəkib tikdi. Yaraşıqlı bir köynək tikdi. Günlər bir-birini qovub, qardaşlar səfərdən qayıtdılar. Onlar arvadlarından soruşdular ki, görsünlər ki bu müddətdə darıxıblar, ya yox. Belə ki, gördülər qadınları nəyinki darıxmayıblar, bəlkə onlar üçün də bir iş görüblər. Onun üçün artıq sevindilər. Zirəng qadın utanırdı ki, ərinə desin ki, bu yaxşıdır, ya qardaşının köynəyi. Ona görə çox tələsirdi. Qayın xatınlar sırt bağlayarlar ki, o birisi ona görə bir şey almalıdır. Belə oturub həmin günü gözləyirdilər. Günlərin birində bu iki qardaş toya çağırırlar. Arvadlarının təklifi ilə həmin köynəklərini geyinirlər. Qardaşlar evdən çıxmaqla həmin arvadlar da onların arxasınca yollanıb gizlincə gedirlər. Qardaşlar qoca bir kişinin qabağından soruşub öz yollarını tutub gedirlər. Onlar getməkdə olsunlar, gəlin görək onların qadınları nə iş sübut etmək istəyirdilər. Xanımlar gəib qoca kişidən soruşdular:

– Əmican, de görüm, o iki ağ köynəkli qabağından keçdi, gördün, ya yox?

Kişi cavab verdi:

– İki nəfər itiblər, hansını deyirdiniz?

Zirəng qadın cavab verdi ki, o ağ köynəkli ki, pencəyi və ayaqqabıları filan formada idi. Qoca cavab verib dedi ki, yaxşı başa düşmədim. Bir də ağ köynəkli ağ köynəklidir. Bu misalın başqa bir nümunəsi də var ki, deyirlər, ağ donlu, elə ağ donludur.

## ŞORU ÇIXMAQ

Qədim camaatin sarı yağ yeyən vaxtı, Şuvan kəndində Hacı Kərim adında bir adam var idi. Şəhərin böyük başlarının birini görür və deyir:

– Bizim kənddə bir yer var, bu yerin qibləsini[68] mənim adıma keçirtsən, sənə bir çəllək yağ gətirrəm. Böyük baş ağa işi düzəldir, yeri Hacı Kərimin adına keçirdib, qibləni verir. Hacı Kərim bir çəlləgə şor doldurur, üstünə bir az yağ töküb, aparır ağanın qapısından verib qayıdır. Ağa barmağını yağa batırıb çıxardır, görsün necə yağdır. Bayaq yağın altından şoru qazıyıb, üzə çıxardır. Görür başına börk keçib. Hacı Kərimə adam göndərir:

– O qəbalədə əşkal var, gətirsin o əşkalı, qaldırım.

Hacı Kərim o adama deyir:

– Gedib ağaya deyərsən, qurtdalama, şoru çıxar.

## ƏSGƏR ƏMOĞLUM ƏLAMƏT VERİR

Bu başlıq bir deyim olaraq, Tikmədaşda işlənməkdədir. Deyimin işləndigi yer nişanələri göstərilməkdə olan və baş verməsi gözlənilən hadisələrdən öncəki durumdan ibarətdir.

[68]Qibləsini – sənədini

Belə bir nişanələri duyulduqda, "Əsgər əmoğlum əlamət verir!", – deyə söylənər. Bunu deyən şəxsin amacı bəlli bir hadisənin baş verməkdə olduğunu söyləməkdir. Deyimin yaranış hekayəsi belədir:

– Tikmədaşda 1360 onilligin ilklərinə kimi elektrik çəkilməmişdir. Ona görə, məhlələr hər biri yığışıb, özlərinə bərğ motoru alırdılar. Beləliklə, məhlələrin birində də 40-50 ailə bir araya gəlib, bərğ motoru almışdılar. Bu motor üçün dam çəkdidirib, bir nəfər də işlədən seçmişdilər. Bu adamın adı Əsgər idi. Bunun işi axşam beşdə gedib motorun həndilini vurub, işlətmək idi. Gecə yarısı saat 12-də də yersiz qaz veyil yandırılmasın deyə, bağlamaq saatı 12-yə, motorun bağlamağına beş-on dəqiqə qalan bir dəfə qıvzaları bağlayıb açardı. Beləliklə, camaat xəbər bilib, yır-yığış edib, qonaq olan durub gedəcəgini bilib ... elektrikin kəsilməsinə hazırlayardı. Onda deyərdilər: "Əsgər əmoğlu əlamət verir." Beləliklə, bu cümlə bir deyim kimi dilə-dişə düşüb, bu günə kimi də Tikmədaşda ümum insanlar tərəfindən çeşidli ortamlarda işlənməkdədir.

## HƏYƏ, HƏYƏ, DAYIYA DA HƏYƏ!

Bu atalar sözününün bir başqa forması da Azərbaycanın Tikantəpəsində var ki, xülasəsi belədir: "Bir kişi öz borclarını verə bilmir və nəhayət, dayısının yanına gedib ondan istəyir ki, ona yol-yöndəm görsətsin, ta tələbkarların qabağına çıxsın. Dayısı deyir:

– Sən özünü vur huşsuzluğa, hər nəmənə desələr, cavabında denə, həyə.

Bu kişi evlərinə qayıdıb hər kəs gəlir onnan pul istəyir, cəvabında deyir:

– Həyə.

– Həçan gəli?

Cəvab veriri:

– Həyə.

– Niyə borcuvu vermisən?

Deyir:

– Həyə.

Günlərin bir günündə bu kişi öz dayısından borclu olur. Dayısı bir gün pulunu almaq üçün gedir bacısı oğlunun yanına və ona deyir ki, bacıoğlu, mənim pulumu vermək gərəkdir. Bacısı oğlu cavab verir:

– Həyə.

Dayısı deyir:

– İndi əgər yoxundur, haçan desən, gəlim.

Yenə də bacısı oğlu cavab verir:

– Həyə.

Axırda dayısı görür ki, bacısı oğlu onun örgətdiyi sözləri özünə təhvil verir. Üzünü ona tutub deyir:

– Həyə, həyə, dayıya da həyə?

## MƏN MOTALDAN ƏL ŞƏKMIŞƏM, MOTAL MƏNDƏN ƏL ÇƏKMİR!

Bir axund məktəb uşaqları ilə gəzməyə gedir. Bir neçə saatdan sonra bərk guşad düşür. Sel bir yuxuya getmiş ayını götürüb, özü ilə gətirər. Məktəb uşaqları ki, axunddan acıqlı idilər, mollanın tamahkarlığını bilib, yalandan deyirlər:

– Ay axund, sel yuxarı kəndi xərab qoyub, peynir motalını gətirir.

Axund tələsik penir motalına sahab çıxmaqdan ötrü özün selə verir. Ayı ki, yorğun idi, mollanı görmək, həmən ona bərk-bərk yapışıb, əl çəkmir. Uşaqlar bir az dözəndən sonra deyirlər:

– Axund, motalı boşla. Bivaxtdı, gəl gedək.

Axund deyir:

– Mən motaldan əl çəkmişəm, motal məndən əl çəkmir!

## AŞIQ QƏŞƏMLƏ BAĞLI RƏVAYƏTLƏR

## GÖRƏK MƏN KİM, SƏN KİMSƏN?

Bir gün Aşıq Qəşəmi Güney kəndlərindən olan X… kəndinə toya aparırlar. Deme, bə o kəndə belə bir yaramaz bədət qoyulmuşdu ki, hər aşıq o kəndə toya gəlsəydi, toydan qabaq gedib Hacı İ….K…adlı bir pullu, varlı-dövlətli və qolçomaqlı adamın evində neçə hava çalıb, oxumalı, sonra gedib toy evində toya başlamalı idi. Aşıq Qəşəm də ki, bu kəndə toya gəlib, ona deyirlər:

– Aşıq, bu kənddə belə bir dəb vardır, bu günə qədər də başqa aşıqlar bu dəblə gediblər, indi sən özün bilirsən.

Bu sözü eşidən aşıq deyir:

– Mən toya gəlmişəm, Hacı İ... K… da mənim sazımı-sözümü istirsə, durub gəlsin toya, burada sazı-sözü eşitsin.

Nəhayət, aşıq uzaqdan-uzağa tanıdığı hacının evinə getməyip, amma hacının bu işdən xəbəri olur və qulluqçusunu aşığı gətirməyə göndərir. Aşıq qulluqçuya deyir:

– Get, ağaya de, məni toya gətiriblər, mənim sazım-sözüm istəyən də toya gəlsin!

Qulluqçu sözü ağaya yetirir. Ağa aşığa dolub və bir baş toy evinə gəlir. Aşıq toy edilən evin həyətində öz əli ilə mis aftafadan su töküb, əl-üzünü yuyurdu ki, Hacı qapıdan içəri keçib, aşığı xəbər alır. Aşıq ona göstəriləndə irəli yeriyib, acıx ilə ona deyir:

– Aşıq, niyə mənim elçimi boş qaytarmısan? Elə bil məni tanımayırsan, hən?

Bu sözü eşidən aşıq Qəşəm su ilə dolu mis aftafanı götürüb, özündən razı Hacıya atıb, deyir:

– Mən səni yaxşı tanımasam, vurmaram, bir neçə qələmə ağacın məndən artıqdır, kişisənsə, gəl ikimiz də kənddən çıxaq qırağa, görək mən kim, sən kim?

Qəşəmin bu işi həməşəlik olaraq o bedəti pozdu və o boynuyoğun adam heç vaxt daha kəndə aşıqları öz evində çalıb-oxumağa məcbur etmədi.

## AŞIQ QƏŞƏM İLƏ ƏRBABIN HEKAYƏSİ

İslami inqilabdan neçə illər qabaq ölkədə Milli Şura məclisi seçkiləri olacaqdı. Bir gün Kündür və oranın qonşu kəndlərinin ərbabı Təbrizdən Sis kəndinə gəlib, neçə ağsaqqalı ətrafına toplayıb, deyir:

– Bütün kəndlilərə tapşıracaqsınız ki, yalnız mənim yaxın dostum olan … xana səs verələr və ondan başqa bir adamın adını sandıqlara salmayalar, mən bu barədə ona arxayınlıq vermişəm.

Bu sözü eşidən ağsaqqallar deyirlər:

– Xan sağ olsun, xəlq bizdən söz eşitməz, bizim dediyimizə baxmazlar.

Bu sözü eşidən xan təəccüblə soruşur:

– Necə baxmazlar? Bu söz mənim sözümdür, mənim sözümə baxmayanlar kimin sözünə baxarlar?

Qoca kişilərin birinin dili tutar-tutmaz deyir:

– Bu işin açarı Qəşəm aşığın əlindədir, o, desə, yaxşıdır.

Bu sözü eşidən ərbab artıq təəccüblə deyir:

– Bu ad indiyə kimi qulağıma dəyməyibdir. Qəşəm kimdir ki, sözü xandan da, ərbabdan da, kətxudadan da, ağsaqqaldan da yaxşı yeriyir?

Ona belə cəvab verirlər:

– Qəşəm aşıqdır, özü də Kündürlüdür, sizin rəiyyətlərinizdəndir.

Ərbab:

– Adam göndərin, Qəşəmi mənim yanıma gətirsinlər.

Ərbabın əmri ilə iki nəfər o kətdən Kündürə yollanır. Onlar aşığı tapıb, deyirlər:

– Aşıq, ərbab Təbrizdən Sisə gəlib və səni görmək istə-yir, gəl gedək Sisə, ərbabın yanına.

Aşıq cavab verir:

– Mənim nə ərbab ilə işim vardır, nə də Sisə gedirəm, məni görmək istəyən gələr Kündürə.

O iki nəfər olub-olacağı aşığa dedilər, aşıq cavab verir:

– İndi xanın mənlə işi vardır, görüşmək istəsə, gəlsin görüşək, qalan sözləri də burada danışarıq!

Nəhayət, o iki nəfər əliboş xanın yanına dönür və xana deyirlər:

– Xan sağ olsun, Qəşəm bir az xəstə idi, gələ bilmədi.

Xan ki belə bir cəvabı gözləməyirdi, onlara deyir:

– Mən onu görməliyəm, at, araba, maşın hər nə vardırsa, aparın və onu bu kəndə gətirin.

Elçilər nə vəsilə ilə getməlidilərsə, bir daha Kündürə gedirlər, aşığa deyirlər:

– Sən Sisə gəlməsən, ərbab bizi incidəcəkdir, gəl gedək oraya. Bilirsən ki, yaxamızdan əl çəkən deyil.

Aşıq Qəşəm deyir:

– Gələrəm, amma onunla bir alver eləyərəm, yəni ondan bir şey almamış, bir şey verməfrəm.

Bu denə onlar aşığı Sis kəndinə gətirə bilirlər. Aşıq ər-bab ilə görüşür, ərbab sözünü ona deyəndə, o deyir:

– Ərbab, biz sizə səs versək, siz bizə nə verəcəksiz?

Bu sözü eşidən ərbabın ürəyinə ümid calanır, öz-özünə deyir: “Bunun istədiyi nə olacaqdır? Pul istər verərəm, ev is-tər verərəm, öküz istər verərəm. Bir kəndlini razı salmaq bir ərbab üçün çətin iş deyil, qoy hər nə istəyir, istəsin, ancaq mə-nim sözümü yerə salmasın, yoxsa rəiyyətlərin içində abırsız olaram”. O, bir az belə düşündükdən sonra aşığa deyir:

– Aşıq, istə görüm, nə istəyirsən?

Qəşəm deyir:

– Ərbab, yox deməyəcəksən ki? Verəcəyini burada yazıb, imzaladacaqsanmı?

Ərbab deyir:

– Sənin istədigin mənim əlimdə olsa, yazın, qol çəkib verəcəyəm.

Qəşəm deyir:

– Mən özümə bir zad istəməyirəm, yazın, imzala ki, bu gündən bəri ərbabı olduğum bu neçə kəndin rəiyyətlərindən əkdikləri noxud və yoncaya bəhrə almayacağam və yalnız buğda və arpanın bəhrəsinə qənaət edəcəyəm.

Ərbab Qəşəmdən hər necə cəvab gözlsəydi də, belə bir cəvab gözləməyirdi. Amma məcbur olub, bir rəy almaq və iddası qarşısında bir yolluq olaraq o kəndlərdə noxud və yonca bəhrəsindən əlini üzməyə razı oldu və elə bir sənədi yazıb, imzalayıb kəndlilərə verdi. Nəticədə, rəiyyətlər bir ağır yükün altından qurturdular.

## BƏS MƏN O ÇALĞIÇIYAM?

Bir gün aşıq Qəşəm Güneyin kəndlərindən olan B….. də bir kəbinkəsmə məclisinə aparılır. Aşıq məclisə çatır, bir çay içdikdən sonra kəbinkəsən dalısınca adam göndərilir. Kəbinkəsən “Məclisə aşıq gətiribsiz və mən aşıq olan məclisə gəlmərəm”, – deyə gəlib kəbin kəsməyə hazır olmayır. Belə görən ev yiyəsi özü ağanın dalınca gedib deyir:

– Kişi, aşıq hardaydı, aşıq gətirsək də, toyda gətirəcəyik, dur gəl, kəbini kəs.

Ağa bu sözə inanır. Dəftərini götürüb məclisə gəlir. Hər nədən xəbəri olan aşıq da sazını bir bucaqda gizlədib, adi bi qonaq kimi oğlan və qızın qohumlarının içində oturub, kəbin kəsmən gözləyir. Elə ki, kəbin kəsmə qurtardı və ağanın işi başa çatıb, pulunu alıb, çay içməyə, şirni yeməyə başladılar, Aşıq Qəşəm üzünü ona tutub deyir:

– Molla əmi, mollalar niyə aşıqlar ilə yola getməzlər?

Onu adi bir qonaq hesab edən molla deyir:

– Kərbəlada İmam Hüseyn (s) şəhadətə yetişəndən sonra başı nizə başında Kufəyə aparılanda musiqiçilər Yezidin adamlarının istəgi ilə çalıb oxumağa başlamışdılar.

Bu sözü eşidən aşıq xəbər alır:

– Siz yaxşı bilərsiz, buyurun ki, İmam Hüseynin (s) qətlinə fətuy verən kimdir?

Molla işi seçir və aşığa acıqlanaraq deyir:

– İmam Hüseynin qətlinə fətiy verən molla qazının kötəgini mənə vura bilməzsiz, mən o molla deyiləm!

Belə bir cavabı gözləyən aşıq Qəşəm əl atıb su ləyənini götürüb ağanın başına çalaraq deyir:

– Bə mən o çalğıçıyam ki, Kufədə İmam Hüseynin başının qabağında musiqi çalırdım? Necə olur, şərih qazının günahını öz ayağına, amma o zamanın çalğıçılarının günahını mənim ayağıma yazırsan?

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Ahənbazu Xədicə, Urmiya, 50 yaş. Söylədiyi mətnlər: "Axır çərşənbə bayramı" (I mətn); "Toy mərasimləri" (I mətn). Toplayan: Talip Doğan.

2. Azərneşan Solmaz, Urmiya-Mərkəz, 30 yaş. Söylədiyi mətn: "Toy mərasimləri" (II mətn). Toplayan: Talip Doğan.

3. Bağdagül, Şahsevən köçərisi. Söylədiyi mətn: "Dünya malına bel bağlamaq olmaz". Toplayanlar: Behruz İmani, Əkbər Rəhimzadə.

4. Cabbarzadə Firəngiz, Urmiya, Göytəpə kəndi, 72 yaşında. Söylədiyi mətnlər: "Axır çərşənbə bayramı" (IV mətn); "Toy mərasimləri" (V mətn).Toplayan: Talip Doğan.

5. Cəfərnəjat Həsən, Urmiya, Körpü Çongaralı, 63 yaş. Söylədiyi mətn: "Keçinin nağılı". Toplayan: Talip Doğan.

6. Eynullahzadə Şirməhəmməd, Xalxal, Buruç kəndi, 55 yaş. Söylədiyi mətn: "Çırtdan". Toplayan: Cihangir Karini.

7. Əbulfatih Südabə, Urmiya, Balanuş, 70 yaş. Söylədiyi mətn: "Tülkü və Hacınənə". Toplayan: Talip Doğan.

8. Əliquluzadə Reisullah, Ərdəbil, Xalxal, 1942-ci il, savadsız. Söylədiyi mətn: "Cinlər haqqında" (IV mətn). Toplayan: Gülcan Karini.

9. Əzimi Seyid İbrahim, Xalxal, Əlihaşim kəndi, 1938-ci il, dini təhsilli, molla. Söylədiyi mətn: "Cinlər haqqında" (II mətn). Toplayan: Gülcan Karini.

10. Haşımzadə Süleyman, Balov, 55 yaş. Söylədiyi mətnlər: "Toy mərasimləri" (IV mətn); "Yas mərasimləri" (II mətn). Toplayan: Talip Doğan.

11. Hilasi Əfsəl, Xoşrüstəm mahalı, Kezec kəndi, savadsız. Söylədiyi mətn: "Qatır niyə doğmur?" (II mətn). Toplayan: Gülcan Karini.

12. Hüseyn Dərənd, Sayın qala (Şahin dəj) şəhərinə tabe Kəhriz kəndi. Söylədiyi mətn: "Keçəlin nağılı" (II mətn). Toplayan: Kazım Abbasi.

13. Xanım Turani, 72 yaş, İlqar Baharlu 31 yaş. Bahar. Söylədikləri mətnlər: “Yağış yağdırma mərasimləri” (III mətn); “Hal anası”; “Cinlər haqqında” (I mətn). Toplayan: Gülcihan Pehlivan.

14. Karini Məhərrəm Əli, Ərdəbil, Xımıs kəndi, 1930-cu il, savadsız. Söylədiyi mətn: “Allah dünyanı nə vaxt yaradıb?”. Toplayan: Gülcan Karini.

15. Kərimi Çəlil, Urmiya, Qaralar, 44 yaş. “Axır çərşənbə bayramı” ( II mətn). Toplayan: Talip Doğan.

16. Qurbani Seydullah, Şahrud mahalı, Til kəndi, 1930-cu il təvəllüdlü, ibtidai təhsilli. Söylədiyi mətn: “Tısbağa necə yarandı?” (II mətn). Toplayan: Gülcan Karini.

17. Məhəmmədi Hacı Yusifcan, Mərəngəli, 77 yaş. Söylədiyi mətn: “ Hacı Səyyad qızı”. Toplayan: Talip Doğan.

18. Mənəfzadə İsmət, Urmiya, Kəhriz, 55 yaş. Söylədiyi mətn: “Yağış yağdırma mərasimləri” (I mətn). Toplayan: Talip Doğan.

19. Məsimə, 65 yaş, İlqar Baharlu 31 yaş. Bahar. Söylədikləri mətn: “Yağış yağdırma mərasimləri” (II mətn). Toplayan: Gülcihan Pehlivan.

20. Neməti Hacı Hürmüz, Xalxal, 1937-ci il təvəllüdlü, ibtidai təhsilli. Söylədiyi mətn: “Seyid Əhməd” (I mətn). Toplayan: Gülcan Karini.

21. Nevidi Babullah, Şahrud mahalı, Miyarvan kəndi, 1940-cı il təvəllüdlü, savadsız. Söylədiyi mətnlər: “Seyid Əhməd” (II mətn); “Qatır niyə doğmur?” (I mətn). Toplayan: Gülcan Karini.

22. Radımərd Pəri, Ərdəbil, Qızıldərə kəndi, 1950-ci il təvəllüdlü, savadsız. Söylədiyi mətn: “Tısbağa necə yarandı?” (I mətn). Toplayan: Gülcan Karini.

23. Rəxşəndə, Sərabın Sərnəsər kəndi, 75 yaşında. Söylədiyi mətn: “Sona bülbül”. Toplayanlar: Behruz İmani, Əkbər Rəhimzadə.

24. Ruhangiz Cavid, 56 yaş. Söylədiyi mətn: "Uşaqla bağlı inanclar". Toplayan: Solmaz Purnemət.

25. Ruşənzadə İsmayıl, Urmiya (Mərkəz), 62 yaşında. Söylədiyi mətnlər: "Həpsənə, ay həpsənə..."; "Yas mərasimləri" (I mətn). Toplayan: Talip Doğan.

26. Rüstəmzadə Nizam, Ərdəbil, İlxıçı kəndi, 1939-cu il təvəllüdlü, ibtidai təhsilli, əkinçi. Söylədiyi mətn: "İbrahim". Toplayan: Gülcan Gülmez.

27. Sadıqpur Mahmud, Urmiya, 63 yaş. Söylədiyi mətnlər: "Çillə gecəsi" (I mətn); Sayaçı sözləri (bir hissə). Toplayan: Talip Doğan.

28. Söylənilən mətn: "Sərbəndin toy mərasimlərində oxunan tiringilər". Toplayan: Əmir Mövləvi[69].

29. Təsəllizadə Fatma, Ərdəbil. Xımıs kəndi, 1940-cı il təvəllüdlü, savadsız, ev xanımı. Söylədiyi mətnlər: "Cinlər haqqında" (III mətn), "Padşahın oğlu ilə arvadı". Toplayan: Gülcan Karini.

30. Təyyar Əbdürrəhman, (Dədə katib), Guluncu kəndi, 83 yaş. Söylədiyi mətn: "Toy mərasimləri" (III mətn). Toplayan: Talip Doğan.

31. Vahabzadə Güllər, 73 yaş. Söylədiyi mətn: "Yas mərasimləri" (III mətn). Toplayan: Talip Doğan.

32. Zirək Cəvad, Sayınqala (Şahindəj) şəhərinə tabe Səvrin kəndi. Söylədiyi mətn: " Keçəlin nağılı" (I mətn). Toplayan: Kazım Abbasi.

[69]Mətn "El bilimi" dərgisindən götürülmüşdür, söyləyicinin adı qeydə alınmayıb.

## LÜĞƏT

**A**

Abadan (f) – abad

Ab-həyat (Abi-heyvani) (f) – dirilik suyu. Əfsanələrə görə, zülmətdə olan bir çeşmənin suyu

Adat (ə) – adətlər

Adı batmış (d) – cin, şeytan, əqrəb və s. kimi varlıqlar haqqında danışarkən işlədilən ifadə

Ağambiyan (d) – oyun növü

Ağcabaş (d) – ot növü

Alaçirpo (d) – qarla qarışıq yağış

Aliyə (ə) – yüksək, uca

Ariz (ə) – yanaq

**B**

Baxüsus (f) – xüsusilə

Batin (ə) –1) iç, içüz, iç tərəf; 2) gizli, açıq olmayan.

Baməzə (f) – məzəli

Barə (f) – dəfə, kərə

Başdannoğ (d) – səhər yeməyi

Bay (d) – böyük kasa

Bazgəşt (f) – qayıtma, geri qayıtma

Bebələg (d) – bitki növü

Bəd (f) – yaman

Bədcins (f) – əsilsiz, cır

Bədtər (f) – daha pis

Bədzat (f) – qeyri-qanuni doğulan

Bəqər (ə) – qaramal

Bəxşayiş (f) – bağışlama, peşkəş vermə

Bənat (ə) – qızlar

Bəzm (f) – məclis, yığıncaq

Bihəya (f) – həyasız, həyası olmayan

Bix (f) – kök

Bilaxələl (ə) – xələlsiz, nöqsansız

Bilmərrə (ə) – birdəfəlik
Binə (d) – çuğundur
Bilö (d) – pıçaq itiləmək üçün daş
Bubunək (d) – Hüd-hüd quşu

**C**

Cəbbə (ə) – qəddi-qamət
Cırti (d) – mundar adam
Cilitmək (d) – özündən çıxmaq
Cürü (d) – zəif

**Ç**

Çalğl-vəlği (d) – birisinə qəfil qonaq gələndə əl-ayağa düşmək
Çırpı (d) – ağacın incə budağı
Çilkə (d) – ağacın qol-budağı

**D**

Damad (f) – kürəkən
Daru (f) – dərman
Dayna (d) – da, də
Dera (d) – zəngin
Dəm (ə) – söhbət
Dərəbə (d) – eyvanın qarşısına vurulan barmaqlıq
Dərgah (f) – saray
Dəstbənd (f) – qolbaq, bilərzik
Dəstgirə (f) – səbəd
Dəvac (ə) – yorğan-döşək
Dəvirimək (d) – şübhəli davranmaq
Dig (f) – qazan
Dodur (d) – güc göstərmək, məğlub etmək
Duzi-mizzan (ə) – doğru, düzgün
Düxül (ə) – daxil olma

**E**

Erziş (f) – deyər
Eynən (ə) – eyni ilə

### Ə

Əbu (ə) – ata
Əfzəl (ə) – artıq
Əxirən (ə) – sonra, son vaxtlarda
Əqar (ə) – mülk, malikanə
Əqib (ə) – geri, arxa
Əlan (ə) – bu saat, indicə
Ələmavər (ə) – ağrı, acı, kədər
Əmmə (ə) – bibi
Əndazə (f) – ölçü, hədd
Əngüştər (f) – üzük
Ərbab (ə) – sahib, mülkədar
Ərş (ə) – göy, səma
Ərz (ə) – xahiş, istək
Əsvəd (ə) – qara (rəng)
Əvədimək (d) – yöndəmsizcə uzanıb yatmaq
Əza (ə) – yas
Əzadar (ə) – yaslı, yas saxlayan
Əzrəq (ə) – göy rəng, mavi

### F

Fələk (ə) – məc. tale, bəxt
Fənd (ə) – biclik
Fərş (ə) – döşənəcək, ayaq altına salınacaq şey, döşəmə
Firaq (ə) – ayrılıq, hicran
Firar (ə) – qaçma, sovuşma
Firib (f) – hiylə, kələk

### G

Gəndüm (f) – buğda
Gər mabə (f) – hamam
Gərdən (f) – boyun
Gərdənbənd (f) – boyunbağı
Gəz (f) – uzunluq ölçü vahidi
Güdül (d) – ağzı sınıq kuzə

Gülobi (d) – armud növü
Güşt (f) – ət

**H**

Hətmən (ə) – kəsinlklə, mütləq
Hövzək – kiçik təndir (farsca hövzə, dairə, dairə içi deməkdir)
Höyül olmaq (d) – tələsmək

**X**

Xanedarluq (f) – ev xanımlığı
Xamnə (d) – böyük nənə
Xeymə (ə) – çadır
Xom (d) – bidon
Xürrəm (f) – sevinc, şad, şən

**İ**

İdamə (ə) – davam
İddə (ə) – say, ədəd, dəstə, qrup
İqad (ə) – yandırma, alışdırma
İnşil (d) – iki il bundan qabaq
İştibah (ə) – yalnış
İtmam (ə) – tamamlama, axıra çatdırma
İztirab (ə) – sıxıntı, əzab-əziyyət

**K**

Kar (f) – iş
Kalava (d) – böyük xarabalıq
Kasə (f) – kasa
Kəc (f) – əyri, əyilmiş
Kəlağ (ə) – ala qarğa
Kəşəf (ə) – tısbağa
Kennu (d) – taxılların saxlandığı bidon
Kövzə (d) – dəyirmançının gördüyü işin haqq
Külah (f) – papaq
Külə it (d) – quyruğu kəsilmiş
Külə çərşənbəsi (d) – ilin axır çərşənbəsindən əvvəlki çərşənbə

Kürə (d) – qulağı kəsilmiş qoyun
Küvər (d) – iki yaşlı erkək keçi

**Q**

Qail (ə) – 1) deyən, söyləyən; 2) inanan
Qaim (ə) – dayanan, ayaq üstə duran
Qaşqa (d) – alnı ağ olan ev heyvanı
Qayə (ə) – məqsəd, arzu, niyyət
Qəbalə (ə) – qəbz
Qeyznak (ə) – acıqlı
Qəbl (d) – əvvəl, qabaq
Qədimən (ə) – qədim zamanda
Qəlyanquş (d) – qaranquş
Qəryə (ə) – kənd
Qəzib (ə) – incə budaq
Qiyas (ə) – müqayisə
Qöl vurmaq (d) – hiylə etmək

**L**

Ləfzə (ə) – tək bir söz
Ləmə (ə) – parıltı
Lətdi (d) – həmişə naxoş
Lühum (ə) – ətlər
Lülük (d) – aftafanın lüləsi

**M**

Masələf (ə) – keçmiş, keçən əhvalat
Məqas (ə) – qayçı
Məlamət (ə) – məzəmmət, qınama, danlaq, qaxınc
Mərdum (f) – insan, xalq
Mərəkə (ə) – dava meydanı
Mərəs (d) – iki başı halqa olan ip
Mirab (f) – suvarma işlərini idarə edən adam
Mırt (d) – zarafat, lətifə
Misl (ə) – bənzər, oxşar
Mofesseh, müfəssir (ə) – təfsir edən, şərh edən

Mövqe (ə) – vaxt, zaman
Mühəyya (ə) – hazırlanmış, tədarük olunmuş, hazırlğı görülmüş
Mürur (ə) – keçmə, ötmə

**N**

Naçar (f) – çarəsiz, istəməyərəkdən
Nadan (f) – anlamaz, çahil
Naməhrəm (f) – məhrəm olmayan, özgə
Nəva (f) – avaz, səs, ahəng
Nəyyah (ə) – ağıçı
Noxta (d) – heyvanı bağlamaq üçün cilov
Novsal (f) – yeni il, təzə il
Novhə (ə) – bir şəxsin ölümünə həsr edilmiş hüznlü nəğmə

**H**

Hühus (ə) – uğursuz, nəhs

**O**

Ovlax (d) – keçi balası

**Ö**

Örüş (d) – heyvanların otlaması üçün yer
Övnə (d) – yemək vədəsi

**P**

Pənc (f) –beş
Pərgar (f) – məc. kainat, dünya
Pərişan (f) – kədərli, dərdli
Pəs (f) – arxa, geri
Pişgah (f) – hüzur, ön, qarşı, qabaq
Pül (f) – körpü

**R**

Rəhmət (ə) – vəfat etmə
Rəf (f) – rədd etmə, aradan qaldırma
Ruz (f) – gün, gündüz

**S**

Saiqə (ə) – ildırım
Salim (ə) – sağ, sağlam
Sayquş (d) – quş növü
Saytal (d) – iri, gözəgələn
Sədəqə (ə) – yoxsullara, dilənçiyə verilən şey
Sərtib (f) – qoşun başçısı
Sinn (ə) – adamın yaşı
Siyəzi (d) – çuval növü
Suzən (f) – iynə

**Ş**

Şirgin (d) – asta-asta yağan yağış

**T**

Tasə (f) – qəm, qüssə
Təbarək (ə) – mübarək olsun
Təbənə (d) – yorğan iynəsi
Təkə (d) – keçi
Təqdir (ə) – qədər, qismət
Təqsim (ə) – bölmə, hissələrə ayırma
Təmimə (ə) – keçmişdə uşaqların boynundan asılan dua
Təsmim (ə) – qərar
Təvəkkül (ə) – vəkalət alma, ixtiyar sahibi olma
Tiraş (f) – yonma
Tiringə (d) – oynaq hava
Tulamba (d) – göz yandıran od
Tuluh (d) – üz, yanaq
Tüsbür (d) – kimi, tək

**Ü**

Ülüt (d) – ölmüş

**V**

Vagüzar (f) – həvalə, öhdəyə buraxma
Vahi (ə) – boş, mənasız, əsassız

Varid (ə) – gələn, yetişən
Vəbal (ə) – günah, təqsir
Vərək (d) – tikanlı, sarı gül
Vəsail (ə) – vəsilələr
Viran (f) – yıxıq, xaraba
Vüfur (ə) – bolluq, firavanlıq

**Y**

Yalaq (d) – ölü yuylan yer
Yalav (d) – od
Yava (d) – pis
Yedək (d) – kiçik boşqab
Yelmi (d) – ot növü
Yengi (d) – təzə

**Z**

Zəqən (ə) – çənə, saqqal
Zənbarə (f) – qadın düşkünü, arvadbaz
Zərbavt (f) – qızıl ilə toxunmuş parça
Zibh (ə) – qurbanlıq heyvan, qurban kəsiləcək heyvan
Ziyadə (ə) – çox, daha çox
Zülf (f) – saç, tel

# ƏDƏBİYYAT


1. Azərbaycan ağız ədəbiyyatı. Hazırlayan: Muhəmməd İşraqi. Təbriz, 2013

2. Azərbaycan bayatıları. Hazırlayan: Niqabi. Təbriz, 1944

3. Azərbaycan folklorunda gülüş qaynaqları. Hazırlayan: Kazım Abbasi. Təbriz, 1977

4. Bir dağarcıq folklor (Xoy, Maku, Çayparə). Hazırlayan: Fatma Mustafəpur. Təbriz, 1970

5. Çap olunmamış nağıllar. Hazırlayanlar: Bəhruz İmani, Əkbər Rəhimzadə Fərəci. Təbriz, Əxtər, 1966

6. El sözləri. Hazırlayan: Məhəmməd Həsən Yusifi. Təbriz, Əndişei-No, 1957

5. Folklor toplama qılavuzu. Hüseyn Məmmədxanlı (Güneyli), Əsgər Olyayi Kəlyan (Yaşıl). Köçürən: Məhəmməd Məhəmmədxani. Tehran, 2006

6. Həqqi B. Atalar sözlərinin kökləri. Təbriz.

7. Həsən. Ə. Türki təsniflər.Təbriz, 1908

8. Nasir Ə. Türk bayatıları. Tehran, "Səhənd-Savalan" bilik müəssisəsi, 1957

9. Pərvizi P. Təsnifhayi cədid məhəlli və farsi və kərdi və nişat əngiz Azərbaycan. Tehran, 1911

10.Vəhidi H.F. Atalar sözü, ağlın gözü. Təbriz, 1947

11. Zəfərxah Ə. Azərbaycan folklorundan: folklor xəzanəsi. Təbriz, 1969

12. Zəfərxah Ə. Azərbaycan folklorundan: el biligi sərvətimiz. Təbriz,1963

13. Zəfərxah Ə. Azərbaycan folklorundan: folklor varlığımız. Təbriz, 1968

14. Doğan T. Urmiya ağızları. Kırıkkale Üniversitesi Sosiyal Bilimlər Enstitüsü. Türk dili ve Edebiyyat Anabilim Dalı. Yüksək llisans tezi, 2010

15. Gülmez (Karini) G. Güney Azərbaycan Ərdəbil bölgəsindəki türk xalq məsəlləri. Ege Üniverstesi, Sosiyal Bilmlər

Enstitüsü, Türk Dünyası Araşdırmaları Anabilim Dalı. Yüksək llisans tezi. Ankara, 2008

16. Gülmez (Karini) G. İran – Xalxal yörəsi türklərinin əfsanələri üzərinə bir araşdırma. Ege Üniverstesi. Sosiyal Bilmlər Enstitüsü. Türk Halk BilimiAnabilim Dalı, Yüksək lisans tezi. İzmir, 2012

17. Karini C. Ərdəbil eli ağızları. Qazi Üniverstesi Sosiyal Bilmlər Enstitüsü Türk Dünyası Araşdırmaları Anabilim Dalı. Ankara, 2009

18. Pehlivan G. Həmədan bölgəsi Bahar ağızları. Ege Universitesi Sosyal Bilimlər Enstitüsü. Türk Dili ve Edebiyyatı Anabilim Dalı, Türk Dili Bilim dalı, Yüksək llisans tezi. İzmir, 2011

19. Sultan T. Xorasandan Məsəllər və xalq hekayələri. Ürün yayınları, 2005

20. Mir Hidayət Hesari. Seyri dər folklor Azərbaycan bər əsas munuqrafi məntəq-e Yekanat. Tehran, Taban, 1969

21. Təbriz bayatıları – Qoca Təbriz. İbrahim Təbib, Təbriz, 2005

22. www. Azeibilimi.com ("Azərbaycan Ei Bilimi" dərgisi, Baş redaktor: Əhəd Fərhəməndi)

## MÜNDƏRİCAT

**TƏRTİBÇİDƏN ........................................................................ 3**
**UŞAQ FOLKLORU**
Nazlamalar........................................................................ 15
Laylalar............................................................................ 16
**MÜXTƏLİF UŞAQ ŞEİRLƏRİ**
Qurbağalar ........................................................................ 19
Pıs-pıs xala........................................................................ 20
Fatma................................................................................ 20
Mərziyyə............................................................................ 20
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR.................................. 40**
**QARĞIŞLAR ................................................................. 75**
**DEYİMLƏR..................................................................... 80**
**SAYALAR....................................................................... 86**
**BAYATILAR ................................................................... 96**
Təbriz bayatıları ............................................................. 122
**BEŞ HECALI DÖRDLÜKLƏR....................................... 154**
**XALQ MAHNILARI**
Apardı sellər Saranı........................................................ 158
Yaralı durna .................................................................... 159
O yara qurban olum........................................................ 160
Samovara od salmışam................................................... 160
Evləri var ... .................................................................... 161
Ulduz, aman!................................................................... 161
Ürəyimdə sözüm var ...................................................... 162
Sonalar, ay sonalar!......................................................... 163
Yeri, dam üstə yeri.......................................................... 164
Qaragilə .......................................................................... 164
Dağlar maralı .................................................................. 166
Mindim atın ağını............................................................ 166
Qız-oğlan deyişmələri üzərində qurulan mahnılar......... 167
**NAĞILLAR**
Keçinin nağılı.................................................................. 175

Axmaq qurd ........................................................................ 177
Quyruqsuz tülkü.................................................................. 178
Xoruz................................................................................. 181
Tülkü və Hacınənə .............................................................. 182
Əli bəyin cevizləri............................................................... 185
Həcərin gəlin getməsi ......................................................... 187
Cırtdanın nağılı ................................................................... 189
Fatma xanım ...................................................................... 193
Dünya malına bel bağlamaq olmaz.................................... 197
Padşahın oğlu ilə arvadı ..................................................... 200
Yaxşılığa yamanlıq ............................................................ 206
Keçəl Həsən........................................................................ 208
Oğlan və div........................................................................ 213
Dazey-dazey və Nazey-nazey.............................................217
İbrahimin nağılı.................................................................... 220
Yağ ilə şorun qiyməti bir olan yerdən qaç .......................... 225
Hacı Səyyad qızı ................................................................. 227
Sultanın üç oğlu .................................................................. 233
Qoca kişi və üç qızı............................................................. 237
Pəri qız................................................................................ 243
Sona bülbül......................................................................... 248
Toxmaq............................................................................... 258
Keçəl ................................................................................... 260
**LƏTİFƏLƏR**
Molla və su qıtlığı ............................................................... 264
Dəlil..................................................................................... 264
Hündür hasar....................................................................... 264
Müttəhim və qazı ................................................................ 264
Üç günü .............................................................................. 265
Eşşək .................................................................................. 265
Eşşəyi itmiş adam .............................................................. 266
Mərdalı ................................................................................ 266
Üzüağ çıxdım...................................................................... 267
Yaxşı fikir............................................................................ 267

Bələdiyyənin əmri ........................................................ 268
Bəhanə ............................................................................ 268
Dar baca, yoğun arvad ................................................... 269
İbrəti danışıq ................................................................. 269
Rahat yat ......................................................................... 269
Zirəng arvad ................................................................... 270
Cin .................................................................................. 271
Qəssab ............................................................................ 271
Qəbiristanlıqda boş yer yoxdur! .................................. 272
Kasıb evi ......................................................................... 272
Zəna deyil, zina ............................................................. 273
Hamı təqsirlər məndə imiş ............................................ 273
İki çuval edəcəkdim ...................................................... 273
Özünüz baxın ................................................................. 274
Mən məgər belə demişdim? .......................................... 274
Vərəsələr üstündə savaşırlar ......................................... 275
Yavan yeyəcək ki ........................................................... 275
Çox yoruldum, bir dənə çay verin ................................ 275
**MƏRASİMLƏR**
Çillə mərasimi ................................................................ 276
Çillə nəğmələri .............................................................. 276
Axır çərşənbə ................................................................. 279
Çərşənbə mərasimi nəğmələri ...................................... 281
Toy mərasimləri ............................................................ 282
Toy nəğmələri ................................................................ 290
Sərbəndin toy mərasimlərində oxunan tiringilər ........... 293
Yas mərasimləri ............................................................. 294
Yas sayası (ağılar) ......................................................... 297
Yağış yağdırma mərasimləri ......................................... 301
Yağışla bağlı sayalar (Çömçə xatun) ............................ 303
**İNANCLAR, SINAMALAR ............................................ 306**
Yağış yağdırma ilə bağlı inanclar ................................. 313
**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Cinlər haqqında ............................................................. 314

Hal anası ........................................................................ 317
Qaranquşun ömrü niyə azdır? ...................................... 318
Qarışqanın beli niyə nazikdir? ..................................... 318
Qatır niyə doğmur? ...................................................... 319
Tısbağa necə yarandı? .................................................. 320
Bədnəzər ........................................................................ 320
**PEYĞƏMBƏRLƏR, DİNİ ŞƏXSİYYƏTLƏR, PİRLƏR VƏ OCAQLAR HAQQINDA**
Allah dünyanı nə vaxt yaradıb? .................................. 321
Qəzənfər dağı və Şah Məhəmməd Hənəfiyyə ocağı...... 321
Təçənənə ........................................................................ 322
Əbəlfəzl ocağı ............................................................... 323
Seyid Əhməd ................................................................ 324
**EL MƏSƏLLƏRİ İLƏ BAĞLI RƏVAYƏTLƏR**
Şeytan Həseyidlini aldada bilməyib ............................. 325
Ağ köynəkli ağ köynəklidir .......................................... 326
Şoru çıxmaq .................................................................. 327
Əsgər əmoğlum əlamət verir ........................................ 327
Həyə, həyə, dayıya da həyə! ......................................... 328
Mən motaldan əl çəkmişəm,motal məndən əl çəkmir! .. 329
**AŞIQ QƏŞƏMLƏ BAĞLI RƏVAYƏTLƏR**
Görək mən kim, sən kimsən? ...................................... 330
Aşıq Qəşəm ilə ərbabın hekayəsi ................................. 331
Bəs mən çalğıçıyam? ................................................... 333
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT ................. 335**
**LÜĞƏT ........................................................................ 338**
**ƏDƏBİYYAT ............................................................. 346**

**Güney Azərbaycan folkloru,**
**IX kitab.**
Bakı, Elm və təhsil, 2020.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığan:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Korrektor:
**Lalə Bədirova**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 352 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.